Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə Təhsil III Cild



Rolf Gollob və Peter Krapf (redaktorları)

# Demokratiya şəraitində yaşamaq

Ümumi orta təhsil üçün "Demokratik vətəndaşlıq və insan hüquqları" üzrə dərs planlar

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# Demokratiya şəraitində yaşamaq

## Ümumi orta təhsil üçün "Demokratik vətəndaşlıq və insan hüquqları" üzrə dərs planları

**Rolf Gollob və Peter Krapf tərəfindən redaktə edilmişdir.**
**Müəlliflər: Rolf Gollob, Ted Huddleston, Peter Krapf, Don Rov, Uim Taelman**

**"Demokratik vətəndaşlıq və insan hüquqları" üzrə təhsil, 6 cildliyin III cildi**
**Məktəb təcrübəsində "Demokratik vətəndaşlıq və insan hüquqları" üzrə təhsil**
**Tədris ardıcıllığı, konseptləri, metod və modelləri**

Avropa Şurası Nəşriyyatı

*Burada ifadə olunan fikirlər müəlliflərə məxsusdur və heç bir şəkildə Avropa Şurası və Avropa İttifaqının rəsmi mövqeyi olaraq qəbul edilə bilməz.*

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi İctimai informasiya və nəşrlər şöbəsinin, Kommunikasiya direktorluğunun (F-67075 Strasburq Cedex və ya publishingcoe.int) yazılı icazəsi olmadan tərcümə, bərpa edilə və hər hansı forma və ya vasitə ilə, elektron (CD-Rom, İnternet və s.) və ya mexaniki, o cümlədən fotosurət, səsyazma və ya hər hansı informasiya saxlama və ya məlumat-axtarış sistemi vasitəsilə ötürülə bilməz.

Bu cildin Sürix Pedaqoji Universitetinin (PHZH) IPE (Təhsil Sahəsində Beynəlxalq Layihələr; www.phzh.ch/ipe) köçürmə mərkəzi tərəfindən istehsal, dizayn və redaktə edilməsinin koordinasiyası.

SDC - İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirmə.

pädagogische hochschule zürich

International Projects in Education
Transferzentrum für internationale Bildungsprojekte

Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Agency for Development and Cooperation SDC

Programmatic Cooperation Framework for
Armenia, Azerbaijan, Georgia, Republic of Moldova, Ukraine and Belarus

Funded by the European Union and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented by the Council of Europe

**Promoting Human Rights Education and Democratic Citizenship in Eastern Partnership Countries**

Bu nəşrin hazırlanması və Azərbaycan dilinə tərcüməsi "Şərq Tərəfdaşlığı Ölkələrində İnsan Hüquqları Tədrisi və Demokratik Vətəndaşlığın Təşviqi"nə dair Avropa İttifaqının maliyyələşdirdiyi birgə layihə çərçivəsində həyata keçirilir.

Mətn Avropa Şurasının Sənədlər və nəşrlər şöbəsi (DPPD) tərəfindən təshih edilmişdir.

İllüstrasiyalar: Peti Wiskemann
Üz qabığı: Qrafik Dizayn Seminarı, Avropa Şurası
Tərtibatı: Ogham/Mourreau

Avropa Şurası Nəşriyyatı
F-67075 Strasburq Cedex
http://book.coe.int

© *Council of Europe, 2008 English publication*
© *Council of Europe, 2017 Azerbaijani translation*

# Mündəricat


Giriş ........................................................................................ 5

Vəsaitin konseptual çərçivəsi: əsas anlayışlar (konsepsiyalar) ........................................ 9

**1-ci hissə. – Şəxsiyyət və cəmiyyət** ........................................................ 17

Bölmə 1 : Stereotiplər və ön mühakimələr ........................................................ 19
Bölmə 2 : Bərabərlik ........................................................................... 39
Bölmə 3 : Müxtəliflik və plüralizm ............................................................... 61
Bölmə 4 : Münaqişə .............................................................................. 85

**2-ci hissə – Məsuliyyət** ....................................................................... 107

Bölmə 5 : Hüquqlar, azadlıqlar və öhdəliklər .................................................. 109
Bölmə 6 : Məsuliyyət ............................................................................ 137

**3-cü hissə – İştirak** .......................................................................... 155

Bölmə 7 : Sinif qəzeti ........................................................................... 157

**4-cü hissə – Güc və səlahiyyət** ................................................................ 171

Bölmə 8 : Qaydalar və qanun ..................................................................... 173
Bölmə 9 : Hökumət və siyasət ..................................................................... 191

# Giriş

## Bu kitab nə təklif edir?

Bu təlimat Avropa Şurasının üzv dövlətlərindəki müəllimlərə, metodistlərə, proqram tərtibatçılarına, vəsaitin redaktorlarına və tərcüməçilərə ünvanlanmışdır. Vəsait onların təhsil sistemləri çərçivəsində müəyyən tələblərə cavab vermək üçün tərcümə edilə və uyğunlaşdırıla bilər.

Bu kitab "Demokratik vətəndaşlıq (DV) və insan hüquqları(İH)" üzrə təhsildə doqquz tədris bölməsini ehtiva edir. Hər biri dörd dərsdən ibarət olan bölmələr ümumi orta təhsil səviyyəsinin son illərində olan şagirdlər (təhsil sistemindən asılı olaraq VIII və ya IX sinif şagirdləri) üçün nəzərdə tutulmuşdur. Hər bir bölmə diqqəti DVT və ya İHT ilə əlaqəli əsas konseptlərə − şəxsiyyət, azadlıq, məsuliyyət, münaqişə, ünsiyyət, plüralizm, qaydalar və qanunlar, bərabərlik və hökumətə yönəldir.

Hər bir dərs üçün təklif edilən tədris mərhələlərinin ardıcıllığı mümkün olduğu qədər ətraflı şəkildə təsvir edilir. Şagird tapşırıqları, paylama materialları hər bir bölməyə əlavə edilib, beləliklə, müəllim vəsaitdən xeyli dəstək alır. Bununla belə, bu kitab şagirdlərə yox, müəllimlərə ünvanlanır. Müəllim hazırlığındakı təcrübəmiz göstərir ki, müəllimlik peşəsində təlim alanlar və yeni başlayanlar ətraflı dərs icmallarına ehtiyac duyurlar, lakin təcrübəli müəllimlər də özləri üçün bəzi maraqlı ideya və materiallar tapacaqlar. Metodistlər bu kitabı həmçinin DVT və İHT müəllimlərinin hazırlanmasında vəsait kimi istifadə edə bilər.

Bu, vəsaitin yenidən işlənmiş versiyasıdır. 2002-ci ildə təqdim edilən ilk buraxılış yeni məktəb fənni demokratiya və insan hüquqlarını dəstəkləmək üçün Bosniya və Herseqovinada hazırlanmışdır. 1996-cı ildən bəri Avropa Şurası müharibədən sonra sülh şəraitinin yaradılmasını dəstəkləmək üçün müəllimlərin və DVT və İHT metodistlərinin hazırlanmasında iştirak etmişdir. İlk buraxılışın redaktorları və müəllifləri bu layihədə iştirak edən beynəlxalq təlimçilər komandasının üzvləri idilər. Biz təhsil sistemində müəllimlərin və metodistlərin hazırlanmasını təmin etmiş və həm müəllim təlimində, həm də sinifdə istifadə üçün bu vəsaitin ilk layihəsi daxil olmaqla materiallar tərtib etmişik.[1]

## DVT/İHT yanaşması nədir?

DVT-nin əsas prinsipləri ən yaxşı şəkildə nümunə ilə təsvir edilə bilər. Fikir və ifadə azadlığı[2] demokratik iştirakın əsas hüququdur. DVT/İHT-də şagirdlər fikir və ifadə azadlığı hüququnu tanımalı, anlamalı və qiymətləndirməli, bunun milli konstitusiya ilə necə qorunduğunu bilməlidirlər (bilik və qavramanın öyrənilmə meyarı). Bu hüququn aktiv istifadəsi demoktratik cəmiyyətdə iştirak üçün zəruri olduğundan şagirdlər hətta ictimaiyyətdə necə mübahisə etməli olduqlarını öyrənməli və təcrübədə tətbiq etməlidir (bacarıqların inkişaf etdirilməsinin və şəriştəliliyin formalaşdırılmasının öyrənilməsi). Son olaraq, ifadə və fikir azadlığı açıq, plüralist cəmiyyətin əsasında dayanır. Maraqların və fikirlərin toqquşması və rəqabətliliyi istisna deyil, normadır. Münaqişələr yaranacaq, amma onlar qeyri-zorakı yollarla, yəni danışıq yolu ilə həll edilməlidir (mübahisə etmək, sövdələşmək, danışıqlar aparmaq: həm ictimaiyyət qarşısında, həm də bağlı qapılar arxasında). Səmimi plüralist cəmiyyət məcburi qaydalar toplusu və bu qaydaların həyata keçirilməsini təmin edən güclü institutlara və daha çox vətəndaşlar arasında paylaşılmış dəyərlər toplusuna əsaslanır. Bu dəyərlərə dözümlülük, qarşılıqlı hörmət, ədalətli güzəşt, qeyri-zorakılıq və problemlərlə bağlı qərarların verilmədiyi təqdirdə açıq narazılıq və mübahisə məsələlərini həll etmək bacarığı daxildir. Əgər siyasi qərar qəbul etmə güclü asayiş və demokratik dəyərlərin konsensusu ilə dəstəklənir və formalaşdırılırsa, cəmiyyət konkret məsələ ilə bağlı böyük narazılığı həll edə bilər. Belə halda ifadə azadlığı səmərəli hökumət üçün təhlükə deyildir, əksinə onu problem və münaqişələrin ədalətli və səmərəli həll yollarının tapılması vasitələri ilə dəstəkləyir.

Demokratiya mədəni əhəmiyyətə malikdir və siyasi nəzəriyyədə bu, hər bir vətəndaş tərəfindən yazılmamış ictimai müqavilə kimi qəbul edilir. Hər bir yeni nəsil bu yazılmamış sosial müqaviləni anlamalı və dəstəkləməlidir.

1. Bu layihə ilə bağlı daha ətraflı məlumat üçün, bu seriyanın I cildinə baxın.
2. Baxın: ÜİHB, 10 dekabr, 1948, maddə 19; AİHK, 4 noyabr, 1950, maddə 10

Bu nümunə göstərir ki, DVT/İHT üç ölçüdə tədris prosesinə inteqrasiya olunan bütöv yanaşmanı izləyir:

– bilik və anlama (koqnitiv ölçü);

– bacarıqların təlimi və səriştəliliyin formalaşdırılması;

– dəyərlərin və münasibətlərin formalaşdırılması.

Bu öyrənmə modelləri, ümumiyyətlə, təhsildə tətbiq edilir və buna görə də əksər oxucu üçün tanış olacaq. Hər bir müəllim, xüsusilə yuxarı siniflərdə koqnitiv öyrənməyə qarşı olan qərəzli münasibəti bilir. DVT/İHT öyrənmənin bu xolistik modelinin təmsil etdiyi çağırışa necə cavab verir? Başqa sözlə desək, əgər şagirdlər bunu öyrənməlidirlərsə, müəllimlər nə etməlidir?

# DVT/İHT-nin əsas prinsipləri hansılardır?

Ümumiyyətlə, DVT və İHT sinifdə öyrənmə və real həyat təcrübəsindən öyrənməni ehtiva edən təlim mühiti yaradaraq bu öyrənmə meyarlarını birləşdirir. DVT və İHT üç didaktik yanaşmanın məcmusuna əsaslanır:

– demokratiya və insan hüquqları «haqqında» öyrənmək;

– demokratiya və insan hüquqları «vasitəsilə» öyrənmək;

– demokratiya və insan hüquqları «üçün» öyrənmək.

DVT/İHT-nin bu üç didaktik yanaşması birlik təşkil edir. Müəllimlərin gördükləri hər bir işdə bu üç didaktik yanaşma iştirak edir. Məqsəddən asılı olaraq müəllim bu yanaşmalardan birinə digərlərindən fərqli münasibət göstərə bilər. Hər bir yanaşmaya bir qədər ətraflı nəzər salacağıq.

## «Haqqında» öyrənmək yanaşması

Bu yanaşma vətəndaş təhsilini adi məktəb fənni kimi nəzərdə tutur. «Haqqında» öyrənmək yanaşması öyrənmənin koqnitiv ölçüsünə aiddir. Koqnitiv DVT/İHT proqramının standartlarına aşağıdakılar daxildir: şagirdlər dövlətin digər formalarının (diktatura, oliqarxiya) əksinə olaraq, demokratiyanın necə fəaliyyət göstərdiyini izah edir; şagirdlər insan hüquqları ənənəsini və onun tarixini təsvir edir və bəzi insan hüquqlarının milli konstitusiyaya daxil edilməsinin onlara daha güclü qorunan mülki hüquqlar verməsini şərh edə bilirlər. Buna görə də proqrama DVT/İHT sahəsinin mövzuları ilə sıx bağlı olan tarix, sosial araşdırmalar və iqtisadiyyat kimi fənlər daxil olmalıdır.

## «Vasitəsilə» öyrənmək yanaşması

Şagirdlər yalnız iştirakla bağlı hüquqlarını bilməli deyil, həmçinin onları istifadə edə bilməlidirlər. Buna görə də şagirdlərə məktəb həyatı çərçivəsində mümkün və faydalı ola biləcəyi hallarda qərarların qəbul edilməsi prosesində iştirakı vasitəsilə praktiki təcrübə və təlim imkanları yaradılmalıdır. Məsələn, müəllimlər şagirdlərinə həm sinifdəki mövzularla bağlı, həm də tədris və məktəb fəaliyyəti ilə bağlı məsələlər haqqında öz fikirlərini bildirmək imkanını verməlidirlər. Bu halda DVT və İHT daha çox pedaqoji yanaşmanı təmin edir və yalnız təlim almış DVT/İHT müəllimlərini deyil, bütün məktəbi əhatə edir. Dözümlülük və məsuliyyət kimi dəyərlər təcrübə vasitəsilə mənimsənilir və nümunəvi təsirli rollu modellərlə təminat bütün fənn müəllimlərindən asılıdır. Digər tərəfdən demokratik dəyərlər davranışın qeyri-verbal forması kimi yetərli deyil. Təcrübə məktəb həyatında kateroriyalarla uyğunlaşmalı və sistematik formalarında əks olunmalı, onlarla bağlı olmalıdır («haqqında» öyrənmək).

## «Üçün» öyrənmək yanaşması

Bu didaktik yanaşma məktəb və sonrakı həyat arasındakı əlaqələrə istinad edir. DVT/İHT məktəb həyatında təcrübənin ümumi və siyasi sosiallaşma çərçivəsində əhəmiyyət daşıması fikrini bölüşür. Doğrudur ki, məktəb həyatı daxil olmaqla təhsil xüsusi ehtiyaclar və qaydalarla idarə edilən alt sistemdir və bu alt sistemin təcrübələri birbaşa gələcək həyata ötürülə bilmir. Lakin digər tərəfdən məktəb həyatı real həyatın mühüm hissəsidir. Şagirdlərin məktəbdə üzləşdikləri əksər vəziyyətlər yetişkən həyatda təkrarlanacaq, məsələn, gender bərabərliyi, müxtəlif etnik mənsubiyyəti və ya sosial təbəqələrdən olan icma üzvlərinin inteqrasiyası, zorakılıqla mübarizə, öhdəliklərin götürülməsi, səlahiyyətin qeyri-bərabər

şəkildə paylanması və əsas resursların çatışmazlığı (pul və vaxt kimi) ilə üzləşmə, qaydalara və qanunlara əməl etmək və güzəştə getmək məsələləri. «Üçün» öyrənmək yanaşması sonrakı həyat üçün təhsilin əhəmiyyətinə əsaslanır. Fəal iştirak bacarıqlarını, məsələn, bir kəsin öz fikrini ictimaiyyət qarşısında qısa və aydın şəkildə ifadə etmək bacarığını şagirdlərə öyrətmək bütün fənn müəllimlərinin vəzifəsidir.

DVT məktəbi şagirdlərin real həyat təcrübəsindən öyrənə biləcəkləri məkan kimi qəbul edir. Məktəb sonrakı həyat üçün təcrid edilmiş akademik tədris müəssisəsindən daha çox həyatdır. Məktəb bütünlükdə cəmiyyətin modeli kimi xidmət göstərən mikrocəmiyyətdir.[3] Müəyyən dərəcədə məktəb hətta daha yaxşı və ya daha demokratik cəmiyyətin modeli ola bilər, çünki məktəb icmasının üzvləri məktəb mühitində ondan kənarda olduğundan daha çox qərar qəbuletmədə iştirak edə bilər. Demokratiya və insan hüquqları «üçün» öyrənmək ictimaiyyətdə necə iştirak etməyi öyrənmək, demokratiya və insan hüquqları «vasitəsilə» öyrənmək isə ictimaiyyətin insan və uşaq hüquqlarının pedaqoji qaydalar kimi nəzərdən keçirildiyi demokratik prinsiplərlə idarə olunması deməkdir. Demokratiya şagirdlərin məktəbdə təcrübə vasitəsilə öyrənməli və bu təcrübə ilə bağlı düşünməli («haqqında» öyrənmək) olduqları siyasi mədəniyyətə əsaslanır.

DVT/İHT bütün müəllimlər, məktəb rəhbərliyi də daxil olmaqla bütün məktəbə ünvanlanmış təhsil islahatı üçün əhəmiyyət daşıyır. Digər tərəfdən də bu vəsaitin əsas məqsədi məktəbdə tədris olunan fənn kimi, demokratik vətəndaşlıq və insan hüquqlarının tədrisi üçün təhsildir. İslahat çoxsaylı kiçik mərhələlər və proseslərdən ibarətdir, nəticə ölkəyə və kontekstə əsasən fərqlənəcək. İlk addımlar müəllimlərin nəyi dəyişmək istədiyinə qərar verəcəkləri sinifdə atılacaq. Bu nöqteyi-nəzərdən metod və məzmun məsələsi vacibdir.

## DVT/İHT-də məzmun metodla necə əlaqəlidir?

Ümumiyyətlə, öyrənmə − öyrənən tərəfindən həyata keçirilən fəaliyyətdir. Öyrənmə − bir şagirddən digərinə görə fərqlənən aktiv prosesdir (öyrənmənin konstruktivizm anlayışıdır). Yuxarıda verilmiş nümunəni davam etdirmək üçün şagirdlər ifadə azadlığından necə yararlana biləcəklərini yalnız tez-tez keçirilən təcrübə − «qazan və ya itir» vasitəsilə öyrənə bilərlər. Müəllimlər, yalnız DVT/İHT müəllimləri yox, həmçinin digər fənlər üzrə müəllimlər şagirdlərini bu prosesi davam etdirən təlim imkanları və tapşırıqlarla, məsələn, təqdimatlar, müzakirələr, debatlar, esselər, plakatlar, incəsənət əsərləri və ya video kliplərlə təmin etmək öhdəliyi daşıyır.

Buna görə də DVT/İHT tapşırıqəsaslı, interaktiv və birgə öyrənməni dəstəkləyən metodları vurğulayır. Müəyyən tapşırıqla bağlı problemləri müəyyən etməklə və həll yollarını özləri tapmaqla şagirdlər frontal tədris üsulu ilə müqayisədə daha çox şey öyrənirlər və onların fərdi öyrənmə ehtiyaclarını nəzərə almaq daha asan olur. Bu kitabdakı bölmələr tapşırıqəsaslı öyrənmənin layihələr, tənqidi təfəkkür, debatlar və müzakirə, düşünmə və əks-əlaqə də daxil olmaqla, müəyyən mövzu və fənn məzmunu ilə necə bağlı ola biləcəyini göstərir. Digər tərəfdən frontal tədrisin interaktiv tədrisə qarşı olması yanlış fikirdir. Yaxşı təlim hər zaman hər iki formanın kombinasiyası olacaq, bu vəsaitdəki dərs icmalları bunu göstərir.

| **DVT/İHT-nin əsas məqsədi: Demokratiyada iştirak** | | | |
|---|---|---|---|
| **Öyrənmə** | **Təlim** | **Metodlar** | **Məktəb** |
| Bilik və anlama<br>Bacarıqlar<br>Münasibətlər və və dəyərlər | hüquqları | «haqqında»<br>«vasitəsilə»<br>«üçün»<br>təlim<br>müəllim tərəfindən təmin edilən təlimat<br>qayda təlim nümayiş ilə birlikdə | Məktəb mikro-cəmiyyət kimi<br>Məktəbdə real<br>həyat təcrübəsi |

3. Bu anlayış Dewey (məktəb «embrional cəmiyyət» kimi) və von Henting («məktəb polis kimi») kimi mütəfəkkirlər tərəfindən təklif edilib.

Tapşırıqəsaslı öyrənmənin sinifdə vaxtın qənaət olunmasına təsiri var. Ümumiyyətlə, əgər müəllimlər şagirdlərinin daha çox fəaliyyətdə olmalarını istəyirlərsə, onlar sinifdə daha az danışmalı və daha az vaxt itirməlidirlər. Eyni zamanda onlar öz şagirdlərinin təlim ehtiyaclarını çevik qarşılamalıdır. Tapşırıqəsaslı və interaktiv öyrənmə diqqətli planlaşdırma və hazırlıq tələb edir, adətən, mühazirə tipli təlimdən daha az vaxt sərf edir. Çox güman ki, sonuncu buna görə üstünlük təşkil edir, lakin indi interaktiv təlimə keçmənin zəruri olması geniş şəkildə qəbul edilir.

Buna görə də vəsaitin şagirdlər üçün deyil, müəllimlər üçün nəşr edilməsi paradoksal görünür. Lakin interaktiv təlim və tapşırıqəsaslı öyrənmə müəllimlərdən geniş rollar ifa etmələrini və şagirdlərinin öyrənmə ehtiyaclarına cəld cavab verməlırini tələb etməklə onların qarşısına daha çətin öhdəliklər qoyduğu üçün bu vəsait əsas məsul şəxs kimi müəllimləri dəstəkləməyi nəzərdə tutur. Müəllimlər şagirdləri daha fəal etmək üçün imkanlar, tapşırıqlar və informasiya texnologiyaları ilə təmin etməlidirlər.

## DVT/İHT-nin əsas məqsədi nədir?

Demokratik sistemlər fəal demokratlardan asılıdır. Demokratiyada iştirak öyrədilə bilər və öyrədilməlidir. Müzakirə edilən institusional çərçivənin və problemlərin mürəkkəbliyi minimum səviyyədə bilik və anlama tələb edir. İctimai müzakirədə, yəni ideyaların və mütəşəkkil maraqların bölüşməsində iştirak ictimaiyyət qarşısında çıxış etmək və danışıqlar aparmaq kimi bacarıqlar tələb edir. Demokratik toplumların siyasi mədəniyyətinin təməlində duran yazılmamış qanunların anlaşılması və qəbul edilməsi gənc şəxsin əməl etməli olduğu dəyər və münasibətlərdən asılıdır. DVT/İHT-nin əsas məqsədi gənc nəslin fəal vətəndaşlar olmasını dəstəkləməklə demokratiyanı qüvvədə saxlamaqdır. Demokratiya konstitusiya ilə qorunan institusional çərçivə olmadan fəaliyyət göstərə bilməz. Lakin bu, kifayət deyil. O, cəmiyyətdə kök salmalıdır. Məhz bu, demokratiyanın DVT/İHT-nin gücləndirməyə və dəstəkləməyə çalışdığı mədəni ölçüsüdür. Məhz buna görə Avropa Şurası diqqəti Bosniya və Herseqovinada sülh prosesini dəstəkləmək üçün DVT/İHT sahəsində müəllim təlimlərinə yönəltmişdir.

Bu vəsait VIII və ya IX sinif şagirdlərinin müəllimlərinə ünvanlanmışdır. Öyrənmə daha çox öyrənənin mövcud bilik səviyyəsindən və onun həyatda hansı təcrübəyə sahib olmasından asılıdır. Buna görə də bu vəsaitdəki bölmələr demokratiyanın mədəni meyarlarını vurğulayır, orta təhsil səviyyəsi üçün vəsait (DVT/İHT, IV cild) isə diqqəti ictimaiyyətdə və siyasi qərar qəbuletmə proseslərində demokratiyanın siyasi və institusional meyarlarına yönəldir.[4]

## DVT/İHT-yə «Avropa yanaşması»

Bu vəsait müxtəlif mənbələrdən gələn töhfələrdən faydalanmaqla DVT/İHT-yə ümumavropa yanaşmasını əks etdirir. Bu vəsaitin hazırlanması ideyasını və ilk versiyasını biz Bosniya və Herseqovinada tərtib etmişik və bir çox pedaqoji işçilər həm redaktə, həm də müzakirə prosesində iştirak edib. Bu vəsaitin müəllifləri və redaktorları Birləşmiş Krallıqda, Belçikada, İsveçrədə və Almaniyada mövcud olan təlim yanaşmalarının və ənənələrinin daşıyıcılarıdır. Yenidən işlənmiş versiyanı hazırlayarkən Avropa Şurasında xanım Olöf Olafsdottir, xanım Sara Kiting-Çetvind, xanım Sabrina Marrunçeddu və doktor Uiltrud Uieidinger (Təhsil Sahəsində Beynəlxalq Layihələr (IPE), Sürix) bizi dəstəkləmişdir. Avropa Şurasında xanım Anjela Doul son versiyamızı oxumuşdur. Cənab Peti Uiskemannın illüstrasiyaları mətnə sözlə ifadəsi mümkün olmayan məna əlavə edir. Göstərdikləri xidmətlərinə və dəstəklərinə görə müəlliflərə, illüstratorlara, redaktorlara və korrektorlara təşəkkürümüzü bildirmək istəyirik. Xüsusilə DVT/İHT layihələri boyunca bizə qayğı göstərən Sarayevoda Avropa Şurasının koordinatoru, cənab Əmir Adzoviçə minnətdarıq. Layihənin lap əvvəlindən onun iştirakı olmasaydı, bu vəsait heç vaxt yazılmazdı. Həmçinin səyahətlərimizin təşkilində, vizaların əldə edilməsində və ya görüşlərin təşkil edilməsində nümayiş etdirdiyi dözümə görə xanım Hizer Kuranta minnətdarlığımızı bildiririk. Bu həqiqi Avropa layihəsindəki bütün tərəfdaşlarımıza minnətdarıq.

Strasburq, aprel 2008-ci il

Rolf Gollob (Sürix, İsveçrə) Peter Krapf (Vayqarten, Almaniya)

4. Şagirdlərin mövcud bilik və təcrübə səviyyəsini nəzərə almaqla DVT/İHT istənilən yaş qrupundakı insanlara öyrədilə bilər. «Uşaqların hüquqları üzrə vəsait» (DVT/İHT, V Cild) uşaq bağçasından 8-ci sinfə qədər didaktik yanaşmaları göstərir.

# Vəsaitin konseptual çərçivəsi: əsas anlayışlar (konsepsiyalar)

## DVT/İHT-də əsas konsepsiyalar − fəal vətəndaş üçün alətlər

Konsepsiyalara diqqət çəkməklə bu vəsait təhsilin vətəndaşlıq və digər sahələrinə klassik didaktik yanaşmaya uyğundur. Konsepsiyalar nəzəriyyədən götürülmüşdür, lakin təlim və öyrənmədə onlar sistemli nəzəri baza yaratmır. Daha doğrusu, onlar seçilir, çünki onlar şagird üçün faydalı alətlərdir.

Konsepsiyalar şagirdlərə yeni məlumatları mənalı inteqrasiya etməyə və onu daha asanlıqla yadda saxlamağa imkan verən koqnitiv strukturlar təmin edir (konstruktivist öyrənmə). Bu, xüsusilə şagirdlərin əks halda əzbər öyrənməli olduqları fakt və göstəricilərə tətbiq edilir. Konsepsiyalar həmçinin qəzet oxuyarkən və ya xəbərləri dinləyərkən kömək edir, çünki məsələ demokratiya, güc, münaqişə və ya məsuliyyət kimi konsepsiyalarla əlaqələndirilən zaman daha əhəmiyyətli olur. Buna görə də konsepsiyalar məlumatlı vətəndaşın təlimində əhəmiyyətlidir. Lakin onlar yalnız koqnitiv öyrənməni formalaşdırmır; onlar həmçinin dəyərlər və bacarıqların inkişafına təsir edir. Belə əlaqələndirmə bu vəsaitin bütün bölmələrində əks olunub və daha sonra ətraflı göstəriləcəkdir.

DVT/İHT-də əsas konsepsiyalarını rəhbər tutaraq sual verməyi öyrənən şagirdlər gələcəkdə yeni məlumatlar və problemlər ilə işləmək üçün daha yaxşı təlimatlanacaqlar (ömürboyu öyrənmə). Konsepsiyaəsaslı öyrənmə şagirdləri həmçinin konsepsiyaların mənbəyi olan nəzəriyyələri öyrənə biləcəkləri akademik səviyyədə daha təkmil araşdırmalar üçün hazırlayır.

## Şagirdlər əsas anlayışları necə anlayır və istifadə edir?

Təfəkkür və öyrənmə konkret və mücərrəd anlayışı birləşdirməklə inkişaf etdirilir. Konsepsiyalar təhlilin və mühakimənin mücərrəd, ümumiləşdirilmiş məhsullarıdır. Şagirdlər iki yanaşmadan − deduktiv və ya induktiv yanaşmadan istifadə etməklə konsepsiyaları dərk edə bilərlər. Deduktiv yanaşma mühazirə və ya mətnlə təqdim edilmiş konsepsiya ilə başlayır və daha sonra onu konkret bir şeyə, məsələn, problem və ya təcrübəyə tətbiq edir. İnduktiv yanaşma isə konkret faktla başlayır və mücərrədliyə aparır. Oxucu bu vəsaitdəki bölmələrin ümumilikdə induktiv yolu izlədiyini görəcək.

Buna görə də bu vəsaitdəki əsas konsepsiyalar konkret nümunələrdən − adətən, hekayələr və ya hadisə (keys) hesabatlarından tərtib edilmişdir. Şagirdlər nümunənin, ümumiyyətlə, nə məna daşıdığını müzakirə edərkən, onlardan bu ümumiləşdirilmiş anlayışları yekunlaşdıra biləcək konsepsiya soruşulur. Müəllim konsepsiyanın nə vaxt və necə təqdim edilməsinə qərar verir.

Konsepsiyalar şagirdlərin yeni mövzulara tətbiq edə biləcəkləri qavrama vasitələridir. Konsepsiya nə qədər çox istifadə edilərsə, onlar onu bir o qədər yaxşı anlayacaq və əlaqələr və çarpaz əlaqələr (koqnitiv strukturlar) daha sıx (yaxın/ başa düşülən/tanış) olacaq. Ayrıca faktları əzbər öyrənmək əvəzinə, şagirdlər yeni məlumatları artıq sahib olduqları konsepsiya çərçivəsi ilə əlaqələndirə bilər.

## Bu vəsait necə uyğunlaşdırıla bilər?

Bölmələr konkretdən mücərrədə doğru hərəkət etməklə öyrənmənin iki mühüm mərhələsindən ilkini təsvir edir. Alətlər verilir və onlardan necə istifadə edilməsi müəllimlərin və şagirdlərin öhdəsinə buraxılır. Bu, mücərrəddən konkretə doğru ikinci mərhələdir. Yalnız şagirdlərin ehtiyacları və maraqları deyil, problemlər və materiallar, institusional çərçivə və təhsil ənənələri də həmçinin ölkədən ölkəyə fərqlənir. Bu, vəsaitin uyğunlaşdırılmasının başlanğıc nöqtəsidir.

Vəsaitdəki bölmələr siyasi savadlılığa, bacarıqlar və münasibətlərin inkişafına kömək edən alətlər təklif edir. Onlar hər hansı konkret ölkədə, konkret vaxtda baş vermiş məsələlərə istinad etmir, lakin oxucu tez-tez ölkələrindəki kontekstə bağlı olan materialları toplamaq üçün müəllimlər və ya şagirdlər üçün təkliflər verəcək. Redaktorlar və tərcüməçilər, r, həmçinin müəllimlər qəsdən təklif olunmuş bu yanaşmanı

anlamaldır. Hər bir ölkə öz mədəni ənənələrində və sosial inkişafında kök salmış demokratiya ənənəsini yaratdığı kimi, hər bir ölkə həmçinin təhsil və məktəb sisteminə, siyasi sisteminin institusional çərçivəsinə, siyasi məsələlərə və qərar qəbuletmə proseslərinə istinadlar edərək özünə məxsus DVT/İHT-nin versiyasını yaratmalıdır.

## Bu vəsaitə hansı əsas konsepsiyalar daxildir?

Konsentrik dairələr şəklində hazırlanmış aşağıdakı konsepsiya xəritəsi hansı əsas konsepsiyaların bu vəsaitdəki bölmələrə daxil edildiyini göstərir.

Demokratiya bu konsepsiyanın DVT/İHT-nin hər bir kontekstində mövcud olmasını göstərmək üçün xəritənin mərkəzindədir. Fəal vətəndaşların demokratik cəmiyyətdə iştirakı DVT/İHT-nin əsas vəzifəsidir və bu, konsepsiyanın mərkəzi mövqeyi ilə əks etdirilir.

Növbəti dairədə demokratiyanın üç əsas elementinə müraciət edilir: hüquqlar, məsuliyyət və ədalət. Onlar demokratiyanın uğur qazanması üçün zəruri olan qarşılıqlı asılı olan və vacib üç şərtə aiddir.

Vətəndaşlara onların qərar qəbuletmə proseslərində iştirakına imkan verən əsas insan hüquqlarından − məsələn, səs vermək hüququ, söz azadlığı, mətbuat azadlığı, qanun qarşısında bərabərlik, majoritar qayda hüququ istifadəsinə icazə verilməli və onlar bu hüquqlarından fəal şəkildə istifadə etməlidirlər. Demokratiya rəqabətə davamlıdır − maraqlar, ideyalar və dəyərlər arasında rəqabət mövcuddur və dəyərli əmtəələr çatmır. Lakin xüsusilə bazar iqtisadiyyatlarında qərar qəbuletmə prosesinə təsir etmək imkanları qeyri-bərabər şəkildə bölüşdürülüb və cəmiyyətdə rifah və imkanların qeyri-bərabər bölgüsü mövcuddur. İqtisadi və sosial bölgünün nə dərəcədə aradan qaldırılması siyasi məsələdir (sosial ədalət). Vətəndaşlar maraqlarını qorumaq üçün öz hüquqlarından istifadə edə bilər və istifadə etməlidir, lakin cəmiyyətin üzvləri bir-birinin və ya ümumi maraqlarının qayğısına qalmaq istəmirsə, varlığını qoruya bilməz (məsuliyyət). Bu qısa təqdimat/giriş konsepsiyaların təkbaşına mövcudluğunun mümkün olmadığını, balanslaşdırılmış gərginliklər ilə bir-biri ilə əlaqəli olduğunu göstərir.




Xarici dairədə yerləşən digər konsepsiyalar müxtəlif şəkildə bu əsas konsepsiyalarla bağlıdır.

Kənara yönəlmiş oxlar göstərir ki, bütün bu konsepsiyalar müxtəlif növ problemlərin − əxlaqi, sosial, iqtisadi, hüquqi, siyasi və ya ekoloji problemlərin həllində istifadə edilə bilər.

## DVT/İHT-də əsas konsepsiyalar və öyrənmə ölçüləri/istiqamətləri

Əsas konsepsiyalar həm bölmələrin mövzusu, həm də artıq girişdə qeyd etdiyimiz DVT/İHT-də mövcud olan üç öyrənmə meyarı ilə bağlıdır. Aşağıdakı cədvəl demokratiya və insan hüquqları «haqqında», «vasitəsilə» və «üçün» təliminə hansı bölmələrin töhfə verməsini göstərir. Cədvəl həmçinin bölmələrin necə və nə üçün DVT/İHT-nin əsas aspektlərinə istinad edən dörd başlıq altında qruplaşdırıldığını göstərir:

1. Şəxsiyyət və ictimaiyyət/icma;
2. Məsuliyyətin dərki;

3. İştirak;
4. Güc və səlahiyyət.

Bu dörd başlıq altında təşkil edilmiş bölmələr kursu/vəsaiti formalaşdırır. I hissə fərdlə başlayır və daha sonra diqqəti cəmiyyətə/icmaya – sosial əlaqə, stereotiplər, müxtəliflik və plüralizm, plüralizm və münaqişəyə yönəldir. II hissə ictimaiyyətdə/cəmiyyətdə/icmada kimin məsuliyyəti öhdəsinə götürməsi məsələsini araşdırır. III hissə, V bölmə ("Qəzet istehsalı") müstəqildir, çünki bu bölmə cəmiyyətdə – bizim halda məktəbdə qəti addımlar atmaq, tədbirlər görməklə bağlıdır. Son olaraq, IV hissə qanun, qanunvericilik və siyasətlə bağlıdır - həm ümumi səviyyədə, həm də məktəb parlamenti kontekstində.

| **Bölmə** | **Başlıq** | **DVT/İHT-də əsas konsepsiya** | **Demoktratiya və insan hüquqları «haqqında» - «vasitəsilə» - «üçün» təlimi** | | |
|---|---|---|---|---|---|
| | | | *«haqqında»* | *«vasitəsilə»* | *«üçün»* |
| **1-ci hissə: Şəxsiyyət və ictimaiyyət/cəmiyyət/icma** | | | | | |
| 1 | Stereotiplər və ön mühakimələr. Şəxsiyyət nədir? Başqalarını necə qəbul edirəm, onlar məni necə görür? | Şəxsiyyət<br>Şəxsiyyət və ictimaiyyət | Qarşılıqlı qavrama<br>Stereotiplər<br>Qərəzli münasibət<br>Şəxsiyyət və qrup identikliyi | Perspektivlərin dəyişdirilməsi | Stereotiplərin və qərəzli münasibətlərin tanınması və tədqiq edilməsi |
| 2 | Bərabərlik:<br>Məndən daha çox bərabərsinizmi? | Bərabərlik<br>Ayrı-seçkilik<br>Sosial ədalət | Cəmiyyətdə ayrı-seçkilik<br>Bərabərlik əsas insan hüququ kimi | Fərqlilik və bənzərliliyin qiymətləndirilməsi<br>Ayrı-seçkilik qurbanlarının baxışlarının/ perspektivlərinin dəyişməsi | Ayrı-seçkiliyin mürəkkəb vəziyyətləri<br>Əxlaqi mühakimələr |
| 3 | Müxtəliflik və plüralizm. İnsanlar sülh şəraitində birlikdə necə yaşaya bilər? | Müxtəliflik<br>Plüralizm<br>Demokratiya | Plüralizm və onun məhdudiyyətləri<br>Bərabər hüquqlar və təhsil. Həssas insanların və ya qrupların insan hüquqları müqavilələri ilə qorunması | Dözümlülük<br>İnsanlardan daha çox problemlərə diqqət yetirin | Demokratik müzakirə<br>Tədqiqat müzakirəsi<br>Danışıqlar |
| 4 | Münaqişə. Razılığa gələ bilmiriksə, nə etməliyik? | Münaqişə<br>Sülh | Qalibiyyət vəziyyəti<br>İstəklər, tələblər, güzəşt | Qeyri-zorakılıq | Münaqişə həlli üzrə altı mərhələli model |
| **2-ci hissə: Məsuliyyət götürmək** | | | | | |
| 5 | Hüquqlar, azadlıqlar və öhdəliklər.<br>Hüquqlarımız nədən ibarətdir və onlar necə qorunur? | Hüquqlar<br>Azadlıqlar<br>Məsuliyyət | Əsas ehtiyaclar<br>Arzular<br>İnsan ləyaqəti<br>Öhdəliklər və insan hüquqlarının qorunması | Şəxsi məsuliyyəti dərketmə | İnsan hüquqlarının pozulmasının müəyyənləşdirilməsi |

| Bölmə | Başlıq | DVT/İHT-də əsas konsepsiya | Demoktratiya və insan hüquqları «haqqında» - «vasitəsilə» - «üçün» təlimi | | |
|---|---|---|---|---|---|
| | | | *«haqqında»* | *«vasitəsilə»* | *«üçün»* |
| 6 | Məsuliyyət. İnsanların hansı öhdəlikləri var? | Məsuliyyət | Hüquqi, sosial, mənəvi öhdəliklər<br>QHT-lərin vətəndaş cəmiyyətində rolu | Əxlaqi mühakimələr<br>Dilemmaların həll edilməsi (öhdəliklərin toqquşması) | Şəxsi məsuliyyətin götürülməsi |
| **3-ci hissə: İştirak** | | | | | |
| 7 | Sinif qəzeti. Medianın yaradılması ilə medianın dərk edilməsi | Demokratiya<br>İctimai rəy | Çap mediasının növləri<br>Xəbərlər bölmələrinin məqsədi | Məlumat<br>və ifadə azadlığı. Planlaşdırma.<br>Birgə qərar qəbul etmə. | Layihə üçün şəxsi məsuliyyətin alınması |
| **4-cü hissə: Güc və səlahiyyət** | | | | | |
| 8 | Qaydalar və qanun.<br>Cəmiyyətin hansı növ qaydalara ehtiyacı var? | Qaydalar və qanun<br>Qanunun aliliyi | Mülki hüquq, cinayət hüququnun məqsədi. Gənc insanlar üçün Qanunlar<br>Yaxşı qanun üçün meyarlar | Ədalətli qanunların müəyyənləşdirmək | Qanuna hörmət etmək |
| 9 | Hökumət və siyasət.<br>Cəmiyyət necə idarə edilməlidir? | Güc və səlahiyyət<br>Demokratiya Siyasət | Hökumətin formaları (demokratiya, monarxiya, diktatura, teokratiya, anarxiya).<br>Hökumətin öhdəlikləri. | Fikir və ifadə azadlığı.<br>Tənqidi təfəkkür | Müzakirə |

Bölmələrin əsas aspektlər çərçivəsində qruplaşdırılması müəllimlərə dərs planlaşdırılmasında daha çox uyğunlaşma imkanı verir. Şagirdlərin bir bölmədə qaldırdıqları suallar, adətən, sonrakı bölmədə perspektivin dəyişməsini sürətləndirir, bu da müəllimin şagirdlərinin ehtiyaclarına daha yaxşı cavab verməsinə imkan yaradır.

Yuxarıda təsvir edildiyi kimi, bu vəsaitdəki bütün bölmələr induktiv yanaşmaya əsalanır. Cədvəl bölmələr çərçivəsindəki (demokratiya və insan hüquqları haqqında öyrənmə) bu əsas konsepsiyalar ilə əlaqələndirilmiş kateqoriyaları göstərir. DVT/İHT-nin ikinci öyrənmə istiqaməti olan demokratik münasibətlərin və dəyərlərin inkişafına birbaşa II hissədə − "Məsuliyyətin dərki"ndə müraciət edilir. Lakin hər bir bölmədə «Demokratiya və insan hüquqları vasitəsilə təlim» sütununun göstərdiyi kimi, meyarlar mövcuddur. DVT/İHT-nin üçüncü öyrənmə istiqaməti olan cəmiyyətdə iştiraketmənin öyrənilməsinə (demokratiya və insan hüquqları üçün öyrənmə) hər bir bölmədə, xüsusilə V bölmədə müraciət edilir.

Dərs planlarına konseptual öyrənmə ilə bağlı xanalar daxildir. Burada yalnız əsas konsepsiyalar izah edilmir, həmçinin dərsin kontekstində mühüm olan digər fikirlər də təqdim edilir.

# Konsepsiyalar pazlı - konstruktivist öyrənmə modeli




Konsepsiya pazlı bütün vəsaitdə leytmotiv kimi öz əksini tapır. Bu, hər bir bölmənin titul səhifəsində həmin konkret bölmənin ön planda göstərilmiş əsas konsepsiyası ilə bağlı hissə ilə yenidən görünür. Burada doqquz illüstrasiya bütöv pazl yaratmaq üçün bir yerdə verilmişdir. Bu şəkil müxtəlif yollarla oxuna bilər:

Birincisi, hər bir şəkildəki mətn DVT/İHT rəssamı Peti Uiskemannın beynində olan konsepsiyanı aydınlaşdırır. Daha sonra doqquz şəkli birləşdirməklə pazl göstərir ki, doqquz anlayış müxtəlif yollarla əlaqələndirilir və bir mənalı tamlıq yaradır.

Lakin pazl bu vəsaitdəki əsas konsepsiyalar dəstinin özündə tam olması və heç bir elementin çıxarılmasının və ya əlavə edilməsinin mümkünsüz olması təəssüratını oyadır. Bu nəzər nöqtəsindən pazlın bu vəsaitin konseptual çərçivəsində heç bir didaktik seçimin edilmədiyini təklif etməklə yanlış mesaj çatdırdığını düşünmək olar.

Əlbəttə ki, bu doqquz konsepsiya nəzəriyyənin və ya anlayışın qapalı sistemini formalaşdırmır. Daha doğrusu, onlar, xüsusilə vacib və ya faydalı hesab olunduqları üçün seçilmişdir. Digərləri də həmçinin maraqlı ola bilər, məsələn, pul, güc və ya ideologiya. Vəsait nəzəriyyədən daha çox alətlər toplusudur və adaptasiya/uyğunlaşma və əlavələr üçün açıqdır.

Digər tərəfdən, anlama mənanı axtarmaq cəhdidir və konstruktivizm öyrənmə prosesini məna yaratmaq cəhdi kimi qəbul edir. Şagirdlər yeni məlumatları artıq bildikləri və artıq anladıqları məlumatlar ilə əlaqələndirəcək. Beləliklə, pazl şagirdin mənanı necə yaratmasının simvolu kimi oxuna bilər. Şagirdlər DVT/İHT-nin əsas konsepsiyalarını bir-biri ilə əlaqələndirməyə çalışacaqlar. Bununla onlar müxtəlif əlaqələr və elementlərin şəxsi kompozisiyası ilə öz fikirlərində şəxsi pazllarını yaradacaqlar. Yəqin ki, onlar boşluqları və itmiş əlaqələri kəşf edəcək və bu vəsaitdəki azsaylı əsas konsepsiyaların məqsədindən kənara çıxan suallar verəcək. Onların nəticələri fərqlənəcək və pazl konsepsiyaları diaqram və yuxarıdakı cədvəldən fərqli sırada göstərməklə bunu əks etdirəcək. Şagirdlər öz pazllarını hazırlayan zaman səhvlər edə bilərlər və bu səbəbdən, onlar nəticələrini sinifdə paylaşmalıdırlar. Ehtiyac olarsa, şagird və ya müəllim onları düzəltməlidir (dekonstruksiya).

Müəllim bu vəsaitdən istifadə edərkən və dərslər hazırlayarkən bu konsepsiyaların bir-birilə necə bağlı olması və şagirdlərin onları necə anlaya biləcəkləri və ya anlamalı olduqları ilə bağlı onda fikirlər formalaşacaq.

Atalar sözündə deyildiyi kimi, bir şəkil min sözdən artıq ifadə edir. Buna görə də bu pazl kitabdakı əsas konsepsiyalar, didaktik seçimlər etmənin nəticələri və konstruktivist öyrənmə haqqında çox şey deyə bilər.

## Şəkillər fəal oxucunu dəstəkləyir (metaəksetdirmə)

Bu fəsil mücərrəd ideya - konsepsiyaları əhatə edir. Müəllifin öz mesajını aydın şəkildə çatdırmaq, oxucunun isə onu anlamaq kimi çətin öhdəliyi var. Müəllifin və oxucunun bu ümumi təcrübəsi müəllimlər və şagirdlər arasındakı qarşılıqlı əlaqəyə oxşarıyr. Buna görə də bu fəsildə müəllif və oxucu arasındakı ünsiyyətin üzərində düşünməyə dəyər. Bununla da digər sahələrə, xüsusilə tədris və öyrənməyə tətbiq edilə biləcək ümumi bacarıq əldə etmək üçün konkret bölüşdürülmüş təcrübəyə əsaslanaraq bir daha induktiv yanaşmadan istifadə edirik.

Tədqiqat göstərmişdir ki, vəsaitin bir çox istifadəçisi mətni öyrənməyə başlamazdan əvvəl şəkillərə və diaqramlara baxır. Şəkillərin gücü onların təxəyyülümüzdəki estetik cazibəsi və onların informasiya konsentrasiyasından ibarətdir. Onların zəifliyi bu məlumatların qeyri-verbal yolla ötürülüməsindən ibarətdir. İzləyici öz düşüncəsində müəllifin niyyətinə zidd olan ideya yarada bilər.

Müəllif, oxucu və mesaj üçbucaqlı əlaqə formalaşdırır. Bu strukturda bir element digər ikisinin əlaqəsində iştirak etmir. Bu o deməkdir ki, müəllif oxucunun fikrində formalaşdırdığı mesaj üzərində tam nəzarətə sahib olmadığı kimi, müəllim də şagirdin son olaraq nəyi yadda saxlayacağına və ya unudacağına qərar verə bilməz. Lakin əgər oxucu şəkli düzgün anlayıb-anlamadığını, onun müəllifin nəzərdə tutduğu mesaja uyğun gəlib-gəlmədiyini müəyyənləşdirməkdə maraqlıdırsa və ya istəyirsə, müəllif şəklə şərh bildirən və ya onu izah edən mətn təqdim etməlidir.




*Didaktik üçbucaq modelində müəllim və oxucu arasındakı ünsiyyət stukturunu müəllim və şagirdlər arasındakı ünsiyyət strukturu ilə müqayisə etmək maraqlıdır. Struktur analogiyaları və əhəmiyyətli fərqlər mövcuddur.*

*Hər iki halda, üçbucaq struktur mövcuddur, bu o deməkdir ki, heç bir element və ya iştirakçı bütünlükdə üstünlük təşkil etmir. Müəlliflər bu vəsait kimi vasitəçinin köməyi ilə oxucuları ilə əlaqə saxlayır. Bu,*

*adətən, birtərəfli ünsiyyətdir. Müəllif və oxucu nadir hallarda şəxsən görüşür və müəllif mütəmadi rəylər qəbul etmir. Müəllif oxucunun fikrində yaranan mesaj üzərində tam nəzarətə malik deyil.*

*Sinifdə müəllim şagirdin öyrənmə prosesi üzərində tam nəzarətə malik deyil. Lakin şagirdlər və müəllim arasındakı şəxsi əlaqə mühüm əks-əlaqəni təmin edir və müəllimin şəxsiyyəti təlim prosesində ən güclü vasitəçidir.*

Şəklə baxan zaman oxucu fikrində məna yaradır və müəllifin təqdim etdiyi mətni oxuyan zaman onu nə gözlədiyini təxmin edir. Yəqin ki oxucu şəkli anlamasının təsdiqləndiyini müəyyən edəcək və ya o, bəzi elementlərin dekonstruksiyası (dəyişiklik) ilə üzləşəcək. Şəkillər müəllif və oxucunun düşüncəsi arasında baş verən dialoqu yaratmağa kömək edir. Şəkil və mətn vəhdəti fəal oxucu və mütəfəkkir formalaşdırır.

Şəkillərin oxunması “infomasiya cəmiyyətində” əsas bacarıqdır və şagirdlərə bu bacarıq öyrədilməlidir. Buna görə də biz müəllimin bu pazlı şagirdlər ilə bölüşməsini təklif edirik. Şəklin izah edilməsi müəllim və ya şagirdlərin qarşısında duran vəzifədir. Müəllim bunu şagirdlərini vəsaitin təklif etdiyi proqram ilə tanış etmək üçün və ya dərs ilinin sonunda icmal kimi istifadə edə bilər. Şagirdlər pazlı doqquz hissəyə bölə və ya onu fikirlərində yaranan məzmuna uyğun olaraq yenidən qura bilərlər. Şəxsi kombinasiyalarını, pazl hissələrinin əlaqələrini və onların daşıdıqları mənaları bölüşməklə, şagirdlər öz öyrənmə və anlama yollarından xəbərdar olacaqlar. Konseptual öyrənmə səviyyəsində bu təcrübənin refleksiyası vasitəsilə onlar düşünmə və ifadə azadlığının yalnız demokratik qərar qəbuletmənin deyil, həmçinin oxuma və öyrənmənin də şərtləri olduğunu anlayacaqlar.

# 1-ci hissə

## Şəxsiyyət və cəmiyyət

**Bölmə 1.**

**Stereotiplər və ön mühakimələr. Şəxsiyyət nədir? Başqalarını necə qəbul edirəm, onlar məni necə görür?**

**Bölmə 2.**

**Bərabərlik. Məndən daha çox bərabərsinizmi?**

**Bölmə 3.**

**Müxtəliflik və plüralizm. İnsanlar sülh şəraitində birlikdə necə yaşaya bilər?**

**Bölmə 4.**

**Münaqişə. Razılığa gələ bilmiriksə nə etməliyik?**

# BÖLMƏ 1
# Stereotiplər və ön mühakimələr

## Şəxsiyyət nədir?
## Başqalarını necə qəbul edirəm, onlar məni necə görür?



### 1.1. Başqaları şəxsi necə görür?
**Şəxs bir kəsin düşündüyündən daha artıqdır.**

### 1.2. Şəxs necə müxtəlif cür təsəvvür edilə bilər?
**Şəxs barədə düzgün təsəvvürü necə əldə etməli?**

### 1.3. Stereotiplər və ön mühakimələr
**Başqa şəxslər, qruplar və ya ölkələrlə bağlı fikirlərimiz**

### 1.4. Mənimlə bağlı stereotiplər!
**Özümü necə görürəm; başqaları məni necə görür?**

# BÖLMə 1: Stereotiplər və ön mühakimələr
# Şəxsiyyət nədir? Başqalarını necə qəbul edirəm, onlar məni necə görür?

Əslində mən kiməm? Hər gün şagirdlər müxtəlif dəyərləri və birlikdə yaşamağın yollarını öyrənirlər. Şəxsi mövqelərini tapmaları üçün onlar seçim etmək bacarığını inkişaf etdirməlidir. Mən nə edə bilərəm, nə etməməliyəm? Nə düzgündür, nə yanlış? Uşaqlar və yeniyetmələr tezliklə bu suallara cavab vermənin asan olmadığını dərk edirlər. Bir halda düzgün olan şey digər hallarda yanlış ola bilər. Necə qərar qəbul edə bilərəm? Hansı qaydalar mövcuddur?

Şəxsi idarəetmə üçün iki mühüm vasitə ölkənin konstitusiyası və onun insan hüquqlarına yanaşmasıdır. Bu, cəmiyyətdə dəyərlərin plüralizmini göstərən iki istinad nöqtəsidir. Ən vacib prinsip hər bir fərdə qarşılıqlı dözümlülük və məsuliyyət fonunda öz şəxsiyyətini formalaşdırmaq hüququ verən şəxsi azadlıqdır, bu da həm onun yaşadığı cəmiyyətə və bütünlükdə bəşəriyyətə fayda verir. Biz fikirlərimizə və maraqlarımıza görə fərqlənə bilərik, bir şərtlə ki, narazılıqlarımızı sülh yolu ilə necə müzakirə edəcəyimizlə bağlı qaydaları razılaşdırmış olaq.

Uşaqlar və yeniyetmələr bilməlidirlər ki, böyüklər də üzləşdikləri çağırışlar və tələblərlə mübarizə aparırlar. Onlar həm də anlamalıdırlar ki, müəllimlər mütləq haqlı olmurlar, onlar da səhvlər edir və öz səhvlərindən nəticə çıxarırlar.

Bu tədris bəhsi fərdin şəxsiyyətinin inkişaf etməsi və insanların, qrupların özlərini, həmçinin başqalarını necə qavramaları ilə bağlı bəzi sualları əhatə edir. Şagirdlər şəxsiyyətlərinin həm özləri, həm də onların başqaları ilə qarşılıqlı əlaqəsi ilə müəyyən edildiyini anlamalıdırlar. Şəxsiyyət həm fərdlər arasındakı fərqlilikləri qeyd etmək, həm də ailə və ya həmyaşıdlarının qrupuna məxsus olmaq və onlar tərəfindən qorunmaq ehtiyacı ilə müəyyən edilir. Gənc insanlar şəxsi hisslərini və ehtiyaclarını, şəxsi inkişaflarını və gələcək üçün arzularını kəşf edərlərsə, özlərini daha yaxşı anlayacaqlar. Onlar davranışın müxtəlif formalarını təcrübədən keçirməlidirlər, beləliklə onlar başqaları ilə qarşılıqlı əlaqələrin proqramını/ repertuarını genişləndirirlər. Əgər onlar qarşılıqlı sosial fəaliyyət situasiyalarına konstruktiv töhfə verərlərsə, bunu öyrənəcəklər.

Ölkəmizin sosial və siyasi tarixi bu gün həyatımızda güclü təsirə malikdir. Şagirdlər müntəzəm olaraq cari məsələlər barədə məlumat toplmaqla və onları müzakirə etməklə, şəxsi fikirlərini formalaşdırmaqla və başqalarının fikirlərini dinləməklə bunun təsirindən xəbərdar olmalıdırlar. Onlar ictimai rəyin bir hissəsi olan düşüncələr, ön mühakimələr və stereotiplərə diqqət yetirməlidir. Şəxs təsirin incə formalarına əks-təsir göstərmək üçün onlardan xəbərdar olmalı və şəxsi seçimləri ilə bağlı ciddi şəkildə düşünməli və zəruri olarsa, onları dəyişməlidir.

## Demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsil

Bu dərs silsiləsi vasitəsilə şagirdlər:

– stereotip anlaysi və onların necə yaranması ilə tanış olacaq;

– müəyyən keyfiyyətlərin şəxslərə və qruplara aid etmək adətimizin olduğunu anlayacaq;

– bu cəhdlərin gündəlik həyatımızın mürəkkəbliyinin öhdəsindən gəlməyimizə kömək etdiyini anlayacaq;

– aidetmənin zərərli və ədalətsiz ola biləcəyini anlayacaq;

– aidetmənin fərdin və qrupun identikliyinin formalaşdırdığını öyrənəcək;

– şəxsiyyətin mürəkkəb anlayış olduğunu və hər bir şəxsin fərqli şəkildə qəbul və təsəvvür edə biləcəyini öyrənəcək.

# BÖLMƏ 1: Stereotiplər və ön mühakimələr
# Şəxsiyyət nədir? Başqalarını necə qəbul edirəm, onlar məni necə görür?

| Dərsin başlığı | Dərsin təlim məqsədləri | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1: Başqaları şəxsi necə görür? | Şagirdlər mövqelərin mürəkkəbliyi ilə üzləşir və<br>Öz seçimlərini edir | Şagirdlərə müəyyən rollar təyin edilir və öz düşüncələrini formalaşdırır.Onlar perspektivləri necə dəyişə biləcəklərini öyrənirlər | Rol təsvirləri, şagird materialı 1.1. (1-3 qrup), böyük vərəqlər, markerlər | Qrup işi |
| Dərs 2: Eyni şəxs fərqli yollarla təsvir oluna bilər | Şagirdlər anlayır ki, eyni bir şəxsi müxtəlif şəkillərdə təsvir etmək olar | Şagirdlər məşq edir və səhnəciklər qurur və yazı işlərini təqdim edirlər. Onlar gördükləri səhnələri müzakirə edir | Birinci dərsin nəticələri ikincinin əsas materialı olur. Şagirdlər anlayır ki, onların iştirakı və müdaxiləsi olmadan bölməyə davam etmək mümkün deyil. | Rol oyunu, təqdimatlar, idarəolunan plenar müzakirə |
| Dərs 3: bağlı sadələşdirilmiş, Şagirdlər | Hüquqlar və lakin həmçinin Başqaları və müzakirə edirlər. Boş vərəqlər və markerlər qrup işi plenar müzakirə | və ön mühakimələrin ədalətsiz olan haqqındakı fikirlərini onları qruplarda | necə bağlı olduğunu və onların fərdlər, düşüncələrə | insan qrupları və bütün ölkə ilə yol açdığını öyrənir. ikincinin əsas |
| Dərs 4: onların şəxsiyyətini və buna | Vesnanın hekayəsi necə anladığını reaksiya verir. və bir-birlərini və nəticələri müqayisə edirlər.<br>Şagird materialı 1.2. Cütlərdə iş, plenar müzakirə | onları necə anladıqlarını daha Şagirdlər təsvir edirlər | və bunu qəbul etməyi öyrənir. | Onlar başqalarının yaxşı dərk edir özlərini |

# Dərs 1
# Başqaları şəxsi necə görür
## Şəxs bir kəsin düşündüyündən daha artıqdır

| | |
|---|---|
| Öyrənmənin məqsədi | Şagirdlər düşüncələrin mürəkkəbliyi ilə üzləşir və şəxsi seçimlərini edirlər. |
| Şagird tapşırıqları | Şagirdlərə müəyyən rollar təyin edilir və öz fikirlərini formalaşdırırlar. Onlar perspektivi necə dəyişəcəklərini öyrənirlər. |
| Resurslar | Rol təsvirləri, materiallar 1.1 (qruplar 1-3), böyük vərəqlər, markerlər. |
| Metod | Qrup işi. |

# Dərs

Şagirdlər üç qrup yaradır və şagird materialı 1.1 (müxtəlif qruplar üçün üç müxtəlif versiyada), böyük bir vərəq və marker alırlar. (Böyük siniflərdə daha çox qrup yaradıla bilər və sonra müəllim daha çox səhnəcik və ya müxtəlif qruplara verilmiş eyni tapşırığı təqdim edir. Sonuncusu maraqlı ssenari ola bilər, çünki bu, təsvirlərin və anlayışların nə qədər fərqli ola biləcəyini göstərəcək.) Daha sonra müəllim başqa evə köçən oğlanın hekayəsini danışır və onun yeni mühitini araşdırır. O, sinfə oğlanın gündəliyi haqqında danışır, lakin onu sinfə ucadan oxumur, çünki hər bir qrupa mətnin yalnız bir hissəsi verilir.

## Müəllimlər üçün ümumi məlumatlar

Tam mətn aşağıdakı kimi davam edir:

*«Bu, mənim yeni sinfimdəki ilk günümdür. Ailəm buraya başqa rayondan köçüb və mən hələ də özümü yad hiss edirəm. Əziz gündəlik, son bir neçə gündə başıma bir çox şey gəlib. Bəzilərini sənə danışacağam.*

*Biz indi çay sahilində bir mənzildə yaşayırıq. Oğlanlardan biri bizdən bir neçə ev uzaqda yaşayır. O, artıq üçüncü gün gəlib məni özü ilə balıq tutmağa dəvət etdi. Mən etiraz etdim, çünki balıq qarmağım hələ yük qutusunun içindədir.*

*Məktəb binamızın qarşısında böyük bir futbol meydançası var. Mən buna şad idim, çünki futbol oynamağı sevirəm. Beləliklə, mən özümlə topumu gətirdim və məşqə başlamaq istədim. Mən bir və ya iki qol atmışdım ki, məktəb gözətçisi məni dayandırdı. O, qəzəbli idi və məndən oxuya bilib-bilmədiyimi soruşdu. Mən meydançanın yağışdan sonra bağlı olduğunu göstərən işarəni görməmişdim. Şokdaydım və heç bir şey demədən evə getdim.*

*Bizdən üst mənzildə yaşlı kişi yaşayırdı. Dünən evə gələndə onu alış-veriş çantası ilə binanın kandarında gördüm. O, ərzaq çantası daşıyırdı və ağır-ağır nəfəs alırdı. Mənim ona ürəyim yandı. Ona kömək lazımdırmı deyə soruşdum və çantasını evinə qədər apardım».*

Qruplara gündəliyin 3 müxtəlif hissəsindən parçalar verilir. Aldıqları məlumatdan asılı olaraq qrupların anlayışı dəyişəcək. Buna görə də hər bir qrup oğlanın şəxsiyyətinin yalnız bir hissəsini görür və bu fikri rol oyununda əks etdirirlər. Tapşırıqlarda tələb edildiyi kimi, qruplar birinci sifətlər siyahısını təqdim edir. Hər bir qrupun bir üzvü qrup müzakirəsinin nəticələrini növbəti dərsdə təqdim etmək üçün böyük vərəqdə toplayır.

İndi hər bir qrup öz şərhlərini təqdim edən qısa rol oyunu seçir. Bu rol oyunları ilk növbədə sinifdə izah və müzakirə edilməli və daha sonra məşq edilməlidir. Bu, sinifin müxtəlif künclərində və ya məktəb binasında konfrans otaqlarında, xarici binalarda və ya hava şəraiti imkan verirsə, oyun meydançasında keçirilə bilər. Rol oyunu başlanğıcda bir qədər vaxt aparsa da, çalışma faydalı olacaq. Bir çox şagird üçün sözlərlə ifadə edilməsi çətin olan təsəvvürlər indi sadə və aydın şəkildə ifadə olunacaq.

Bu dərsdə şagirdlərin məqsədi sifətlərin siyahısını plakatlarda yazmaq və səhnəcikləri məşq etməkdir.

Dərsin sonunda müəllim plakatları toplayır (onları növbəti dərsin əvvəlində yenidən paylayacaq) və qısa debrifinq keçirir. O, müsbət rəy bildirir və növbəti dərsdəki mövzuya baxır.

# Dərs 2
# Şəxs müxtəlif şəkillərdə necə təsvir edilə bilər...
## Şəxsin düzgün təsvirini necə əldə etməli

| | |
|---|---|
| Öyrənmənin məqsədi | Şagirdlər anlayır ki, eyni bir şəxsi müxtəlif şəkillərdə təsvir etmək olar. |
| Şagird tapşırıqları | Şagirdlər məşq edir, səhnəciklər qurur və yazı işlərini təqdim edirlər. Onlar gördükləri səhnələri müzakirə edirlər. |
| Resurslar | Birinci dərsin nəticələri (məşq edilmiş rol oyunu və plakatlardakı sifətlərin siyahıları) ikincinin əsas materialı olur. Şagirdlər anlayır ki, onların iştirakı olmadan işi davam etmək mümkün deyil. |
| Metod | Rol oyunu, təqdimatlar və plenar müzakirə. |

# Dərs

## I hissə

Müəllim dərs prosedurunu izah edir. O, qrupa öz səhnəcəklərini məşq etmələri üçün əlavə vaxt verir. Səhnəcəklər təqdim edilir.

Birinci, qrupun bir üzvü birinci dərsin plakatını istifadə etməklə sinfə gündəlikdən girişi oxuyur. Sonra isə qrup səhnəcəyi icra edir. Bütün səhnəciklərin fasiləsiz təqdim edilməsi tövsiyə edilir. Əgər birdən çox qrup eyni gündəlik girişi alıbsa, onlar bu səhnəcikləri bir-birinin ardınca kiçik dəyişikliklərlə icra etməlidirlər.

Qruplar işi tamamladıqdan sonra müəllim müsbət rəy verir və yenidən səhnəciklərin bu ardıcıllığının məqsədini bildirir. Əgər sinif təlimin bu formasına vərdiş edirsə, şagirdlər növbəti mərhələyə keçə bilər. Əks təqdirdə şagirdlərə məzmun və formanın aspektlərinə baxmaqla səhnəciklərin ardıcıllığını yenidən gözdən keçirmək və düşünmək imkanının verilməsi tövsiyə edilir.

Müəllimin rol oyunu ilə bağlı refleksiyanı necə təşkil edə biləcəyinin nümunələri:

– Qrup kimi hansı təcrübəni qazandıq?

– Özümlə bağlı yeni nəsə kəşf etdimmi?

– Obrazları olduqları kimi göstərməyə nə dərəcədə nail olduq?

## II hissə

Dərsin ikinci hissəsində şagirdlər stullarını löhvənin ətrafında bir və ya iki yarımdairə şəklində düzürlər. Sonra isə müəllim löhvədə plakatları yanaşı nümayiş etdirir. Şagirdlər təqdimatın necə açılmasına baxır:

Başqaları onu bu şəkildə görür:

Sinif yoldaşları | Müəllimlər | Qonşular

Sonrakı müzakirədə şagirdlər başqa insanların və ya qrupların şəxsi fərqli şəkildə görməsinin kifayət qədər normal olduğunu anlamalıdırlar. Onlar nəzər nöqtələrini ifadə etmək üçün «doğru» və «yanlış» kimi kateqoriyalardan istifadə edə bilməyəcəklərini anlamalıdırlar. Əslində oğlana layiq olduğu münasibəti göstərmək üçün ona yalnız bir nəzər nöqtəsindən baxmaq yanlış olardı.

Müəllimin sinifdə tənqidi təfəkkürü dəstəkləməsi üçün mümkün məsləhətlər:

– Bu fərqli təsvirləri görəndə bir qədər çaşqınlıq yaşadım.

– Həqiqət haradadır?

– Maks əslində kimdir?

Müəllim bir neçə şagird əlini qaldırana qədər gözləyir və sonra onlara müxtəlif cavablar vermələri üçün icazə verir. O, bu cavabları löhvədə, siyahıda və ya flipçart kağızında qeyd edir:

Oğlanla bağlı nə deyə bilərik?

– Onu müvafiq şəkildə necə təsvir edə bilərik?

– Təqdimat 1

– Təqdimat 2

– Təqdimat 3

– Təqdimat 4

– Təqdimat 5

Dərsin sonunda müəllim ikinci dərs zamanı şagirdlərin qazandıqları bacarıqları sadalayır. Bu məqamları flipçart kağızında qeyd etmək yaxşı olar, bu halda onlar növbəti dərslərdə göstərilə bilər. Aşağıdakı məqamlar faydalı ola bilər:

## Şəxsiyyət

– İnsan şəxsiyyətinin bir çox tərəfləri var.
– Adətən, eyni insan barədə müxtəlif adamların (qonşular, dostlar, müəllimlər, kənar adamlar) fərqli fikirləri olur.
– Əgər şəxs haqqında daha çox məluamt əldə etmək istəyiriksə, müxtəlif fikirlərə qulaq asmalıyıq.
– …
– …

Dərsin sonunda müəllim şagirdlərdən yoldaşlarının qeydlərinə rəy bildirməməyə çalışmaqla öz rəylərini soruşur.

Bu, müxtəlif şəkillərdə ola bilər. Bütün sinfə sual vermək həmişə ən yaxşı həll yolu deyil, bir neçə eyni şagird cavab verəcək və rəy qeyri-müəyyən qalacaq. Buna görə də bu halda hədəf löhvəsi modeli tövsiyə edilir. Bu, hər bir şagirdə öz cavablarını müəyyənləşdirməyə imkan verən sürətli rəy əldə etmə metodudur. Əlavədə bu növ rəyin ətraflı təsviri verilir.

Sonra isə müəllim sinfin fərdi şəxslərə yox, cəmiyyət və bütün ölkə daxilindəki qruplara baxacağı növbəti iki dərsin önbaxışını keçirir.

# Dərs 3
# Stereotiplər və ön mühakimələr
## Başqa şəxslər, qruplar və ya ölkələrlə bağlı fikirlərimiz

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər stereotiplərin və ön mühakimələrin necə bağlı olduğunu və onların fərdlər, insan qrupları və bütün ölkə ilə bağlı sadələşdirilmiş, lakin həmçinin ədalətsiz fikirlərə yol açdığını öyrənir. |
| **Şagird tapşırıqları** | Şagirdlər başqaları haqqındakı fikirlərini düşünür və onları qruplarda müzakirə edirlər. |
| **Resurslar** | Boş vərəqlər və markerlər. |
| **Metod** | Qrup işi, plenar müzakirə. |

**Açar terminlər**

**Stereotiplər:** Bu, qrupların özləri və başqa qruplarla bağlı fikirləridir.

**Ön mühakimələr:** Bu, sosial qruplar (adətən azlıqlar) və ya müəyyən insanlarla (adətən azlıqlardan olanlar) bağlı emosional fikirlərdir.

# Dərs

Bu dərsin məqsədi şagirdlərin başqalarının fərdi səviyyədə necə nəzərdən keçirilməsi ilə bağlı anlayışlarını daha ümumi səviyyəyə köçürməsini təmin etməkdir, yəni daha geniş qrupların, dini icmaların, etnik qrupların və ya ölkələrin necə qiymətləndirilməsini anlatmaqdır.

Müəllim dərsin balanğıcında vermək üçün stereotiplər və ön mühakimələr arasındakı fərqlərlə bağlı qısa, aydın strukturlu mühazirə hazırlayır.

Öyrənmə prosesini və nəticələrini, son iki dərsdən əldə edilmiş bacarıqları ümumiləşdirməklə müəllim şagirdlərə stereotiplər və qərəzli münasibətlər arasındakı fərqi anlamağa kömək edir. Müəllim əvvəlki iki dərsdə müzakirə olunmuş oğlanla bağlı müxtəlif fikirlərə istinad edərək iki anlayışı təqdim edir. O, bu düşüncələri stereotiplər və qərəzli münasibətlər kimi təqdim etməyə çalışır (bu fəslin sonunda bu qısa mühazirə modelinin daxil olduğu müəllimlərə aid ümumi materiala baxın). Növbəti mərhələdə şagirdlər kiçik qruplar yaradır. Onlar sosial qrupların təsvirləri üzərində işləyir, məsələn:

– oğlanlar və qızlar;

– peşələr;

– etnik qruplar;

– ölkələr;

– qitələr.

Şagirdlərin bu qruplar barədə öz şəxsi fikirlərini bildirmələri tapşırığın şərti deyil. Daha doğrusu, onlar bu tapşırıqda müəyyən edilmiş qruplar haqqında cəmiyyətin, qonşuların və ya medianın nə deyəcəyini, necə düşünəcəyini təsəvvür etməyə çalışmalıdırlar.

Şagirdlər dərsin əvvəlində müəllimdən eşitdiklərini tətbiq etməklə stereotipləri və ön mühakimələri fərqləndirməyə çalışırlar.

Müəllim löhvədə bəzi ipucları verə bilər. Şagirdlər nəticələrin təqdimatını müstəqil şəkildə siyahı formasında hazırlayırlar. Təcrübə göstərmişdir ki, əvvəlcədən hazırlanmış siyahı (aşağıdakı nümunəyə baxın) şagirdlərə daha sonra müzakirədə istifadə etmək üçün ideyaları qeyd etməyə kömək edəcək.

Müəllimin stereotiplər və ön mühakimələrlə bağlı ilk mühazirəsindən sonra şagirdlər yuxarıdakı tapşırıq barədə düşünmək üçün təxminən 15 dəqiqə üç və ya dörd nəfərlik qruplarda işləyirlər. Müəllim yuxarıdakı nümunələrdən hansını təklif etmək barədə ətraflı düşünməlidir. Sözügedən ölkədə siyasi vəziyyətdən asılı olaraq, şagirdlərin şəxsi təcrübəsinə yaxın nümunələri seçmək mümkündür. Digər tərəfdən əgər bu cür seçim heç kəsin xətrinə dəymirsə və nəzarətdən çıxa biləcək müzakirə və münaqişələrə səbəb olmursa, müəllim yalnız ölkədə və ya ictimaiyyətdə yaşayan etnik qrupları qeyd etməlidir.

Qrupun müzakirələri və nəticələri plenar sessiyada təqdim edilməlidir. Hər bir qrup nəticələrini aşağıdakı meyar nümunəsinə əməl etməklə təqdim edə biləcək lider sözçü seçir.

– ölkəmiz, qrupumuz, etnik mənşəyimiz, peşəmiz;

– qrup tərəfindən ifadə edilmiş stereotiplər;

– qrup tərəfindən ifadə edilmiş ön mühakimələr;

– qrupların nəyə görə belə düşünməsi ilə bağlı ehtimallarımız;

– fikirlərimiz, o cümlədən mümkün fikir ayrılıqları.

Müəllim hər bir qrupun nəticələrini (qeyd formasında) flipçart kağızında yazmaqla şagirdlərə kömək edəcək.

Şagirdləri dəstəkləmək üçün nəticələrin yazılması ilə bağlı nümunə:

| **Qrup** | **Ölkə/peşə/qrup** | **Stereotiplər** | **Ön mühakimələr** | **Şərhlər** |
|---|---|---|---|---|
| 1 | | | | |
| 2 | | | | |
| 3 | | | | |
| 4 | | | | |
| 5 | | | | |

Son olaraq müəllim həm prosedur, həm də nəticələrə istinad edərək dərsi yekunlaşdırır və sinfi növbəti mərhələlər barədə məlumatlandı

# Dərs 4
# Şəxsiyyət: Mənimlə bağlı stereotiplər!
## Özümü necə görürəm - başqaları məni necə görür?

| | |
|---|---|
| Öyrənmənin məqsədləri | Şagirdlər başqalarının onları necə anladıqlarını və bunu qəbul etməyi öyrənir.<br>Onlar başqalarının onların şəxsiyyətini necə anladığını daha yaxşı dərk edir və buna reaksiya verir. Onlar şəxsiyyətlərinin başqa insanların üzərindəki təsirini kəşf edirlər. |
| Şagird tapşırıqları | Şagirdlər özlərini və bir-birlərini təsvir edirlər və nəticələri müqayisə edirlər. |
| Resurslar | Şagird materialı 1.2. |
| Metod | Cütlərdə iş. Plenar müzakirə. |

# Dərs

Müəllim dərsə əvvəlki iki dərsin nəticələrini ümumiləşdirməklə və bugünkü dərs üçün cədvəli izah etməklə başlayır.

Sonra isə müəllim sinfə onların fərdə baxmaqla (oğlanın şəxsi vəziyyəti) başlamalı olduqlarını və peşələr, etnik qruplar və bütöv ölkələr kimi böyük qrupların necə nəzərdən keçirildiyini öyrənməklə davam etməli olduqlarını xatırladır. İndi onlar yenidən diqqəti fərdə yönəldəcək, lakin bu dəfə şagirdlərin özləri − sinifdəki hər kəs diqqət mərkəzində olacaq. Onlar diqqəti suala cəmləşdirirlər:

| **Mən kiməm?** | |
|---|---|
| **Özümü necə təsvir edərdim?** | **özünü qavrama** |
| **Sinifdəki şagird məni necə təsvir edərdi?** | **başqalarının məni qavraması** |

Müəllim bu cəvdəli löhvədə və ya flipçart kağızında çəkməklə dərsə giriş verir. O, həmçinin şagirdlərdən özünü qavrama və başqaları tərəfindən qavrama arasındakı fərqlə bağlı son iki dərsdə öyrəndiklərini təkrarlamalarını istəyir. Bundan başqa və ya alternativ olaraq, o, stereotiplərin və ön mühakimələrin əsas anlayışlarını təkrarlaya bilər.

Müəllim indi şagirdlərin Maksın təsvirini ehtiva edən materiallarını götürür. Bu, şagirdlərə insanların sahib olduğu mümkün qədər çox keyfiyyət və xarakterlər barədə düşünməyə kömək edir. Şagirdlərə bir şəxsi təsvir etmək üçün mümkün qədər çox sifətin siyahısını hazırlamaq tapşırığı verilir. Bu məqamda, əlbəttə ki, müəllim bəzi ideyalar və təkliflər verəcək. Məsələn, şagirdlər təsviredici sifətlər, məna və istiqamət verən kateqoriyaları rəhbər tutur. Bu cür kateqoriyalara aşağıdakılar daxil ola bilər:

İnsanları necə təsvir edə bilərik:

– əgər onların əhvalı yaxşıdırsa?

– əgər onların əhvalı pisdirsə və ya qəzəblidirsə?

– əgər onlar yaxşı dostdurlarsa?

– əgər onların kimə bənzədiyini təsvir etmək istəsək?

– əgər onları şagird kimi təsvir etmək istəsək?

– …

Frontal təlimdə ideya vermək üçün bir neçə sualın verilməsinin əksinə olaraq, burada bütün sinif iştirak etməlidir. Buna şagirdlərin müxtəlif ideyaları hazırlamaq üçün təkbaşına işlədiyi aşağıdakı tapşırıq[5] ilə nail olmaq olar. Sinfin küncündə və ya ayrı-ayrı masalarda böyük vərəqlər asılmalı və ya qoyulmalıdır. Bu vərəqlərdə müxtəlif açar sözlər və ya kateqoriyalar başlıqlar kimi verilmişdir. Şagirdlər otağı sakitcə keçir və öz ideyalarını plakatlarda yazırlar (hər bir plakatın yanında qoyulmuş markerlərlə). Başqalarının nə yazdığını oxuya bildikləri üçün şagirdlər bir-birlərini təkrarlamadan rəylər və yeni ideyalar ilə cavab verməlidirlər.

5. Burada təklif edilmiş tapşırıq “The Wall of Silence”ın («Sakitliyin Divarı») variantıdır (baxın: DVT/İHT VI Cild, *DVT/İHT-də Yeni İdeyaların Yaradılması*).

Bu cür tapşırığın nəticəsi belə ola bilər:

| |
|---|
| Əhvalı yaxşı olanda insan necə olur? |
| – şən |
| – zarafatcıl |
| – sakit |
| – ünsiyyətcil |
| – mahnı oxuyan |
| – cazibədar |
| – … |
| – … |

Plenar müzakirənin davam etdirilməsi zəruri deyil, çünki bu tapşırığın məqsədi şagirdlərə növbəti mərhələdə işləmək üçün ideyalar verməkdir. Müəllim bu mərhələdə hansı şagirdlərin cütlərdə işləyə biləcəyini artıq nəzərdən keçirməlidir. Bu vacibdir, çünki şagirdlərin müzakirə edəcəkləri mövzu incədir. Buna görə də müəllim bir-birini sevməyən şagirdləri bir qrupa salmaqdan çəkinməli və heç kəsin xətrinə dəymədiyinə əmin olmalıdır.

Komandalar aşağıdakı tapşırığı qəbul edir:

İndi özünüzü və bir-birinizi necə anladığınızı araşdıracaqsınız. Bunu aşağıdakı qaydada edin:

– İlk olaraq, müstəqil şəkildə işləyin.

– Sinifdəki plakatların üzərindəki çoxsaylı təsvirlərə baxın və sizcə, sizi ən yaxşı təsvir edən sözləri seçin. Onları paylama materialında yazın.

– Plakatlarda görmədiyiniz müəyyən vəziyyətlərdə sizə aid olan keyfiyyətləri və təsvirləri əlavə edin. Onları paylama materialında yazın.

– Daha sonra partnyorunuzu da eyni qayda ilə təsvir edin.

– Hər iki tapşırığı bitirdikdən sonra nəticələrinizi bölüşün. Hansı təsvir və mühakimələrin uyğun gəldiyini, hansılarının fərqləndiyini və hətta zidd olduğunu görmək maraqlı olacaq. Fikirlərinizi və hisslərinizi ifadə edin:

– Məni nə təəccübləndirir?

– Məni nə xoşbəxt edir?

– Məni nə qəzəbləndirir?

– Məni nə incidir?

– Mühakimənizi bəzi nümunələrlə dəstəkləyə bilərsinizmi?

– Hansı təsvirlər (müsbət və ya mənfi) stereotiplərdir?

Müəllim yekun plenar debrifinqini bu dərsin sonunda təşkil etməyə (həmçinin bu bölmənin sonunda, lakin davam etmək mümkündür) və ya öyrənmə prosesini keçmiş son dörd dərs ərzində yekunlaşdırmağa qərar verməlidir. Seçdiyi metoddan asılı olmayaraq müəllim bu bölmənin gedişatı zamanı sinifdə iş mühitinin inkişaf etdiyini müşahidə edir. Şagirdlər bir-birilə sıx əlaqə quracaq və maraqlı kəşflər edəcək və onları bir-birlərilə bölüşəcəklər. Onlar indi aşağıdakıları fərqləndirə bilirlər:

– stereotiplər və ön mühakimələr;

– özünü qavrama və başqaları tərəfindən qavrama.

Onlar həm sinifdə, həm də bütünlükdə məktəbdə gündəlik həyatlarında faydalana biləcəkləri sosial bacarıqlarını artıq inkişaf etdirmişdirlər. Şagirdlər, bu dörd dərsdə qaldırılmış mövzularla daim rastlaşacaq və bu, öyrəndiklərini möhkəmləndirməyə kömək edəcəkdir.

## Şagird materialı 1.1
**(Qrup 1)**
**Rollu oyun**

## Qrupunuz üçün gündəlikdən qısa hissə və tapşırığı ucadan oxuyacaq nümayəndənizi seçin.

## Qrupunuzun nəticələrinizi qeyd edəcək və onları sinfə təqdim edəcək başqa üzv müəyyən edin.

### Maksın gündəliyindən hissə:

*«Bu, mənim yeni sinfimdəki ilk günümdür. Ailəm buraya başqa rayondan köçüb və mən hələ də özümü yad hiss edirəm. Əziz gündəlik, son bir neçə gündə başıma bir çox şey gəlib. Sənə bəzilərini danışacağam.*

*İndi çay sahilində bir mənzildə yaşayırıq. Oğlanlardan biri bizdən bir neçə ev uzaqda yaşayır. O, artıq üçüncü gün məni özü ilə balıq tutmağa dəvət etdi. Mən etiraz etdim, çünki tilovum hələ açılmamış qutulardan birində qalmışdı.»*

### Tapşırıqlar:

1. Maksın sinif yoldaşlarının onu təsvir etmək üçün istifadə edə biləcəkləri sifətlərin siyahısını toplayın (qrupunuz daxilində beyin həmləsi).
2. Sizcə Maksın sinif yoldaşı onunla bağlı digər şagirdlərə nə deyəcək? Sinifdə icra edə biləcəyiniz balaca səhnəcik məşq edin.

## Şagird materialı 1.1
**(Qrup 2)**
**Rollu oyun**

## Qrupunuz üçün gündəlikdən qısa hissə və tapşırığı ucadan oxuyacaq nümayəndənizi seçin.

## Qrupunuzun nəticələrinizi qeyd edəcək və onları sinfə təqdim edəcək başqa üzv müəyyən edin.

### Maksın gündəliyindən hissə:

*«Məktəb binamızın qarşısında böyük bir futbol meydançası var. Mən buna şad idim, çünki futbol oynamağı sevirəm. Beləliklə, mən özümlə topumu gətirdim və məşqə başlamaq istədim. Bir və ya iki qol atmışdım ki, məktəb gözətçisi məni dayandırdı. O, qəzəbli idi və məndən oxuya bilib-bilmədiyimi soruşdu. Mən meydançanın yağışdan sonra bağlı olduğunu göstərən işarəni görməmişdim. Şokdaydım və heç bir şey demədən evə getdim».*

### Tapşırıqlar:

1. Maksın sinif yoldaşlarının onu təsvir etmək üçün istifadə edə biləcəkləri sifətlərin siyahısını toplayın (qrupunuz daxilində beyin həmləsi).
2. Sizcə Maksın sinif yoldaşı onunla bağlı digər şagirdlərə nə deyəcək? Sinifdə icra edə biləcəyiniz balaca səhnəcik məşq edin.

# Şagird materialı 1.1
**(Qrup 3)**
**Rollu oyun**

## Qrupunuz üçün gündəlikdən qısa hissə və tapşırığı ucadan oxuyacaq nümayəndənizi seçin.

## Qrupunuzun nəticələrinizi qeyd edəcək və onları sinfə təqdim edəcək başqa üzv müəyyən edin.

### Maksın gündəliyindən hissə:

*«Bu, mənim yeni sinfimdəki ilk günümdür. Ailəm buraya başqa rayondan köçüb və mən hələ də özümü yad hiss edirəm. Əziz gündəlik, son bir neçə gündə başıma bir çox şey gəlib. Sənə bəzilərini danışacağam.*

*Bizim üst qatımızdakı mənzildə yaşlı kişi yaşayırdı. Dünən evə gələndə onu alış-veriş çantası ilə binanın kandarında gördüm. O, ərzaq çantası daşıyırdı və ağır-ağır nəfəs alırdı. Mənim ona ürəyim yandı. Ona kömək lazımdırmı deyə soruşdum və çantasını evinə qədər apardım».*

### Tapşırıqlar:

1. Maksın sinif yoldaşlarının onu təsvir etmək üçün istifadə edə biləcəkləri sifətlərin siyahısını toplayın (qrupunuz daxilində beyin həmləsi).
2. Sizcə Maksın sinif yoldaşı onunla bağlı digər şagirdlərə nə deyəcək? Sinifdə icra edə biləcəyiniz balaca səhnəcik məşq edin.

# Müəllimlər üçün material
**Stereotiplər v ön mühakimələr**

## Stereotip nədir?

İnsanlar, adətən, mədəniyyətlərindən, dini inanclarından, mənşələrindən və ya dərilərinin rəngi, ölçüləri, saç düzümləri və ya geyimləri kimi xarici xüsusiyyətlərindən asılı olaraq, qrupların üzvləri kimi müəyyən edilirlər.

Adətən, qrupların bu tərifi insanların xüsusi keyfiyyətləri mənimsəməsi ilə bərabər işlənir, beləliklə, xüsusi təsvirlər müəyyən qruplar ilə assosiasiya edilir. Əgər bu təsvirlər reallıqla uyğun ola bilməyəcək dərəcədə şişirdilirsə, biz onları stereotiplər adlandırırıq.

Stereotiplərə həmçinin kitablarda (hətta məktəb dərsliklərində), komikslərdə, elanlarda və filmlərdə rast gəlinir. Demək olar ki, siz də bu cür stereotiplərlə rastlaşmısınız. Məsələn, palma yarpaqlarından hazırlanmış ətək geymiş, qalın dodaqları olan və burnunda balaca sümük olan afrikalı qadın təsəvvür edin.

## Stereotipdən ön mühakiməyə

Əgər bir şəxs və ya qrup fərd və ya fərdlər qrupu kimi deyil, yalnız stereotiplər əsasında mühakimə edilirsə, bu ön mühakimədir. Şəxs və ya qrup haqqında əslində onları tanımadan formalaşdırılmış fikirdir. Bu cür fikirlər və ideyalar, adətən, reallıqla uyğun olmur və onlar həmçinin arzu edilməyən və ya mənfi xarakterli olurlar.

## «Müsbət» stereotiplər

Lakin müsbət stereotiplər də mövcuddur. Məsələn, əgər kimsə qara dərili insanların sürətli atlet olduğunu deyirsə, bu, müsbət stereotipdir. «Yaxşı, bəs bunda pis olan nədir?» deyə düşünə bilərsiniz. Amma bu halda da insanlar yanlış şəkildə ümumiləşdirilir. Bir düşünün: bütün qara dərili insanların sürətlə qaçması həqiqətdirmi?

## Stereotiplər nə üçün yaxşıdır?

Ön mühakimələr, görünür, dünyanı daha sadə və daha az mürəkkəb edir. İnsanlar qəribə görünən bir kəslə qarşılaşan zaman bu, onlarda, adətən, narahatlıq oyadır. Bu cür hallarda ön mühakimələr insanlara öz narahatlıqlarını gizlətməyə imkan verir: “Mən özümü başqaları ilə bağlı hər şeyi bilirmiş kimi apara bilərəm və heç bir sual verməyə ehtiyacım olmaz.” Lakin nəticədə lap başlanğıcdan mənalı qarşılaşma və real anlama mümkünsüz olmuşdur.

## Ön mühakimələrin təsiri nədir?

Ön mühakimələr təhqiredicidir. Onlar, əsasən, kiməsə ədalətsiz davranmaq üçün istifadə edilir. Ön mühakimələr insanları onların kim olduğunu və nəyə qadir olduqlarını göstərmək imkanından məhrum edir. Məsələn, sahibkar türk namizədlərə iş verməyə bilər, çünki «onların» işə həmişə gec gəldiyini eşidib. Bəzi insanlar bu mənfi fikirləri təsdiqləyəcək heç kəsin olmadığını bildikləri halda belə ön mühakimələr və populist ideyalara sarılırlar.

## Ön mühakimələrlə necə mübarizə apara bilərik?

Ön mühakimələr çətinliklə aradan qalxır və buna görə də onlarla mübarizə aparmaq çətindir. Lakin ümidsizliyə qapılmağa ehtiyac yoxdur: heç kəs ön mühakimələrlə doğulmur. Onlar öyrənilir və buna görə də onları tərgitmək mümkündür. Şəxsi mühakimə etməzdən əvvəl ondan müzakirə edilən hər hansı bir şeyi nə üçün etdiyini izah etməsini xahiş edin. Yadda saxlayın ki, bir kəsin sizi dinləmədən mühakimə etməsini, sözsüz ki, istəməzsiniz.

# Şagird materialı 1.2.
## Özünü dərk - başqalarının sizi dərk etməsi

Cütlərdə iş

| Müzakirədən sonra rəylər<br>– Fikirlərimiz harada oxşardır<br>– Fikirlərimiz harada fərqlənir<br>– Qeydlər | Özümü (özünü qavrama) necə təsvir edirəm | Sinif yoldaşımı necə təsvir edirəm (Başqalarını necə anlayıram, mənim yazdığım şəkildə) | Müzakirədən sonra rəylər<br>– Fikirlərimiz harada oxşardır<br>– Fikirlərimiz harada fərqlənir<br>– Qeydlər |
|---|---|---|---|
| | | | |

# BÖLMƏ 2
# Bərabərlik

## Məndən daha çox bərabərsinizmi?



### 1.1. Müxtəlifliklər və bənzərliklər
**Mən oxşaram? Mən fərqliyəmmi?**

### 1.2. Vesnanın hekayəsi
**Bu bizim başımıza gəlsə, necə reaksiya verərdik?**

### 1.3. Qadınlar və kişilər arasında bərabərlik
**Qadınlara və kişilərə qarşı necə münasibət bəsləməliyik?**

### 1.4. Sosial ədalət
**Bərabərsizliklərin öhdəsindən necə gəlməliyik?**

# BÖLMƏ 2: Bərabərlik Məndən daha çox bərabərsinizmi?

Bərabərlik yaşından, cinsindən, etnik mənşəyindən və s. asılı olmayaraq, hər kəsin eyni hüquqlara sahib olması anlayışıdır.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin preambulası «Bəşəriyyətin bütün üzvlərinə məxsus ləyaqətin, bərabər və ayrılmaz hüquqlarının tanınması dünyada azadlığın, ədalətin və sülhün təməlidir» sözləri ilə başlayır. Vətəndaşlıq anlayışı bərabərlik məsələlərindən ayrıla bilməz. Cəmiyyətlər içərisinidə və ya arasında bərabərsizliklərin mövcudluğu səmərəli vətəndaşlığa mane olur. Buna görə də bərabərlik ideyası demokratik vətəndaşlıq üçün təhsilin əsasıdır. Belə ki, bərabərlik məsələsi gündəmdə olmalı və insanlara ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə səlahiyyəti verilməlidir.[6]

Müxtəliflik dözümlülük ideyasından fərqliliyə hörmət və onun dəyərələndirilməsinə doğru irəliləyişi nəzərdə tutur. O, plüralizm və multikulturalizm ideyasının mərkəzidir və beləliklə də, DVT-nin əsasıdır. Buna görə də DVT qavrama, qərəz və stereotipləri təhlil etmək imkanlarını daxil etməlidir. O, həmçinin fərqliliyin yerli, milli, regional və beynəlxalq icmalarda qəbul edilməsinin təmin edilməsinə yönəlməlidir.[7]

Bir çox hallarda, həmrəylik fərdin öz sərhədlərini aşaraq başqalarının hüquqlarını tanımaq və bunun müdafiəsi və təşviqi istiqamətində fəaliyyət göstərmək bacarığıdır. Bu, həmçinin DVT-nin əsas məqsədidir. Buna görə də o, ayrı-ayrı fərdləri cəmiyyət daxilində mükəmməl yaşamaları üçün zəruri olan bilik, bacarıq və dəyərlərlə təmin etməyə çalışır. Əvvəldə qeyd edildiyi kimi, həmrəylik fəaliyyətləri əməl ideyası ilə sıx bağlıdır. Lakin həmrəylik davranışlar toplusu olduğu qədər də təfəkkür formasıdır.[8]

Qərəz bir kəs və ya başqa insanlarla bağlı onları həqiqətən, tanımadan bildirdiyimiz fikirlərdir. Qərəzli fikirlər xaraktercə mənfi və ya müsbət ola bilər. Onlar bizim sosiallaşma prosesimizin bir hissəsi kimi öyrənilir və onları dəyişmək və ya aradan qaldırmaq çox çətindir. Buna görə də onların mövcudluğundan xəbərdar olmağımız vacibdir.

Ayrı-seçkilik birbaşa və ya dolayı yolla yayıla bilər. Birbaşa ayrı-seçkilik şəxsi və ya qrupu başqalarından ayırmaq ilə səciyyələndirilir, məsələn, qaraçının işə müraciətini rədd edən məşğulluq idarəsi və ya mühacirlərə mənzillər verməyən mənzil şirkətinin ayrı-seçkiliyi buna misaldır. Dolayı ayrı-seçkilik siyasətin və ya tədbirin təsirinə diqqəti yönəldir. Bu, neytral vəziyyətin, meyarın və ya təcrübənin şəxsi və ya konkret azlığı başqaları ilə müqayisədə faktiki olaraq əlverişsiz vəziyyətdə qoyması zamanı baş verir. Nümunələrə daxil ola bilər: yanğınsöndürənlər üçün minimum boy həddi tələbi (bu kişi namizədlərdən daha çox qadın namizədləri kənarlaşdırır), uzun ətək geyən insanları işə götürməyən market və ya yaylıq bağlayan insanların girişini və ya iştirakını qadağan edən hökumət idarəsi və ya məktəb nizamnaməsi. Etnik mənşə və ya dinlə münasibətdə aydın şəkildə neytral olan bu qaydalar uzun ətək və ya yaylıq geyən müəyyən azlığın və ya dini qrupların üzvlərinə zərər vura bilər.[9]

«Gender» termini qadın və kişilərin cinslərinə əsasən müəyyən edilmiş sosial rollarına istinad edir. Buna görə də gender rolları, xüsusilə sosial-iqtisadi, siyasi və mədəni kontekstdən asılıdır və onlara irq, etnik mənsubiyyət, sinif, cinsi oriyentasiya və yaş kimi digər amillər təsir edir. Gender rolları öyrənilir və mədəniyyətlər içərisində və arasında geniş şəkildə fərqlənir. İnsanların bioloji cinsindan fərqli olaraq, gender rolları dəyişə bilər.[10]

İqtisadi və sosial hüquqlar əsasən şəxsiyyətin hərtərəfli inkişafı və adekvat həyat səviyyəsinin təmin edilməsinə aiddir. Adətən, insan hüquqlarının «ikinci nəsli» kimi adlandırılan bu hüququları tətbiq

6. «Demokratik vətəndaşlıq üçün terminlər lüğəti»ndən, Karen O'Shea, Avropa Şurası, DGIV/EDU/CIT (2003) 29.
7. *Həmin müəllif.*
8. *Həmin müəllif.*
9. *Həmin müəllif.*
10. *Həmin müəllif.*

etmək daha çətindir, çünki onların əlçatan resurslardan asılı olması hesab edilir. Buna işləmək, təhsil almaq, istirahət etmək və adekvat yaşam standartı hüququ kimi hüquqlar daxildir. Bu hüquqlar 1966-cı ildə Birləşmiş Millətlər Təşkilatının Assambleyası tərəfindən qəbul edilmiş İqtisadi və Sosial Hüquqlar haqqında Paktda beynəxalq səviyyədə qeyd edilmişdir.[11]

Müxtəlif insanların cəmiyyətdə sosial ədalətin təmin edilməsi ilə bağlı müxtəlif fikirləri və mövqeləri var. Bu fikirlər və mövqelər üç kateqoriyaya bölünə bilər:

- Darvinistlər − insanların bütünlüklə öz problemləri üçün məsuliyyət daşıdığını və onlarla mübarizədə tək qalmalı olduğunu hesab edənlər. Onlar hesab edir ki, insanların stimula ehtiyacı var, belə olduqda onlar daha çox çalışacaq. Darvinistlər sosial siyasət arenasından uzaq durmağa meyillidirlər.
- «Ürəyi yananlar» − əziyyət çəkənləri başa düşənlər və onların əziyyətlərini yüngülləşdirmək üçün cəhd göstərənlər. Onlar sosial və iqtisadi hüquqları insan hüquqlarından daha çox arzu edilən siyasət obyektləri kimi görürlər. Bu, adətən, çətin sosial şəraitlərlə üzləşən insanlara qarşı himayədarlıq münasibəti ilə nəticələnir.
- «Ədalət axtaranlar» − insanlara hökumətin qərarları nəticəsində ədalətsiz münasibət bəslənildiyini hesab edənlər. Onlar hesab edirlər ki, insanların yoxsulluqda yaşamağa məcbur olmaması üçün siyasi və iqtisadi sistemlər dəyişilməlidir.[12]

11. «Demokratik vətəndaşlıq üzrə təhsil üçün terminlər lüğəti»ndən, Karen O'Shea, Avropa Şurası, DGIV/EDU/CIT (2003) 29».
12. «Duties sans Frontières»dan götürülüb. İnsan hüquqları və qlobal sosial ədalət», İnsan Hüquqları Siyasətinin Beynəlxalq Şurası

# BÖLMƏ 2: Bərabərlik
# Məndən daha çox bərabərsinizmi?

| Dərsin başlığı | Öyrənmənin məqsədləri | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1: Müxtəlifliklər və bənzərliklər | Şagirdlər insanlar arasındakı bərabərliklər və fərqlilikləri izah edə bilər.<br>Şagirdlər həm bərabərliyi, həm də fərqlilikləri dəyərləndirir. | Şagirdlər insanlar arasındakı müxtəliflikləri və bərnzərlikləri kəşf edir.<br>Şagirdlər fərqli olmanın bəzi nəticələrini müzakirə edir.. | Fərdi iş üçün dəftərlər, vərəqlər və qələmlər.<br>Əlavə fəaliyyət könüllüdür, lakin müəllim bunu lazım bilərsə, qrupların böyük vərəqlərə və markerlərə ehtiyacı olacaq. | Fərdi və kiçik qruplarda iş<br>Plenar müzakirə |
| Dərs 2: Vesnanın hekayəsi | Şagirdlər cəmiyyətdə mənfi münasibət və ayrı-seçkilikdən xəbərdar olur.<br>Şagirdlər ayrı-seçkiliyin qurbanlarının nöqteyi-nəzərini anlaya bilir. | Şagirdlər ayrı-seçkilik halını müzakirə edir və onu öz ölkələrindəki vəziyyətlə müqayisə edirlər | Könüllü seçim əsasında, 2.1-in paylama materialının nüsxəsi | Mətn əsaslı qrup işi |
| Dərs 3: Kişi və qadınlar arasında bərabərlik | Şagirdlər ayrı-seçkilik hallarına reaksiya verə bilir | Şagirdlər özlərinin və ümumiyyətlə cəmiyyətin qadınlara necə münasibət bəslədiyini nəzərdən keçirir. | Hər bir 4-5 şagirddən ibarət olan qrup üçün 2.2. şagird paylama materialından olan bir hekayənin nüsxəsi | Kiçik qruplarda iş |
| Dərs 4: Sosial ədalət | Şagirdlər cəmiyyətdə gender ayrı-seçkiliyindən agah olurlar | Şagirdlər bölüşdürülmüş ədalət məsələlərini müzakirə edir.<br>Şagirdlər bütün bölməni gözdən keçirir. | Hər bir şagird cütü üçün şagird paylama materialı 2.3-ün nüsxəsi hissələrlə bölünmüşdür | Cütlərdə iş, tənqidi təfəkkür |

# Dərs 1
# Müxtəlifliklər və bənzərliklər
## Mən bərabərmiyəm? Mən fərqliyəmmi?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər insanlar arasında bərabərlik və fərqlilikləri izah edə bilər. Şagirdlər həm bərabərliyi, həm də fərqliliyi qiymətləndirir. |
| **Şagird tapşırıqları** | Şagirdlər insanlar arasındakı müxtəliflikləri və bənzərlikləri kəşf edir. Şagirdlər fərqli olmanın bəzi nəticələrini müzakirə edir. |
| **Resurslar** | Fərdi iş üçün dəftərlər və ya vərəqlər, qələm<br>Əlavə fəaliyyət könüllüdür, lakin müəllimlər bunu lazım bilərsər, qrupların vərəqlərdən və markerlərdən istifadə etməyə ehtiyacları olacaq. |
| **Metodlar** | Fərdi və kiçik qruplarda iş. Plenar müzakirə |

# Dərs

Dörd və ya beş nəfərlik qruplar. Hər bir qrupa vərəq və qələm lazımdır.

Müəllim izah edir ki, şagirdlərdən «hə» və ya «yox» cavabı gözləyən bir sıra suallar verəcək. Hazırlıq üçün şagirdlərdən A-dan R-ə qədər hərfləri əlifba sırası ilə, üfüqi şəkildə altında kifayət qədər boş yer saxlamaqla yazmalarını xahiş edir. Müəllim löhvədə də izah edə bilər.

*Nümunə*

*Suallar: A B C D E F ……………………………………*

*Cavablar: 1 0 1 0 1 ………………………………………*

Daha sonra müəllim "A" siyahısından bir sıra suallar (A-dan R-ə qədər) soruşur və şagirdlər cavablarını ayrı-ayrı 1 («hə») və ya 0 («yox») şəklində qeyd edirlər. Müəllim şagirdlərə bildirir ki, onların cavabları ilə bağlı hər hansı tərəddüdləri varsa, onlar ən düzgün hesab etdikləri cavabı yazmalıdırlar.

| A siyahısı | B siyahısı |
|---|---|
| A. Qadınsınız? | A. Özünüzü həmişə xoşbəxt hiss edirsiniz? |
| B. Birdən çox xarici ölkəyə səfər etmisinizmi? | B. Barmaqlarınızda dırnaq varmı? |
| C. İdmanla məşğul olmağı sevirsinizmi? | C. Bir az fikirləşə bilirsiniz? |
| D. Musiqi alətində ifa edirsinizmi? | D. Sizi dünyaya ananız gətirib? |
| E. Gözləriniz qəhvəyidirmi? | E. Hər hansı avadanlıqdan istifadə etmədən uça bilirsiniz (quş kimi)? |
| F. Hər iki nənəniz hələ də sağdırmı? | F. Heç bir şey içmədən yaşaya bilərsiniz? |
| G. Eynək taxırsınızmı? | G. Nəfəs alırsınız? |
| H. Şəhər kənarında olmağı sevirsinizmi? | H. Daim suyun altında yaşayırsınız? |
| I. Sakit insansınızmı? | I. Hər hansı hissləriniz varmı? |
| J. Hündürsünüz (normadan çox)? | J. Qanınız yaşıldır? |
| K. Kədərli insansınız (normadan çox)? | K. Nə vaxtsa yıxılmısınız? |
| L. Tez soyuqlayırsınız? | L. Divardan o biri tərəfi görə bilirsiniz? |
| M. Səyahət etməyi sevirsiniz? | M. Başqaları ilə ünsiyyət qura bilirsiniz? |
| N. Bərbərə getməyi sevirsiniz? | N. Xoş havanı sevirsiniz? |
| O. Kompüterdə işləməyi sevirsiniz? | O. İnsanlarla qarşılaşmamağa üstünlük verirsiniz? |
| P. Hündürlükdən qorxursunuz? | P. Diliniz var? |
| Q. Qəhvəyi yoxsa mavi rəngi seçərdiniz? | Q. Suyun səthində gəzə bilirsiniz (bəzi həşəratlar kimi)? |
| R. Şəkil çəkməyi sevirsiniz? | R. Bəzən özünüzü yorğun hiss edirsinizmi? |

Müəllim hər bir qrupun nümayəndəsinin cavablarını löhvədə "A" siyahısına yazmağa çağırır. Sonra isə şagirdlərdən verilmiş cavablara baxmağı və onları öz cavabları ilə müqayisə etməyə dəvət edir: Onlar cavablar arasında fərqlər görürlərmi? Onlar bəzi fərqləri sadalaya bilərmi?

Sonra müəllim şagirdlərə bu dəfə "B" siyahısından olan suallara cavab verməyi tapşırır. Yenidən hər bir qrupun nümayəndəsi əlifba sırası ilə öz cavablarını lövhədə yazır.

Nəyə görə bu dəfə qruplar arasında, demək olar ki, fərq yoxdur? Müəllim şagirdlərdən onların əksəriyyəti üçün ümumi olan başqa fikirlər də əlavə etmənin mümkünlüyünü soruşur.

Əlavə tapşırıq üçün müəllim hər bir qrupa böyük vərəq və marker verir. Onların tapşırığı aşağıdakılardan ibarətdir:

1. Başqa insanlara bənzəməyin xoş olduğu vəziyyətlərlə bağlı üç nümunə tapın. Kiməsə bənzəməyi nəyə görə xoş hesab etdiyinizin səbəblərini qeyd edin.
2. Başqa insanlardan fərqlənməyin xoş olduğu vəziyyətlərlə bağlı üç nümunə tapın. Fərqli olmanı nəyə görə xoş hesab etdiyinizin səbəblərini qeyd edin.

Lazım olarsa, müəllim fikir çərçivəsinin şagirdlərin nəticələrini necə strukturlaşdırdığını göstərir.

| **Oxşar olmanın xoş hal olduğu vəziyyətlər.** | **Nə üçün?** |
|---|---|
| a)<br>b)<br>c) | a)<br>b)<br>c) |

| **Fərqli olmanın  xoş hal olduğu vəziyyətlər.** | **Nə üçün?** |
|---|---|
| a)<br>b)<br>c) | a)<br>b)<br>c) |

Daha sonra isə müəllim qruplardan başqalarından fərqli olmanın xoşagəlməz hal olduğu üç vəziyyəti misal göstərmələrini istəyir. Yenidən onlar bu cür düşünmələrinin səbəblərini bildirməlidirlər. Bu, hansı növ hisslər yaradır?

| **Fərqli olmanın xoşagəlməz hal olduğu vəziyyətlər** | **Nə üçün?** |
|---|---|
| a)<br>b)<br>c) | a)<br>b)<br>c) |

Sonra müəllim şagirdlərdən «fərqli» insanlardan ibarət olan hansı qruplara mənfi münasibət bəslənildiyini və kim tərəfindən bəslənildiyini soruşur.

| **Bəzən mənfi münasibət bəslənilən qruplar** | **Nə üçüçünüçün?** |
|---|---|
| a)<br>b)<br>c) | a)<br>b)<br>c) |

Müəllim hər bir qrupdan öz cavablarını təqdim etmələrini istəyir. Sinif təqdimatda hansı hüquqların pozula biləcəyini araşdırır. Bu məqsədlə qruplara şagird paylama materialı 5.2-nin nüsxəsi verilir: İnsan hüquqlarının siyahısı.

# Dərs 2
# Vesnanın hekayəsi
### Bu bizim başımıza gəlsə idi, necə reaksiya verərdik?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər cəmiyyətdə ön mühakimə və ayrı-seçkilikdən agah olur.<br>Şagirdlər ayrı-seçkiliyin qurbanlarının nöqteyi-nəzərini anlaya bilir. Şagirdlər ayrı-seçkiliklə bağlı vəziyyətlərə cavab verə bilir. |
| **Şagird tapşırıqları** | Şagirdlər ayrı-seçkilik halını müzakirə edir və onu öz ölkələrindəki vəziyyətlə müqayisə edirlər. |
| **Resurslar** | Hər bir şagird üçün şagird paylama materialı 2.1-in (suallar ilə) nüsxələri |
| **Metod** | Mətn əsaslı qrup işi. |

## Konseptual öyrənmə

Ayrı-seçkilik cəmiyyətdə geniş yayılmış davranış formasıdır. Tək dövlət orqanları deyil, digər qurumlar və şəxslər də ayrı-seçkiliyə yol verir. Ayrı-seçkilik mövzusunda həqiqi tarixçə ilə başlamaqla, şagirdlərə öz davranışları barədə düşünmək inkanı veririk.

# Dərs

Müəllim şagird paylama materialı 2.1-in nüsxəsini ucadan oxuya və ya nüsxəni şagirdlərə özlərinin oxumaları üçün verə bilər.

## Vesnanın hekayəsi

Qaraçı Vesna başına gələnləri danışır:

*«Paltar mağazasının vitrinində vurulmuş satış köməkçisi elanını gördüm. Onlar 18-23 yaş arasında bir nəfər axtarırdılar. 19 yaşım var, getdim və menecerdən iş haqqında soruşdum. O, mənə iki gün sonra yenidən gəlməyi dedi, çünki hələ kifayət qədər adam müraciət etməmişdi.*

*Mən iki dəfə qayitdım və hər dəfə eyni cavabı aldım. Təxminən bir həftə sonra qayıtdım, elan hələ də vitrində idi. Menecerin mənimlə danışmağa vaxtı yox idi. Mənə dedilər ki, vakansiya artıq dolmuşdur.*

*Mağazadan çıxanda qaraçı olmayan dostumdan xahiş etdim ki, vakansiya ilə bağlı müraciət etsin. O qayıdanda dedi ki, onu bazar ertəsi intervyuya dəvət ediblər.*

Bütün şagirdlər hekayəni dinlədikdən və ya oxuduqdan sonra müəllim şagirdləri dörd və beş nəfərlik qruplara bölür və onlardan aşağıdakı sualları müzakirə etmələrini istəyir (materiala bu suallar daxildir; müəllim hekayəni şifahi şəkildə təqdim edibsə, o, sualları löhvədə və ya flipçart kağızında yazmalıdır). Materiala bu suallar daxildir:

1. Vesnanın başına gələn sizin başınıza gəlsəydi, özünüzü necə hiss edərdiniz? Dostunuz müsahibəyə dəvət edildiyini desəydi, necə reaksiya verərdiniz?
2. Sizcə, mağazanın meneceri nəyə görə bu şəkildə davranmışdır? Sizcə, bu, ayrı-seçkiliyin bir növüdür? Nəyə görə (Nəyə görə yox)?
3. Vesna bununla bağlı nə edə bilərdi? Sizcə, o, bu vəziyyəti dəyişə bilərdimi? Başqaları onun yerində olsaydı, nə edərdi?
4. Sizcə, bu vəziyyətlə əlaqədar qanun nəsə edə bilərmi? Qanun nə etməlidir?
5. Bu, sizin ölkənizdə də baş verə bilərmi? Əgər "bəli" deyirsinizsə, hansı qruplara qarşı baş verərdi? (yəni ki, hansı qrupların nümayəndələri ilə belə vəziyyət baş verə bilərdi?)

Müəllim qruplardan suallarla bağlı ilkin cavablarını soruşur. Bu, hər bir qrupa bir sual verməklə və ya qruplara birdən çox suala qısa cavab vermələrini istəməklə həyata keçirilə bilər.

Sonra müəllim Vesnanın hekayəsinin bir necə il əvvəl faktiki olaraq baş verdiyini deyir. Mağazanın menecerindən bu davranışının səbəbini soruşduqda o demişdir:

## Menecerin cavabı

*«Düşünürəm ki, hər gün işə getmək üçün qət etdiyi məsafəyə görə burada işləmək Vesna üçün çətin olacaq. Bu, iki avtobusla səkkiz millik səfər olacaq. İşçilər həmişə gecikərsə, mağazanı idarə etmək çox çətin olar. Bu ərazidən olan birini təyin etməyi üstün tuturam. Bu vəzifəyə təyinatım, məncə doğru addımdır».*

Müəllim şagirdlərə İnsan Hüquqları Konvensiyasının (Maddə 14) aşağıdakıları bəyan etdiyini dedi: "Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır"; İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 2-ci Maddəsi bəyan edir: «Hər bir kəs irq, rəng, cins, dil, din, siyasi və ya digər rəylər, milli və ya sosial mənşə, əmlak vəziyyəti, doğum və ya digər status fərqi olmadan bu Bəyannamədə təsbit edilmiş bütün hüquq və azadlıqları istifadə etmək səlahiyyətinə malikdir».

Müəllim sonra şagirdlərdən bu mətnlərin Vesnanın vəziyyətində nə ifadə etdiyini soruşur. Dərsin sonunda müəllim şagirdlərə Vesnanın hekayəsinin həqiqətdə necə bitdiyini deyir.

## Vesnanın hekayəsinin sonu

*«Vesna öz işini ayrı-seçkilik ilə bağlı qanunu həyata keçirən xüsusi Avropa məhkəməsinə verdi. Məhkəmə onun ayrı-seçkiliyə uğraması ilə razılaşdı. Mağazadan uzaqda yaşayan bir sıra başqa insanlar müsahibəyə dəvət edilmişdir. İşə qəbul edilmiş qız cəmi 16 yaşında, ağ dərili idi və mağazadan Vesna ilə eyni uzaqlıqda yaşayırdı. Mağaza Vesnaya hisslərinə toxunduğu üçün müəyyən məbləğdə pul ödədi».*

Bunun davamı olaraq, müəllim şagirdlərdən mağazanın menecerinə və ya şəhərin merinə məktub yazmalarını xahiş edir. Müəllim onlara həm şəxsi, həm də Avropa İnsan Hüquqları Məhkəməsinin nöqteyi-nəzərindən məktub yazmağa kömək etməlidir. Bütün sinfin bu məktubları görməsi vacibdir, beləliklə, müzakirə normal dərs saatlarından kənarda da baş verə bilər.

# Dərs 3
# Qadınlar və kişilər arasında bərabərlik
## Qadınlara və kişilərə qarşı necə münasibət bəsləməliyik?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər cəmiyyətdə genderlə bağlı ayrı-seçkilikdən agah olurlar.<br>Şagirdlər cinsi ayrı-seçkiliyin qurbanlarının nöqteyi-nəzərini anlaya bilirlər.<br>Şagirdlər ayrı-seçkiliklə bağlı vəziyyətlərə cavab verə bilir. |
| **Şagird tapşırıqları** | Şagirdlər onların və ümumiyyətlə cəmiyyətin öz ölkələrində qadınlara necə münasibət bəslədiyini nəzərdən keçirir. |
| **Resurslar** | Hər bir qrup üçün şagird paylama materialı 2.2-dən olan bir hekayənin nüsxəsi. Hər bir qrup üçün böyük vərəq və marker. |
| **Metod** | Kiçik qruplar, müzakirə və təqdimatlar. |

## Məlumat qutusu

Qadın və kişilərə qanunla və gündəlik həyatda bərabər münasibət bəslənilməsi üçün hələ uzun yol var. Ailədə, məktəbdə və ya işdəki müxtəlif vəziyyətlər hər kəsin bu problemləri anlama imkanını və onları həll etmək bacarığını artırır. Bu dərs də həmçinin sinifdə və ya məktəbdə bəzi təcrübələri dəyişmək üçün dəvətdir.

# Dərs

Sinif dörd və ya beş şagirddən ibarət qruplara bölünür. Hər bir qrupa şagird paylama materialı 2.2-də verilmiş üç hekayədən biri verilir. Şagirdlər hekayəni oxuduqdan sonra hər bir hekayə ilə bağlı verilmiş sualları müzakirə etməyə dəvət edilir.

Daha sonra müəllim hər bir qrupun nümayəndəsindən öz hekayələrinin qısa icmalını verməsini və qrup müzakirəsinin nəticələrini təqdim etməsini istəməklə hər bir hekayə ilə bağlı qısa müzakirə aparır.

Bunu tamamladıqdan sonra müəllim bütün şagirdlərin verilmiş tərifləri anladığına əmin olmaq üçün şagirdlərdən löhvədəki cədvəli və mətni diqqətlə oxumalarını və daha sonra cinslə bağlı fərqliliklərin iki nümunəsini, eləcə də gender fərqlilikləri ilə bağlı iki nümunə verməsini istəyir.

| **Cins** | **Gender** |
|---|---|
| Bioloji yolla müəyyən edilən; | Sosial yolla müəyyən edilən; |
| Statik, dəyişilə bilməz; | Dinamik, dəyişmək mümkündür; |
| *«Cins qadın və ya kişi olmanın bioloji xüsusiyyətlərinə əsaslanan təbii fərqləndiricidir».* | *«Gender bioloji fərqlərin əksi olaraq qadın və kişilər arasındakı öyrənilmiş, zamanla dəyişən, tarixi, mədəni, ənənəvi, coğrafi, dini, sosial və iqtisadi amillərə əsaslanan sosial fərqlərə istinad edən konsepsiyadır».* |

Qruplarına qayıtdıqdan sonra şagirdlərə böyük bir vərəq və marker verilir. İndi onlar öz məktəblərinin gender bərabərliyini təmin edib-etmədiyini müzakirə edirlər. Əgər onlar məktəblərinin bunu təmin etməsi ilə razılaşırlarsa, qruplarının fikirlərini dəstəkləyən beş nümunə təqdim etməlidirlər. Əgər cavab «xeyr»dirsə, onlar məktəblərində gender bərabərliyini təmin edəcək beş nümunə müəyyən etməlidirlər.

Hər bir qrupdan öz nəticələrini təqdim etmək xahiş edilir.

Müəllim layihə işi fəaliyyətini genişləndirmək istəyirsə, o, şagirdləri bir və ya iki fikir seçməyə və bu ideyaları məktəbdə həyata keçirmək üçün plan tərtib etməyə dəvət edir. Plan bütün məqsədləri, atılacaq müxtəlif addımları, məsul şəxsləri və vaxt planını əhatə etməlidir.

## Planın nümunəsi

| **Ümumi məqsəd:** ............................................................................................... | | |
|---|---|---|
| **Nə edilməlidir?** | **Kim edəcək?** | **Bu, nə vaxt hazır olmalıdır?** |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

# Dərs 4
# Sosial Ədalət
### Bərabərsizliklərin öhdəsindən necə gəlməliyik?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər sosial ədalət ilə bağlı problemlərdən agah olur. |
| **Şagird tapşırıqları** | Şagirdlər bölüşdürülmüş ədalət məsələlərini müzakirə edir. Şagirdlər bütün bölməni yenidən gözdən keçirir. |
| **Resurslar** | (könüllü) Şagird paylama materialı 2.3-ün nüsxələri və suallar |
| **Metod** | Mətn əsaslı müzakirə, cütlərlə iş, tənqidi təfəkkür. |

## Məlumat qutusu

Cəmiyyətimizdə sosial ədalətin, əslində, nə demək olması ilə bağlı konsensus yoxdur. Bu dərsdə istifadə edilmiş hekayə, məsələnin mürəkkəbliyini göstərməklə bərabər şagirdlərə sosial cəmiyyətin qurulmalı olduğu əsas prinsiplər haqqında düşünməyə kömək etmək məqsədi daşıyır.

# Dərs

Müəllim şagirdlərə dörd hissədən ibarət hekayə verəcəyini və hər bir hissəni oxuduqdan sonra müzakirənin olacağını izah edir. Alternativ olaraq, müəllim hekayəni ucadan oxuya bilər.

Sonra müəllim sinfi cütlərə bölür və hər bir cütə şagird paylama materialı 2.3-ün bir hissəsini verir. Müəllim onu ucadan oxuya bilər, başqa şagirdin onu oxumasını xahiş edər və ya şagirdlər onu səssiz oxuya bilərlər.

## Müəllim nüsxəsi: I hissə

*«İlk həyəcan siqnalı və «The Queen Maddy» kruiz gəmisinin batması arasında bir saatdan çox vaxt keçmişdir. Beləliklə, sərnişinlər balaca xilasetmə gəmilərinə minməzdən əvvəl özlərini hazırlaya bildilər. Güclü fırtına gəminin neft tankeri ilə toqquşmasına səbəb oldu və gəmi qəzası ilə nəticələndi.*

*Təxminən yarım gün sonra xilasetmə gəmilərinin bəzisi kiçik qayalı adaya çıxdı. O, oval şəkilli, təxminən 1,5 km uzunluğunda və yarım km enliyində və qismən sıx meşə ilə örtülmüşdü. Ətrafda başqa ada yox idi. Bu günəşli adada təpənin zirvəsində dəbdəbəli villada yaşayan və bütün adaya sahib olan Riçalon ailəsindən başqa heç kim yaşamırdı.*

*İllər əvvəl ailə adada yerləşmiş və ətraf aləm ilə çətinliklə əlaqə saxlayırdılar; onlar yalnız aylıq təzə ərzaq, benzin və ehtiyacları olan digər bütün növ əmtəələrin çatdırlmasını təşkil etmişdilər. Onların həyatı yaxşı təşkil edilmişdi; onlar öz elektrik enerjilərini istehlak edir, kifayət qədər ərzaq və içki ala bilir və istədikləri bütün müasir rahatlıqlara sahib idilər. Keçmişdə sahibkar çox uğurlu biznesmen olmuşdur. Vergi məsələsi ilə bağlı hakimiyyət orqanları ilə münaqişədən sonra onun həyata ümidləri boşa çıxmış və bu andan etibarən ətraf aləm ilə bütün əlaqələrini kəsmişdir.*

*Villanın sahibi öz gözəl adasına çıxmış xilasetmə gəmilərini görmüş və gəmi qəzasına uğramış insanlara yaxınlaşmışdır».*

Sonra isə müəllim şagirdlərin nəzərdən keçirməli olduqları birinci sualın, onların fikrincə, adanın sahibinin əxlaqi cəhətdən həmin insanlara öz adasında qalmağa icazə verməyə borclu olub-olmadığını aydınlaşdırmaqdan ibarət olduğunu izah edir. Şagirdlərə nəticə əldə etməkdə kömək etmək məqsədi ilə müəllim bir sıra bəyanatlar oxuyacaq (aşağıda qeyd edilmiş) və hər bir cüt hansı bəyanat(lar) ilə razılaşdıqlarına və nə üçün razılaşdıqlarına qərar verəcəklər. Şagirdlər cütlər şəklində müzakirə edir və cavablarını qeyd edirlər:

A. Sahibkar qəzaya uğramış insanlara adasında qalmağa icazə verməkdən imtina edə bilər.

B. Sahibkar qəzaya uğramış insanlara onları zəruri ərzaq və içki ilə təmin etdiyi müddətdə adasında qalmağa icazə verməkdən imtina edə bilər.

C. Sahibkar ödəniş edə bilməyənlərə (pul, zinət əşyaları ilə və onun üçün işləməklə) adasında qalmağa icazə verməkdən imtina edə bilər.

D. Sahibkar insanlara lazım olduğu qədər adasında qalmağa icazə verməlidir. Qəzaya uğramış insanlar sahibkarın şəxsi həyatına və mülkiyyətinə hörmət etməlidir.

E. Sahibkar qəzaya uğramış insanların adaya şərtsiz girmələrinə icazə verməli və onları da sahib hesab etməlidir.

Müəllim sinfə «Neçə nəfər A müddəasını seçib?» kimi suallar verməklə rəy ala bilər. «Neçə nəfər B müddəasını seçib?» «Nə üçün?»

Daha sonra müəllim hekayənin ikinci hissəsini paylayır.

## Müəllimin nüsxəsi: II hissə

> *«Adanın sahibi qəzaya uğramış insanlara bir müddət qalmağa icazə verməyə qərar verdi. Onun ehtiyatlarından olan xidmətlər v ərzaqdan istifadə üçün onların ödəniş edəcəyini hesab edirdi. Gəmidə qida qaldığı üçün onlara ərzaq satmaqdan imtina etdi.*
>
> *Qəzaya uğrayanların sayı 13 idi. Onlara Viktor, onun hamilə həyat yoldaşı Cosefa və onların iki uşağı (3 və 7 yaşlarında) daxil idi. 64 yaşlı Abramoviç qiymətli daşlar taciri idi. O, qrupun ən yaşlı üzvü idi və heç bir qohumu, dostu yox idi. Onun yanında qızıl üzüklər, almazlar və digər qiymətli daşlar var idi. Con, Keyt, Leo və Alfred güclü, sağlam və çox bacarıqlı dörd dost idi. Onlar icma yataqxanasında birlikdə yaşamış və yaşadıqları evi özləri təmir etmişdilər.*
>
> *Universitetdə yarımştat hüquqşünas işləyən Mariya sol ayağında və ombasındakı problemlər (qəzanın nəticəsi) üzündən çox yavaş yeriyirdi. Onu universitetdəki asistenti Maks müşayiət edirdi, onlar konfransda mühazirə vermək və naşir ilə kitabın nəşrini müzakirə etmək üçün ABŞ-a səfər edirdilər. Onların hər ikisi cinayət hüququnda ixtisaslaşmışdır, lakin əllərindən bir iş gəlmirdi. Son olaraq Marko və onun rəfiqəsi Viki, son anda gəminin anbarından mümkün olduğu qədər çox şey götürə bilən gəmi heyətinin üzvləri: yemək konservləri, peçenyelər, yağ və yemək tavaları. Bütün qəzaya uğrayanların yanında bir qədər pul var idi, lakin bosman Markoda böyük məbləğdə pul var idi, o, pulları sonuncu dəfə çağırıldıqları limanda bir mənzildən oğurlamışdı.*
>
> *Adada dənizin yaxınlığında dağın yamacında kifayət qədər kiçik, köhnə koma vardı. Onun iki və ya üç nəfər üçün primitiv sığınacaq ola biləcək yalnız bir otağı vardı».*

Daha sonra müəllim izah edir ki, hər bir cütlük, onların fikrincə, sığınacaqdan istifadənin kimə verilməli olduğuna qərar verməlidir. Müəllim aşağıdakı müddəaları oxuyur və şagirdlərdən cütllükərdə hansı müddəalarla razılaşdıqlarını, nəyə görə razılaşdıqlarını və başqa həll yollarının olub-olmamasını müzakirə etmələrini xahiş edir:

A. Hamilə qadın və uşaqlar.

B. Komanı təmir etmək iqtidarında olan dörd gənc dost.

C. Komaya görə ödəniş edən daş-qaş taciri (buna görə də başqalarının bir qədər ərzaq almasına icazə verməklə).

D. Ərzaqlarını digərləri ilə bölüşmək şərti ilə bosman və onun rəfiqəsi.

E. Vasitəçi kimi çıxış edə biləcək və qəzaya uğrayanlar arasında mübahisələri həll edə biləcək hüquqşünas.

Məlumatların verilməsindən sonra hekayənin növbəti hissəsi verilir.

## Müəllimin nüsxəsi: III hissə

> *Qəzaya uğrayanlar da bosmanın özü ilə götürdüyü və paylaşmaq niyyətində olmadığı ərzaq ehtiyatları ilə nə edəcəkləri haqqında qərar verməli idi. Əslində, bu ərzağı paylaşmaq onun və rəfiqəsinin sağ qalma şansının azalması deməkdir.*

İndi cütlər gəmidən qalan ərzağı kimin almalı olması ilə bağlı düşünməlidirlər. Müəllim yenidən müddəaları oxuyur və şagirdlərdən cütlərdə hansı bəyanat(lar)la razılaşdıqlarını, nəyə görə razılaşdıqlarını və başqa həll yollarının olub-olmamasını müzakirə etmələrini xahiş edir:

A. Bosmana ərzağı özü və rəfiqəsi üçün saxlamağa icazə verilməlidir.

B. Mövcud ərzaq qəzaya uğramış bütün şəxslər arasında bərabər bölüşdürülməlidir.

C. Mövcud ərzaq ən yüksək təklifi irəli sürmüş şəxs tərəfindən alına bilər (bu, istər pul, əmtəə, istərsə də xidmətlər olsun). Məlumatların verilməsindən sonra hekayənin sonuncu hissəsi oxunur.

# Müəllimin nüsxəsi: IV hissə

Şagirdlər cütlüklərdə müzakirə edirlər: kim sahibkardan ərzaq istəməlidir və bunu necə etməlidir?

> *Qəzaya uğrayanlar qərar verdi ki, ərzaq hər hansı kompensasiya olmadan bölüşdürülməlidir. Onlar Markonun mənəvi öhdəlik hissinə təsir etməklə onu öz ərzaqlarını təhvil verməyə məcbur etdilər. Təxminən bir həftə keçəndən sonra ərzaq qalmamışdı və yeganə çarə villanın sahibindən bir qədər ərzaq almağa çalışmaq idi.*

Daha sonra müəllim aşağıdakı müddəaları oxuyur və hansı bəyanat(lar)la razılaşdıqlarını, nəyə görə razılaşdıqlarını və başqa həll yollarının olub-olmamasını soruşur.

A. Hər bir şəxs ayrı-ayrılıqda sahibkar ilə ticarət şərtləri ilə bağlı danışıqlar aparmalıdır (pul, qiymətli daş-qaşlar və ya əmək ilə ödəniş etmək). Bu halda, uşaqlı ailənin və xüsusilə hüquqşünas ilə onun köməkçisinin problemləri olacaq.

B. Bütün mövcud resurslar (qiymətli daş-qaşlar, pul) sahibinin kimliyindən asılı olmayaraq, hər kəs tərəfindən bərabər paylaşdırılmalıdır. Bu yolla gətirilmiş ərzaq bərabər şəkildə bölüşdürülməlidir. Daha sonra əlavə ərzaq fərdi qaydada, əmək müqabilində gətirilə bilərdi.

C. B variantı ilə eyni, lakin hər kəs bacardığı qədər işləməli və bu yolla qazandığı ərzağı bölüşməli idi.

D. Daş-qaş tacirinə sahibkarın satmağa hazır olduğu hər şeyi almağa və başqalarına ərzaqla «kömək» etməyə icazə verildi.

Məlumatların verilməsindən sonra müəllim şagirdlərə hekayəni həyata tətbiq etməkdə kömək məqsədi ilə sinif müzakirəsi apara bilər.

Cəmiyyətimizdə bənzər hallarla rastlaşırsınızmı?

A. ... qonşuluğunuzda və ya ailənizdə?

B. ... ölkənizdə?

C. ... qlobal miqyasda?

Ərzaq, su, yaşayış yerinin təminatı və s. ilə bağlı sizə təsir edən ədalətsizlik halları ilə rastlaşmısınızmı?

A. ... qonşuluğunuzda və ya ailənizdə?

B. ... ölkənizdə?

C. ... qlobal miqyasda? Nə üçün?

Bu dərsin sonunda bu bölmənin əsas konsepsiyası ilə bağlı müzakirə keçirilməlidir. Müəllim əlavə dərs tədrislə bağlı qərar verə bilər. Başlanğıc üçün müəllim bu bölmədən bərabərlik və müxtəliflik haqqında əsas məlumatları istifadə etməklə qısa mühazirə verir. O, hətta müxtəlif təriflərlə bağlı material hazırlaya bilər. Daha sonra şagirdlər kiçik qruplar şəklində dörd dərslə bağlı düşünəcək: Onlar nə müzakirə etdilər? Onlar nə öyrəndilər? Onlar hansı yeni suallardan xəbərdar oldular? Onlar şəxsi həyatlarında bərabərsizlik vəziyyətlərinə necə reaksiya verməklə bağlı təkliflər fikirləşib tapırlar.

# Şagird paylama materialı 2.1
## Vesnanın hekayəsi

Qaraçı Vesna başına gələnləri danışır:

*«Paltar mağazasının vitrinində vurulmuş satış köməkçisi elanını gördüm. Onlar 18-23 yaş arasında bir nəfər axtarırdılar. 19 yaşım var, getdim və menecerdən iş haqqında soruşdum. O, mənə iki gün sonra yenidən gəlməyi dedi, çünki hələ kifayət qədər adam müraciət etməmişdi.*

*Mən iki dəfə qayitdım və hər dəfə eyni cavabı aldım. Təxminən bir həftə sonra qayıtdım, elan hələ də vitrində idi. Menecerin mənimlə danışmağa vaxtı yox idi. Mənə dedilər ki, vakansiya artıq dolmuşdur.*

*Mağazadan çıxanda qaraçı olmayan dostumdan xahiş etdim ki, vakansiya ilə bağlı müraciət etsin. O qayıdanda dedi ki, onu bazar ertəsi intervyuya dəvət ediblər."*

## Suallar

1. Vesnanın başına gələn sizin başınıza gəlsəydi, özünüzü necə hiss edərdiniz? Dostunuz müsahibəyə dəvət edildiyini desəydi, necə reaksiya verərdiniz?
2. Sizcə, mağazanın meneceri nəyə görə bu şəkildə davranmışdır? Sizcə, bu, ayrı-seçkiliyin bir növüdür? Nəyə görə (nəyə görə yox)?
3. Vesna bununla bağlı nə edə bilərdi? Sizcə o, bu vəziyyəti dəyişə bilərdi? Başqaları onun yerində olsaydı nə edərdi?
5. Sizcə bu vəziyyətlə bağlı qanun nəsə edə bilər? Qanun nə etməlidir?
6. Bu, sizin ölkənizdə də baş verə bilərmi? Əgər cavab müsbətdirsə, hansı qruplar təsir görərdi?

# Şagird paylama materialı 2.2
**Qadınlar və kişilər: hekayə**

## Hekayə 1

*«Bu, başıma dəfələrlə gəlib. Hər dəfə nahardan sonra anamın bizdən gözləntisi budur ki, bütün qabları və qazanları mətbəxə aparaq, masanı təmizləyək, qabları yuyaq, hər şeyi mətbəx şkafına qoyaq və bütün mətbəx təmiz və səliqəli olsun. Bir dəfə məndən yaşca böyük olan iki qardaşım söylədilər ki, bu iş onlarlıq deyil və qız olduğum üçün bunu mən etməliyəm. Bu dəfə mən etiraz etmədim, çünki çox məyus olmuşdum. Atama şikayət etdim, lakin o cavab verdi ki, bir az təcrübə qazanmaq yaxşıdır və bu, gələcəkdə evdar qadın olmaq üçün yaxşı hazırlıqdır».*

## Suallar

1. Bunun sizin ailənizdə baş verdiyini təsəvvür edə bilirsinizmi?
2. Özünüzü bu qızın yerində təsəvvür edin: qardaşlarınıza nə demək istəyərdiniz? Bəs atanıza?
3. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci Maddəsindəki mətn ilə razısınızmı? Bu, yuxarıda qeyd edilən hekayəyə necə tətbiq edilir?

«Bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar».

---

## Hekayə 2

*«Məktəbin oyun meydançasında altı oğlan ətrafımda dayanmışdı. Onların hamısı mənə baxır və sataşırdılar. Onlar dedilər: «Uşaqlar, bunun qız olduğuna əminsiz? Daha yaxından yoxlayaqmı?» Daha sonra onlardan biri mənə yaxınlaşdı və mənə toxunmağa cəhd etdi. Lakin bu anda məktəb direktoru meydançaya gəldi və oğlanlar getdilər.»*

## Suallar

1. Bunun məktəbinizdə və ya məktəbinizin ətrafında baş verdiyini təsəvvür edə bilirsinizmi? Nümunələr verin.
2. Özünüzü bu qızın yerində təsəvvür edin: həmin oğlanlara nə deyərdiniz?
3. Uzaqdan baş verənləri görən başqa bir oğlanı təsəvvür edin. Bu oğlan müdaxilə etməlidirmi? Nəyə görə/nəyə görə yox? O, bunu necə edə bilərdi?
4. Aşağıdakı tərifə əsasən baş verən hadisənin «cinsi zorakılıq» olduğunu düşünmək olarmı?

*«Cinsi zorakılıq insan ləyaqətinə sözlə, əməllə və ya seksual təbiətli psixoloji təsirlə zərər vurmaq niyyəti daşıyan və ya vuran yaxud hədə-qorxu, düşmənçilik və ya alçaldıcı xarakter daşıyan, əks cins, fərqli cinsi orientasiyaya məxsus olan şəxs tərəfindən törədilən bənzər vəziyyətlərdir və qurbanın məruz qaldığı qəbulolunmaz fiziki, verbal, təhrikedici və başqa davranışlardır».*

---

## Hekayə 3

*«Gənc mühəndis kimi mən tikinti materialları fabrikində texniki dəstək meneceri vəzifəsinə müraciət etdim. Məndən başqa hamısı kişi olan başqa 24 şəxslə ümumi, texniki və psixoloji testlərdə iştirak etməyə dəvət edildim. Bu mərhələdən sonra beş nəfər baş menecer ilə müsahibə üçün seçildi.*

*Testlərdə üçüncü olmağıma baxmayaraq, mən onlar arasında yox idim (bu məlumatı mənə çox məxfi əsasda inzibati ofisdə işləyən dostum vermişdi). Bu məlumatı qeyd etmədən mən baş menecerə zəng etməyə çalışdım. Onunla əlaqə saxlamağa nail olduqda onların mənim qadın olmağımı nəzərə alıb-almadıqlarını soruşdum. O, bunu inkar etdi, lakin dedi ki, bir neçə il sonra, adətən, qadınlar hamilə qalır və bu, müəyyən işlərdə davamlılıq problemi yaradır. O, həmçinin dedi ki, xüsusilə bu iş qadın üçün kifayət qədər çətin ola bilər, çünki texniki heyətdəki bütün işçilər kişidir və onlar özlərini kobud aparırlar. Mən seçilmədiyim üçün özümü şanslı hesab etməliyəm».*

## Suallar

1. Bunun regionunuzdakı bir şirkətdə baş verməsini təsəvvür edə bilirsinizmi?
2. Özünüzü bu qadının yerində təsəvvür edin: baş menecerə nə deməek istəyərdiniz?
3. Sizcə, bu halda baş menecer ölkənizdəki qanunun əleyhinə hərəkət edir? Cavabınız «hə»dirsə, bunu necə sübut edərsiniz?

*«Məşğulluq prosesində, vakansiyaların elanında, seçmə prosedurlarında, işə götürmə və işdən çıxarma proseslərində gender əsaslı ayrı-seçkiliyin bütün formaları qanunvericiliyin müddəalarına ziddir».*

# Şagird paylama materialı 2.3
**Gəmi qəzası**

## Birinci hissə

«İlk həyəcan siqnalı və «The Queen Maddy» kruiz gəmisinin batması arasında bir saatdan çox vaxt keçmişdir. Beləliklə, sərnişinlər balaca xilasetmə gəmilərinə minməzdən əvvəl özlərini hazırlaya bildilər. Güclü fırtına gəminin neft tankeri ilə toqquşmasına səbəb oldu və gəmi qəzası ilə nəticələndi.

Təxminən yarım gün sonra xilasetmə gəmilərinin bəzisi kiçik qayalı adaya çıxdı. O, oval şəkilli, təxminən 1,5 km uzunluğunda, 0,5 km enində və qismən sıx meşə ilə örtülmüşdü. Müvafiq məsafədə başqa ada yox idi. Bu günəşli adada təpənin zirvəsində dəbdəbəli villada yaşayan və bütün adaya sahib olan Riçalon ailəsindən başqa heç kim yaşamırdı.

İllər əvvəl ailə adada yerləşmişdi və ətraf aləm ilə çətinliklə əlaqə saxlayırdı; onlar yalnız aylıq təzə ərzaq, benzin və ehtiyacları olan digər bütün növ əmtəələrin çatdırlmasını təşkil etmişdilər. Onların həyatı yaxşı təşkil edilmişdi; onlar öz elektrik enerjilərini istehlak edir, kifayət qədər ərzaq və içki ala bilir və istədikləri bütün müasir rahatlıqlara sahib idilər. Keçmişdə sahibkar çox uğurlu biznesmen olmuşdu. Vergi məsələsi ilə bağlı hakimiyyət orqanları ilə münaqişədən sonra onun həyatla bağlı ümidləri boşa çıxmış və bu andan etibarən ətraf aləm ilə bütün əlaqələrini kəsmişdir.

Villanın sahibi öz gözəl adasına çıxmış xilasetmə gəmilərini görmüş və gəmi qəzasına uğramış insanlara yaxınlaşmışdır».

---

## İkinci hissə

«Adanın sahibi qəzaya uğramış insanlara bir müddət qalmağa icazə verdi. O hesab edirdi ki, onun ərzaq ehtiyatından və xidmətlərindən istifadə üçün zərərçəkənlər ödəniş edəcəklər. Gəmidən qida qaldığı üçün onlara nəsə satmaqdan imtina etdi.

Qəzaya uğrayanların sayı 13 idi. Onlara Viktor, onun hamilə həyat yoldaşı Cosefa və onların iki uşağı (3 və 7 yaşlarında) daxil idi. 64 yaşlı Abramoviç qiymətli daşlar taciri idi. O, qrupun ən yaşlı üzvü idi və heç bir qohumu, dostu yox idi. Onun yanında qızıl üzüklər, almazlar və digər qiymətli daşlar var idi. Con, Keyt, Leo və Alfred güclü, sağlam və çox bacarıqlı dörd dost idilər. Onlar icma yataqxanasında birlikdə yaşamış və yaşadıqları evi özləri təmir etmişdilər.

Universitetdə yarımştat hüquqşünas işləyən Mariya sol ayağında və ombasındakı problemlər (qəzanın nəticəsi) üzündən çox yavaş yeriyirdi. Onu universitetdəki asistenti Maks müşayiət edirdi, onlar konfransda mühazirə vermək və naşir ilə kitabın nəşrini müzakirə etmək üçün ABŞ-a səfər edirdilər. Onların hər ikisi cinayət hüququnda ixtisaslaşmışdır, lakin əllərindən bir iş gəlmirdi. Son olaraq Marko və onun rəfiqəsi Viki. Onlar son anda gəminin anbarından mümkün olduğu qədər çox şey götürən (yemək konservləri, peçenyelər, yağ və yemək tavaları) gəmi heyətinin üzvləridir: Bütün qəzaya uğrayanların yanında bir qədər pul var idi, lakin bosman Markoda böyük məbləğdə pul var idi, o, pulları sonuncu dəfə çağırıldıqları limanda bir mənzildən oğurlamışdı.

Adada dənizin yaxınlığında dağın yamacında kifayət qədər kiçik, köhnə koma vardı. Onun iki və ya üç nəfər üçün primitiv sığınacaq ola biləcək yalnız bir otağı vardı».

---

## III hissə

«Qəzaya uğrayanlar da bosmanın özü ilə götürdüyü və paylaşmaq niyyətində olmadığı ərzaq ehtiyatları ilə nə edəcəkləri haqqında qərar verməli idi. Əslində, bu ərzağı paylaşmaq onun və rəfiqəsinin sağ qalma şansının azalması deməkdir.

## IV hissə

«Qəzaya uğrayanlar qərar verdi ki, ərzaq hər hansı kompensasiya olmadan bölüşdürülməlidir. Onlar Markonun mənəvi öhdəlik hissinə təsir etməklə onu öz ərzaqlarını təhvil verməyə məcbur etdilər. Təxminən bir həftə keçəndən sonra ərzaq qalmamışdı və yeganə çarə villanın sahibindən bir qədər ərzaq almağa çalışmaq idi.

# BÖLMƏ 3
# Müxtəliflik və plüralizm

## İnsanlar sülh şəraitində birlikdə necə yaşaya bilər?



### 1.1. İnsanlar birlikdə necə yaşaya bilər?
**Təhsil dözümlülük və anlamanı inkişaf etdirməyə necə kömək edə bilər?**

### 1.2. İnsanlar nəyə görə razılığa gəlmir?
**Fərqliliklər nəyə əsaslanır?**

### 1.3. İnsanlar hansı şəkildə fərqlənir?
**İnsanların ehtiyacları necə fərqlənir?**

### 1.4. İnsan hüquqları nə üçün mühümdür?
**İnsan hüquqları qanunvericiliyi həssas insanları nəyə görə qorumalıdır?**

# BÖLMƏ 3: Müxtəliflik və plüralizm
# İnsanlar sülh şəraitində birlikdə necə yaşaya bilər?

Bölmə üç əsas konsepsiyanı hədəfə alır: müxtəliflik, plüralizm və demokratiya. O, şagirdlərə plüralist, demokratik qaydada idarə edilən cəmiyyətdə yaşamaq üçün ehtiyacları olan münasibətlərin və bacarıqların yaradılmasına dəstək olmaq üçün həmin konsepsiyalar arasında bəzi əlaqələri kəşf edir.

Plüralizm müasir cəmiyyətlərin əsas keyfiyyətidir ki, burada geniş (lakin hər şeyi əhatə etməyən) dini və siyasi inanclar - müxtəliflik - qəbul edilir və müxtəlif siyasi partiyaların nəzərdə tutduğu ideal cəmiyyətlərin bir-birilə uyğun olmaması nəzərə alınır. Məsələn, radikal sosialist partiyalara üzv olan vətəndaşlar sağçı, kapitalist əqidəyə sahib olan vətəndaşlar üçün tamamilə yad ola biləcək cəmiyyətə nail olmağa çalışırlar. Plüralist cəmiyyətlərdə əksər adətlərin və dəyərlərin, o cümlədən dini inancların ümumi təsiri azalıb. Fərdlər hansı dəyərlərə inanacaqlarını və həyatlarını necə yaşamaq istədiklərini özləri müəyyən edə bilər və etməlidirlər. Buna görə də plüralist cəmiyyətlər problem yaradır: insanlar nə vaxtsa olduğundan daha çox şəxsi azadlıqlardan yararlana bilər, lakin digər tərəfdən insanlar heç bir cəmiyyətin onsuz mövcud ola bilməyəcəyi razılaşma və kompromisə nail olmaq üçün daha çox çalışmalıdırlar. Bu, hansı siyasi sistemin açıq, plüralist cəmiyyətdə qərar qəbuletmə prosesinin təşkili üçün ən yaxşı şəraiti təmin etməsi ilə bağlı sual qaldırır.

Avtoritar sistemdə – birpartiyalı idarəçilik, teokratiya və ya hətta diktaturada – bu problem bir nəfərə (məsələn, partiya və ya lider) ümumi maraqlara əsasən hər kəsin adından qərar vermək səlahiyyəti verməklə həll edilir. Bu həll yolu plüralizm çağırışına ondan yayınmaqla – fərdlərin azadlığını qurban verməklə cavab verir. Plüralist cəmiyyətdə münaqişə potensialının qarşısı alınıb, lakin bunun üçün ödənilən qiymət yüksəkdir: bir çox problemlər düzgün və ədalətli həllini tapmır, çünki onlar artıq aydın ifadə edilə bilmir.

Demokratiya şəraitində vətəndaşlar, əsasən, onlara bir çox məsələ ilə bağlı razılığa gəlməməyə imkan verən, lakin həmçinin qeyri-zorakı yollarla razılığa gəlmək üçün vasitələr təklif edən prinsiplər toplusu, prosedur qaydaları və hüquqlar ilə bağlı razılığa gəlirlər. Bu tərəfdən baxdıqda, demokratiya plüralist cəmiyyətlərdə münaqişənin qarşısını almaq əvəzinə onu "mədəniləşdirməklə" sülhü dəstəkləyir. Ümumi maraq öncədən hər hansı tək bir partiya tərəfindən müəyyən edilmək əvəzinə birlikdə işlənib-hazırlanmalı və razılığa gəlinməlidir. Narazılıq və münaqişə normaldır və onların dağıdıcı potensialı nəzarət altında olduğu müddətdə heç bir vəchlə zərərli deyil. Buna görə də hökumətin bir forması kimi demokratiyada vətəndaşlara vicdan, etiqad və ifadə azadlığı kimi əsas hüquqlar verilir. Vətəndaşlar bu hüquqları istifadə edən zaman onlar narazılıq, münaqişə yaradacaq və onlar həll yolu ilə bağlı razılığa gəlməli olacaqlar. Münaqişələri necə idarə edəcəkləri və son olaraq onları necə həll edəcəkləri üzrə qaydalarla razılaşmalarını təmin etmək üçün plüralist demokratiyaların vətəndaşları bütün digər vətəndaşlarla həmin cəmiyyətin sosial və siyasi konvensiyaları çərçivəsində yaşamaq üçün sosial razılaşmaya daxil olmalıdırlar.

Bu cür sosial razılaşmaya çoxluq tərəfindən idarə prinsipi daxildir. Bəzi azlıq qrupları üçün bunun çatışmayan cəhəti ondan ibarətdir ki, onların şəxsi radikal arzusuna heç vaxt seçki qutusu vasitəsilə nail olmaq mümkün olmayacaq. Digər tərəfdən bu cür cəmiyyətlər dövlətin maneəsiz legitim siyasi məqsədlərini təmin etmək üçün siyasi azlıqların hüquqlarına zəmanət verir. Buna görə də plüralist demokratiyalar həmişə üzvləri siyasi müxalifətin fəaliyyətini məhdudlaşdırmağa meylli ola biləcək radikal hökumətin seçilməsinin mümkünlüyü ilə yaşayır. Buna görə də, insan hüquqlarının və azadlıqlarının demokratik ölkələrin konstitusiyasına daxil olması üçün qanunvericiliyin olması mühümdür.

Hər bir nəsil plüralist cəmiyyətlərdə mövcud olan bu mürəkkəb problemlər toplusunu və onların demokratik cəmiyyətdə necə qarşılana biləcəyini anlamalıdır. Buna heç bir demokratik cəmiyyətin onsuz mövcud ola bilməyəcəyi yazılmamış sosial razılaşma üçün qiymətləndirmə daxildir. Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə Təhsil (DVİHT) şagirdlərə vətəndaş kimi iştirak etmələri üçün ehtiyacları olan anlama, münasibətlər və bacarıqları inkişaf etdirməkdə dəstək ola bilər.

## Müxtəliflik və plüralizm haqqında təlim

DVT dərslərində iştirak edən şagirdlərə sosial, siyasi, dini və radikal müxtəlifliklərin xarakterini/təbiətini anlamaqda kömək edilməlidir. Onlara bu cür müxtəliflikdən irəli gələn problemlərin mürəkkəb xarakterini anlamağa kömək edilməlidir. Nəzərə alsaq ki, ön mühakimə maarifləndirmənin və anlamanın çatışmazlığından yaranır, qatı fanatizm bilik və empatik mühakimənin inkşaf etdirilməsində münasibətlərin rasional ekspertizası vasitəsilə azaldıla bilər.

## Müxtəliflik və plüralizm üçün təlim

Şagirdlər həmçinin demokratik müzakirədə iştirak etməlidir ki, onunla necə məşğul ola biləcəklərini öyrənsinlər. Buna görə də Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə Təhsil (DVİHT) şagirdlərə mövzu ilə bağlı şəxsi fikirlərini ifadə etmələrini və bu düşüncələrini əsaslandırmalarını təklif etmək üçün hər bir imkanı təmin etməlidir. Eyni məsələ ilə bağlı digər şagirdlərin düşüncələrinin dinlənilməsində və onların cavablandırılmasında şagirdlər yalnız öz təhlil və ifadə bacarıqlarını inkişaf etdirməyəcəklər, onlar həmçinin mənəvi və siyasi müxtəlifliliyə münasibətdə tolerantlığın əsas xarakterlərini inkişaf etdirəcəklər. Onlar narazılıq və ziddiyyətlə bağlı vəziyyətləri qəbul etmək bacarığını inkişaf etdirəcək və həmçinin kompromislə bağlı zərurəti qiymətləndirəcək, ədalətli və ədalətsiz kompromis arasındakı fərqi anlayacaqlar. Onlar diqqəti problemlərə yönəltməli, düşüncə və maraqlarından asılı olmayaraq insanlara hörmət etməlidirlər.

Demokratik müzakirə təcrübəsi vasitəsilə şagirdlər həmçinin açıq və ədalətli debatların müəyyən əsas qaydalara əməl edilməsini tələb etdiyini öyrənəcək, o cümlədən:

- faydalı fikirləri ola biləcyini nəzərə alıb bütün iştirakçılara şərait yaradılmalıdır;
- hər kəsin fikri hörmətlə dinlənilməlidir;
- iştirakçılar insanları deyil, arqumentləri tənqid etməlidirlər;
- iştirakçılar şəxsi fikirlərini dəyişə bilmək ehtimalını qəbul etməklə debata daxil olmalıdırlar;
- iştirakçıların qapalı mövqedən mübahisə etdikləri çəkişməli debatlarla müqayisədə məqsədin «mübahisədə qalib olmaq» deyil «problemi daha yaxşı anlamaq» olduğu izahedici debatlarda, adətən, daha çox faydalıdırlar.

Bu, DVT-ni araşdırma və müzakirə proseslərinin verilmiş həqiqətlərin açıqlanması ilə müqayisədə daha mühüm olduğu fənn kimi qeyd edir. DVT müəllimləri şagirdlərinin düşüncələrinə rəhbərlik etmək əvəzinə onları dəstəkləmək bacarıqlarını inkişaf etdirirlər. Araşdırma göstərir ki, müəllim az danışanda daha çox şagirdlər danışırlar.

# BÖLMƏ 3: Müxtəliflik və plüralizm
# İnsanlar sülh şəraitində birlikdə necə yaşaya bilər?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1:<br>Müxtəlif mədəniyyətlərdən olan istəkləri ilə cəmiyyətə problemləri müzakirə edir. | İnsan hüquqları nə üçün mühümdür?<br>insanlar arasında anlamanın təsir edə biləcəklərini<br>Şagirdlər<br>Şagirdlər problemi rol oyunu oynayır.<br>3.1-in Müzakirə.<br>Tənqdi təfəkkür.<br>Fərziyyə bildirmə.<br>Rol oyunu. | olan icmaların sülh şəraitində birlikdə yaşamağa<br>inkişaf etdirilməsi sahəsində<br>nəzərdən keçirmək.<br>tənqidi təfəkkürdə araşdırmaq üçün<br>Şagird materialı nüsxələri. | çalışması zaman ortaya çıxan təhsilin rolunu nəzərdən keçirmək.<br>Şagirdlər hekayədə | problemləri nəzərdən keçirmək.<br>Şəxslərin öz qaldırılmış iştirak edir. |
| Dərs 2:<br>nəzərdən keçirmək.<br>Demokratik<br>Şagirdlər | İnsanlar nəyə<br>Mübahisəli məsələləri cəmiyyətlərdə problemlərin bəyanatlar səviyyəsindəki mübahisəli narazılıqların mənbələrini təhlil edirlər.<br>dəyələrinin üzərindəki nəzərdən keçirirlər. | görə razlığa gəlmir?<br>müzakirə etmək hansı dəyərlərin əhatə dairəsi edir və onları müdafiə edirlər.<br>məsələlərlə bağlı<br>Şagirdlər şəxsi təsirləri<br>Şagirdlər plüralizmə hörməti təşviq etmək və ictimai məsələlər ilə bağlı hörmətin və dilaqun keyfiyyətinin qüvvədə saxlanılmasını təmin etmək üçün təlimatlar hazırlayırlar.<br>«Dörd künc» tapşırığı üçün böyük plakatlar.<br>Metodlar<br>Müzakirə.<br>Düşünmə.<br>Tənqidi təfəkkür.<br>Qaydaların birgə hazırlanması. | İnsanların nəyə görə bacarığnı zəruri olduğunu ilə bağlı öz fikirləri | fərqli düşüncələrinin olmasını inkişaf etdirmək.<br>nəzərdən keçirmək haqqında<br>Şagirdlər cəmiyyət |

# Dərs 1.
# İnsanlar birlikdə necə yaşaya bilər?
## Təhsil tolerantlığın və anlaşmanın inkişafına necə kömək edə bilər?[13]

| | |
|---|---|
| **Təlimin məqsədləri** | Şagirdlər:<br>– Müxtəlif dəyərlərə və inanclara malik cəmiyyətlərin birlikdə yaşayış zamanı yaranan çətinliklərini;<br>– Müxtəlif m\ədəniyyətlərə məxsus insanlar arasında anlaşmanın yaranmasında təhsilin rolunu;<br>– Ayrı-ayrılıqda insanların cəmiyyətə təsir göstərmək gücünü nəzərdən keçirir. |
| **Şagirdlər üçün tapşırıqlar** | Şagirdlər konkret situasiya ilə bağlı sualları müzakirə edirlər.<br>Tənqidi təfəkkür nümayiş etdirirlər.<br>İdeya mübadiləsi aparırlar.<br>Məsələnin dərindən öyrənilməsi üçün rollu oyunlarda iştirak edirlər. |
| **Resurslar** | 3.1 şagird materialının surətləri |
| **Metodlar** | Müzakirə<br>Tənqidi təfəkkür<br>Fərziyyələrin qurulması<br>Rollu oyunlar |

13. London Vətəndaşlıq Fondu tərəfindən hazırlanmış dərs əsasında.

# Dərs

Müəllim dərsin məqsədlərini təqdim edir və sinfə «Meşənin kənarındakı məktəb» hekayəsini (şagird materialı 3.1) oxuyur.

Müəllim şagirdləri dairə şəklində oturdur və onlardan hekayədə nələri təəccüblü və ya maraqlı hesab etdiklərini və nə üçün belə düşündüklərini soruşur. Onlara öz fikirlərini bütün qrupla paylaşmazdan əvvəl partnyorları ilə danışmaq üçün «buzz qruplarında» (cütlər) iki dəqiqə vaxt verin.

Müəllim sinfə xatırladır ki, «tədqiqata əsaslanan» müzakirədə məqsəd ideyaları bölüşmək və onları birlikdə inkişaf etdirməkdir. Düzgün və ya yanlış cavablar yoxdur.

Daha sonra müəllim soruşur: «Gəlin, məktəbi yandırmaq istəyəcək mümkün qədər çox adam təsəvvür edək (məsələn, bəzi uşaqlar, bəzi valideynlər, bəzi keşişlər). Onların bunun üçün hansı motivləri ola bilər? Məktəb yenidən inşa edilməzsə, kimlər qazanacaq, kimlər uduzacaq? (Məsələn, əgər şagirdlər məktəbə getməli olmasalar, bu onlar üçün qazanc, yoxsa itki olacaq?)»

Bu, aşağıdakı kimi cədvəl şəklində edilə bilər:

| Tərəfin adı | Qazanclar | İtkilər |
|---|---|---|
| Şagirdlər | | |
| Valideynlər | | |
| Keşiş | | |
| Bütün icma | | |
| Daha kim? | | |

İndi müəllim şagirdləri hekayədə müəllimin roluna diqqət yetirməyə istiqamətləndirir. Birincisi, ümumi sual - «Müəllim barədə nə düşünürsünüz?» - şagirdləri ideyalarını bildirməyə təşviq edir. Növbəti sual ola bilər:

– O, axmaq, idealist yoxsa cəsarətli idi?

– Etmək istədiklərinə görə ona heyransız yoxsa qınayırsınız?

– Sizcə, onun motivləri nə idi?

– Sizcə, onun sosial dəyərləri haradan gəlir?

– O, indi nə etməlidir və nə üçün? (Yenidən cəhd etmək yoxsa təslim olmaq?)

– Əgər bu məktəbdə şagird olsaydınız, müəllimin nə etməsini istəyərdiniz?

Daha sonra müəllim şagirdlərə hekayədəki məsələləri öz cəmiyyətləri ilə əlaqələndirməyə kömək edir. Mümkün suallar:

– Yaşadığınız yer haqqında düşünün.

– Sizcə, bu müəllim kimi insanlar mövcuddur?

– Sizcə, insanlar təkbaşına cəmiyyəti dəyişə bilər? Nümunələr fikirləşin.

Hekayədə qaldırılan digər mühüm məsələlərə daxildir:

– Sizcə, uşaqlarının birlikdə təhsil alması vasitəsilə iki xalq arasında sülhə nail olmaq nə dərəcədə realdır?

– Müxtəlif dəyərləri olan və müxtəlif dinlərdən olan uşaqların birlikdə təhsil alması zamanı məktəblər və müəllimlər hansı problemlərlə üzləşirlər? Bu, necə həll edilə bilər?

– Dərs rol oyunu ilə yekunlaşdırıla bilər. Məktəb yanmazdan əvvəl düzənlikdə yaşayan uşaqların bəzi valideynlərinin şikayətlə müəllimin yanına gəldiyini təsəvvür edin. Onlar dedilər:

*«Bu məktəbdə meşə uşaqlarından daha çox düzənlik uşaqları var, beləliklə, biz düşünürük ki, siz bizim uşaqlarımıza meşə uşaqlarının dinini tədris etməməlisiniz. Bu, onları öz xalqına qarşı çevirə bilər».*

Müəllim bundan narazı qalır. Cütlər şəklində valideyn və müəllim arasında söhbət təşkil edin. Bunu sinfə təqdim edin.

# Dərs 2
# İnsanlar nəyə görə razılığa gəlmir?
## Fərqliliklər nəyə əsaslanır?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər insanların nəyə görə mühüm məsələlər ilə bağlı fərqli düşüncələrinin olmasını nəzərdən keçirirlər.<br>Şagirdlər mübahisəli məsələləri müzakirə edirlər.<br>Şagirdlər demokratik cəmiyyətlərdə hansı dəyərlərin möhkəmlədilməsinin zəruri olduğunu nəzərdən keçirirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər problemlərin əhatə dairəsi ilə bağlı öz fikirləri haqqında bəyanatlar edir və onları müdafiə edirlər.<br>Şagirdlər cəmiyyət səviyyəsindəki mübahisəli məsələlərlə bağlı narazılıqların mənbələrini təhlil edirlər. Şagirdlər şəxsi dəyərlərinin üzərindəki təsirləri nəzərdən keçirirlər.<br>Şagirdlər plüralizmə hörməti təşviq etmək və ictimai məsələlər ilə bağlı hörmətin və dialoqun keyfiyyətinin qüvvədə saxlanılmasını təmin etmək üçün təlimatlar hazırlayırlar. |
| **Resurslar** | «Dörd künc» tapşırığı üçün böyük plakatlar. |
| **Metodlar** | Müzakirə.<br>Düşünmə.<br>Tənqidi təfəkkür.<br>Qaydaların birgə hazırlanması. |

## Əsas anlayış

**Plüralizm:** Plüralizm yalnız bir rəsmi maraqlar, dəyərlər və ya inancları toplusuna sahib olmayan cəmiyyətlərdə mövcuddur. Vətəndaşlar vicdan, din və ifadə azadlığı hüququna malikdirlər. İstisnanı digər insanların etiqad azadlığını hədələyən düşüncələrin qanun əleyhinə olmasını və qəbul edilməməsi təşkil edir. Yalnız bir dinə icazə verən və ya heç bir dinə dözməyən dövlət plüralist ola bilməz.

# Dərs

Müəllim sinifdən aşağıdakı ziddiyətli müddaələrı nəzərdən keçirmələrini istəyir:

> **Razısınız yoxsa razı deyilsiniz?**
> – Heyvanları yemək düzgün deyil.
> – Əgər şagird İİV-ə yoluxubsa, o sağlam uşaqlarla eyni sinifdə olmamalıdır.
> – Pasifistlər silahlı qüvvələrə qoşulmağa məcbur edilməməlidir.
> – Ölüm hökmü qadağan edilməlidir.
> – Qadının yeri onun evidir.
> – 14 yaşınadək uşaqlara işləməyə icazə verilməməlidir.
> – Siqaret çəkmək ictimai binalarda qadağan edilməlidir.
> – İnsanlar daha çox vergi ödəməlidir.
> – Azad nitq yaxşı şey deyil.

Sinifin hər bir küncü aşağıdakı kimi adlandırılır:

| Tamamilə razıyam | Razıyam | Razı deyiləm | Tamamilə razı deyiləm |
|---|---|---|---|

Müəllim öz növbəsində hər bir müddəanı oxuyur və şagirdlərdən yuxarıdakı suallarla bağlı düşüncələrinə əsasən otağın müvafiq küncünə keçmələrini xahiş edir. Əgər onlar qərar verə bilmirlərsə, olduqları yerdə qalmalıdırlar.

Şagirdlər öz mövqelərini tutduqdan sonra müəllim dörd küncün hər birindəki bir şəxsdən nəyə görə bu mövqeyi seçdiklərini soruşur. Bu mərhələdə heç bir müzakirəyə icazə verilməməlidir. Müəllim fikrini dəyişən şagirdlərin müvafiq qaydada fərqli küncə keçməsini istəyir.

Daha sonra müəllim qərar qəbul etməyən şagirdlərdən bunun səbəbini izah etmələrini xahiş edir. Onlar qərarsızlıq üçün verilən səbəbləri yazmalıdırlar (məsələn, onların daha çox məlumata ehtiyacı var, bunun mənası onlara aydın deyil, onlar hər iki tərəfdə arqumentləri görə bilirlər və s.)

Tapşırıq fərqli müddəalar ilə üç və ya dörd dəfə təkrarlanır. Hər bir halda müəllim daha çox müəyyən bir məsələni müzakirə etməklə deyil, insanların fərqli düşüncələrə sahib olmasının səbəblərini aydınlaşdırmaqla məşğul olmalıdır.

Plenar sessiyada müəllim müəyyən edir ki, eyni məsələlər sinifdə müxtəlif cavablar oyadır. Daha sonra o, plüralizm anlayışını təqdim edir və bunun cəmiyyətlərdə plüralizmin mövcud olmasının səbəblərini anlamağa kömək edəcəyini izah etməklə sinfə aşağıdakı sualları verir:

– Nəzərdən keçirdiyimiz sualları bir daha düşünün. Hansı daha güclü hislər oyadır? Nə üçün?

– İdeyalarımızı, dəyərlərimizi və inanclarımızı haradan əldə edirik? (Bu, mübahisəli məsələlərlə bağlı ideyalarımızın müxtəlif mənbələrdən irəli gələcəyini görməyimizə kömək edəcək.)

Daha sonra müəllim şagirdlərdən aşağıdakıların onlara nə dərəcədə təsir etdiyini soruşur?

– valideynlərinin ideyaları;

– dostlarının düşüncələri;

– dinləri və ya mədəniyyətləri;

– media, məsələn, qəzetlər, TV, internet;

– müəllimlər;

– öz şəxsiyyətləri;

Daha sonra şagirdlər ayrı-ayrı işləyir və elementləri piramida şəklində, ən mühümü zirvədə olmaqla əhəmiyyət dərəcəsinə görə sıralayırlar; bu şəkildə:

element

element element

element element element

Müəllim şagirdlərdən öz piramidalarını cütlərdə müqayisə etmələrini istəyir. Bütün sinif hansı amilləri ən mühüm hesab edir? Bu, elementləri aşağıdakı kimi qiymətləndirməklə müəyyən edilə bilər: yuxarı sıradakı elementlərə altı xal, orta sıradakı elementlərə dörd xal və aşağı sıradakı elementlərə iki xal verməklə. Dörd nəfərlik qruplarda şagirdlər hər bir elementə verilmiş xalları toplayırlar. Hər qrupun nəticələrini müqayisə edin. Eyni amillər əhəmiyyət siyahısının zirvəsindədirmi?

Müəllim izah edir ki, plüralizm azad və açıq cəmiyyətdə yaranır. Lakin heç bir cəmiyyət üzvləri arasında minimum səviyyədə ümumi razılıq olmadan fəaliyyət göstərə bilməz. O, şagirdlərdən, onların fikrincə, dəyər və maraq ayrılıqlarını aradan qaldırmağa kömək edə biləcək bəzi dəyərləri və ya qaydaları sadalamalarını istəyir. Şagirdlər, məsələn, aşağıdakıları təklif edə bilərlər:

– Başqa insanların düşüncələrinə hörmət edin.

– Özünüzü başqasının yerinə qoymağa çalışın.

– Yadda saxlayın ki, danışmaq mübahisə etməkdən daha yaxşıdır.

– Təhqir etməməyə çalışın.

– İnsanlara söz haqqı verin.

Əgər insanlar razılığa gələ bilmirsə, qərar qəbul etmək etmək üçün səsvermə kimi mexanizm tələb olunur.

# Dərs 3
# İnsanlar hansı şəkildə fərqlənir?
## İnsanların ehtiyacları necə fərqlənir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirlər:<br>– bəzi insanların nəyə görə təhsilə qeyri-bərabər çıxışının olmasını müəyyən edir;<br>– daha geniş icmada bərabərliyə olan maneələri nəzərdən keçirməyə qadirdir;<br>– bərabərliyə olan maneələrin aradan qaldırılması üçün kimlərin məsuliyyət daşıdığını nəzərdən keçirməyə qadirdir. |
| **Şagird tapşırıqları** | Şagirdlər əsas anlayışlara aid olan hipotetik vəziyyəti ciddi şəkildə təhlil edirlər. Şagirdlər əsas prinsipləri şəxsi sosial vəziyyətlərinə tətbiq edirlər. Şagirdlər dərsdə qalxan əsas məsələləri müzakirə edirlər.<br>Şagirdlər yazılı tapşırıq yerinə yetirirlər. |
| **Resurslar** | Hekayənin nüsxələri. |
| **Metodlar** | Tənqidi təfəkkür. Müzakirə.<br>Yazılı dəlilin yaradılması. |

## Konseptual öyrənmə

**Müxtəliflik:** Fərqlilik yalnız etnik mənsubiyyət və ya vətəndaşlıqla əlaqədə mövcud deyil. İnsanları bir-birindən ayıran və ciddi sosial fərqliliklərin səbəbi olan fərqliliklərin bir çox başqa növləri də var, xüsusilə çoxluqlar və ya güc və nüfuza sahib olanlar anlama və ya mərhəmət çatışmazlığı səbəbilə heç bir şey etmirsə.

**Bərabərlik:** Bərabərliyin iki əsas növü var - imkan bərabərliyi və nəticə bərabərliyi. Hər kəsə bərabər imkan vermək (məsələn, məktəbə getmək) mümkündür, lakin əgər müəyyən maneələr (məsələn, əlillik) aradan qaldırılmazsa, bu imkan bəzilərindən yan keçə bilər. Nəticə bərabərliyinin məqsədi əlil olub-olmamasından asılı olmayaraq hər bir uşağın təhsil almasına imkan verməkdir.

**Ayrı-seçkilik:** İrqinə, cinsinə, genderinə, yaşına, etiqadına və s. görə bir kəsə ədalətsiz münasibət bəsləməkdir.

# Dərs

Müəllim sinfə hekayəni oxuyur (şagird materialı 3.2). Bu hekayə şagirdlər onu daha yaxından araşdırmayanadək onların diqqətindən yayına biləcək mürəkkəb məsələlərə ünvanlanır. Şagirdlərə kömək etmək üçün müəllim onlara şagird materialı 3.3-ü verir və aşağıdakı tapşırığı izah edir.

Şagirdlər «Ümid Kolleci»nin (Hope College) heyətinin üzləşdikləri problemləri müəyyən etmək üçün cütlər şəklində işləyirlər. Onlar bunları materialın birinci sütununa («Problemlər») qeyd şəklində daxil edirlər. Daha sonra onlar problemləri həll etmə yollarını təklif edirlər («Həll yolları») və onların fikrincə, bu həll yollarını həyata keçirmək üçün kimin məsul olduğunu üçüncü sütunun («Məsuliyyət») altına əlavə edirlər. Sonuncu sütun sonrakı mərhələyə qədər boş qala bilər.

Daha sonra şagirdlər nəticələrini təqdim edir, müqayisə və müzakirə edir. Şagirdlərin təqdimatını dəstəkləmək üçün bəzi şagirdlər materialla eyni tərtibatda flip çart kağızları hazırlamalıdırlar. Əgər asma proyektor mövcuddursa, material şagirdlər cütünün doldura biləcəyi «şəffaflığa» köçürülə bilər.

## Sinifdə müzakirə

Şagirdlər aşağıdakı sualların bəzilərini qaldıra və ya müəllim onlara suallar verməklə müzakirəni başlada bilər:

– Sizcə, direktor hər bir şagirdə eyni münasibət bəsləmək məqsədinə nail oldumu?

– Sizcə, direktor qaçqın valideynlərin dəyərlərinə hörmət etməli və oğlanlara və qızlara ayrı-ayrı təhsil verməlidirmi? Hər iki tərəflə bağlı arqumentlər fikirləşin.

– Qaçqın uşaqların qalan şagirdlərdən ayırlıqda təhsil alması daha yaxşı olardımı? Birinci sagirdlər, ikinci isə daha geniş icma üçün hər bir yanaşmasının müsbət və mənfi tərəflərini sadalayın.

Bütün sualları müzakirə etmək əvəzinə, şagirdlər bir sualı ətraflı araşdırmaq üçün vaxt sərf etməlidirlər. Onların plüralist cəmiyyətdə insanların müxtəlif ehtiyaclarının olmasını və bunun münaqişəyə yol aça biləcəyini anlaması vacibdir. Buna görə də bu problemləri bütün fərdlərə və qruplara diqqət ayırmaqla ədalətli şəkildə həll etmək vacibdir (münaqişənin həll olunması ilə bağlı daha ətraflı məlumat üçün Bölmə 4-ə baxın). Bu araşdırmada məktəbə gənc vətəndaşların bütün cəmiyyətdə mövcud olan eyni problemlərlə rastlaşdığı mikro cəmiyyət kimi baxılmalıdır.

Aşağıdakı məsələlər bu araşdırmanın nə qədər zəngin olduğunu və araşdırılmağa dəydiyini göstərir. Daha geniş araşdırma üçün əlavə dərs zəruri ola bilər. Müəllim mövcud vaxt və şagirdlərin maraq səviyyəsindən asılı olaraq müəyyən aspektləri seçməyə qərar verməlidir.

## Şagirdlərin təhsil ehtiyacları necə fərqlənir?

Şagirdlərin cavablandırmalı olduqları əsas suallara daxildir: bu problemləri necə həll etmək olar və məktəb bu problemlərdən hər hansı birini görməzdən gəlməlidirmi (əgər hə, nə üçün).

Bu suallar iki yolla cavablandırıla bilər: birincisi, müəyyən bir problemin həll edilməsinin və ya rədd edilməsinin kimin ehtiyaclarına təsir edəcəyini düşünməklə, ikincisi, məktəb icmasının həll edə biləcəyi problemləri müəyyən etməklə.

Aşağıdakı birinci yolda, şagirdlər aşağıdakı sualı nəzərdən keçirsələr qaçqın (və yerli) şagirdlərin müəyyən ehtiyaclarını daha yaxşı anlayacaqlar. «Hansı insan hüquqları və ya uşaq hüquqlarıqaçqın uşaqlara verilmir?»

Burada təhsil ehtiyaclarının bəzi kateqoriyaları verilib. Şagirdlər bunun nümunələrini hekayədə müəyyən etməli və onları materialın dördüncü sütununa daxil etməlidirlər:

– emosional;

– öyrənmə;

– dini;

– mədəni;

– dil;

– fiziki.

Hər bir kateqoriya üçün şagirdlər öz nümunələrini təmin etməlidirlər.

## Məsuliyyət və onun məhdudiyyətləri

Hekayədə qaldırılmış müəyyən məsələlər bərabər hüquqlar və təhsillə bağlı daha ümumiləşdirilmiş müzakirəyə yol açır.

Hər bir uşağa şəxsi ehtiyaclarına əsasən ən yaxşı təhsili təmin etmək nə dərəcədə asandır? Məktəb nə edə bilər və hansı problemlər kənardan dəstək, məsələn, yerli şura tərəfindən əlavə maliyyə tələb edir?

Bu halda şagirdlər ikinci istiqamətdə irəliləyir və araşdırma mühüm bir fikir yaradır – mürəkkəb problemlər məktəbi genişləndirmək, yaxud xüsusi təlimatlandırılmış heyəti işə götürmək və s. kimi böyük bir addım atmaqla həll edilə bilməz. Təhsil islahatları ilə bağlı bu cür tədbirlər çox arzuolunandır, lakin bu tədbirlər heç vaxt reallaşa bilmir, çünki onlar digərləri (yerli şəhər şurası və təhsil nazirliyi kimi) tərəfindən qəbul edilən siyasi qərarlardan (məsələn, vergini necə təyin etməli) asılıdır. Yalnız radikal addımlar atmağı düşünən insanlar digərlərini günahlandırmaqdan başqa tamamilə heç bir şey edə bilmirlər. Digər tərəfdən vəziyyəti kiçik addımlar atmaqla yaxşılaşdırmaq olar, yəni bu halda araşdırma problemlərə diqqət yetirməklə direktor, müəllim, şagird və valideynlərin istədikləri yaxud razı olduqları halda sabahı dəyişə biləcəklərini nəzərdə tutur.

Materialdakı üçüncü sütun burada vacibdir. Kim məsuliyyət daşıyır, yəni nəyisə dəyişmək kimin səlahiyyətindədir? Şagirdlər kiçik mərhələlərin - məktəb icması yanaşması çərçivəsində təkmilləşmələr - kifayət olub-olmaması və onların məhdudiyyətlərini müzakirə edə bilər. Onlar həmçinin, kiçik, qısamüddətli mərhələləri və vaxt tələb edən daha böyük mərhələləri nəzərdən keçirə bilərlər.

Yenidən, «məktəb həyatdır», mikro cəmiyyətdir. Məktəbin inkişafı üçün strategiyaların müzakirəsi şagirdləri siyasi qərar qəbul etmə və strateji planlaşdırma düşüncəsi ilə tanış edir.

## Məktəb həyatdır

Şagirdlər aşağıdakı ideyanı istifadə etməklə Ümid Kollecini öz məktəblərindəki vəziyyətlə müqayisə edə bilər.

«Məktəbinizdə bəzi şagirdlər hansı təhsil maneələri ilə üzləşir? Bu ehtiyaclara cavab vermək sizcə, kimin məsuliyyətindədir (məsələn, hökumət, direktor, heyət və ya şagirdlər)?»

Bu sualı cavablandırmaq üçün müxtəlif metodlar mümkündür. Bu, plenar müzakirənin mövzusu, digər şagirdlər ilə müsahibə layihəsi və ya məktəb qəzeti layihəsi ola bilər (Bölmə 5-ə baxın).

## Yazı tapşırığı

Tədris və öyrənmə proseslərinin təşkilində, şagirdlərin öyrəndiklərini anladıqlarına və onları tətbiq edə biləcəklərinə əmin olmaq mühümdür. Bunun bir yolu plenar müzakirəni yazı tapşırığı ilə əlaqələndirməkdir. Bu, bütün uşaqlara plenar sessiyada müzakirə edilmiş problemlər haqqında düşünmək imkanı verir və bu, xüsusilə, deyilməli çox şeyi olan lakin müzakirədə səssiz qalmağa meyilli olan asta və ətraflı düşünənlər üçün faydalı ola bilər.

Müəllim hansı mövzunun şagirdlərin düşünmə və anlama səviyyəsinə daha çox uyğun olduğuna qərar verməlidir. Müzakirəni təkrarlamaq və şəxsi mühakimələrini bildirmək şagirdlər üçün kifayətdir. Daha çətintapşırıqda, şagirdlər insan hüquqlarına və/və ya cəmiyyətdə bərabərsizlik problemlərinə müraciət edə bilərlər, məsələn:

«Avropa İnsan Hüquqları Konvensiyası və Uşaq Hüquqları Konvensiyası bəyan edir ki, hər bir uşağın təhsil almasını təmin etmək hökumətlərin vəzifəsidir.

– Məktəbin bu öhdəliyi yerinə yetirib-yetirməməsi ilə bağlı düşüncənizi izah edin.

– Şagirdlərə layiq olduqları təhsil vermək üçün nə lazımdır?

– Sizcə, bunun həyata keçirilməsi üçün kim məsuldur?

– Cəmiyyətdəki bərabəsizliklərin nəticəsi həyatın hansı sahələrinə təsir edir?

– Müzakirə».

# Plenar müzakirənin təklif edilən nəticəsi (flip çart kağızı, tamamlanmış material_

## Ümid Kolleci üçün kömək

| Problemlər | Həll yolları | Məsul şəxs | Təhsil ehtiyacları |
|---|---|---|---|
| **(1) Qaçqın uşaqlar** | | | |
| Dil problemləri | Xüsusi kurslar | Direktor<br>Yerli şura | Dil |
| Oğlan danışmır | Terapiya, xüsusi təlim | Məsləhət: direktor, müəllim | Dil, emosional |
| Qız yeriyə bilmir | Tibbi müalicə Xüsusi təlim Valideynlər üçün məsləhətlər | | Fiziki |
| **(2) Qaçqın və yerli şagirdlər** | | | |
| Qorxutma, sataşma<br>Quldur dəstə<br>Hədələr<br>Döyüş, oğlan xəsarət alıb | Sinifdə müzakirə<br>Davranış qaydaları<br>Şagirdlər nəzərətçilər kimi | Müəllimlər Şagirdlər Valideynlər | Emosional Sosial Münasibətlər və dəyərlər |
| **(3) Müəllimlər** | | | |
| Qaçqın və yerli şagirdlərin qayğısına qalmaq mümkün deyil | Daha kiçik siniflər Növbəli siniflər Daha çox müəllim | Yerli şura | Öyrənmə Dil Mədəni Dini |
| **(4) Valideynlər** | | | |
| Oğlanlar və qızlar üçün ayrı-ayrı siniflər istəyirsiniz | «Xeyr?»<br>«Bəli?» | ? | Mədəni Dini |

# Dərs 4
# İnsan hüquqları nə üçün mühümdür?
## Nəyə görə insan hüquqları qanunvericiliyi həssas insanları qorumalıdır?[14]

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər:<br>müxtəlif dəyərləri və həyat tərzləri olan insanların birgə yaşamağa cəhd etməsi zamanı yaranan problemləri nəzərdən keçirirlər;<br>beynəxalq insan hüquqları alətlərinin xüsusilə, fərdlərin və icmaların həssas olduğu yerlərdə inkişaf etməsinin səbəblərini nəzərdən keçirirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər:<br>vəziyyətlərin mühüm təhlili və prioritetləşdirilməsində iştirak edirlər;<br>müxalif tərəflər arasında müzakirələri rol oyunu ilə canlandırırlar;<br>rol oyununa əsaslanan əsas prinsipləri hazırlayır və onları DVT/İHT-in müvafiq bölmələri ilə müqayisə edirlər;<br>ssenarini öz ölkələrində insan hüquqlarının sui-istifadəsi hallarının real nümunələri ilə müqayisə edirlər;<br>EDCHR-in seçilmiş elementləri haqqında digər şagirdlər üçün təqdimatlar hazırlayırlar. |
| **Resurslar** | Ada ssenarisinin nüsxələri (Şagird materialı 3.4).<br>Hər bir kiçik qrup üçün vəziyyət kartlarının nüsxələri (şagird materialı 3.5). İnsan hüquqlarının əsas elementləri (şagird materialı 3.6).<br>Tələb edildiyi kimi yekun təqdimat üçün böyük vərəqlər və sənət materialları. |
| **Metodlar** | Tənqidi təfəkkür.<br>Müzakirə.<br>Danışıq.<br>Qrup təqdimatı. |

## Məlumat qutusu

Avropa İnsan Hüquqları Konvensiyası fundamental hüquqları, məsələn, yaşamaq hüququ, dini azadlıq və ya qanunla mühakimə, inkar edilən insanların hüquqlarını qorumaq məqsədilə yaradılmışdır. Avropa Şurasının üzvü olan bütün hökumətlər vətəndaşlarının xeyrinə Konvensiyanın maddələrinə riayət etməyə razılaşmışdır. Hər bir dövlət öz ölkəsində insan hüquqlarının vəziyyəti barədə beynəlxalq ictimaiyyətə hesabat verməlidir. Fərdi vətəndaşlar vətəndaşı olduqlarıölkənin onların insan hüquqlarını inkar etdiyini hesab edirsə, Avropa İnsan Hüquqları Məhkəməsinəşikayət edə bilər. Həmçinin bir ölkə insan hüquqlarının pozulması ilə bağlı digər ölkəəleyhinəşikayət edə bilər, lakin bu tez-tez baş vermir.

Avropa İnsan Hüquqları Konvensiyasıİkinci Dünya Müharibəsinin soyqırmlarından sonra təqdim edilmişÜmumdünya İnsan Hüquqları Bəyannaməsi ilə sıx bağlıdır.

14. London Vətəndaşlıq Fondu tərəfindən hazırlanmış dərs əsasında.

# Dərs

Müəllim ssenarini və rol oyununda iştirak edən iki qrupu təqdim edən zaman «rol kartlarına» (şagird materialı 3.4) müraciət edir. Birinci, müəllim löhvədə xəritənin köməkliyi ilə adanı, daha sonra nəsillərdir ki, orda yaşayan adalıları təsvir edir.

Daha sonra müəllim sinfə deyir ki, başqa bir qrup gəlib və adada məskən salmaq istəyir. Onlar adalılardan çox fərqlənir. Müəllim mühacirləri və onların həyat tərzini təsvir edir və sinfi iki hissəyə bölür. Bir qrup adalılar, digəri isə mühacirlər olacaq. Bu problemləri müzakirə etməyin iki yolu mümkündür (aşağıda metod 1 və 2-yə baxın). Rol oyunları oynamağa vərdiş etmiş qruplar üçün metod 1-i istifadə edin. Daha rəsmi şəkildə işləməyə vərdiş etmiş qruplar üçün metod 2-dən istifadə edin.

## Metod 1: rol oyunu

Şagirdlər cütlərdə işləyir. Onlardan biri adalı digəri isə mühacir rolunu öhdəsinə götürür. Onlar öz adamlarının nöqteyi-nəzərindən kiçik kartlarda təsvir edilmiş hər bir vəziyyəti nəzərdən keçirir. Onlar başqaları ilə danışıqlar aparmağa hazırlaşırlar (dilin maneə olmadığını hesab etməklə). Onlar aşağıdakı məsələlərlə bağlı razılığa gəlməyə çalışmalıdırlar:

a) Onların xalqları üçün ən ciddi problemlər hansılardır?

b) Onlar danışıqlardan nə əldə etmək istəyir?

Daha sonra müəllim adalılar cütünün və mühacirlər cütünün birgə oturmasını istəyir. Onlar bu məsələlərin hər ikisi və gələcəklə bağlı təlimatlar haqqında razılığa gəlmək üçün iki xalqın görüşünü canlandırır.

Müzakirələrə başlamazdan əvvəl iki qrupa xatırladın ki, adalılar mühacirlər adanı tərk etməyənə qədər tamamilə xoşbəxt ola bilməzlər, çünki onların bütün həyatı təhlükə altında ola bilər. Digər tərəfdən, mühacirlər bu yeni yeri sevir və burada qalmaq üçün zor tətbiq etməyə hazırlaşa bilərlər.

Dörd şagirddən ibarət olan hər bir qrupdan ilk olaraq qrupların üzləşdikləri ən ciddi problemlərlə bağlı razılığa gəlmələrini və onları vaxtın imkan verdiyi şəkildə ən mühümdən az əhəmiyyətli problemə doğru işləməklə vaciblik sırasında həll etmələrini xahiş edin.

## Metod 2: müzakirə aparmaq

Bu tapşırığı rol oyunu ilə etmək daha yaxşıdır, lakin rol oyunlarına öyrəşməmiş uşaqlar üçün də işə yaraya bilər. Sinfin birinci yarısı vəziyyətə adalıların, ikinci yarısı isə mühacirlərin nöqteyi-nəzərindən baxacaq. Hər bir vəziyyət iki nöqteyi-nəzər ilə təsvir edilir. Cütlərdə işləməklə, şagirdlər ən ciddi poblemləri müəyyən edir və hər bir problemi şəxsi nöqteyi-nəzərlərindən həll etmənin ən yaxşı yolunu tapmağa çalışırlar. Onlara xatırladın ki, hər bir problemi həll etmənin «ideal» və ya «ədalətli» yolu mövcuddur, lakin reallıq (və tarix) göstərir ki, gücün qeyri-tarazlığı səbəbilə bir tərəf digərindən daha çox istədiyinə nail olur.

Müəllim problemlə bağlı bir nöqteyi-nəzəri götürərək və daha sonra digər qrupun əks nöqteyi-nəzərini soruşmaqla hər bir vəziyyətin müzakirəsini aparır. Müəllim iki qrup arasında razılığı təmin etməyə çalışır. Hər müzakirə hər bir tərəfdən bir cütün problemi necə gördükləri barədə danışmaq üçün sinfin qarşısına çıxması ilə aparıla bilər. Biri adalıları, digəri isə mühacirləri təmsil etməklə hər bir vəziyyətin müzakirə edilməsi cütlər üçün bu metodun variasiyasıdır.

## Metod 1 və 2 üçün debrifinq

Aşağıdakı sualları istifadə etməklə şagirdlər arasında müzakirə etdikləri hallarla bağlı sorğu aparın:

– Danışıqlar asan yoxsa çətin idi? Nə üçün?

– Hər bir qrup danışıqlardan istədiyini əldə etdimi?

– Hansı qrup danışıqlardan daha yaxşı çıxdı? Nə üçün?

– Hər bir vəziyyətdə bir qrupun digərindən daha çox mənəvi hüquqları var idimi?

– Adadakı hər iki qrupun gələcəyi necə olacaq?

– Bir qrupun digərinin üzərində dominantlığına nə mane ola bilər?

– İki qrupun bir adada sülh şəraitində birgə yaşamasına kömək edə biləcək qaydalar və ya prinsiplər siyahısı tərtib edin. Bu siyahını insan hüquqlarının əsas elementləri ilə müqayisə edin (şagird materialı 3.6-ya baxın). Bu maddələrdən hansı adalılar kimi insanların öz torpağını, həyat tərzini və əsas insan hüquqlarını itirmələrinə mane olmağa kömək edə bilər?

Müəllim qeyd edir ki, buna bənzər hallar tarixdə dəfələrlə baş vermişdir, məsələn, Britaniyalıların Avstraliyanı və ya Avropalıların Şimali və Cənubi Amerikanı öz müstəmləkəsi altına alması. Beynəlxalq insan hüquqları qanunvericiliyinin olmadığı və yerli xalqların insan hüquqlarını pozan çoxsaylı əməllərin baş verdiyi vaxtlarda. Bənzər hadisələr hələ də baş verir, məsələn, beynəlxalq şirkətlərin mədən və ya qazıntı işləri apardığı üçün Cənubi Amerika qəbilələrinin öz torpaqlarından çıxarılması.

## İnsan hüquqlarının əhəmiyyətinin vurğulanması

Bu bölmənin son tapşırığı kimi müəllim şagirdlərdən (qruplarda) Avropa Konvensiyasında təsbit edilmiş və bu bölmənin gedişatında müzakirə edilmiş insan hüquqlarından birini seçmələrini istəyir. Daha sonra şagirdlər bu hüququ göstərən plakat düzəldir və onun əhəmiyyəti haqqında təqdimat hazırlayır. Bəzi şagirdlər vəziyyəti dramatik şəkildə göstərmək üçün adalıların rol oyunundan səhnələr çəkə bilərlər. Bunlar sinfə, bir neçə sinfə və ya bütün məktəbə təqdim edilə bilər. Bu yolla, vaxt imkan verirsə və şagirdlər üçün maraqlıdırsa, bölmə əlavə layihəyə apara bilər. Sinifdə bu cür layihənin necə planlaşdırılması haqqında məlumat üçün Bölmə 5-də (media) 4-cü dərsə baxın.

# Şagird materialı 3.1
## Meşə kənarında məktəb

Dağ silsiləsinin yanında sıx meşədə yaşayan bir icma var idi. Onlar çox dindar insanlar idi və uşaqlarını xalqlarının tanrılarına ibadət etmək üçün ciddi şəkildə tərbiyə etmişdilər. Onların dini hesab edirdi ki, kişilər və qadınlar arasında fərqlər yoxdur.

Dağlar və ölkənin ən uzaq kənarı arasında nəhəng düzənlik var idi. Düzənlikdə fərqli icma yaşayırdı. Onların dini yox idi, lakin bir-birləri üçün çox çalışırdılar. Onlar amansız döyüşçülər idi və kişilər aparıcı cins idilər. Qadınlara hörmət edilirdi, lakin onlar rəhbər ola bilməzdi.

Meşə əhalisinin düzənlik əhalisi ilə əlaqəsi yox idi. Onlar bir-birlərinə nifrət edir və bir-birlərindən qorxurdular. Bəzən onlar arasında müharibələr baş verirdi.

Bir gün gənc bir adam meşənin kənarına gəldi. O dedi ki, burada hər iki icmanın uşaqlarının birgə təhsil alacaqları məktəb tikmək istəyir, beləliklə iki xalq arasında nəhayət sülh olacaq.

Tezliklə, sadə taxta bina hazır oldu və müəllimin məktəbini ilk dəfə açdığı gün gəlib çatdı. Hər icmadan beş-altı uşaq məktəbin necə olduğunu görməyə gəldilər. Hər iki icmadan olan valideynlər və rəhbərlər narahat görünürdülər.

Birinci, uşaqlar arasında problemlər mövcud idi. Onlar bir-birlərini təhqir edir və tez-tez mübahisə edirdilər. Lakin uşaqlar məktəbə gəlməyin dəyərini gördülər və tədricən hər şey qaydasına düşməyə başladı. Müəllim sərt, lakin ədalətli idi və bütün şagirdlərinə bərabər rəftar edirdi. O, hər iki həyat tərzinə hörmət etdiyini deyirdi və uşaqlara müxtəlif həyat tərzləri öyrədilirdi.

Getdikcə daha çox uşaq meşə kənarındakı məktəbə gəlməyə başlamışdı.

Lakin, tezliklə aydın oldu ki, düzənliklərdən daha çox uşaq məktəbə gəlir. İndi meşə uşaqları məktəbin yalnız dörddə birini təşkil edirdi. Müəllim onları cəsarətləndirmək və inandırmaq üçün hər iki tərəfin valideynləri ilə söhbət etdi.

Lakin bir gün müəllim gələndə gördü ki, kimsə məktəb binasını yandırıb.

(Ted Huddlestonun Vətəndaş Fondu üçün hekayəsinə əsasən)

# Şagird materialı 3.2
## Hər kəs ümid edə bilər

Ümid Kollecinin direktoru səxavətli və insaflı qadındır. O, təhsilin əhəmiyyətinə çox inanır. O həmişə öz heyətinə deyərdi:»Hər kəs həyatda yaxşı başlanğıca layiqdir. Bu məktəbdə bir insana digərindən daha yaxşı münasibət bəsləmənizi istəmirəm. Bu, ədalətli olmaz.»

Sonra bir gün bir qrup qaçqın uşaq məktəbə gəldi. Onların ailələri qonşu ölkədəki münaqişədən qaçmışdılar. Direktor heyətə dedi:

*«Bu bəxtsiz gənc insanlar hər şeylərini itirib. Onları siniflərinizdə yaxşı qarşılayın. Onlar mümkün olduğu qədər az əziyyət çəkməlidirlər. Müharibə onların günahı deyil».*

Heyət razılaşdı. Şagirdlər yaşlarına müvafiq olaraq siniflərə yerləşdirildi. Qaçqın uşaqların əksəriyyəti sinifdə tək idilər, lakin bir sinifdə dörd qaçqın oğlan var idi.

Çox çəkmədən heyət anlamağa başladı ki, qaçqın uşaqlara sinifdəki digər uşaqlarla eyni münasibət bəsləmək çətindir. Onlar bir-bir öz problemləri ilə direktorun yanına gəldilər. «Sinfimdəki qaçqın uşaq bizim dilimizdə danışmır», bir müəllim dedi. «Hər şeyi onun üçün tərcümə etməyə vaxtım yoxdur. Bu, mənim vaxtımı həddindən çox aparır. Digər şagirdlər əziyyət çəkirlər». «Sinfimdəki qaçqın şagird heç kəslə danışmır», başqa bir müəllim müşahidə etmişdi. «/Yəqin o, müharibədən zərər görüb.Bəlkə də onun yalnız öyrənmə ilə bağlı çətinlikləri var. Mən nə edim?» Üçüncü müəllim dedi, «Mənim xəsarət almış şagirdim var. O yeriyə bilmir. O, heç bir fiziki fəaliyyətə qoşula bilmir və laboratoriyaya getmək üçün pilləkənləri qalxa bilmir».

Daha sonra başqa problemlər yaranmağa başladı. Qəlyanaltı vaxtlarında qaçqın uşaqların bəzilərini qorxudur və onlara sataşırdılar. Onları təhqir edir və bəzi uşaqlar onlara“gəldiyiniz yerə qayıdın deyirdi”.

Eyni sinifdəki dörd oğlan özlərini müdafiə etmək üçün dəstə yaratdılar. Bir gün onların biri və yerli oğlan arasında döyüş baş verdi. Qaçqın oğlan öz rəqibini çox pis zədələdi. Heyət direktora oğlanın məktəbdən qovulmalı olduğu barədə şikayət etdi, lakin direktor bunun ədalətsiz olduğunu hesab etdi. Heyət dedi:

*«Biz əlimizdən gələni etməyə çalışdıq, lakin öz uşaqlarımız çox əziyyət çəkir. Biz eyni zamanda bu uşaqları öyrədə və yerli şagirdlər üçün əlimizdən gələni edə bilmirik».*

Qısa müddət sonra qaçqın uşaqların valideynləri direktoru görmək istədi. Onlar dedilər:

*«Biz idman dərslərində qızlara və oğlanlara birlikdə dərs keçmənizi istəmirik. Bu, dinimizə və mədəniyyətimizə ziddir».*

Nəhayət, direktorun səbri daşmağa başladı. O, bu problemi çətin hesab edirdi, lakin ürəyində bilirdi ki, ümidini itirməməlidir.

# Şagird materialı 3.3
## Ümid Kolleci üçün kömək

| Problemlər | Həll yolları | | |
|---|---|---|---|
| **(1) Qaçqın uşaqlar** | | | |
| | | | |
| **(2) Qaçqın və yerli şagirdlər** | | | |
| | | | |
| **(3) Müəllimlər** | | | |
| | | | |
| **(4) Valideynlər** | | | |
| | | | |

# Şagird materialı 3.4
**Adalılar və mühacirlər (rol kartları)**

## Qrup 1: Adalılar

Siz adalılar qrupusunuz. Xalqınız bu adada min illərdir yaşayır. Əcdadlarınız dağlarda müqəddəs yerlərdə dəfn olunub və onların ruhunun hələ də orada olduğuna inanırsınız.

Çox sadə həyat sürürsünüz. Qadınlar uşaqlarının qayğısına qalır, kişilər isə heyvan ovlamaq vəərzaq üçün bitki toplamaq üçün bütün adanı gəzirdilər. Xalqınız inanır ki, hər kəsin təbiəti qorumaq və onu gələcək nəsil üçün zədələnməmiş qoymaq öhdəliyi var. Silahlarınız nizələr, ox və kaman və heyvan tələləridir.

Dininiz təbiətə ibadətə və mədəniyyətiniz icmanın əhəmiyyətinəəsaslanır. Ərzaq az olanda, hər kəs onu bölüşür və insanlar bir-birləri üçün çox işləyir. Əzaq çox olanda, insanlar mahnı oxumaq, rəqs etmək və hekayələr danışmaq üçün bir yerə yığışırlar. Xalqınızın yazıya ehtiyacı yoxdur.

Çox az qanununuz var. Ehtiyac olarsa, qəbilə başçısı yeni qanunlar qəbul edə bilər. O, həmçinin icmanızın üzvləri arasındakı münaqişələrlə bağlı qərar qəbul edə bilər.

## Qrup 2: Mühacirlər

Siz özünüz və ailəniz üçün yeni həyat tapmaq ümidi ilə Avropadan gəlmiş qrupsunuz. Siz dünyanın digər tərəfində kəşf edilmiş yeni torpaqlardan birini tapmaq istəyirsiniz. Siz orada məskən salmağa, evlər və fermalar salmağa və varlı olmağa ümid edirsiniz.

Özünüzlə torpağı işləmək üçün alətlər və ovçuluq üçün silahlar aparırsınız. Mədəniyyətiniz təhsil vəçox işləməyəəsaslanır. Hər kəsin məqsədi firavan və rahat olmaqdır. Sizin vahid dininiz yoxdur, lakin insanların öz etiqadına inanmaq hüququ olduğuna inanırsınız.

Yeni icmanızda demokratik qərarlar qəbul etmək istəyirsiniz. Siz yalnız elit təbəqənin səlahiyyətə sahib olduğu və var-dövlətin qeyri-bərabər bölündüyü icmadan çıxmısınız. Bütün insanların bərabər olduğu və ya hər kəsin uğur qazanmaq üçün bərabər imkana sahib olduğu cəmiyyət yaratmaq istəyirsiniz.

# Şagird materialı 3.5
## Vəziyyət kartları: adalılar

**Aşağıdakı hallara baxın və öz qrupunuzda fikrinizcə, onlarla bağlı nə edilməli olduğuna qərar verin.**

| **Adalılar** | **Mühacirlər** |
|---|---|
| **1A Yeni hasarlar**<br>Mühacirlərin bəziləri evləri boyunca, sürüləri otarmağa vərdiş etdiyiniz yerlərdə hasarlar tikməyə başlayıb. Siz onların bəzilərini sökmüsünüz. | **1M Yeni hasarlar**<br>Adalılar tutduğunuz heyvanları saxlamaq üçün tikdiyiniz hasarların bəzilərini söküb. |
| **2A Sərhəd pozucusu**<br>Adalı mühacirlərin hasarladığı ərazini keçib və Adalılar heyvanlarınız üçün hazırladığınız pozub. | **2M Sərhəd pozucusu**<br>ona atəş açılıb və öldürülüb.<br>bəzi sahələri<br>Bir nəfər xəbərdar edilmiş və sonra vurulmuşdur. |
| **3A Qarşıq nigah**<br>Adalılardan biri<br>Mühacir qadınlardan biri adalıya aşiq olub.<br>Onlar evlənmək və mühacir icmasında yaşamaq istəyir.<br>bundan | **3M Qarışıq nigah**<br>mühacir qadına aşiq olub.<br>Onlar evlənmək və mühacir icmalarından birində yaşamaq istəyir.<br>Kişinin ailəsi bundan narazı idi. Mühacirlərin bəziləri<br>narazı idi. |
| **4A Müqəddəs yerlər**<br>Mühacirlərin bəziləri əcdadlarınızın ruhlarının yaşadığına inandığınız dağlarda minerallar üçün qazıntılar aparır. Bu yerlər sizin üçün müqəddəsdir. Etiraz olaraq siz qazıntı aparan bəzi insanlara hücum etdiniz. | **4M Müqəddəs yerlər**<br>Siz dağlarda dəyərli minerallar kəşf etmisiniz. Siz bu mineralları vətəninizdə sata biləcəksiniz. Adalılar bu dağları müqəddəs hesab edir, sizə görə isə bu, sadəcə cəhalətdir. Onlar qazıntı aparan insanlara hücum edib. |
| **5A Təhsil**<br>Mühacirlərin bəziləri məktəb açıb və uşaqlarınızı da gəlməyə və oxumağı və yazmağı öyrənməyə dəvət edib. | **5M Təhsil**<br>Mühacirlərin bəziləri məktəb açıb. Onlar adalıları öz uşaqlarını məktəbə göndərməyə dəvət edib. |

# Şagird materialı 3.6
## İnsan hüquqlarının əsas aspektləri[15]

1. Yaşamaq hüququ.
2. İşgəncəyə məruz qalmamaq hüququ.
3. Köləliyə məruz qalmama hüququ.
4. Azadlıq və təhlükəsizlik hüququ.
5. Ədalətli mühakimə hüququ.
6. Səmərəli hüquqi müdafiə hüququ.
7. Ayrı-seçkiliyə məruz qalmamaq hüquq; bərabərlik hüququ.
8. Fərd kimi qəbul edilmək hüququ; vətəndaşlıq hüququ.
9. Şəxsi və ailə həyatı hüququ.
10. Ailə qurmaq hüququ.
11. Əmlaka sahib olmaq hüququ.
12. Şəxslərin sərbəst hərəkat etmək hüququ.
13. Sığınacaq hüququ.
14. Düşüncə, vicdan və din azadlığı.
15. İfadə azadlığı.
16. Toplaşmaq və birləşmək azadlığı.
17. Qidalanmaq, içki və mənzil hüququ.
18. Tibbi yardım almaq hüququ.
19. Təhsil almaq hüququ.
20. Məşğulluq hüququ.
21. İstirahət və asudə vaxt hüququ.
22. Sosial müdafiə hüququ.
23. Siyasi iştirak hüququ.
24. Mədəni həyatda iştirak etmək hüququ.
25. İnsan hüquqlarının pozulmasının qadağan edilməsi.
26. İnsan hüquqlarını tanıyan sosial asayiş hüququ.
27. Fiziki şəxsin öhdəlikləri.

15. Bu, müəllimlərin 5-ci Bölmədəki, «Hüquqlar, azadlıqlar və öhdəliklər» resurs vərəqindəki siyahıya əsaslanır.

# BÖLMƏ 4
# Münaqişə

## Razılığa gələ bilmiriksə, nə etməliyik?



### 1.1. Münaqişənin həll edilməsi
**Ciddi narazılıqları necə həll edə bilərik?**

### 1.2. Altı mərhələli yanaşmanı tətbiq etməklə
**Qonşumuzla mübahisə etməkdən necə yayına bilərik?**

### 1.3. Ziddiyyətli insan hüquqları
**İnsan hüquqlarının toqquşması. İndi nəcə olsun?**

### 1.4. Zorakılıqdan istifadə
**Bəzi hallarda zorakılıqdan istifadə məqbuldurmu?**

# BÖLMƏ 4: Münaqişə
**Razılığa gələ bilmiriksə, nə etməliyik?**

Sülh anlayışı mühüm mədəni ölçüyə malikdir. Adətən, Uzaq Şərq ölkələrində sülh daxili sülh (düşüncəmizdə və ya ürəyimizdə sülh), qərb dünyasında isə sülh fərdlərin əhatəsində sülh (müharibənin və ya zorakı münaqişənin olmaması) kimi başa düşülür. Məsələn, Hindistanda sülh «shanti» deməkdir, bu da fikrin mükəmməl nizamı və ya fikrin sülhünü nəzərdə tutur. Qandinin fəlsəfəsi və strategiyası «Ahimsa» adlı anlayışa əsaslanır, bu da «zərərli olan hər şeydən çəkinmək» deməkdir. O deyib, «hərfi mənada desək, Ahimsa qeyri-zorakılıq deməkdir. Lakin, məncə, onun daha böyük, sonsuz ali mənası var. Bu o deməkdir ki, siz heç kəsi təhqir edə; hətta düşmən hesab etdiklərinizlə bağlı mərhəmətsiz düşüncələrə sahib ola bilməzsiniz. Bu dokrinaya əməl edən kəsin düşmənləri yoxdur». Maya adətində, sülh rifah anlayışına istinad edir və həyatımızın müxtəlif sahələri arasında mükəmməl balans ideyası ilə bağlıdır.[16]

«Müsbət sülh» kollektiv iradənin sülhü təşviq etməyə və sülhə olan maneələri aradan qaldırmağa yönəldiyi vəziyyəti təsvir edir. Buna sülhün qorxunun, zorakılığın və müharibənin olmaması ideyasından kənara çıxmaqla sosial ədalət öhdəliyi daxildir. Buna münaqişənin qeyri-zorakı yolla həll edilməsi öhdəliyi daxildir və o, fərdlərin və qrupların sosial problemləri konstruktiv qaydada həll etməsi bacarıqlarını gücləndirməyə çalışır. DVT müəllimləri üçün bu, həm də sinif otağında demokratik prosesləri təşviq etmək, səlahiyyət və ya səlahiyyətdən sui-istifadə məsələlərinə müraciət etmək, həmçinin daim dinləmə və konstruktiv dialoq bacarıqlarını gücləndirməyə və münaqişənin həll olunması öhdəliyinə çalışmaq deməkdir.[17]

Zorakılıq təbiidirmi? Bir çox insan inanır ki, insanlar xaraktercə zorakıdır və nəticədə, biz həyatımızda və cəmiyyətlərimizdə müharibələr, münaqişələr və ümumi zorakılıqdan yayına bilmərik. Bu sahədəki digər mütəxəssislər isə iddia edir ki, biz zorakı düşüncədən, hislərdən və əməllərdən uzaq ola bilərik. 1986-cı ildə bir çox ölkənin bir qrup elm xadimi və alimlərinin hazırladığı «Zorakılıq üzrə Sevilya Bəyannaməsi» bunu aşağıdakılarla təsdiqləyir:

> “1. Müharibə etmək meylimizin heyvan əcdadlarımızdan bizə miras qaldığını demək elmi cəhətdən düzgün deyil (...) Müharibə yalnız insani haldır və digər heyvanlar arasında baş vermir (...).
>
> 2. Əsrlərdir müharibədə iştirak etməyən və mütəmadi müharibədə iştirak edən mədəniyyətlər mövcuddur (...).
>
> 3. Müharibənin və ya hər hansı zorakı davranışın insan təbiətimizdə genetik olaraq proqramlaşdırıldığını demək elmi cəhətdən yanlışdır (...).
>
> 4. İnsanların «beyninin zorakılığa kökləndiyini» demək elmi cəhətdən düzgün deyildir. (...) bizim davranışımız ətraf şərtlərdən və sosiallaşmamızdan asılıdır. (...)».

Əksəriyyətimiz müəyyən vəziyyət və ətrafımızdan asılı olaraq aqressiv və zorakı reaksiya verməyə məcburuq. Biz aqressiv və bəzən zorakı düşünməyi, hiss etməyi və davranmağı öyrənirik. Harada yaşamağımızdan asılı olmayaraq, bizi demək olar ki, daim zorakılıq haqqında oxumağa, eşitməyə və ona baxmağa məcbur edən sosial və mədəni təzyiqlə üzləşirik. Televiziya proqramları, reklamlar, qəzetlər, video oyunlar, kino və musiqi sənayeləri bu məsələyə çox töhfə verir. Yeniyetmə olmazdan əvvəl uşaq sadəcə televizora baxmaqla minlərlə cinayət və zorakılıq əməllərini görür. Müasir cəmiyyətlərimiz şüurlu və ya qeyri-iradi şəkildə zorakılıq üçün üzrxahlıq etmir. Zorakılıq müsbət dəyər kimi qəbul edilir.

Əksər mədəniyyətlərdə, zorakılığa yox demək və fiziki zorakılıq və ya qarşıdurmadan yayınmaq xüsusilə, gənc yaşlarından yaşıdları tərəfindən təzyiqə məruz qalan kişilər üçün zəiflik əlaməti kimi qəbul edilə bilər.[18]

Əlavə məlumat üçün bu bölmənin sonunda müəllimlərin resurs vərəqinə istinad edin.

---

16. «COMPASS, gənclər üçün insan hüquqları təhsili üzrə vəsait»-dən mətn, Avropa Şurası,. Strasburq 2002, s. 376.
17. «Demokratik vətəndaşlıq üçün terminlər lüğəti»ndən, Karen O’Shea, Avropa Şurası, DGIV/EDU/CIT (2003) 29.
18. «COMPASS, gənclər üçün insan hüquqları təhsili üzrə vəsait»-dən mətn, Avropa Şurası. Strasburq 2002, s. 380.

## Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə Təhsil

Bu dərs silsiləsi vasitəsiləşagirdlər:

– münaqişənin arxasındakı mexanızmlərlə bağlı qavramalarını artıracaqlar;

– münaqişənin qeyri-zorakı yolla həll edilməsi ilə bağlı qavramalarını artıracaqlar;

– öz mühitlərində münaqişəni həll etmək ilə bağlı qavramalarını inkişaf etdirəcəklər;

– münaqişədə iştirak edən bütün tərəflərin düşüncələrini və ehtiyaclarını nəzərdən keçirmək bacarıqlarını inkişaf etdirəcəklər;

– insan hüquqları arasındakı münaqişələrlə bağlı qavramalarını artıracaqlar;

– zorakılıqdan istifadə ilə bağlı tənqidi təfəkkürlərini artıracaqlar;

– üzləşdikləri zorakılıqla necə mübarizə apara biləcəkləri barədə qavramalarını artıracaqlar;

– münaqişələrə qeyri-zorakı yolla yanaşmağa həvəsləndiriləcəklər.

# BÖLMƏ 4: Münaqişə
# Razılığa gələ bilmiriksə, nə etməliyik?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1: Münaqişənin həll edilməsi | Münaqişənin həll edilməsi üçün altı mərhələli yanaşmanın təqdim edilməsi. | Münaqişəni təhlil etmək; həll yolları tapmaq. | Şagird materialı 4.1 | Kiçik qrup işi. |
| Dərs 2: Altı mərhələli yanaşmanın tətbiq edilməsi | Altı mərhələli yanaşmanın tətbiq edilməsini öyrənmək. | Münaqişəni təhlil etmək; həll yolları tapmaq. | Şagird materialı 4.1 Şagird materialı 4.2 | Kiçik qrup işi. |
| Dərs 3: Ziddiyyətli insan hüquqları | İnsan hüquqlarının toqquşduğu vəziyyətlərin tanınmasını və təhlil edilməsini öyrənmək. | İnsan hüquqlarının toqquşduğu vəziyyəti təhlil edin. | Şagird materialı 4.3 Şagird materialı 5.2 | Kiçik qrup işi.<br>Tənqidi təfəkkür. |
| Dərs 4: Zorakılıqdan istifadə | Zorakılıqdan istifadənin məqbulluğu və şəxsi davranış haqqında tənqidi təfəkkürün inkişafı. | Zorakılıqdan istifadə və şəxsi davranışın təhlili. | Şagird materialı 4.4 | Kiçik qrup işi.<br>Tənqidi təfəkkür. |

# Dərs 1
# Münaqişənin həll edilməsi
### Ciddi narazılıqları necə həll edə bilərik?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Münaqişənin həll edilməsi üçün altı mərhələli yanaşmanın təqdim edilməsi. |
| **Şagird tapşırıqları** | Münaqişəni təhlil etmək; həll yolları tapmaq. |
| **Resurslar** | Vərəqlər, dəftərlər və qələmlər. Şagird materialı 4.1. |
| **Metod** | Kiçik qrupda iş. |

## Konseptual öyrənmə

Münaqişələr gündəlik həyatın bir hissəsidir. Buna mənfi hadisələr kimi baxılmamalıdır, bu, fərdlər və ya qruplar arasında maraqların toqquşmasıdır. Siyasətdə münaqişələr hətta ictimai müzakirənin mühüm bir hissəsini təşkil edir. Yalnız açıq müzakirə və kompromisəçalışmaq vasitəsilə bütün müxtəlif sosial qrupların eşidilməsinə və birləşməsinə nail olmaq olar. Münaqişənin həll edilməsi (kompromisəçalışmaq) öyrənilə bilən bacarıqdır. Bu dərsin məqsədi bu hədəfəçatmaqdır.

Münaqişənin həll edilməsinin aşağıdakı təsvirləri bu dərsdəəks olunur və müəllimin onların mənasından xəbərdar olması vacibdir.

Qələbə-qələbə: bu, hər iki tərəfin münaqişənin razılaşdırılmış həllindən eyni şəkildə faydalanmasını və onların istədiklərinə nail olması hissini təsvir edir. Bu, münaqişə həllinin ən ideal nümunəsidir, çünki o, münaqişənin təkrar meydana çıxmamasını təmin etməyə kömək edir.

Qələbə-məğlubiyyət və ya məğlubiyyət-qələbə: bu, münaqişənin həllinin bir tərəfin qalib olmasına, digərinin isə məğlub olmasına gətirib çıxaran vəziyyəti təsvir edir. Bu növ vəziyyət adətən məğlub tərəf az qazandığıüçün münaqişənin yenidən meydana çıxacağı deməkdir.

Məğlub-məğlub: Bu, heç bir tərəfin münaqişənin həllindən heç bir şey əldə etməməsi halını təsvir edir. Bu vəziyyət adətən münaqişənin müvəqqəti olaraq aradan qalxması və onun yenidən meydana çıxa biləcəyi deməkdir.

# Dərs

Müəllim löhvənin sol tərəfində «MÜNAQİŞƏ» sözünü yazmaqla dərsə başlayır. Daha sonra şagirdlərdən «münaqişə» sözü ilə assosiasiya yaradan ifadələri və sözləri vərəqə yazmaq xahiş olunur.

Eyni proses müəllimin löhvənin sağ tərəfində yazdığı «SÜLH» sözü ilə təkrarlanır. Daha sonra müəllim təxminən 10 şagirddən yazdıqları sözləri soruşur. Nəticələr birlikdə löhvədə yazılır və şagirdlər aşağıdakı suallarla bağlı öz rəylərini bildirir:

– Seçilmiş sözlərdən hər hansı biri onları təəccübləndirirmi?

– Münaqişə ilə əlaqələndirilmiş bütün sözlər mənfi, sülh ilə əlaqələndirilmiş sözlər isə müsbət çalarlıdırmı?

Daha sonra müəllim şagirdlərdən onların üzləşdikləri və ya ətraflarında baş vermiş münaqişələrdən nümunələr soruşur. Müəllim onlardan bu münaqişələrin həll oluna bilən münaqişələr kateqoriyasına məxsus olub-olmadığını, kompromis istiqamətində ilk addım olmasını və ya həll oluna bilməyən münaqişələr kateqoriyasına aid olması ilə bağlı düşünmələrini istəyir. Daha sonra müəllim onları münaqişənin həmişə zorakılığa yol açmaması və münaqişə ilə bağlı daha konstruktiv yanaşmaların mümkün olması ilə tanış edir.

Daha sonra müəllim onları ailədə baş verə biləcək münaqişənin konkret nümunəsi ilə tanış edir.

«18 yaşlı Katya rəfiqəsindən aldığı videoya baxmaq istəyir. Onun 15 yaşlı qardaşı Martin sevimli televiziya proqramına baxmaq istəyir».

Müəllim hər bir şagirdə şagird materialı 4.1-in bir nüsxəsini verir və aşağıda təsvir edilmiş altı mərhələli yanaşmadan istifadə edərək bu münaqişəni təhlil etməyə başlayır.

1-ci və 2-ci mərhələ hər iki tərəfin real «ehtiyaclarının» müəyyən edilməsinə və münaqişənin aydın izahının formalaşdırılmasına təkid edən müəllimin rəhbərliyi ilə bütün qrup tərəfindən həyata keçirilir.

1-ci mərhələdə hər bir tərəfin real ehtiyaclarının təhrikedici olmayan qaydada səsləndirilməsi mühümdür. Diqqət problemin arxasındakı real ehtiyacların tərəflərin özlərinin ifadə etdiyi ehtiyaclardan fərqlənə biləcəyinə yönəldilməlidir. Mərhələ 2-də münaqişənin arxasındakı problem hər iki tərəfin razılıq əldə edə biləcəyi şəkildə formalaşdırır.

Mərhələ 3 mümkün həll yollarının düşünülməsindən ibarətdir. Bu mərhələdə həll yolları ilə bağlı rəy bildirilməməli və ya onlar mühakimə edilməməlidir - bütün fikirlər qəbul edilməlidir. Mərhələ 3 fikir mübadiləsi yolu ilə cütlər şəklində baş verə bilər. Daha sonra müəllim həll yollarının təhlil edilməsində «məğlubiyyət-məğlubiyyət»,»qələbə-məğlubiyyət», «məğlubiyyət-qələbə» və ya «qələbə-qələbə» yanaşmalarını təqdim edir və cütlərdən bu anlayışı istifadə etməklə öz həll yollarını qiymətləndirmələrini istəyir (mərhələ 4).

Əgər şagirdlər müəyyən edirsə ki, onların həll yollarının heç biri qələbə-qələbə vəziyyəti ilə nəticələnmir, onlar bir daha düşünməyə dəvət edilir. Lakin həmişə qələbə-qələbə həll yolunun qeyri-mümkün olduğu hallar olacaq. Cavablarını təqdim etdikdən sonra müəllim qrupu hansı həll yolunun ən yaxşı olduğuna qərar verməyə dəvət edir (mərhələ 5). Münaqişənin həll olunmasında birbaşa iştirak edən tərəflər həll yolunu qəbul etməlidir. Müəllim 6-cı mərhələnin mümkünlüyünü qısa şəkildə təqdim etməklə yekunlaşdırır. 6-cı mərhələnin əsas elementi müəyyən vaxtdan sonra (münaqişənin xarakterindən asılı olaraq dəqiqələrin, saatların, günlərin və ya həftələrin sayı) həll yolunun qiymətləndirilməsindən və zəruri hallarda dəqiqləşdirilməsindən ibarətdir.

Son olaraq müəllim altı mərhələli yanaşmanın hansı növ vəziyyətdə işə yaraya biləcəyi və bu cür vasitənin geniş şəkildə tanınmasının və istifadəsinin nəticələrinin nə ola biləcəyi sualını müzakirəyə çıxarır. Bu, aşağıdakı kimi müxtəlif qruplar və kontekstlərlə əlaqədə müzakirə edilməlidir:

– həmyaşıd qrupları;

– ailə;

– sinif;

– məktəb;

– dövlət;

– müharibə;

– idman.

# Dərs 2
# Altı mərhələli yanaşmanı tətbiq etməklə
### Qonşumuzla mübahisə etməkdən necə yayına bilərik?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Altı mərhələli yanaşmanın tətbiq edilməsini öyrənmək. |
| **Şagird tapşırıqları** | Münaqişəni təhlil edin və hər iki tərəfin faydalanacağı həll yollarını tapın.<br>4.2 üçün hər biri kiçik |
| **Resurslar** | Şagird materialı qrupundakı münaqişə ssenarilərindən birinin nüsxəsi.<br>Şagird materialı 4.1. |
| **Metod** | Kiçik qrup işi. |

## Məlumat qutusu

Münaqişənin sülh yolu ilə həll olunması sadəcə nəzəri anlayışı anlamaqla həyata keçirilə bilməz. Bu, öyrənilməli olan real bacarıqdır və bu dərs şagirdlərə münaqişənin sülh yolu ilə həll olunmasını həyata keçirməyi öyrənməyə imkan verir. Növbəti mərhələ bu biliyin məktəbdə real həyat hadisəsinə tətbiq edilməsindən ibarət olacaq.

# Dərs

Müəllim şagirdlərə onların tapşırığının müxtəlif münaqişə hallarında münaqişənin həllinə altı mərhələli yanaşmanı tətbiq etmək olduğunu izah etməklə dərsə başlayır.

Sinif dörd, beş şagirddən ibarət kiçik qruplara bölünür, hər qrupa 4.2 şagird materialının bir nüsxəsi verilir. Hər qrup bir ssenari üzərində işləyir, beləliklə hər bir ssenari bir və daha artıq qrup tərəfindən istifadə oluna bilər. Şagirdlər "Münaqişənin həll olunmasına altı mərhələli yanaşma" başlıqlı 4.1 şagird materialından istifadə edirlər. Qruplar işi bitirdikdən sonra, hər qrupdan bir sözçü bütün sinif üçün altı mərhələni təqdim edir. Bunu ilk olaraq "münaqişə 1" daha sonra "münaqişə 2" üçün edin.

Onların təqdimatlarından sonra, müəllim aşağıdakı suallardan istifadə etməklə həll yolları haqqında sinif ilə müzakirə aparır.

– Biz "problemin izahını" və "ehtiyacları" başa düşürükmü? Həll olunmamış məsələlər varmı?

– Biz uzun müddət daha yaxşı olacağını fikirləşdiyimiz digər həll yolları tapa bilərikmi?

İkinci mərhələdə, müəllim şagirdlərə ölkədə, həmyaşıdlar qrupunda, məktəbdə hökm sürən münaqişələr üzərində işləməyi tapşırır. Onlardan mümkün qələbə-qələbə həll yolları haqqında fikirləşmək, bir və ya bir neçəsini seçmək (zamandan asılı olaraq) xahiş olunur.

Əgər müəllim şagirdləri vasitəçiliyin növləri ilə tanış etmək üçün iki araşdırmadan istifadə edirsə, o, ölkədəki münaqişə həllinin məhkəmə sistemi haqqında bəzi əsaslı məlumatlar verə bilər (vasitəçiliyin növləri, münaqişəni məhkəməyə verməyin mümkünlüyü). Altı mərhələli yanaşma ilə münaqişələri müzakirə etmək əvəzinə, onlar rol oyunu vasitəsilə vəziyyəti həll edirlər.

Rol oyununda bir şagird A tərəfini, digəri B tərəfini, üçüncü isə vasitəçi rolunu oynayacaq. Müəllim hər bir qrupdan münaqişəni necə həll etdikləri barədə rəylərini soruşdu. Müxtəlif həll yolları, həmçinin bu həllə nail olma prosesi müzakirə olunur. Bu əlavə elementlər çox vaxt aparır, bunun sinifdənxaric fəaliyyət və əlavə bölmə kimi onların öhdəsinə verilməsi yaxşı olar.

# Dərs 3
# Ziddiyyətli insan hüquqları
## İnsan hüquqlarının toqquşması. İndi necə olsun?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | İnsan hüquqlarının toqquşduğu vəziyyətlərin tanınmasını və təhlil edilməsini öyrənmək. |
| **Şagird tapşırıqları** | İnsan hüquqlarının toqquşduğu vəziyyəti təhlil edin. |
| **Resurslar** | Hər bir qrup üçün böyük vərəq və marker. Şagird materialı 4.3.<br>Şagird materialı 5.2. |
| **Metod** | Kiçik qrup işi. Tənqidi təfəkkür. |

## Məlumat qutusu

Baxmayaraq ki, ilk baxışda insan hüquqları cavabları aydınlaşdırmış kimi görünə bilər, həmişə belə deyil. Həqiqətən də, bir kəsin hüquqlarını digərinin hüquqları ilə toqquşması ilə bağlı çoxlu həll yolları vardır. Bu halda, tənqidi düşüncə hər kəsə bir-birinə qarşı münaqişədə hüquqları önə çəkməyə, öz həll yolunu müəyyənləşdirməyə kömək edə bilər.

# Dərs

İşçi qruplar (hər qrupda dörd-beş şagird) münaqişəli insan hüquqları haqqında nümunə

(4.3 şagird materialı “Münaqişəli insan hüquqlarının beş halı”), bir böyük vərəq və bir marker götürməlidir.

Əvvəlcə şagirdlər münaqişəyə daxil edilmiş insan hüquqları haqqında müzakirəyə dəvət olunurlar. Müzakirə üçün qrupa insan hüquqları siyahısı verilə bilər (şagird materialı 5.2). Şagirdlər hansı hüquqların münaqişə obyekti olduğuna qərar verdikdə, onlar vərəqi aşağıda göstərildiyi kimi bölürlər. Müəllim bunu lövhədə hazırlaya və hüquqları birinci sətirə daxil edə bilər.

| **Nümunə nömrəsi** |
|---|
| Toxunulmuş insan hüquqları<br>–<br>–<br>– |
| Həll yolu |
| Nə üçün? |

İkinci tapşırıq ondan ibarətdir ki, şagirdlər nəyin münaqişənin həlli ola biləcəyini açıq müzakirə edirlər. Onlar öz seçimlərinin səbəblərini göstərir və onları öz vərəqlərinə əlavə edirlər.

Daha sonra hər qrupdan qrupun cavablarını bütün sinfə təqdim edəcək sözçü təyin etmək xahiş olunur. Müəllim şagirdlərdən etdikləri seçimlər və onların qrupun ideyaları ilə razılaşıb-razılaşmadıqları barədə rəy soruşur.

# Dərs 4
# Zorakılıqdan istifadə
## Bəzi hallarda zorakılıqdan istifadə məqbuldurmu?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Zorakılıqdan istifadənin məqbulluğu və şəxsi davranış haqqında tənqidi təfəkkürün inkişafı. |
| **Şagird tapşırıqları** | Zorakılıqdan istifadə və şəxsi davranış ilə bağlı düşünmə |
| **Resurslar** | Hər bir qrup üçün şagird materialı 4.4-dən olan hadisələrin qeyd edildiyi kartlar və ya kağızlar. (Müəllim ölkədə münaqişənin həll olunması ilə bağlı məhkəmə sistemi haqqında müəyyən məlumata sahib olmalıdır.) |
| **Metod** | Kiçik qrup işi. Tənqidi təfəkkür. |

## Məlumat qutusu

Dinc dünyanın əsas məqsəd kimi görünməsinə baxmayaraq, nə insan hüquqları sahəsində beynəlxalq hüquq, nə də beynəlxalq humanitar hüquq zorakılıqdan istifadəni mütləq şəkildə istisna etmir. Bu dərsin məqsədi müəyyən hallarda zorakılıqdan istifadənin legitimliyi haqqında şagirdlərin tənqidi təfəkkürünü inkişaf etdirməkdir. Şagirdlərdən özləri və ya ətraflarındakı başqa insanlar tərəfindən tətbiq edilən zorakılıqla bağlı şəxsi davranışlarını təhlil etmək xahiş olunur.

# Dərs

Sinif dörd-beş nəfərlik işçi qruplara bölünür. Şagird və ya müəllim şagird materialı 4.4-dən hal 1-i təqdim edir.

Bir dərsdə bütün dörd hal ilə məşğul olmaq çox çətin olar. Buna görə də müəllim müxtəlif halları müxtəlif qruplara vermək, dörd haldan yalnız ikisini seçmək və ya başqa dərs əlavə etmək barədə qərar qəbul edə bilər.

Qrupun tapşırığı kartda verilmiş sualları istifadə etməklə halı müzakirə etmək və cavablarını şifahi təqdim etməkdir. Müəllim bilməlidir ki, araşdırılan əsas sual "zorakılıqdan istifadəyə nə dərəcədə yol verilməlidir?" sualıdır. Hər bir qrup cavab verdikdən sonra müəllim növbəti nümunədən əvvəl onunla bağlı əlavə məlumatlar verə bilər.

## Müəllimin nümunələrinin, sualların və Nümunə 1 ilə bağlı əlavə məlumatların nüsxəsi

*Qloballaşma əleyhinə məsələ ilə bağlı nümayiş zamanı kiçik insan qrupu məşhur transmillişirkətin qərargahının binasına daş atmağa başlayır. Hadisə yerində olan polis baş verənləri görür və iştirakçıları həbs etməyə çalışır. Bu müdaxilə zamanı daş atan şəxslər polis nəfərini tutub onu ağır şəkildə döyürlər.*

Suallar:

1. Polisin daş atan şəxslərə qarşı atəş açmaq üçün silahlarını istifadə etməsi məqbuldurmu?
2. Polisin pulemyotlardan istifadə edərək müdaxiləsi məqbuldurmu? (Bu müdaxilə daha sürətli olacaq, lakin daha çox tələfata səbəb olacaq.)
3. Polisin su şırnaqlarından istifadə etməklə müdaxilə edənə qədər gözləməsi məqbuldurmu?
4. Münaqişənin genişlənməsinə yol verməmək məqsədilə polisin zor tətbiq etməklə müdaxilə etməməsi məqbuldurmu?

## Məlumat

Beynəlxalq standartlara əsasən polis müəyyən şərtlər altında zor tətbiq edə bilər. Zor yalnız zəruri olarsa, tətbiq edilməli və müdaxilənin məqsədinə müvafiq olmalıdır. Rəhbəri polis məmuruna bu qanunun ziddinə olan şəkildə müdaxilə etməyə əmr edirsə, BMT qaydaları onun bu əmri icra etməkdən imtina etməsini gözləyir.

## Hal 2

*X ölkəsi Y ölkəsinə qarşı müharibə elan edir, çünki Y ölkəsi aydın şəkildə Y ölkəsində X ölkəsinə qarşı fəaliyyət göstərən üsyançı qrupları müdafiə edir və hətta maliyyələşdirir. X ölkəsinin kəşfiyyat heyəti yaxşı təlim görmüş və silahlanmış üsyançıların qaldığı kəndi tapır və onların mühüm sənaye obyektinə böyük bomba hücumu hazırladığını müəyyən edir.*

Suallar:

1. X ölkəsinin yerli sakinlərdə daxil olmaqla, yalnız bir neçə nəfərin xilas olacağına əmin olaraq kəndi ağır şəkildə bombalaması məqbuldurmu?
2. Üsyançıların təslim olması və əhalinin kəndi tərk etməsi və silahlarının olub-olmaması yoxlanıldıqdan sonra buraxılacaqları yerli idman stadionuna toplaşması aydın şəkildə tələb edildikdən sonra əvvəlki seçim məqbuldurmu?
3. Zor tətbiq etməklə müdaxilə etməmək məqbuldurmu? Hansı alternativlər düşünə bilərsiniz?

## Məlumat

Müharibə dövründə Beynəlxalq qanunlar ("Cenevrə Konvensiyası" adlanan) hərbi qüvvədən istifadəni ümumilikdə qadağan etmir, lakin silahların və müdaxilənin bir sıra növlərini qadağan edir. Prinsiplərdən biri budur ki, hərbi qüvvə qeyri-hərbi hədəflərə qarşı istifadə oluna, ayrı-seçkilik və qeyri-mütənasiblik etmək olmaz; məsələn daha az gücə malik bombaların kifayət qədər olduğu vəziyyətlərdə hərbi hədəflərə qarşı ən güclü bombaların istifadəsindən imtina etməklə mülki əhalinin zərər çəkməsinin qarşısını almaq üçün ciddi addımlar atılmalıdır. Bu yolla yaralı mülki əhali və günahsız insanların ölümünün («ikinci dərəcəli zərər») qarşısı alına bilər. Lakin yuxarıda qeyd olunduğu kimi bu o demek deyil ki, müharibə dövründə "Cenevrə Konvensiyası" ikinci dərəcəli zərəri qəbuledilməz hesab edir, lakin onlar bunu müəyyən dərəcədə nəzərə alırlar.

## Hal 3

*Yerli xəstəxanada texniki köməkçi işləyən gənc cənab X müntəzəm şəkildə həyat yoldaşını döyür və evə şərxoş gəlir. Bir dəfə onun həyat yoldaşı bəzən ciddi olan döyülmələr haqqında polisə məlumat verir. Vəziyyətdən təsadüfən xəbərdar olan qonşunun arvadı indi qonşularının mübahisə etməsini və qışqırmasını eşidən zaman yan evdə nələrin baş verdiyini təsəvvür edə bilir.*

Suallar:

1. Bu hallarda qonşunun arvadı polisə məlumat verməlidirmi, yoxsa bu, qonşusunun həyatına qəbuledilməz müdaxilədir?
2. Polis kimdənsə məlumat alan zaman bu hallarda müdaxilə etməlidirmi?

## Məlumat

*«(...) Dövlətlər qadınlara qarşı zorakılığı qınamalı və onun aradan qaldırılması ilə bağlı öz öhdəliklərindən yayınmaq üçün hər hansı bir adətə, ənənəyə və ya dini mülahizəyə istinad etməməlidir. Dövlətlər bütün müvafiq vasitələrə əməl etməli və qadınlara qarşı zorakılığın aradan qaldırılması siyasətini gecikdirməməlidir, bunun üçün:*

*(a) Dövlətlərin Qadınlara qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Aradan Qaldırılması üzrə Konvensiyanı ratifikasiya etməməklə, ona qoşulmamaqla və ya həmin konvensiyanın şərtlərini çıxarmaqla bunu etmədiyi halları nəzərdən keçirin;*

*(b) Qadınlara qarşı zorakılıqda iştirak etməkdən çəkinin;*

*(c) Qadınlara qarşı zorakılığın qarşısını almaq, onu araşdırmaq və milli qanunvericiliyə müvafiq olaraq istər Dövlət, istərsə də fərdi şəxslər tərəfindən törədilmiş zorakılıq əməllərini cəzalandırmaq üçün lazımi səylər göstərin (...)».*

BMT-nin Qadınlara qarşı Zorakılığın Aradan Qaldırılması Bəyannaməsindən (1993).

## Hal 4

*Leo 13 yaşlı, arıq və balaca gənc oğlandır. Onu həmişə yaşca böyük oğlanlar yerli meydançada oynayan zaman qorxudurdular. Bu dəfə o, dedi ki, onlar daima onu hədələməməldirlər və onlar özlərini təhsilsiz, ibtidai insanlar kimi aparırlar. Nəticədə yaşca böyük oğlan onu ağır şəkildə döyməyə başlayır. Leonun dostu meydançaya gələndə baş verənləri görür. Marketdən ərzaq alıb evlərinə qayıdarkən meydançanın yanından keçən bəzi yaşlı insanlar da baş verənləri görür.*

Suallar:

1. Bu halda Leonun dostu müdaxilə etməlidirmi? Necə?
2. Yaşlı insanlar müdaxilə etməlidirmi? Necə?
3. Başqa hansı həll yollarını təklif edə bilərsiniz?

Əlavə tapşırıq kimi şagirdlər böyük oğlanlara onların davranışları ilə bağlı düşüncələrini izah etdikləri məktub yaza bilərlər. Bu, ev tapşırığı və ya daha sürətli işləyən qruplar üçün əlavə tapşırıq ola bilər.

# Müəllimin resurs vərəqi
# Beynəlxalq humanitar hüquq

## Beynəlxalq humanitar hüquq nədir?

Beynəlxalq Humanitar Hüquq insan həyatını xilas etməyə, hərbi münaqişələr zamanı zərərçəkmiş döyüşçülərin və sadə əhalinin sayını azaltmağa çalışan humanitar prinsiplər və beynəlxalq müqavilələri əhatə edir. Onun əsas hüquqi sənədləri 1949-cu ildə imzalanmış Cenevrə Konvensiyası və bütün dünya dövlətləri tərəfindən imzalanmış dörd müqavilədir. Konvensiyalar yaralanma, xəstələnmə, yaxud girov düşmə səbəbindən döyüşdən uzaqlaşdırılmış döyüşçülər və mülki əhalinin əsas hüquqlarını müəyyənləşdirir. Cenevrə Konvensiyasını tamamlayan 1977-ci il Əlavə Protokolları bu hüquqları genişləndirir.

## BHH kimi qoruyur? BHH məni qoruyurmu?

Beynəlxalq Humanitar Hüquq yaralı, xəstə və girov düşmüş silahlı qüvvələrin döyüşçülərini və mülki əhalini qoruyur. İstənilən millətə mənsub yaralı və xəstə döyüşçülər I Cenevrə Konvensiyasının müddəaları çərçivəsində qorunur. Onlar işgəncəyə yaxud bioloji eksperimentlərə məruz qala və məcbur edilə bilməzlər. Onlar qarət və pis münasibətdən qorunmalı, istənilən qayğı ilə təmin olunmalıdırlar. Konvensiya həmçinin tibb işçilərini, hərbi dini heyəti, hərbi tibbi təsisatları və rabitə qovşaqlarını qoruyur.

Yaralı, xəstə və dənizdə gəmi qəzasına düşmüş döyüşçülər II Cenevrə Konvensiyası tərəfindən qorunur. Eyni qorunma dənizdə və quruda çətinliklərlə üzləşən əsgərlərə də şamil edilir. Xəstəxana gəmiləri qorunur.

III Cenevrə Konvensiyası tərəfindən qorunan müharibə məhbuslarına humanist davranmalı və onlar lazımi sığınacaq, ərzaq, geyim və tibbi yardımla təmin olunmalıdırlar. Onlar işgəncə və tibbi eksperimentlərə məruz qalmamalı, zorakılıq, təhqir və ictimai qınağa qarşı qorunmalıdırlar. Müharibədə girov düşmüş şəxslər və orduya qoşulmaq icazəsi olan mülki vətəndaşlar da bu mövqeyə malik olurlar.

Mülki əhali IV Cenevrə Konvensiyası çərçivəsinində qorunur. Bütün vaxtlarda münaqişənin tərəfləri mülki əhali və döyüşçülər arasında fərq qoymalıdır və onların əməliyyatları yalnız hərbi hədəflərə qarşı yönəlməlidir. Mülki əhaliyə mümkün qədər normal yaşamağa imkan verilməlidir. Onlar ölüm, işgəncə, soyğunçuluq, repressiyadan, mülklərinin dağıdılmasından və girov götürülməkdən qorunmalıdırlar. Onların namusuna, ailə hüquqlarına və dini etiqadlarına hörmətlə yanaşılmalıdır. İşğalçı qüvvələr yaralı, xəstə, yaşlı insanları, uşaqları, hamilə qadınları və körpə uşaqlı anaları lazımi ərzaq, tibbi təchizatlar, xəstəxana və təhlükəsiz sığınacaqlarla təmin etməlidirlər. Bu konvensiya qadınlar və uşaqlar üçün xüsusi müdafiə təmin edir. Hər bir şəxsin qayğısına qalan xəstəxana heyəti qorunmalı və hörmət olunmalıdır.

Cenevrə Konvensiyaları münaqişə tərəflərinin səlahiyyət verdiyi Beynəlxalq Qırmızı Xaç Komitəsi, Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyəti və digər bitərəf humanitar təşkilatlardan humanitar yardımlar tələb edir.

## Beynəlxalq humanitar hüquq və insan hüquqları fərqlənirmi?

Bəli, lakin onlar bir-birini tamamlayır. Hər bir şəxsi və onların ləyaqətini qorumaq üçün onlar müxtəlif üsullardan istifadə edir və müxtəlif vacib sənədlərə malikdirlər. Beynəlxalq Humanitar Hüquqa hərbi münaqişə zamanı müharibənin səbəb olduğu zərərləri azaltmaq və düşmən əlinə keçmiş insanları qorumaq üçün müraciət edilir. Beynəlxalq Humanitar Hüququn başlıca hədəfi yaralı, xəstə, gəmi qəzasına düşmüş döyüşçülər, müharibə əsirləri və müki əhalinin əsas hüquqlarını müdafiə etməkdir. İnsan Hüquqları qanunu müharibə və sülh vaxtı tətbiq olunur, lakin ilk olaraq insanların beynəlxalq səviyyədə tanınan mülki,siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının hökümət tərəfindən pozulmasına qarşı çıxır.

## BHH azyaşlı əsgərlər haqqında nə deyir?

Humanitar hüquq düşmənçilikdə uşaqlardan istifadəni qadağan edir, lakin azyaşlı əsgərlərdən istifadə bütün dünyada hələ də ciddi problem olaraq qalır. Beynəlxalq Humanitar Hüquq 15 yaşdan aşağı

uşaqların orduya cəlb olunmamasını, onların münaqişənin bir hissəsinə çevrilməsinə imkan verməmək üçün bütün lazımi tədbirlərin görülməsini tələb edir. 15-18 yaş arası orduya cəlb olunmada prioritet yaşca ən böyüyə verilməlidir (Maddə 77, I Protokol). Təəssüf ki, istər könüllü, istərsə də məcburi orduya cəlb olunan uşaqların sayı artır. Münaqişə zonasında yaşayan uşaqlar, ailələrindən uzaqlaşdırılmaq və digər yollarla təcrid olunmaqla orduya cəlb olunurlar. Uşaqlar çox hallarda silahlı qruplara qoşulmağa yaxud da mübarizə vasitəsi kimi orduya cəlb olunmağa məcbur edilirlər.

## BHH nə zaman istifadə edilir?

BHH xalqlar arasında baş verən silahlı münaqişəyə (beynəlxalq silahlı münaqişə) və ya vətəndaş müharibələri kimi daxili silahlı münaqişələrə tətbiq edilir.

## BHH 11 Sentyabr terror hücumlarına tətbiq edilirmi?

Baxmayaraq ki, 2001-ci il 11 Senytabrda baş verən hadisə müharibə miqyasında ölüm və dağıntı gətirdi, burada BHH tətbiqi aydın deyil. BHH vətəndaş müharibələri kimi daxili silahlı münaqişələrə yaxud da dövlətlərarası (beynəlxalq silahlı münaqişələr) silahlı münaqişələrə tətbiq edilir. Əgər Nyu-York və Vaşinqtondakı mülki hədəflərə yönəlmiş sarsıdıcı hücumlar terror şəbəkəsinin əməliyyatları ilə həyata keçirilibsə, o halda onlar BHH tətbiq olunduğu müharibələrdən daha qorxunc cinayətlərə əl atırlar.

## BHH qadınlar üçün xüsusi müdafiə təmin edirmi?

Bəli. Baxmayaraq ki, qadınlar da kişilər kimi eyni ümumi hüquqi müdafiədən yararlanırlar, Cenevrə Konvensiyaları belə bir prinsipə malikdir ki, “qadınlara onların cinsi mənsubiyyətlərinə görə münasibət bəslənməlidir” (Maddə 12, CK I və Maddə 14 CK III). Bu o deməkdir ki, əlavə müdafiə qadınların gender fərqlilikləri, ləyaqət, təvazökarlıq, hamiləlik və doğumdan qaynaqlanan xüsusi ehtiyaclarını təmin etməyə yönəlib. Məsələn, qadın girovlar və stajorlar kişilərdən ayrı hücrələrdə, digər qadınların nəzarəti altında saxlanılır. Qadınlar «təcavüz, əxlaqsızlığa vadar etmə hallarına və ya nalayiq hücumların bütün formalarına» qarşı qorunmalıdır (CH IV, Maddə 27, həmçinin Maddə 75 və 76, I Protokol ). Yardıma qaldıqda da «hamilə qadınlar, doğum halları, uşaq əmizdirən analar”ın yükünün azaldılması məqsədilə onlara üstünlük verilməlidir. (Maddə 70, I Protokol ). Silahlı münaqişədə qadınlar ilə bağlı problemləri, həmçinin qadınların göstərdiyi əzmi görmək üçün www.womenandwar.org. ünvanında “Müharibə ilə üzləşən qadınlar” araşdırmasına baxa bilərsiniz.

## Beynəlxalq humanitar hüquq (BHH) uşaqları necə müdafiə edir?

BHH mülki şəxslərə hücumların edilməsini qadağan edir və uşaqlar üçün xüsusi müdafiə müəyyən edir. Bütün mülki şəxslər qəsdən adam öldürmə, işgəncə, qarət, repressiyalar, əmlakın heç bir şeyə fərq qoyulmadan qarət edilməsi və girov götürülməyə qarşı qorunmalıdır. Onların şərəfinə, ailə hüquqlarına, dini əqidələrinə və təcrübələrinə hörmət olunmalıdır. İşğalçı qüvvələr yaralılar, xəstələr, yaşlılar, uşaqlar, gələcək analar və azyaşlı uşaqların anaları üçün adekvat ərzaq və tibbi ləvazimatların təhlükəsiz şəkildə çatdırılmasını və xəstəxana və təhlükəsizlik zonalarının yaradılmasını təmin etməli və bunlara imkan verməlidir. Xüsusi qaydalar vardır ki, ailə ilə müşayiət olunmayan uşaqların ehtiyaclarına, həmçinin ailə ilə ünsiyyət, psixo-sosial tələblərinə cavab verir.

Yetim qalmış və ya ailələrindən ayrılmış 15 yaşınadək uşaqlar üçün qayğı təmin edilməlidir. Onlar öz dinlərinə ibadət edə bilməli, təhsil almalı və bu işdə müvafiq yardım almalıdırlar.

## Mülki şəxslərin müharibə zamanı öldürülməsi BHH-nı pozurmu?

Mülki şəxslərin qorunması BHH-nin əsas məqsədidir. IV Cenevrə Konvensiyasına əsasən, mülki şəxslər qətl hadisələrindən qorunmalı və təhlükəsizlik şəraiti imkan verirsə, normal həyat tərzinə imkan verilməlidir. 1977-ci il I Protokolunun əlavəsi beynəlxalq silahlı münaqişələr zamanı mülki müdafiə ilə bağlı daha ətraflı məlumat verir. Birləşmiş Ştatların I Protokolu imzalamasına baxmayaraq, o, onu hələ

təsdiqləməyib. Buna baxmayaraq, ABŞ çoxları tərəfindən yüz illər ərzində inkişaf etmiş, geniş yayılmış ənənəvi hüququn kodifikasiyası hesab edilən bu şərtlərə riaəyət edəcəyini göstərmişdir.

Fərqlənmə prinsipi ilə bağlı əsas qayda I Protokolun 48-ci Maddəsi ilə müəyyən edilir: «Mülki əhaliyə və mülki obyektlərə hörməti və onların müdafiəsini təmin etmək məqsədi ilə, münaqişənin Tərəfləri hər zaman mülki əhali və döyüşçüləri, mülki obyektləri və döyüş obyektlərini ayırmalı və müvafiq olaraq öz əməliyyatlarını yalnız hərbi obyektlərə yönləndirməlidilər». Birbaşa hücumların qadağan edilməsi ilə yanaşı BHH həmçinin mülki şəxslərə qarşı kütləvi hücumları da qadağan edir. Bu, silahlı qüvvələrin hərbi hədəfə hücumu zamanı mülki əhaliyə dəyə biləcək həddindən artıq mənfi nəticələri nəzərə almadıqda baş verir (I Protokolun 41-ci Maddəsi)

Lakin heç də bütün mülki əhalinin müharibə zamanı ölümü qanunsuzdur. BHH silahlı münaqişəni qanundan kənar elan etmir, lakin o, dövlətlərin müharibə zamanı qanuni hərbi obyektlərə hücum etmək hüququ ilə mülki əhalinin hərbi əməliyyatların təsirindən qorunmaq hüququ arasında tarazlıq yaratmağa çalışır. Başqa sözlə desək, müharibənin xarakterini nəzərə almaqla BHH bəzən təəssüflər olsun ki, dinc əhali arasında itkiləri də əhatə edən müəyyən «ikinci dərəcəli ziyanı»nın qarşısını alır.

# Şagird materialı 4.1
## Münaqişənin həllinə altı mərhələli yanaşma

<table>
<tr><td>1. A tərəfinin ehtiyacları<br>a)<br>b)<br>c)<br>d)</td><td>1. B tərəfinin ehtiyacları<br>a)<br>b)<br>c)<br>d)</td></tr>
<tr><td colspan="2">2. Problemin müəyyən edilməsi</td></tr>
<tr><td colspan="2">3. Həll üçün ideyalar<br>a)<br>b)<br>c)<br>d)</td></tr>
<tr><td>4. A tərəfi üçün həll yollarını qiymətləndirin<br>a)<br>b)<br>c)<br>d)</td><td>4. B tərəfi üçün həll yollarını qiymətləndirin<br>a)<br>b)<br>c)<br>d)</td></tr>
<tr><td colspan="2">5. Hansı həll yolu daha yaxşıdır?</td></tr>
<tr><td colspan="2">6. Həllin necə və nə zaman qiymətləndiriləcəyinə qərar verin</td></tr>
</table>

# Şagird materialı 4.2
**Münaqişə ssenariləri**

## Münaqişə 1

*İki qonşu onların müvafiq əmlakları arasındakı hasar üstündə mübahisə edir. Bir qonşu köhnə hasarın artıq yaxşı vəziyyətdə olmadığını hesab etdiyi üçün onu təzələmək istəyir. O, qonşusunun yeni hasarın xərclərinin yarısını ödəməsini gözləyir. Digər qonşu razıdır ki, hasarın vəziyyətinin yaxşı deyil, lakin o, yeni hasara pul xərcləmək istəmir. O hesab edir ki, hasarın yaxşı görünməməsinə baxmayaraq, ən azından qonşularının itini onun bağından uzaq saxlaya bilir. Bundan başqa o, həmişə yeni, daha bahalı əşyalarını nümayiş etdirən qonşusunu sevmir.*

## Münaqişə 2

*Ata və ana iki yaşlı körpələrinin mənzildə həddindən çox səs salmasına necə reaksiya bildiricəkləri ilə bağlı mübahisə edirlər. Ata hesab edir ki, uşaq necə davranmalı olduğunu öyrənməlidir və bu öyrənmə prosesi mümkün qədər tez başlamalıdır. Bundan başqa o, işi çox yorucu olduğu üçün boş vaxtlarında sakitliyə üstünlük verir. Ana isə düşünür ki, daima iki yaşlı uşağın oynamasını və ya ağlamasını dayandıra bilməzsiniz, çünki bu, uşağı həddindən çox məyus edəcək və onun inkişafına zərər vuracaq.*

# Şagird materialı 4.3
## Ziddiyyətli insan hüquqlarının beş halı

### Hal 1

Maks qəzada ciddi yaralanmış səkkiz yaşlı oğlandır və ona xəstəxanada təcili şəkildə qan köçürülməlidir. Lakin onun atası dini səbəblərlə xəstəxana heyətinə bunu qadağan edir. Anası və həkimlər onun həyatını xilas etmək istəyir.

### Hal 2

Xəstəxanada, təcili yardım şöbəsində yalnız məhdud sayda şəxs işləyir. Gərgin gecədir və dərhal ilkin yardım üçün yalnız bir şəxs üçün otaq var. Daha iki şəxsin həyatı təhlükədə olduğu üçün həkimlər balaca uşağı, yoxsa uğurlu biznesmeni müalicə edəcəklərinə qərar verməlidir.

### Hal 3

Qas qətiyyətlə ailə dəyərlərini vurğulayan dini siyasi partiyanın hörmətli üzvüdür. Partiyanın qərargahına baş çəkmiş jurnalist təsadüfən X adlı şəxsdən gəlmiş bir neçə şəxsi məktub tapır, bununla da o, Qasın şübhəsiz nikahdankənar münasibətlərinin olması qənaətinə gəlir. Jurnalist hekayəni dərc edir.

### Hal 4

Yuçu "üçüncü dünya" ölkəsində yaşayır. O, kasıbdır və yalnız əsas ehtiyaclarını qarşılaya bilir. O, təhsil almağa başlamaq istəyir, lakin bunun üçün zəruri vəsaiti tapa bilmir. Ölkəsi onu zəruri resurslarla təmin edə bilmir, çünki dövlətin iqtisadiyyatı çox pis vəziyyətdədir və bütün mövcud resursları əhalinin əsas ehtiyaclarını qarşılamaq üçün istifadə etməlidir.

### Hal 5

Yerli hökumət orqanları uşaqlarının hələ də oyun oynaya bildiyi nadir yerlərdən biri olan torpaq sahəsində yeni məktəb inşa etməyi planlaşdırır.

# Şagird materialı 4.4
**Zorakılıq bəzi hallarda qəbul edilə bilərmi?**

## Hal 1

*Qloballaşma əleyhinə məsələ ilə bağlı nümayiş zamanı insanlardan ibarət kiçik qrup məşhur transmilli şirkətin qərargahının binasına daş atmağa başlayır. Hadisə yerində olan polis baş verənləri görür və bunda iştirak edən şəxsləri həbs etməyə çalışır. Bu müdaxilə zamanı daş atan şəxslər polis nəfərini tutub onu ağır şəkildə döyürlər.*

Suallar:

1. Polisin daş atan şəxslərə qarşı atəş açmaq üçün silahlarını istifadə etməsi məqbuldurmu?
2. Polisin pulemyotlardan istifadə edərək müdaxiləsi məqbuldurmu? (Bu müdaxilə daha sürətli olacaq, lakin daha çox tələfata səbəb olacaq.)
3. Polisin su şırnaqlarından istifadə etməklə müdaxilə edə bilənə qədər gözləməsi məqbuldurmu?
4. Münaqişənin genişlənməsinə yol verməmək məqsədilə polisin zor tətbiq etməklə müdaxilə etməməsi məqbuldurmu?

## Hal 2

*X ölkəsi Y ölkəsinə qarşı müharibə elan edir, çünki Y ölkəsi aydın şəkildə Y ölkəsində X ölkəsinə qarşı fəaliyyət göstərən üsyançı qrupları müdafiə edir və hətta maliyyələşdirir. X ölkəsinin kəşfiyyat heyəti yaxşı təlim görmüş və silahlanmış üsyançıların qaldığı kəndi tapır və onların mühüm sənaye obyektinə böyük bomba hücumu hazırladığını müəyyən edir.*

Suallar:

1. X ölkəsinin yerli sakinlər də daxil olmaqla, yalnız bir neçə nəfərin xilas olacağına əmin olaraq kəndi ağır şəkildə bombalaması məqbuldurmu?
2. Üsyançıların təslim olması və əhalinin kəndi tərk etməsi və silahlarının olub-olmaması yoxlanıldıqdan sonra buraxılacaqları yerli idman stadionuna toplaşması aydın şəkildə tələb edildikdən sonra əvvəlki seçim məqbuldurmu?
3. Zor tətbiq etməklə müdaxilə etməmək məqbuldurmu? Hansı alternativlər düşünə bilərsiniz?

## Hal 3

*Yerli xəstəxanada texniki köməkçi işləyən gənc cənab X müntəzəm şəkildə həyat yoldaşını döyür və evə şərxoş gəlir. Bir dəfə onun həyat yoldaşı bəzən ciddi olan döyülmələr haqqında polisə məlumat verir. Vəziyyətdən təsadüfən xəbərdar olan qonşunun arvadı indi qoşularının mübahisə etməsini və qışqırmasını eşidən zaman yan evdə nələrin baş verdiyini təsəvvür edə bilir.*

Suallar:

1. Bu hallarda qoşunun arvadı polisə məlumat verməlidirmi, yoxsa bu, qonnşusunun həyatına qəbuledilməz müdaxilədir?

2. Polis kimdənsə məlumat alan zaman bu hallara müdaxilə etməlidirmi?

## Hal 4

*Leo 13 yaşlı, arıq və balaca gənc oğlandır. Onu həmişə yaşca böyük oğlanlar yerli meydançada oynayan zaman qorxudurdular. Bu dəfə o, onlara dedi ki, onlar daima onu hədələməməldirlər və onlar*

*özlərini təhsilsiz, ibtidai insanlar kimi aparırlar. Nəticədə yaşca böyük oğlan onu ağır şəkildə döyməyə başlayır. Leonun dostu meydançaya gələndə baş verənləri görür. Marketdən ərzaq alıb evlərinə qayıdan bəzi ahıllar da meydançanın yanından keçən zaman baş verənləri görür.*

Suallar:

1. Bu halda Leonun dostu müdaxilə etməlidirmi? Necə?
2. Yaşlı insanlar müdaxilə etməlidirmi? Necə?
3. Başqa hansı həll yollarını təklif edə bilərsiniz?

# 2-ci hissə

## Məsuliyyət

### Bölmə 5

### Hüquqlar, azadlıqlar və öhdəliklər
### Hüquqlarımız nədən ibarətdir və onlar necəqorunur?

### Bölmə 6

### Məsuliyyət
### İnsanların hansı öhdəlikləri var?

# BÖLMƏ 5
# Hüquqlar, azadlıqlar və öhdəliklər

## Hüquqlarımız nədən ibarətdir və onlar necə qorunur?



### 1.1. Arzular, əsas ehtiyaclar, insan ləyaqəti və insan hüquqları
**İstədiyim hər şeyə hüququm varmı?**

### 1.2. İnsan hüquqları pozuntularının aşkarlanması
**Burada hansı insan hüququ pozulmuşdur?**

### 1.3. Hüquqlar və öhdəliklər
**Öhdəliklər olmadan hüquqlar necə mövcud ola bilər?**

### 1.4. İnsan hüquqları ilə bağlı viktorina
**Hüquq nədir? İnsan hüququ necə olmalıdır?**

# BÖLMƏ 5 Hüquqlar, azadlıqlar və öhdəliklər Hüquqlarımız nədən ibarətdir və onlar necə qorunur?

Bir tərəfdən insan hüquqları insan şəxsiyyətinin inkişafı ilə məşğul olur (yəni insan başqa vətəndaşlarla münasibətdə öz potensialından necə istifadə edə bilər). Digər tərəfdən insan hüquqları dövlətin fərdlərə qarşı öhdəliklərini ifadə edir. İnsan hüquqları ilə bağlı mühüm sənədlərə İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi, Avropa İnsan Hüquqları Konvensiyası və Uşaq Hüquqları Konvensiyası daxildir. Ənənəvi olaraq, insan hüquqları mülki, siyasi, sosial, iqtisadi və mədəni kateqoriyalara bölünür. Bu kateqoriyalar adətən insan hüquqları tarixinin inkişaf mərhələləri ilə bağlıdır, burada vətəndaş və siyasi hüquqlar «birinci nəsil», sosial və iqtisadi hüquqlar «ikinci nəsil» və mədəni və ya inkişaf hüquqları «üçüncü nəsil» hesab edilir. Kateqoriyalara bölünən hüquqların dəyərinə rəğmən DVT/İHT insan hüquqları anlayışını geniş mənada təbliğ etməyə çalışır. Bu bütün - mülki, siyasi, sosial, iqtisadi və mədəni kateqoriyalarda eyni əhəmiyyət kəsb edir. Beləliklə, DVT/İHT müəyyən hüquqları digərlərindən daha əhəmiyyətli etmək üçün keçmişdəki tendensiyanı balanslaşdırmağa çalışır. İnsan hüquqları ənənəvi olaraq dövlət və onun vətəndaşlarla münasibəti ilə əlaqələndirildiyi halda, DVT/İHT daha çox xalqların və qrupların hüquqları üzərində dayanır. Bu ideyaları DVT/İHT-a daxil etmək cəhdləri yerli, milli və regional icmaların inkişafı və öz konsepsiyası üçün əhəmiyyətlidir.[19]

İnsan hüquqlarının üç elementi vardır: hüquqların sahibi, hüququn məzmunu (hüquq sahibi nə tələb edə bilər) və məsul şəxs ( tələblərə cavab verəcək şəxs və ya müəssisə). Öhdəliklər adətən üç səviyyədə qiymətləndirilir:

– Hörmət, fərdləri birbaşa və ya dolayı yolla hüquqlarından məhrum etməkdən çəkinmək, o cümlədən insanları onların hüquqlarından məhrum edə biləcək institusional sistemin yaradılmasından və ya başqalarının insanları öz hüquqlarından məhrum etmək üçün stimul verməkdən çəkinmək deməkdir.

– Müdafiə etmək bu hörməti həyata keçirməkdir; başqalarını hüquqlarından məhrum etməyə çalışanların - onların hökümət rəsmiləri, beynəlxalq müəssisələr, şəxsi korporasiyalar, ictimaiyyət liderləri və ailə üzvləri olmasından asılı olmayaraq - qarşısını almaqdır.

– Yerinə yetirmək başqası qarşısında xüsusi öhdəliyi olan, öz hüquqlarını qorumaq və yerinə yetirməkdən məhrum edilmiş yaxud təbii fəlakətlərin qurbanı olmuş insanlara yardım etməkdir. Bu yardıma hüquqlarının müdafiəsi üçün mümkün olan ən yaxşı siyasi mühiti təmin etmək üçün qanunvericilik, büdcə, məhkəmə və digər tədbirlər daxildir.[20]

Vətəndaş hüquqları kimi qorunan azadlıqlara düşüncə, fikir və ifadə azadlığı, dini etiqad və ibadət azadlığı, dövlət ərazisində sərbəst yerdəyişmə və dinc toplaşmaq və birləşmək hüququ daxildir. Digər vətəndaş hüquqları, fərdin şəxsi həyatını, ailə həyatını və qanun qarşısında bərabərlik hüququnu qoruyur.[21]

Məsuliyyətlər insan hüquqlarının məntiqi nəticələridir. Müdafiə olunması üçün hər bir hüquq həm vətəndaşlar, həm də dövlət üçün müvafiq məsuliyyətlər daşıyır. Hər bir fərdin başqasının şəxsi ləyaqətinə toxunmamaq kimi mənəvi öhdəliyi var. Hökumətlər beynəlxalq sazişlərin imzalanması və öz konstitusiyalarına əməl etmələri ilə yalnız mənəvi deyil, həmçinin hüquqi öhdəlik daşıyırlar.

19. «Demokratik vətəndaşlıq üçün terminlər lüğəti»ndən, Karen O'Shea, Avropa Şurası, DGIV/EDU/CIT (2003) 29.
20. "Duties sans Frontières. İnsan hüquqları və qlobal sosial ədalət", İnsan Hüquqları Siyasətinin Beynəlxalq Şurası.
21. *Həmin müəllif.*

## Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə Təhsil

Bu dərs silsiləsi vasitəsilə şagirdlər:

- insan hüquqlarının xarakterini daha yaxşı anlayacaq: onlar hər kəsin ləyaqətlə yaşamasına imkan verən zəminlərdir;
- beynəxalq səviyyədə qəbul edilmiş insan hüquqları ilə bağlı biliklərini və qavramaları artıracaq;
- insan hüquqlarının pozulması hallarını tanımaq bacarıqlarını artıracaq;
- insan hüquqlarına hörmətin artırılması üçün necə kömək edə biləcəkləri ilə bağlı qavramalarını artıracaq;
- insan hüquqları ilə bağlı öhdəliklərin qavranılması və anlanmasını artıracaq: dövlətin və institutların, həmçinin şəxsi mənəvi öhdəlikləri.

# BÖLMƏ 5 Hüquqlar, azadlıqlar və öhdəliklər Hüquqlarımız nədən ibarətdir və onlar necə qorunur?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1:<br>ləyaqətlə yaşaya bilməsi üçün ilə əlaqələndirilər.<br>bu material edilir digər | Prezident olsaydınız zəruri zəmin olduğunu göstərə bilir.<br>Şagird materialı 5.1 bütün bölmədə və dərslərdə də olacaq. | insan ləyaqəti və insan hüquqları<br>Şagirdlər öz arzularını<br>Şagird materialı 5.2. | Şagirdlər insan hüquqlarının (öz) əsas ehtiyacları<br>Şagirdlər insan hüquqlarının istifadə buna görə də lazım<br>Qrup işi, plenar iş.<br>Tənqidi təfəkkür. | hər bir şəxsin və insan hüquqları almalıdır ki, |
| Dərs 2:<br>hallarını müəyyənləşdirə bilirlər.<br>Şagird materialı 5.3. işi. | Prezident olsaydınız<br>Şagirdlər<br>Şagird materialı 5.2. | pozuntularının aşkarlanması insan hüquqlarının<br>Cüt | Şagirdlər insan pozulması hallarını və ya<br>Plenar | hüquqlarının pozulması tədqiq edirlər.<br>qrup müzakirə. |
| Dərs 3:<br>qorunmasına necə kömək həmçinin onların şəxsi şəxsi yardımları da | Hüquqlar və edə biləcəklərini anlayırlar.<br>mənəvi öhdəlikləri ilə daxil olmaqla, öhdəliklər və<br>Şagird materialı 5.4<br>Şagird materialı 5.2<br>Cütlərdə və ya qruplarda iş.<br>Tənqidi təfəkkür. | məsuliyyətlər.<br>Şagirdlər insan bağlı olduğunu insan hüquqlarını müəyyən edilər. | Şagirdlər insan hüquqlarının öhdəliklərlə -<br>anlayırlar.<br>qorumaq üçün<br>Boş vərəq qələm. | hüquqlarının dövlətin və institutların,<br>Şagirdlər |
| Dərs 4:<br>tanınan və cavablarının nəticələrini | İnsan hüquqları insan hüquqları müzakirə edirlər.<br>olan kartlar<br>Çoxsaylı | ilə bağlı viktorina haqqında öyrənirlər.<br>Hər bir (şagird materialı seçim | Şagirdlər<br>Şagirdlər çoxsaylı şagird üçün arxasında həll yolları 5.5-ə baxın).<br>sualları. | beynəlxalq səviyyədə seçim suallarını cavablandırır |

# Dərs 1
# Arzular, əsas ehtiyaclar, insan ləyaqəti və insan hüquqları
### İstədiyim hər şeyə hüququm varmı?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər insan hüquqlarının hər bir şəxsin ləyaqətlə yaşaya bilməsi üçün zəruri zəmin olduğunu göstərir. |
| **Şagird tapşırıqları** | Şagirdlər öz arzularını əsas ehtiyacları və insan hüquqları ilə əlaqələndirirlər. |
| **Resurslar** | Şagird materialı 5.1 (dörd və ya beş şagirddən ibarət olan hər bir qrup üçün bir material). Şagird materialı 5.2 (dörd və ya beş şagirddən ibarət olan hər bir qrup üçün bir material). |
| **Metod** | Qrup işi, plenar iş. Tənqidi təfəkkür |

## Anlayışlar

**Arzu** və **əsas ehtiyacı** fərqləndirə bilmək mühümdür. İnsanların ləyaqətli yaşaması üçün qarşılanması zəruri olan əsas ehtiyaclar insan hüquqlarının formalaşdırıldığı bünövrə kimi hesab edilə bilər.

Əlavə fəaliyyətlər kimi bu dərsə plakat işi və konseptual təfəkkür daxil ola bilər.

# Dərs

Dərsi başlamaq üçün müəllim şagirdlərə dərsin necə təşkil olunacağı haqqında məlumat verir, lakin əsas mövzu ilə bağlı təfərrüatları verməməlidir. Şagirdlər özlərinə və bir-birlərinə öz arzuları və ehtiyacları haqqında suallar verməyə başlayırlar - daha sonra dərsdə onlar müəyyən edirlər ki, bu arzu və ehtiyacların əksəriyyəti insan hüquqları ilə uyğundur. Girişdən sonra (bir və ya iki dəqiqədən çox olmamaqla) şagirdlər dörd və ya beş nəfərdən ibarət kiçik qruplara bölünür və onlara iki mərhələdə tapşırıqlar verilir. Müəllim ilk növbədə tapşırıq 1-i izah edir və qruplara onlar bitirdikdən sonra ayrı-ayrı növbəti mərhələni izah edir. Bu yolla, fərdi öyrənmə sürəti nəzərə alınır.

- **Tapşırıq 1:** Şagird materialı 5.1, Arzular, ehtiyaclar və hüquqlar. Qruplar iş vərəqinin sol sütununda «maddi» arzuların (məs., «dadlı yemək») siyahısını tərtib edir və ən azı üç «qeyri-maddi» arzularını (məs., «sevilmək») əlavə edirlər. Daha sonra onlar bu arzuların müdafiə etdiyi ehtiyaclar haqqında düşünür və onları orta sütuna əlavə edirlər.
- **Tapşırıq 2:** Daha sonra müəllim tapşırıq 1-i tamamlamış qruplara şagird materialı 5.2-nin, İnsan Hüquqlarının Siyahısı, nüsxəsini verir və onlardan müvafiq hüququ sonuncu sütunda (məs., «qidalanmaq hüququ», «ayrı-seçkiliyə məruz qalmamaq azadlığı») yazmalarını istəyir.
- **Tapşırıq 3:** İlk bitirən qruplar ehtiyaclardan birini və müvafiq hüququ seçməklə insan hüquqları plakatını hazırlamaq haqqında düşünməyə başlamalıdır. Onlar anlayışlarının məzmununu müzakirə etməli və həmçinin ona bədii nöqteyi-nəzərdən baxmalı, daha sonra təkliflər layihəsini hazırlamalıdırlar.

Qrup işi tamamlandıqdan sonra müəllim qrupların ideyalarını löhvədə yaza bilər. O, üç sütundan ibarət cədvəl çəkir və hər bir qrupun nümayəndəsindən arzu, ehtiyac və müvafiq hüququ əlavə etməsini istəyir. Bu, löhvədə 10-a qədər arzunun, ehtiyacın və hüququn siyahısı olana qədər davam edir (mümkündürsə, flip çart kağızlarından istifadə edin, çünki vərəqlər daha sonra qruplara öz müzakirələrini xatırlatmaq üçün sinif divarlarına vurula bilər).

İndi müəllim aşağıdakı ideyalardan istifadə etməklə qısa plenar müzakirə aparır:

- «Siz arzu və ehtiyaclarınızın İnsan Hüquqları Konvensiyası ilə uyğun olduğunu müəyyən etmisiniz. Bu, müəyyən izahat tələb edir!»
- «Konvensiyanın bəzi hüquqlarını nəzərdən keçirməmişik. Onlar mühüm olmaya və ya digər hüququn əhatə dairəsinə daxil ola bilərlər. Bununla bağlı nöqteyi-nəzəriniz nədən ibarətdir?»
- «Bu insan hüquqları siyahısına baxın. Layiqli həyat yaşamanız və ya digər regionlarda, ölkələrdə və ya qitələrdə başqa insanların yaşaması üçün nəyə ehtiyacın olmasını düşündüyünüz zaman nə çatmır? Başqa hansı insan hüququnu əlavə etmək istəyərdiniz?»

Müzakirəni tamamlamaq üçün müəllim insan hüquqlarının əsas hədəfi ilə bağlı bütün dünyada debatın olması barədə şagirdlərə məlumat verir. Bir nəticə belədir: «İnsan hüquqları hər kəsin ləyaqət ilə yaşamasına imkan vermək üçün lazımdır». Daha sonra müəllim şagirdlərdən bu nəticəyə alternativlər düşünmələrini istəyir. Bu, ev tapşırığının bir hissəsi ola bilər. Mümkündürsə, növbəti bir neçə gün ərzində şagirdlər divarlara vurulmuş vərəqlərə öz ideyalarını əlavə etməlidirlər. Bu yolla, düşünmə prosesi davam etdirilə bilər.

Əlavə tapşırıq kimi şagirdlərdən qəzet, jurnal kəsiklərindən və ya öz çəkdikləri rəsmlərdən istifadə etməklə insan hüquqları mövzusunda plakat hazırlamaq istənilə bilər. Bu, sinif otağı dekorasiyası üçün və ya sərgi üçün istifadə edilə bilər.

Son olaraq, dərsi yekunlaşdırmaq üçün müəllim ideyaların qısa icmalını və dərsin məqsədlərini verir. O, hətta induksiya anlayışının didaktik prinsipini izah edə bilər: yəni, təcrübə və şəxsi ideyaları araşdırmaqla başlamaq və anlayışı və ya nəzəriyyəni izah etməklə bitirmək.

# Dərs 2
# İnsan hüquqları pozuntularının aşkarlanması
### Burada hansı insan hüququ pozulmuşdur?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər insan hüquqlarının pozulması hallarını müəyyənləşdirə bilirlər. |
| **Şagird tapşırıqları** | İnsan hüquqlarının pozulması halları ilə bağlı tədqiqat işləri. |
| **Resurslar** | Şagirdlərin hər bir cütü üçün şagird materialı 5.3. Şagirdlərin hər bir cütü üçün şagird materialı 5.2. |
| **Metodlar** | Cüt və ya qrup işi. Plenar müzakirə |

## Məlumat qutusu

Bütün dünyada insan hüquqlarının pozulması halları hər gün baş verir. Keçmişdən və ya bu gündən real hadisələrə baxmaqla şagirdlər insan hüquqlarının daha aydın və dəqiq təsvirini əldə edir.

# Dərs

Dərs tapşırıqları və son dərsin nəticələrini müzakirə etməklə başlayır. Plakatlar təqdim edilir və nəticələrin siyahısı müqayisə edilir. Əgər faydalıdırsa və mümkündürsə, təkliflər vərəqlərə yazılır və plakatlar ilə birlikdə sinif otağının divarlarına vurulur.

Şagirdlər indi cütlər yaradır. Hər bir cütə şagird materilı 5.3-ün, İnsan hüquqlarının pozulması, və şagird materialı 5.2-nin, İnsan hüquqlarının siyahısı, bir nüsxəsi verilir.

Daha sonra insan hüquqlarının pozulması ilə bağlı nümunələrin siyahısı cütlər arasında bölüşdürülür; məsələn, 1-ci cütə a-d, 2-ci cütə e-j və s. verilə bilər.

Siyahını hər bir pozulma qrupunun birdən çox cüt tərəfindən araşdırılacaq şəkildə bölmək daha yaxşı olar.

Şagirdlər insan hüquqlarının pozulması ilə bağlı nümunələri oxuyur və müzakirə edirlər. Daha sonra onlar hüquqlar siyahısından hansı insan hüququnun pozulması ilə bağlı razılığa gəlməyə çalışırlar; məsələn, a nümunəsində 10-cu hüquq pozulmuşdur.

Cavablar sinifdə müzakirə edilir. Birdən çox cütün bir nümunənin üzərində işləməsinin dəyəri o deməkdir ki, fikir ayrılıqları mövcuddursa, müzakirə qısa suallar silsiləsi ilə aparıla bilər.

– Bu qənaətə necə gəldiniz?

– Digər cütlərin cavablarını eşitdikdən sonra öz cavabınızı dəyişmək istərdinizmi? Cavab müsbətdirsə, sizi nə inandırdı? Nə üçün?

Müzakirənin məqsədi yalnız bir düzgün cavabın olduğunu hesab etmək əvəzinə bir neçə nümunə və cavabı araşdırmaqdır.

## Əlavə fəaliyyət

Dərsin sonunda vaxt qalıbsa, müəllim şagirdlərdən bu konkret nümunələrdən ən çox hansı ilə rastlaşdıqlarını soruşa bilər. Verilmiş bəzi nümunələr üçün şagirddən soruşmaq olar:

– Bu, sizin başınıza gəlsəydi, özünüzü necə hiss edərdiniz?

– Necə reaksiya verərdiniz?

– Sizcə, başqa insanlar nə edərdi?

Bu cür suallar şagirdlərə başqalarının insan hüquqarının müdafiəsi üçün məsuliyyət daşıması ideyasını araşdırmağa kömək edir.

# Şagird materialı 5.3
## İnsan hüquqlarının pozulması halları

## Müəllimin həll yolları olan nüsxəsi

| İnsan hüquqlarının pozulması halları | İH pozulub |
|---|---|
| a. Bir neçə il əvvəl qızını və həyat yoldaşını avtomobil qəzasında itirmiş xanım X qaynı ona birmənalı şəkildə icazə verməyənə qədər başqası ilə evlənə bilməzdi. | 10 |
| b. Həbsxana nəzarətçiləri saxlanılan şəxsləri hücüm hədələri ilə qorxutmaq üçün itlərdən istifadə edirdi və bir dəfə onlar iti saxlanılan şəxsi dişləməyə məcbur etdi. | 2 |
| c. Yerli zavodda işçilər gün ərzində fasiləsiz ən azı 10 saat işləməlidirlər. | 21 |
| d. Üç nəfər həbs edildikdən bəri, vəkillərlə əlaqə saxlamaqda çətinlik çəkirdilər. Əksər hallarda vəkillər gəlir və onları görməyə icazə verilmirdi; onlara vəkillərlə kollektiv müzakirələr etməyə icazə verilmirdi, bu da o demək idi ki, onların ikisinin vəkilə heç bir çıxışı yox idi. | 5 |
| e. Eyni işi görən, eyni yaşda olan və eyni təcrübəyə sahib olan qadın kişi həmkarından daha az əmək haqqı alır. | 7 |
| f. X adlı şəxs Y adlı şəxsi üç gündür ki, qaçırdıb və saxlayıb və onun başına atəş açıb ki, bu da üç gün sonra onun ölümü ilə nəticələnib. | 1 |
| g. Narkotik aludəçisi olan xanım X-in Anonim Narkotik görüşünü tərk edən zaman şəkli çəkilib. Daha sonra şəkil dərc edilmişdi. | 9 |
| h. Yoldaşı tərəfindən pis rəftara məruz qalan qadın ərindən yalnız evini, maşını və bütün əmlakını ona verdikdən sonra boşana bilmişdir. Onun heç bir şeyi qalmamışdı. | 11 |
| i. Həyat üçün təhlükəli olan pnevmaniyadan əziyyət çəkən X ölkəyə qanunsuz gəldiyi üçün xəstəxanada heç bir tibbi yardım ala bilmirdi. | 18 |
| j. X ərazisinin əhalisinin yetmiş faizi evlərini tərk etməyə məcbur edilmiş və daha sonra onlara geri qayıtmağa imkan verilməmişdi. Onlara məhsul yetişdirmək üçün yaxınlıqdakı sahələrə getmək üçün düşərgələri tərk etməyə icazə verilmirdi və onlara bir çox yollarla səyahət etmək qadağan edilmişdi. | 12 |
| k. Qara dərili afrikalılar məsələn, bir şüşə viski müqabilində Afrikada satın alınıb və Şimali Amerikada 1200-1500 ABŞ dollarına satılıb. | 3 |
| l. X ölkəsində yerli əhalinin yaşaması üçün lazım olan bütün vəsaitlər qəsdən məhv edilib: taxıllar, su təchizatları və mal-qara. | 17 |
| m. X ölkəsində vətəndaşlar mühakimə edilmədən həbs edilə bilər. | 4 |
| n. Gündəlik qəzetin 26 yaşlı müxbiri yaxınlarda tamamlanmış seçki kampaniyası ilə bağlı reportajı üçün şübhəli hücumda ölümcül şəkildə güllələnmişdi. | 15 |
| o. Cənab X orduya qeydiyyata çağırılıb. O, hərbi idarəyə hərbi xidmətdən imtina etdiyini yazmış və hərbi öhdəliklər üçün məlumat verməyi rədd etmişdir. O, itaətsizlikdə ittiham edilmiş və ona ölkəni tərk etmək qadağan edilmişdir. | 14 |
| p. X ölkəsində Falun Gong dininə qoşulmaq istəyənlərlə görüşmək qadağan edilmişdir. | 16 |
| q. Etnik çoxluq qərar vermişdir ki, yəhudilər və qaraçılar kimi azalıqlara məxsus olan insanlar şəhərin müəyyən edilmiş ərazilərində yaşamağa məcburdurlar. | 25 |
| r. Kənddə yaşayan uşaqlar ibtidai məktəbə gedə bilmirlər, çünki müvafiq ərazidə bu cür məktəb yoxdur. | 19 |
| s. X parlament seçkilərində namizədliyini irəli sürə bilmirdi, çünki ölkənin dini orqanları buna razılıq vermir. | 23 |

| **İnsan hüquqlarının pozulması halları** | **İH pozulub** |
|---|---|
| t. Qara dərili olduğu üçün X yerli xəstəxanda həkim kimi işləyə bilmir. | 20 |
| u. Bəzi ölkələrdə yoxsul insanların ərzaq və ya mənzil proqramlarına, əlçatan səhiyyə xidmətlərinə çıxışı yoxdur. | 26 |
| v. Evi yanmış cənab X təzminat üçün iddia irəli sürə bilmirdi. | 6 |
| w. Həmişə evdar xanım kimi işləmiş və beş uşaq anası olan 47 yaşlı X adlı qadın ərindən boşandıqdan sonra bütün sosial təminatdan məhrum olmuşdur. | 22 |
| x. İki uşaq atası cənab X ölkəsində hakimiyyətdə olan rejimi tənqid edən şeirlər yazdığı üçün həb edilmiş və işgəncələrə məruz qalmşdır. Onun A ölkəsində siyasi sığınacaq üçün müraciəti geri çevrilmişdir. O, vətəninə geri qaydarsa, indi üzləşdiyi işgəncəyə məruz qalacağını bilirdi. | 13 |
| y. Qondarma praktiki səbəblər üzündən fiziki qüsurlu insanlara, məsələn, əlil arabasından istifadə edənlərə yerli teatrda mədəni tədbirlərdə iştirak etməyə icazə verilmir. | 24 |
| z. X ölkəsində vətəndaşlıq üçün müraciət etmək üçün 15 illik yaşayış, bundan başqa fiziki və əqli sağlamlıq testi və səbəbsiz yüksək inzibati haqlar tələb edilir. Nəticədə, ölkələri ilə uzun müddətli əlaqələri olan minlərlə qaçqın öz torpaqlarında vətəndaşlıq almamışdır. | 8 |

# Dərs 3
# Hüquqlar və öhdəliklər
## Öhdəliklər olmadan hüquqlar necə mövcud ola bilər?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | Şagirdlər insan hüquqlarının qorunmasına necə kömək edə biləcəklərini anlayırlar.<br>Şagirdlər insan hüquqlarının öhdəliklərlə - dövlətin və institutların, həmçinin onların şəxsi mənəvi öhdəlikləri ilə bağlı olduğunu anlayırlar. |
| **Şagird tapşırıqları** | Şagirdlər şəxsi yardımları da daxil olmaqla, insan hüquqlarını qorumaq üçün öhdəlikləri müəyyən edirlər. |
| **Resurslar** | Boş vərəq və qələm.<br>Hər bir şagird cütü üçün şagird materialı 5.4. Şagirdlərin hər bir cütü üçün şagird materialı 5.2. |
| **Metodlar** | Cütlərdə və ya qruplarda iş. Tənqidi təfəkkür. |

## Məlumat qutusu

Əgər heç bir fərd və ya hökumət orqanı insan hüququna hörmətin həyata keçirilməsi üçün məsuliyyəti öhdəsinə götürmürsə, buna heç vaxt nail olunmayacaq. Bu halda hökumətlərin əsas öhdəçi olmasına baxmayaraq, digər orqanlar və fərdlər də insan hüquqlarını təşviq etməli və qorumalıdırlar. Hər bir şəxsin insan hüquqları dəyərlərinin gündəlik həyatımızdakı davranışımıza stimul verdiyi mədəniyyətə töhfə vermək kimi əxlaqi öhdəliyi var.

Mümkün əlavə fəaliyyət kimi müsbət və mənfi hüquqlar mövzusunu və layihə işini göstərmək olar.

# Dərs

Şagirdlər cütlər formalaşdırır. Sinifdə bərabər sayda cütlərin olması vacibdir.

Hər bir cütə boş vərəq və qələm verilir və onların fikrincə, məktəblərində olması zəruri olan üç mühüm hüququ və evlərində olması zəruri olan üç mühüm hüququ yazmaları xahiş olunur. Nümunələr: ev tapşırığı ilə yüklənməmək hüququ və ya cib xərcliyi almaq hüququ ola bilər.

Bu tamamlandıqdan sonra müəllim hər bir cütə şagird materialı 5.4-ün, Hüquqlar və məsuliyyətlər və şagird materialı 5.2-nin, İnsan hüquqlarının siyahısı nüsxəsini paylayır. Daha sonra şagirdlərdən insan hüquqlarının siyahısını araşdırmaq və hansı hüquqların vərəqə yazdıqları altı hüquqa daha çox müvafiq olduğunu müzakirə etmək istənilir.

Qərar verdikdən sonra onlar şagird materialı 5.4-ün ilk sütununda altı hüququ yazırlar. Bu məqamda müəllim şagirdlərdən sadaladıqları hüquqlar ilə bağlı hər hansı izahata ehtiyaclarının olub-olmadığını soruşa bilər.

Birinci sütun tamamlandıqdan sonra müəllim şagirdlərə aşağıdakı nümunəni verməklə hər bir hüququn müvafiq məsuliyyətləri olduğunu izah edir. «Nitq azadlığı başqa şəxsi alçaldacaq uyğun olmayan şeyləri söyləməmək və onun ləyaqət və yaxşı nüfuz hüququnu sui-istifadə etməmək məsuliyyəti ilə məhdudlaşdırılır. Müəllim həmçinin fərdin hüquqları və onun başqalarının hüquqlarına hörmət etmək məsuliyyətləri arasındakı balansın hüquqlarımızdan müəyyən məhdudiyyətlər çərçivəsində istifadə etməli olduğumuz mənasını daşıdığını izah edə bilər. Müxtəlif insanların hüquq və məsuliyyətlərinin toqquşduğu vəziyyətlər mövcuddur. Məsələn, sinifdə, bəzi şagirdlər öyrənmək, digərləri ilə əylənmək istədiyi zaman təhsil hüququ ilə asudə vaxt hüququ toqquşa bilər. Bundan başqa, məktəb şagirdləri öyrətmək və onlara təhsil verməklə məşğul olan müəllimlərin layiqli iş şəraiti (məsələn, iş mühitində həddindən çox səs-küyün olmaması) hüququnun olmasını təmin etmək öhdəliyi daşıyır.

İndi müəllim hər bir şagird cütündən öz siyahılarını digər cüt ilə dəyişmələrini istəyir. İndi yeni cüt başqa cütün sadaladığı hər bir hüquqla uyğun olan məsuliyyətin iki səviyyəsinin nümunələrini müzakirə etməlidir (aşağıda nümunəyə baxın):

– **Birinci səviyyə:** fərdlərin başqalarının öz hüququndan istifadə etməsini təmin etmək məsuliyyətləri (bu, ikinci sütunda yazlımalıdır).

– **İkinci səviyyə:** bu hüququn təmin etmək üçün hökumət orqanları (məsələn, məktəb və ya yerli hökumət orqanları) üçün məsuliyyətlər (mövcud olan yerlərdə). Bu, üçüncü sütunda yazılmalıdır. Məsələn, hər bir fərdin başqa şagirdlərin gündəliyinin məxfiliyinə hörmət etmək məsuliyyəti; məktəbin ehtiyac olmayanda fərdin əşyalarını axtarmamaq məsuliyyəti (məsələn, oğurlanmış kalkulyator üçün sinfi axtaran zaman şagirdin gündəliyini oxumamaq).

| **İnsan hüququ** (məktəbdə, evdə) | **Fərdin (mənəvi) məsuliyyəti** | **Məktəbin, hökumət oqranının və s. məsuliyyəti.** |
|---|---|---|
| Məxfilik hüququ | Başqasının gündəliyinə baxmamaq | Oğurluq halında fərdi əşyaları axtaran zaman şagirdin gündəliyini oxumamaq |

Daha sonra müəllim hər bir cütdən siyahılarındakı bir hüquq və müvafiq məsuliyyətlər haqqında sinfin qalanına məlumat verməsini istəyə bilər.

Bu dərsin məntiqi vurğusu məsuliyyətlər olduğu üçün müəllim löhvədə iki sütun çəkə bilər, biri fərdi məsuliyyətlər üçün, digəri isə hökumət orqanlarının məsuliyyətləri üçün və şagirdlər nümunələr verərkən bunlar löhvədə yazıla bilər. Müəllim dərsi məsuliyyətlərin icmalı ilə yekunlaşdıra və şagirdlərdən siyahılarla bağlı rəy bildirmələrini istəyə bilər.

## Əlavə fəaliyyət

Vaxt qalırsa və ya müəllim müsbət və mənfi hüquqlar və layihə işi ideyasını daxil etmək üçün dərsi uzatmaq istəyirsə, o, aşağıdakı fəaliyyətləri həyata keçirməlidir.

Müəllim bəzən insan hüquqlarının «mənfi hüquqlar» və «müsbət hüquqlar»a bölündüyünü izah etməklə başlaya bilər.

«Mənfi hüquqlar» xoşagəlməz şeyləri (məsələn, işgəncənin qadağan edilməsi) qadağan edən hüquqlardır. «Müsbət hüquqlar» açıq şəkildə bir kəsdən nəsə etməsini istəyən hüquqlardır (məsələn, ərzaq hüququ: hər kəs adekvat qida hüququna malikdir). Baxmayaraq ki, «mənfi hüquqlar» insanların müəyyən tədbirləri görməməsini nəzərdə tutur, «müsbət hüquqlar» həmin hüquqları təmin etmək məqsədilə fərdlərin və hökumət orqanlarının müəyyən tədbirlər görməsini gözləyir.

Müəllim həmçinin izah edir ki, əksər insan hüquqlarının həm mənfi, həm də müsbət tərəfləri var. Məsələn, işgəncəyə məruz qalmamaq hüququ hökumət orqanlarının saxlanılan şəxslərlə pis rəftar etməməli, lakin bununla bağlı polis qüvvələrinə aydın təlimatlar verməli olması deməkdir.

Şagirdlərə insan hüquqları siyahılarına qayıtmaq və onlardan üçünü seçmək təklif edilir. Daha sonra onlar şəxsi mənəvi məsuliyyətlərini təsvir etmək üçün öz həyatlarında müsbət və ya mənfi tədbirlərin nümunələrini axtarmalıdırlar. Sonra onlar bu dəfə məktəbin və ya yerli/milli hökumət orqanlarının məsuliyyətini göstərmək üçün başqa nümunələr axtarmalıdırlar. Bu məqsədlə, onlar seçilmiş məsuliyylətlərə plus və ya minus işarəsi əlavə edə bilərlər: aşağıda nümunəyə baxın.

| **İnsan hüququ**<br>(məktəbdə, evdə) | **Fərdin (mənəvi) məsuliyyəti** | **Məktəbin, hökumət oqranının və s. məsuliyyəti.** |
|---|---|---|
| Məxfilik hüququ (= nümunə) | (+) | (+) Ziyarətçilərin şagirdlərin məktəb faylına baxa bilməməsini təmin etmək |
| | (-) Dəvət edilməyənədək kimsənin gündəliyinə baxmamaq | (-) (məktəb) Həqiqətən ehtiyac olmadıqca kimsənin əşyalarını axtarmamaq<br>(-) (dövlət) Şəxslərin şəxsi həyatını qoruyan qanunvericilk<br>təmin etmək |

Əgər müəllimlər bu fəaliyyəti layihə işinə giriş kimi istifadə etmək istəyirlərsə, onlar şagirdlərdən növbəti bir neçə həftə və ya ay ərzində daha dərindən müzakirdə ediləcək bəzi insan hüquqlarını seçmələrini istəyə bilərlər. Daha sonra şagirdlər ümumi məqsədi və atılacaq müxtəlif addımları razılaşdırdıqları plan müəyyən edirlər. Onlar həmçinin hansı tapşırığın nə vaxt və kim tərəfindən tamamlanacağına qərar verirlər.

## Plan

| **Ümumi məqsəd:** ………………………………………………..........…………………………………………… | | |
|---|---|---|
| **Nə edilməlidir?** | **Kim edəcək?** | **Nə vaxt hazır olmalıdır?** |
| | | |
| | | |
| | | |

Növbəti bir neçə dərsin gedişatında bu plan yerinə yetirilməli və sonda qiymətləndirilməlidir.

# Dərs 4
# İnsan hüquqları ilə bağlı viktorina
### Hüquq nədir? İnsan hüququ necə olmalıdır?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər beynəlxalq səviyyədə tanınan insan hüquqları haqqında öyrənirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər çoxsaylı seçim suallarını cavablandırır və cavablarının nəticələrini müzakirə edirlər. |
| **Resurslar** | Hər bir şagird üçün arxasında həll yolları olan kartlar (şagird materialı 5.5-ə baxın). |
| **Metod** | Çoxsaylı seçim sualları. |

## Məlumat qutusu

İnsan hüquqlarının dinamik və daima inkişaf edən anlayış olmasına baxmayaraq, beynəlxalq hüquq insan hüquqlarının məzmununu və əhatə dairəsini müəyyən edir. Biliyin yoxlanılması kimi istifadə edilməməli olan insan hüquqları viktorinası şagirdlərə hazırda insan hüquqlarının işlənməsinin hansı mərhələsində olduğumuzu göstərməyə kömək edir. O, həmçinin insan hüquqları çərçivəsinin yanlış şərh edilməsindən yayınmağa kömək edir.

Bu dərsdən əvvəl müəllim BMT və ya Avropa Şurası çərçivəsində əldə olunmuş razılaşmalar ilə əlaqəli olan bütün sualları qeyd etməlidir. Həmçinin BMT, Avropa Şurası (Avropa Birliyinin Avropa Şurası ilə səhv salınmamalıdır), insan hüquqları, millət/dövlət, ayrı-seçkilik, hakim və ya mühakimə kimi istifadə edilmiş termin və ya anlayışların qısa izahı ilə başlamaq faydalı ola bilər.

# Dərs

İlk növbədə müəllim izah edir ki, viktorinanın məqsədi onların biliyini yoxlamaq yox, fəal şəkildə onların insan hüquqları ilə bağlı anlayışlarını genişləndirməkdir.

Şagirdlər suallar və cavablar olan zolaqları kəsməklə kartları özləri hazırlayırlar. Daha sonra şagirdlər sualların və cavabların eyni kartda olması üçün onları bir-birinin arxasına yapışdırırlar.

İndi kiçik qruplarda (və ya cütlərdə) şagirdlər birlikdə əyləşir və bir-birlərinə suallar verirlər. Daha sonra şagirdlərin hər bir qrupuna kartlar toplusu verilir. Hər bir sualın mümkün üç cavabı var, yəni A, B və C. Şagirdlər hər bir sualın cavabı olduğunu hesab etdikləri variantı seçirlər. İnsan hüquqları daima inkişaf edən dinamik anlayış olduğu və şərhə imkan verdiyi üçün bəzən birdən çox düzgün cavabın mümkün ola bilməsi qeyd edilməlidir.

Sinifdə cavabları müzakirə etməyə dəyər. Bu yolla, bu dərs sadə biliyə əsaslanan sual-cavab viktorinası olmayacaq. Lakin həmçinin biliklər toplamaqla ictimai müzakirəyə hazır olmaq vacibdir.

## Suallar və cavablar

Həmçinin şagird materialı 5.5-ə baxın. Müəllim və ya şagird qrupları sualların və cavabların olduğu vərəqlər kəsib, onları qatlayıb bir-birlərinə yapışdırmaqla kifayət qədər kart dəsti hazırlayırlar.

| | |
|---|---|
| **17 yaşınadək uşaqların işlədilməsi:**<br>A. Hər zaman uşaq hüquqlarının pozulmasıdır.<br>B. İş zərərlidirsə, uşaq hüquqlarının pozulmasıdır.<br>C. Əgər hökumət minimum əmək yaşının 17 yaşınadək olmasını qəbul edibsə, qəbul edilən ola bilər. | **17 yaşınadək uşaqların işlədilməsi:**<br>C düzgündür. Uşaq Hüquqları Konvensiyası təhlükəli və ya istismar forması olduğu zaman uşaq əməyini qadağan edir, lakin hökumətlərə qadağanın etibarlı olduğu yaşı müəyyən etməyə imkan verir. Uşaq əməyinə daha sərt məhdudiyyətlərin qoyulması ilə bağlı işlər aparılır. |
| **İçməli su hüququ ilə bağlı beynəlxalq sazişlərə əsasən:**<br>A. Hökumətlər vətəndaşlarını təmiz içməli su ilə təmin etməyə məcburdurlar.<br>B. Hökumətlərə suyun təmin edilməsində bəzi vətəndaşlara qarşı ayrı-seçkilik etməyə icazə verilmir.<br>C. Hökumətlərə vətəndaşlarının su təchizatına çıxışını rədd etməyə icazə verilmir. | **İçməli su hüququ ilə bağlı beynəlxalq sazişlərə əsasən:**<br>BMT-nin İqtisadi və Sosial Hüquqlar Komitəsinin şərhlərinə əsasən B və C düzgün, A isə yanlışdır. İçməli su hüququnun təmin edilməsi hökumətlərin nail olmağa çalışmalı olduğu məsələdir, lakin bu hüquq vətəndaşlar tərəfindən irəli sürülə bilməz. |
| **Ölüm hökmü:**<br>A. Bütün dünyada ümumiyyətlə qadağan edilir.<br>B. Bütün ölkələrin 50%-dən çoxunda qanunda və ya təcrübədə qadağan edilir.<br>C. 18 yaşınadək uşaqlarla bağlı hallarda icazə verilmir. | **Ölüm hökmü:**<br>B və C düzgün, A yanlışdır. Ölüm hökmü nə BMT müqavilələri, nə də AİHK ilə tam şəkildə qadağan edilmir, lakin hər iki halda könüllü protokol ilə qadağan edilir. AİHK-in 6-cı Protokolu (sülh şəraitində ölüm hökmünün ləğv edilməsi) və 13-cü Protokolu (bütün hallarda ölüm hökmünün ləğv edilməsi) bir çox dövlət tərəfindən imzalanmış və/və ya ratifikasiya edilmişdir. |
| **İqtisadi və sosial hüquqlar:**<br>A. Real insan hüquqları deyil.<br>B. Bu hüquqların bütün şəxslər üçün dərhal təmin edilməsi dövlətlərdən gözlənilmir.<br>C. Hər bir Avropa vətəndaşı tərəfindən iddia edilə bilər. | **İqtisadi və sosial hüquqlar:**<br>B düzgündür. Rəsmi olaraq, iqtisadi və sosial hüquqlar real insan hüquqlarıdır, lakin doğrudur ki, onları tanımaq öhdəliyi bir çox mülki və siyasi hüquqlar ilə müqayisədə daha zəifdir. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Konvensiya dövlətlərin onları təmin etməsini gözləyir, lakin fiziki şəxslərə şikayət etməyə imkan verən heç bir Avropa mexanizmi mövcud deyil (lakin müəyyən məhdudiyyətlər çərçivəsində könüllü protokol təşkilatlara bunu etməyə imkan verir). |

| | |
|---|---|
| **Təhsil almaq hüququnun maddələrinə əsasən:**<br>A. Fərdlərə və qruplara minimum hüquqi şərtləri yerinə yetirdikləri halda, məktəb açmağa icazə verilir.<br>B. Təhsil proqramlarının məzmunu ilə bağlı heç bir öhdəlik mövcud deyil.<br>C. Hökumətlər 18 yaşından kiçik olan hər kəsi icbari təhsillə təmin etməyə məcburdur. | **Təhsil almaq hüququnun maddələrinə əsasən:**<br>A düzgün, B və C yanlışdır. Uşaq Hüquqları Konvensiyası kimi beynəlxalq konvensiyalar nəzərdə tutur ki, təhsil uşaqları onların insan hüquqları barəsində məlumatlandırmalıdır. |
| **Qaçqın kimi tanınmaq hüququ:**<br>A. İrqləri, dini və ya siyasi fikiləri əsasında təqib edilməkdən qorxan və nəticədə ölkələrini tərk edən insanlar üçün müəyyən edilir.<br>B. Həmçinin ölkəsini vətəndaş müharibəsi və ya aclıq səbəbilə tərk etmiş insanlar üçün mövcuddur.<br>C. Təhlükəsiz hesab edilən ölkədən gəlmiş bütün ərizəçilər hökumət tərəfindən avtomatik olaraq rədd edilə bilər. | **Qaçqın kimi tanınmaq hüququ:**<br>A düzgündür, B isə yanlışdır (lakin bəzi ölkədələrdə, vətəndaş müharibəsi və ya aclıq nəticəsində ölkələrini tərk etmiş insanlara beynəlxalq konvensiyalar çərçivəsində qaçqın hesab edilmədən müdafiə təmin edilə bilər). C variantı Cenevrə Konvensiyası çərçivəsində qaçqınlara tətbiq edilmir, lakin sığınacaq axtaran şəxslərlə məşğul olmaqda Aİ çərçivəsində tətbiq edilə bilər. |
| **Din azadlığı:**<br>A. Azlıq dinə məxsus olduqları üçün insanları bu hüquqdan məhrum etmək olmaz.<br>B. Din azadlığı dövlətlərdən dinləri tanımağı və onlara kömək etməyi tələb edir.<br>C. Dövlət tərəfindən hər hansı şəkildə məhdudlaşdırıla bilməz. | **Din azadlığı:**<br>A düzgündür. Dövlətlər din azadlığına hörmət etməyə məcburdurlar, lakin tanıma və ya yardım ilə bağlı hər hansı hüquqi öhdəlik daşımır. Dövlətlər din azadlığını məhdudlaşdıra bilər, məsələn, dinin fundamental insan hüquqlarına zidd olduğu yerlərdə. |
| **Əmlaka sahib olmaq hüququ:**<br>A. O demək deyil ki, hökumətlər bu, ictimaiyyətin marağındadırsa, kimdənsə sahiblik hüququnu ala bilməz.<br>B. Əgər bütün kənd hidroelektrik enerji stansiyasının tikilməsi məqsədi ilə heç bir təzminat ödənilmədən köçürülürsə, pozulur.<br>C. Şəxsə oğurladıqları malları öz əmlakı hesab etməyə imkan verir. | **Mülkiyyət hüququ:**<br>A və B düzgündür. C tamamilə yanlışdır. |
| **Seçkilər:**<br>A. Bütün vətəndaşlara səs verməyə icazə verilir, hətta onlar cinayət fəaliyyəti səbəbilə mülki hüquqlarını itiriblərsə.<br>B. Səsverən işçidirsə, hər bir şəxs üçün iki dəfə səs vermək icazə verilir.<br>C. Səsvermə məxfi şəkildə həyata keçirilməlidir. | **Seçkilər:**<br>Yalnız C düzdür. Dövlət mülki hüquqlarını itirmiş şəxslərin səs verməsinə mane ola bilər. Səs verməyə icazəsi olan hər kəs üçün bərabər hüquqların təmin edilməli beynəxalq qanundur. |
| **İfadə azadlığı:**<br>A. Diffamasiya əleyhinə müdafiə məqsədilə məhdudlaşdırıla bilər.<br>B. İctimai mənəviyyat səbəbləri ilə məhdudlaşdırıla bilməz.<br>C. Dini dözümsüzlüyün qarşısını almaq üçün məhdudlaşdırıla bilər. | **İfadə azadlığı:**<br>A və C düzgündür. Müəyyən şərtlər çərçivəsində ifadə azadlığı ictimai mənəviyyat, cinayətin qarşısının alınması, səhiyyənin müdafiəsi və ya diffamasiyadan müdafiə üçün məhdudlaşdırıla bilər. |
| **İşləmək hüququ:**<br>A. Dövlətləri bütün vətəndaşlarını işlə təmin etməyə məcbur edir.<br>B. Heç kəsin əsassız olaraq işdən çıxarıla bilməməsi deməkdir.<br>C. Hökumətin tam məşğulluğu təmin etmək üçün çalışması demək deyil. | **İşləmək hüququ:**<br>Yalnız B düzgündür. Avropada dövlətlər tam məşğulluğu təmin etmək üçün çalışmağa məcburdur, lakin bu, BMT müqavilələrinə daxil edilməyib. |

| | |
|---|---|
| **Sağlam ətraf mühit hüququ:**<br>A. Dövlətlərə qarşısıalınmaz şəkildə torpağı korlayan zəhərli tullantıları atmağı qadağan edir.<br>B. İnsanların, heyvanların və bitkilərin qorunması məqsədini daşıyır.<br>C. Hələ də universal hüquq kimi qəbul edilməyib. | **Sağlam ətraf mühit hüququ:**<br>C düzgündür, səhiyyə hüququ insanları birbaşa çirklənmədən yaranan zərərdən qoruyur. Bu hallarda, yalnız insanlar, heyvanlar və ya bitkilər yox, universal şəkildə qorunur. Universal olmayan Afrika Xartiyası və Avropa Birliyi Xartiyası müəyyən dərəcədə sağlam ətraf mühiti təmin edir. |
| **Təhsil almaq hüququna əsasən:**<br>A. İbtidai sinif şagirdləri üçün heç bir məktəb xərcləri tətbiq edilə bilməz, lakin məktəb səfərlərinin və məktəb dərsliklərinin xərcləri tələb edilə bilər.<br>B. Mümkün qədər çox şagirdin təhsildə uğur qazanmasına kömək etməyə cəhd etmək dövlətin öhdəliyindədir.<br>C. Dövlətlər bütün şagirdlərə bərabər təhsil imkanları verməlidirlər. | **Təhsil almaq hüququna əsasən:**<br>B və C düzgündür (bu öhdəliklər Uşaq Hüquqları Konvensiyasına daxil edilib). Prinsipcə, ibtidai təhsil ödənişsiz olmalıdır və buna yalnız məktəb haqqı deyil, həmçinin mühüm məktəb fəaliyyətləri ilə bağlı olan digər dolayı xərclər daxildir. |
| **Məktəblərdə uşaqların cəzalandırılması:**<br>A. Cismani cəza formasında icazə verilmir.<br>B. Cəza ruhi cəhətdən qəddardısa, qadağan deyil.<br>C. Yalnız valideynlərin razılığı ilə tətbiq edilə bilər. | **Məktəblərdə uşaqların cəzalandırılması:**<br>A düzgün hesab edilir, çünki Avropa İnsan Hüquqları Məhkəməsi dəfələrlə cismani cəzanı AİHK-nın pozulması kimi qiymətləndirmişdir (və bu, Uşaq Hüquqları Komitəsinin Uşaq Hüquqları Konvensiyasına etdikləri şərh ilə müvafiqdir). B yanlışdır, çünki qadağa bütün qəddar cəzalarla əlaqəlidir. C variantına gəldikdə, cəzanı birbaşa valideynlərin razılığından asılı edən heç bir maddə mövcud deyil. |
| **Məktəbdə:**<br>A. Ekoloji məsələlərə hər hansı diqqət göstərilməməlidir.<br>B. Gənclərə valideynlərə hörmət etmək öyrədilməlidir.<br>C. Gənclər insan hüquqları haqqında öyrənməli və onlardan istifadə etməlidirlər. | **Məktəbdə:**<br>B və C düzgündür. Uşaq Hüquqları Konvensiyası bu cür maddələri ehtiva edir. Konvensiya həmçinin təhsilin ətraf mühitə hörmət etməyə yönəldilməlisini hesab edir. |
| **Məhkəmədə:**<br>A. Hər bir cinayətkarın vəkil yardımı almaq hüququ var.<br>B. İnsan yalnız günahlarını etiraf edən zaman mühakimə edilə bilər.<br>C. Əgər şübhəli dilini bilmədiyi ölkədə mühakimə olunursa, ödənişsiz dilmanc istəmək hüququ var. | **Məhkəmədə:**<br>A və C düzgündür. |
| **İşgəncə:**<br>A. Terroçu hücumların qarşısını almaq məqsədi ilə istifadə edilirsə, icazə verilir.<br>B. Yalnız hakimin qərarından sonra icazə verilir.<br>C. Heç vaxt icazə verilmir. | **İşgəncə:**<br>C düzgündür (hətta milli fövqəladə hallarda işgəncəyə icazə verilmir). |
| **Yaşamaq hüququ aşağıdakı hallarda pozulur:**<br>A. Əgər kimsə başqasının həyatına hücum edilməsinin qarşısını alan polisə görə təsadüfən vəfat edirsə.<br>B. Əgər kimsə müharibə səbəbilə hətta bu, qanuni olsa belə vəfat edirsə.<br>C. Əgər kimsə polisin lazımsız zor tətbiq etməsi səbəbilə vəfat edirsə. | **Yaşamaq hüququ aşağıdakı hallarda pozulur:**<br>C düzgündür. A halında yaşamaq hüququ polisin zor tətbiq etməsi mütləq şəkildə zəruridirsə, pozula bilər. |

| | |
|---|---|
| **Mənzil hüququna əsasən:**<br>A. Bütün dövlətlər heç kəsin evsiz olmamasını təmin etməyə məcburdurlar.<br>B. Xarici vətəndaşlara ölkənin vətəndaşları ilə eyni sosial mənzil hüququ təklif edilməlidir.<br>C. Dövlət evsiz insanların sayını azaltmaq üçün səy göstərməlidir. | **Mənzil hüququna əsasən:**<br>B və C düzgündür. |
| **Tibbi yardım almaq hüququna əsasən:**<br>A. Hökumətlər iş qəzalarının qarşısını almağa məcbur deyillər.<br>B. Hər kəsin səhiyyə xidmətlərinə çıxışı olmalıdır.<br>C. Dərmanlar ödənişsiz olmalıdır. | **Tibbi yardım almaq hüququna əsasən:**<br>B düzgündür. İş qəzalarının qarşısının alınması öhdəlik hesab edilir. Dərmanlar satıla bilər. |
| **Sərbəst hərəkat etmək hüququna əsasən:**<br>A. Şəxsə ictimai təhlükəsizlik səbəbləri üçün müəyyən yaşayış yerini seçmək qadağan edilə bilər.<br>B. Cinayətdə ittiham edilən şəxsə vizanın verilməsinin rədd edilməsi insan hüquqlarının pozulmasıdır.<br>C. Cinayətkar həbs edilməyə bilər. | **Sərbəst hərəkat etmək hüququna əsasən:**<br>A və C düzgündür. Vizanın yalnız cinayətkarlara deyil, istənilən şəxsə verilməsi rədd edilə bilər. Sərbəst hərəkat etmək hüququ həmçinin ictimai səhiyyə, ictimai asayiş və ya milli təhlükəsizlik məqsədilə tətbiq edilə bilər. |

# Şagird materialı 5.1
## Arzular, ehtiyaclar və hüquqlar

| Arzular | Əsas ehtiyaclar | İnsan hüquqları |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

# Şagird materialı 5.2
## İnsan hüquqlarının siyahısı

Bu, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB), Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt (MSHBP), İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Konvensiya, Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) və yenidən işlənmiş Avropa Sosial Xartiyasında (ASX) ehtiva edilən insan hüquqlarının siyahısıdır.

1. Yaşamaq hüququ.
2. İşgəncəyə məruz qalmamaq hüququ.
3. Köləliyə məruz qalmamaq hüququ.
4. Azadlıq və təhlükəsizlik hüququ.
5. Ədalətli mühakimə hüququ.
6. İnsan hüququ pozulursa, səmərəli hüquqi müdafiə vasitələri hüququ.
7. Ayrı-seçkiliyə məruz qalmamaq hüquq; bərabərlik hüququ.
8. Fərd kimi qəbul edilmək hüququ; vətəndaşlıq hüququ.
9. Şəxsi və ailə həyatı hüququ.
10. Ailə qurmaq hüququ.
11. Əmlaka sahib olmaq hüququ.
12. Şəxslərin sərbəst hərəkət etmək hüququ.
13. Sığınacaq hüququ.
14. Düşüncə, vicdan və din azadlığı.
15. İfadə azadlığı.
16. Toplaşmaq və birləşmək azadlığı.
17. Qidalanmaq, içki və mənzil hüququ.
18. Tibbi yardım almaq hüququ.
19. Təhsil almaq hüququ.
20. Məşğulluq hüququ.
21. İstirahət və asudə vaxt hüququ.
22. Sosial müdafiə hüququ.
23. Siyasi iştirak hüququ.
24. Mədəni həyatda iştirak etmək hüququ.
25. İnsan hüquqlarının pozulmasının qadağan edilməsi.
26. İnsan hüquqlarını tanıyan sosial asayiş hüququ.
27. Fərdin məsuliyyətləri və öhdəlikləri.

# Şagird materialı 5.3
## İnsan hüquqlarının pozulması hallar

| İnsan hüquqlarının pozulması halları | İnsan hüququ |
|---|---|
| a. Bir neçə il əvvəl qızını və həyat yoldaşını avtomobil qəzasında itirmiş Xanım X qaynı ona birmənalı şəkildə icazə verməyənə qədər başqası ilə evlənə bilməzdi. | |
| b. Həbsxana nəzarətçiləri saxlanılan şəxsləri hücüm hədələri ilə qorxutmaq üçün itlərdən istifadə edirdi və bir dəfə onlar iti saxlanılan şəxsi dişləməyə məcbur etdi. | |
| c. Yerli zavodda işçilər gün ərzində fasiləsiz ən azı 10 saat işləməlidirlər. | |
| Üç nəfər həbs edildikdən bəri, vəkillərlə əlaqə saxlamaqda çətinlik çəkirdilər. Əksər hallarda vəkillər gəlir və onları görməyə icazə verilmirdi; onlara vəkillərlə kollektiv müzakirələr etməyə icazə verilmirdi, bu da o demək idi ki, onların ikisinin vəkilə heç bir çıxışı yox idi. | |
| e. Eyni işi görən, eyni yaşda olan və eyni təcrübəyə sahib olan qadın kişi həmkarından daha az əmək haqqı alır. | |
| f. X adlı şəxs Y adlı şəxsi üç gündür ki, qaçırdıb və saxlayıb və onun başına atəş açıb ki, bu da üç gün sonra onun ölümü ilə nəticələnib. | |
| g. Narkotik aludəçisi olan Xanım X-in Anonim Narkotik görüşünü tərk edən zaman şəkli çəkilib. Daha sonra şəkil dərc edilmişdi. | |
| h. Yoldaşı tərəfindən pis rəftara məruz qalan qadın ərindən yalnız evini, maşını və bütün əmlakını ona verdikdən sonra boşana bilmişdir. Onun heç bir şeyi qalmamışdı. | |
| i. Həyat üçün təhlükəli olan pnevmaniyadan əziyyət çəkən X ölkəyə qanunsuz gəldiyi üçün xəstəxanada heç bir tibbi yardım ala bilmirdi. | |
| j. X ərazisinin əhalisinin yetmiş faizi evlərini tərk etməyə məcbur edilmiş və daha sonra onlara geri qayıtmağa imkan verilməmişdi. Onlara məhsul yetişdirmək üçün yaxınlıqdakı sahələrə getmək üçün düşərgələri tərk etməyə icazə verilmirdi və onlara bir çox yollarla səyahət etmək qadağan edilmişdi. | |
| k. Qara dərili afrikalılar məsələn, bir şüşə viski müqabilində Afrikada satın alınıb və Şimali Amerikada 1200-1500 ABŞ dollarına satılıb. | |
| l. X ölkəsində yerli əhalinin yaşaması üçün lazım olan bütün vəsaitlər qəsdən məhv edilib: taxıllar, su təchizatları və mal-qara. | |
| m. X ölkəsində vətəndaşlar mühakimə edilmədən həbs edilə bilər. | |
| n. Gündəlik qəzetin 26 yaşlı müxbiri yaxınlarda tamamlanmış seçki kampaniyası ilə bağlı reportajı üçün şübhəli hücumda ölümcül şəkildə güllələnmişdi. | |
| o. Cənab X orduya qeydiyyata çağırılıb. O, hərbi idarəyə hərbi xidmətdən imtina etdiyini yazmış və hərbi öhdəliklər üçün məlumat verməyi rədd etmişdir. O, itaətsizlikdə ittiham edilmiş və ona ölkəni tərk etmək qadağan edilmişdir. | |
| p. X ölkəsində Falun Gong dininə qoşulmaq istəyənlərlə görüşmək qadağan edilmişdi. | |
| q. Etnik çoxluq qərar vermişdir ki, yəhudilər və qaraçılar kimi azalıqlara məxsus olan insanlar şəhərin müəyyən edilmiş ərazilərində yaşamağa məcburdurlar. | |
| r. Kənddə yaşayan uşaqlar ibtidai məktəbə gedə bilmirlər, çünki müvafiq ərazidə bu cür məktəb yoxdur. | |
| s. X parlament seçkilərində namizədliyini irəli sürə bilmirdi, çünki ölkənin dini orqanları buna razılıq vermir. | |
| t. Qara dərili olduğu üçün X yerli xəstəxanda həkim kimi işləyə bilmir. | |
| u. Bəzi ölkələrdə yoxsul insanların ərzaq və ya mənzil proqramlarına, əlçatan səhiyyə xidmətlərinə çıxışı yoxdur. | |

| **İnsan hüquqlarının pozulması halları** | **İnsan hüququ** |
|---|---|
| v. Evi yanmış Cənab X təzminat üçün iddia irəli sürə bilmirdi. | |
| w. Həmişə evdar xanım kimi işləmiş və beş uşaq anası olan 47 yaşlı X adlı qadın ərindən boşandıqdan sonra bütün sosial təminatdan məhrum olmuşdu. | |
| x. İki uşaq atası Cənab X ölkəsində hakimiyyətdə olan rejimi tənqid edən şeirlər yazdığı üçün həb edilmiş və işgəncələrə məruz qalmşdı. Onun A ölkəsində siyasi sığınacaq üçün müraciəti geri çevrilmişdi. O, vətəninə geri qaydarsa, indi üzləşdiyi işgəncəyə məruz qalacağını bilirdi. | |
| y. Qondarma praktiki səbəblər üzündən fiziki qüsurlu insanlara, məsələn, əlil arabasından istifadə edənlərə yerli teatrda mədəni tədbirlərdə iştirak etməyə icazə verilmir. | |
| z. X ölkəsində vətəndaşlıq üçün müraciət etmək üçün 15 illik yaşayış, bundan başqa fiziki və əqli sağlamlıq testi və səbəbsiz yüksək inzibati haqlar tələb edilir. Nəticədə, ölkələri ilə uzun müddətli əlaqələri olan minlərlə qaçqın öz torpaqlarında vətəndaşlıq almamışdır. | |

# Şagird materialı 5.4
## Hüquqlar və öhdəliklər

| İnsan hüququ | Fərdin öhdəliyi | Məktəbin, hökumət oqranının və s. məsuliyyəti. |
|---|---|---|
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |

# Şagird materialı 5.5
## İnsan hüquqları ilə bağlı viktorina (təlim kartları)

| | |
|---|---|
| **17 yaşınadək uşaqların işlədilməsi:**<br>A. Hər zaman uşaq hüquqlarının pozulmasıdır.<br>B. İş zərərlidirsə, uşaq hüquqlarının pozulmasıdır.<br>C. Əgər hökumət minimum əmək yaşının 17 yaşınadək olmasını qəbul edibsə, qəbul edilən ola bilər. | **17 yaşınadək uşaqların işlədilməsi:**<br>C düzgündür. Uşaq Hüquqları Konvensiyası təhlükəli və ya istismar forması olduğu zaman uşaq əməyini qadağan edir, lakin hökumətlərə qadağanın etibarlı olduğu yaşı müəyyən etməyə imkan verir. Çox uşaq əməyi ilə bağlı daha sərt məhdudiyyətlərin qoyulması ilə bağlı təzyiq mövcuddur. |
| **İçməli su hüququ ilə bağlı beynəlxalq sazişlərə əsasən:**<br>A. Hökumətlər vətəndaşlarını təmiz və sağlam su ilə təmin etməyə məcburdurlar.<br>B. Hökumətlərə suyun təmin edilməsində bəzi vətəndaşlara qarşı ayrı-seçkilik etməyə icazə verilmir.<br>C. Hökumətlərə vətəndaşlarının su təchizatına çıxışını rədd etməyə icazə verilmir. | **İçməli su hüququ ilə bağlı beynəlxalq sazişlərə əsasən:**<br>BMT-nin İqtisadi və Sosial Hüquqlar Komitəsinin şərhlərinə əsasən B və C düzgün, A isə yanlışdır. İçməli su hüququnun təmin edilməsi hökumətlərin nail olmağa çalışmalı olduğu məsələdir, lakin bu hüquq vətəndaşlar tərəfindən irəli sürülə bilməz |
| **Ölüm hökmü:**<br>A. Bütün dünyada ümumiyyətlə qadağan edilir.<br>B. Bütün ölkələrin 50%-dən çoxunda qanunda və ya təcrübədə qadağan edilir.<br>C. 18 yaşınadək uşaqlarla bağlı hallarda icazə verilmir. | **Ölüm hökmü:**<br>B və C düzgün, A yanlışdır. Ölüm hökmü nə BMT müqavilələri, nə də AİHK ilə tam şəkildə qadağan edilmir, lakin hər iki halda könüllü protokol ilə qadağan edilir. AİHK-in 6-cı Protokolu (sülh şəraitində ölüm hökmünün ləğv edilməsi) və 13-cü Protokolu (bütün hallarda ölüm hökmünün ləğv edilməsi) bir çox dövlət tərəfindən imzalanmış və/və ya ratifikasiya edilmişdir. |
| **İqtisadi və sosial hüquqlar:**<br>A. Real insan hüquqları deyil.<br>B. Bu hüquqların bütün şəxslər üçün dərhal təmin edilməsi dövlətlərdən gözlənilmir.<br>C. Hər bir Avropa vətəndaşı tərəfindən iddia edilə bilər. | **İqtisadi və sosial hüquqlar:**<br>B düzgündür. Rəsmi olaraq, iqtisadi və sosial hüquqlar real insan hüquqlarıdır, lakin doğrudur ki, onları tanımaq öhdəliyi bir çox mülki və siyasi hüquqlar ilə müqayisədə daha zəifdir. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Konvensiya dövlətlərin onları təmin etməsini gözləyir, lakin fiziki şəxslərə şikayət etməyə imkan verən heç Avropa mexanizmi mövcud deyil (lakin, müəyyən məhdudiyyətlər çərçivəsində könüllü protokol təşkilatlara bunu etməyə imkan verir). |
| **Təhsil almaq hüququnun maddələrinə əsasən:**<br>A. Fərdlərə və qruplar minimum hüquqi şərtləri yerinə yetirdikləri müddətcə, məktəb açmağa icazə verilir.<br>B. Təhsil proqramlarının məzmunu ilə bağlı heç bir öhdəlik mövcud deyil.<br>C. Hökumətlər 18 yaşından kiçik olan hər kəsi icbari təhsillə təmin etməyə məcburdurlar. | **Təhsil almaq hüququnun maddələrinə əsasən:**<br>A düzgün, B və C yanlışdır. Uşaq Hüquqları Konvensiyası kimi beynəlxalq konvensiyalar təhsilin uşaqları onların insan hüquqları barəsində məlumatlandırmalı olmasını nəzərdə tutur. |
| **Qaçqın kimi tanınmaq hüququ:**<br>A. İrqləri, dini və ya siyasi fikiləri əsasında təqib edilməkdən qorxan və nəticədə ölkələrini tərk edən insanlar üçün müəyyən edilir.<br>B. Həmçinin ölkəsini vətəndaş müharibəsi və ya aclıq səbəbilə tərk etmiş insanlar üçün mövcuddur.<br>C. Təhlükəsiz hesab edilən ölkədən gəlmiş bütün ərizəçilər hökumət tərəfindən avtomatik olaraq rədd edilə bilər. | **Qaçqın kimi tanınmaq hüququ:**<br>A düzgündür, B isə yanlışdır (lakin bəzi ölkədələrdə, vətəndaş müharibəsi və ya aclıq nəticəsində ölkələrini tərk etmiş insanlara beynəlxalq konvensiyalar çərçivəsində qaçqın hesab edilmədən müdafiə təmin edilə bilər). C variantı Cenevrə Konvensiyası çərçivəsində qaçqınlara tətbiq edilmir, lakin sığınacaq axtaran şəxslərlə məşğul olmaqda Aİ çərçivəsində tətbiq edilə bilər. |

| | |
|---|---|
| **Din azadlığı:**<br>A. Azlıq dinə məxsus olduqları üçün insanlara verilməsini rədd etmək olmaz.<br>B. Dövlətləri dinləri tanımağa və onlara kömək etmək etməyə məcbur edir<br>C. Dövlət tərəfindən hər hansı şəkildə məhdudlaşdırıla bilməz. | **Din azadlığı:**<br>A düzgündür. Dövlətlər din azadlığına hörmət etməyə məcburdurlar, lakin tanıma və ya yardım ilə bağlı hər hansı sistemə görə hüquqi öhdəlik daşımır. Dövlətlər din azadlığını məhdudlaşdıra bilər, məsələn, dinin fundamental insan hüquqlarına zidd olduğu yerlərdə. |
| **Əmlaka sahib olmaq hüququ:**<br>A. O demək deyil ki, hökumətlər bu, ictimaiyyətin marağındadırsa, kimdənsə sahiblik hüququnu ala bilməz.<br>B. Əgər bütün kənd hidroelektrik enerji stansiyasının tikilməsi məqsədi ilə heç bir təzminat ödənilmədən köçürülürsə, pozulur.<br>C. Şəxsə oğurladıqları malları öz əmlakı hesab etməyə imkan verir. | **Mülkiyyət hüququ:**<br>A və B düzgündür. C aydın şəkildə yanlışdır. |
| **Seçkilər:**<br>A. Bütün vətəndaşlara səs verməyə icazə verilir, hətta onlar cinayət fəaliyyəti səbəbilə mülki hüquqlarınızı itiriblərsə.<br>B. Səsverən işçidirsə, hər bir şəxs üçün iki dəfə səs vermək icazə verilir.<br>C. Səsvermə məxfi şəkildə həyata keçirilməlidir. | **Seçkilər:**<br>Yalnız C yanlışdır. Dövlət mülki hüquqlarını itirmiş şəxslərin səs verməsinə mane ola bilər. Səs verməyə icazəsi olan hər kəs üçün bərabər hüquqların təmin edilməli beynəxalq qanundur. |
| **İfadə azadlığı:**<br>A. Diffamasiya əleyhinə müdafiə məqsədilə məhdudlaşdırıla bilər.<br>B. İctimai mənəviyyat səbəbləri ilə məhdudlaşdırıla bilməz.<br>C. Dini dözümsüzlüyün qarşısını almaq üçün məhdudlaşdırıla bilər. | **İfadə azadlığı:**<br>A və C düzgündür. Müəyyən şərtlər çərçivəsində ifadə azadlığı ictimai mənəviyyat, cinayətin qarşısının alınması, səhiyyənin müdafiəsi və ya diffamasiyadan müdafiə üçün məhdudlaşdırıla bilər. |
| **İşləmək hüququ:**<br>A. Dövlətləri bütün vətəndaşlarını işlə təmin etməyə məcbur edir.<br>B. Heç kəsin əsassız olaraq işdən çıxarıla bilməməsi deməkdir.<br>C. Hökumətin tam məşğulluğu təmin etmək üçün çalışması demək deyil. | **İşləmək hüququ:**<br>Yalnız B düzgündür. Avropada dövlətlər tam məşğulluğu təmin etmək üçün çalışmağa məcburdur, lakin bu, BMT müqavilələrinə daxil edilməyib. |
| **Sağlam ətraf mühit hüququ:**<br>A. Dövlətlərə qarşısıalınmaz şəkildə torpağı korlayan zəhərli tullantıları atmağı qadağan edir.<br>B. İnsanların, heyvanların və bitkilərin qorunması məqsədini daşıyır.<br>C. Hələ də, universal hüquq kimi qəbul edilməyib. | **Sağlam ətraf mühit hüququ:**<br>C düzgündür, səhiyyə hüququ insanları birbaşa çirklənmədən yaranan zərərdən qoruyur. Bu hallarda, yalnız insanlar, heyvanlar və ya bitkilər yox, universal şəkildə qorunur. Universal olaraq etibarlı olmayan Afrika Xartiyası və Avropa Birliyi Xartiyası müəyyən dərəcədə sağlam ətraf mühiti təmin edir. |
| **Təhsil almaq hüququna əsasən:**<br>A. İbtidai sinif şagirdləri üçün heç bir məktəb xərcləri tətbiq edilə bilməz, lakin məktəb səfərlərinin və məktəb dərsliklərinin xərcləri tələb edilə bilər.<br>B. Mümkün qədər çox şagirdin təhsildə uğur qazanmasına kömək etməyə cəhd etmək dövlətin öhdəliyindədir.<br>C. Dövlətlər bütün şagirdlərə bərabər təhsil imkanları verməlidirlər. | **Təhsil almaq hüququna əsasən:**<br>B və C düzgündür (bu öhdəliklər Uşaq Hüquqları Konvensiyasına daxil edilib). Prinsipcə, ibtidai təhsil ödənişsiz olmalıdır və buna yalnız məktəb haqqı deyil, həmçinin mühüm məktəb fəaliyyətləri ilə bağlı olan digər dolayı xərclər daxildir. |

| | |
|---|---|
| **Məktəblərdə uşaqların cəzalandırılması:**<br>A. Cismani cəza formasında icazə verilmir.<br>B. Cəza ruhi cəhətdən qəddardısa, qadağan deyil.<br>C. Yalnız valideynlərin razılığı ilə tətbiq edilə bilər. | **Məktəblərdə uşaqların cəzalandırılması:**<br>A düzgün hesab edilir, çünki Avropa İnsan Hüquqları Məhkəməsi dəfələrlə cismani cəzanı AİHK-nın pozulması kimi qiymətləndirmişdir (və bu, Uşaq Hüquqları Komitəsinin Uşaq Hüquqları Konvensiyasına etdikləri şərh ilə müvafiqdir). B yanlışdır, çünki qadağa bütün qəddar cəzalarla əlaqəlidir. C variantına gəldikdə, cəzanı birbaşa valideynlərin razılığından asılı edən heç bir maddə mövcud deyil. |
| **Məktəbdə:**<br>A. Ekoloji məsələlərə hər hansı diqqət göstərilməməlidir.<br>B. Gənclərə valideynlərə hörmət etmək öyrədilməlidir.<br>C. Gənclər insan hüquqları haqqında öyrənməli və onlardan istifadə etməlidirlər. | **Məktəbdə:**<br>B və C düzgündür. Uşaq Hüquqları Konvensiyası bu cür maddələri ehtiva edir. Konvensiya həmçinin təhsilin ətraf mühitə hörmət etməyə yönəldilməlisini hesab edir. |
| **Məhkəmədə:**<br>A. Hər bir cinayətkarın vəkil yardımı almaq hüququ var.<br>B. İnsan yalnız günahlarını etiraf edən zaman mühakimə edilə bilərlər.<br>C. Əgər şübhəli dilini bilmədiyi ölkədə mühakimə olunursa, ödənişsiz dilmanc istəmək hüququ var. | **Məhkəmədə:**<br>A və C düzgündür. |
| **İşgəncə:**<br>A. Terroçu hücumların qarşısını almaq məqsədi ilə istifadə edilirsə, icazə verilir.<br>B. Yalnız hakimin qərarından sonra icazə verilir.<br>C. Heç vaxt icazə verilmir. | **İşgəncə:**<br>C düzgündür (hətta milli fövqəladə hallarda işgəncəyə icazə verilmir). |
| **Yaşamaq hüququ aşağıdakı hallarda pozulur:**<br>A. Əgər kimsə başqasının həyatına hücum edilməsinin qarşısını alan polisə görə təsadüfən vəfat edirsə.<br>B. Əgər kimsə müharibə səbəbilə hətta bu, qanuni olsa belə vəfat edirsə.<br>C. Əgər kimsə polisin lazımsız zor tətbiq etməsi səbəbilə vəfat edirsə. | **Yaşamaq hüququ aşağıdakı hallarda pozulur:**<br>C düzgündür. A halında yaşamaq hüququ polisin zor tətbiq etməsi mütləq şəkildə zəruridirsə, pozula bilər. |
| **Mənzil hüququna əsasən:**<br>A. Bütün dövlətlər heç kəsin evsiz olmamasını təmin etməyə məcburdurlar.<br>B. Xarici vətəndaşlara ölkənin vətəndaşları ilə eyni sosial mənzil hüququ təklif edilməlidir.<br>C. Dövlət evsiz insanların sayını azaltmaq üçün səy göstərməlidir. | **Mənzil hüququna əsasən:**<br>B və C düzgündür. |
| **Tibbi yardım almaq hüququna əsasən:**<br>A. Hökumətlər iş qəzalarının qarşısını almağa məcbur deyillər.<br>B. Hər kəsin səhiyyə xidmətlərinə çıxışı olmalıdır.<br>C. Dərmanlar ödənişsiz olmalıdır. | **Tibbi yardım almaq hüququna əsasən:**<br>B düzgündür. İş qəzalarının qarşısının alınması öhdəlik hesab edilir. Dərmanlar satıla bilər. |
| **Sərbəst hərəkat etmək hüququna əsasən:**<br>A. Şəxsə ictimai təhlükəsizlik səbəbləri üçün müəyyən yaşayış yerini seçmək qadağan edilə bilər.<br>B. Cinayətdə ittiham edilən şəxsə vizanın verilməsinin rədd edilməsi insan hüquqlarının pozulmasıdır.<br>C. Cinayətkar həbs edilməyə bilər. | **Sərbəst hərəkat etmək hüququna əsasən:**<br>A və C düzgündür. Vizanın yalnız cinayətkarlara deyil, istənilən şəxsə verilməsi rədd edilə bilər. Sərbəst hərəkat etmək hüququ həmçinin ictimai səhiyyə, ictimai asayiş və ya milli təhlükəsizlik məqsədilə tətbiq edilə bilər. |

# Müəllimin resurs vərəqi

Bu siyahı Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (ÜİHB), Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt (MSHBP), İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Konvensiya, Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) və yenidən işlənmiş Avropa Sosial Xartiyasının (ASX) müvafiq maddələrini göstərən «İnsan hüquqları siyahısından» olan hüquqları ehtiva edir. Bu icmal təhsil məqsədləri ilə hazırlanmışdır.

| | ÜİHB | AİHK | ASX | MSHBP (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt) | İSMHBP (İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında beynəlxalq Pakt) |
|---|---|---|---|---|---|
| 1. Yaşamaq hüququ | 3 | 2 | | 6 | |
| 2. İşgəncəyə məruz qalmamaq hüququ | 5 | 3 | 26 | 7, 10 | |
| 3. Köləliyə məruz qalmamaq hüququ | 4 | 4 | | 8 | |
| 4. Azadlıq və təhlükəsizlik hüququ | 3 | 5 | | 9 | |
| 5. Ədalətli mühakimə hüququ | 10, 11 | 6, 7 | | 14, 15 | |
| 6. Pozuntu hallarında səmərəli hüquqi müdafiə vasitələri hüququ | 8 | 13 | D | 2, 9 | |
| 7. Ayrı-seçkiliyə məruz qalmamaq azadlığı; bərabərlik hüququ | 2, 7 | 14 | 4, 15, 20, 27, E | 3, 26 | 3 |
| 8. Şəxs kimi tanınmaq hüququ; vətəndaşlıq hüququ | 6, 15 | | | 16, 24 | |
| 9. Şəxsi və ailə həyatı hüququ | 12 | 8 | | 17 | |
| 10. Ailə qurmaq hüququ | 16 | 12 | | 23 | |
| 11. Əmlaka sahib olmaq hüququ | 17 | | | | 15 |
| 12. Şəxslərin sərbəst hərəkət hüququ | 13 | | 18 | 12 | |
| 13. Sığınacaq hüququ | 14 | | | 18 | |
| 14. Düşüncə, vicdan və din azadlığı | 18 | 9 | | 18 | |
| 15. İfadə azadlığı | 19 | 10 | 28 | 19 | 8 |
| 16. Toplaşmaq və birləşmək hüququ | 20 | 11 | 5, 28 | 21, 22 | 8 |
| 17. Qidalanmaq, içmək və mənzil hüququ | 25 | | 30, 31 | | 11 |
| 18. Tibbi yardım almaq hüququ | 25 | | 11 | | 7, 12 |
| 19. Təhsil almaq hüquq | 26 | | 10 | | 13, 14 |
| 20. Məşğulluq hüququ | 23 | | 1,2, 3, 4, 24 | | 6, 7 |
| 21. İstirahət və asudə vaxt hüququ | 24 | | 2 | | 7 |

| | ÜİHB | AİHK | ASX | MSHBP (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt) | İSMHBP (İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında beynəlxalq Pakt) |
|---|---|---|---|---|---|
| 22. Sosial müdafiə hüququ | 22, 25 | | 7, 8, 12, 13, 14 16, 17 19, 23 25 | | 9, 10 |
| 23. Siyasi iştirak hüquq | 21 | | 22 | 25 | |
| 24. Mədəni həyatda iştirak hüququ | 27 | | | 27 | 15 |
| 25. İnsan hüquqlarının pozulmasının qadağan edilməsi | 30 | 17 | | 5, 20 | 5 |
| 26. İnsan hüquqlarını tanıyan sosial asayiş hüququ | 28 | | | 2 | 2 |
| 27. Fərdin öhdəlikləri | 29 | | | | |

Qeyd: ASX-nın bəzi maddələrinə rəqəmlər, bəzilərinə isə böyük hərflərlə istinad edilir.

# BÖLMƏ 6
# Məsuliyyət

## İnsanların hansı öhdəlikləri var?



### 1.1. Evdə məsuliyyətlər

**İnsanlar sədaqət münaqişələri ilə üzləşir - onlar necə qərar verməlidirlər?**

### 1.2. İnsanlar nə üçün qanuna riayət etməlidir?

**Qanuna əməl etməyin ən yaxşı səbəbləri nələrdir?**

### 1.3. Bu, kimin problemidir?

**Sosial məsuliyyətlər necə bölüşdürülür?**

### 1.4. İnsanlar nəyə görə fəal vətəndaşlar olmalıdırlar?

**İnsanlar nəyə görə cəmiyyəti dəyişmək istəyir və bunu necə edə bilərlər?**

# BÖLMƏ 6 Məsuliyyət
# İnsanların hansı öhdəlikləri var?

## Hüquqi məsuliyyət

Hər hansı bir dövlətin vətəndaşları qanunla hüquqlarının nə olduğunu bilmək və dövlət və digər vətəndaşlar qarşısındakı hüquqi məsuliyyətlərin əhatə dairəsini qiymətləndirmək hüququna sahibdirlər. Demokratik cəmiyyətlərin vətəndaşların məsuliyyətləri bəzən üç əsas öhdəliklə - səs vermək, vergi ödəmək və qanuna riayət etmək ilə bağlıdır.

Məsuliyyətlər adətən hüquqların üz tərəfidir. Məsələn, azad nitq hüququ özü ilə digərlərinə eyni hüququ vermək məsuliyyətini gətirir. Lakin, cinayət törədən insanlar onların başqalarına verməkdən imtina etdikləri hüquqları itirmirlər (qətl və ya ayrı-seçkilik halında olduğu kimi). Eyni dərəcədə, insanlar adətən qarşılıqlı olmayan, məsələn, uşaqlara qarşı məsuliyyətlər, öhdəliklərə sahibdir.

## Mənəvi məsuliyyət

DVT-də gənclərin mənəvi cəhətdən düşünmək qabiliyyətini inkişaf etdirmək vacibdir. Bu bacarıq olmadan ictimai qanunların və ya sosial strukturların nə dərəcədə ədalətli olduğunu tənqidi qiymətləndirmək mümkün olmaz. Bu səbəblə, şagirdlər onlara təsir edən qanunlar öyrədilən zaman uşaqları həmçinin qanunların funksiyasını və məqsədini, hansı yolla dəyişdirilməli olduğunu tənqidi şəkildə qiymətləndirməyə təşviq edilməlidirlər.

## Məsuliyyətin öyrədilməsi

İnsanların pro-sosial qaydada davranmasının səbəblərini araşdırmaqla və ya başqa insanların ehtiyaclarının həddini vurğulamaqla müəllimlər şagirdlərə digərlərinin ehtiyaclarından və hüquqlarından daha çox xəbərdar olmağa kömək edir. Həmçinin şagirdlərin qarşısında məsuliyyət nümayiş etdirmək müəllimlər üçün vacibdir.

Şagirdlər yalnız sinif otağı vasitəsilə deyil, həmçinin təcrübə ilə öyrənmək imkanının verilməsi ilə məsuliyyətli vətəndaşlar olmağı öyrənirlər. Bu baxımdan, yaxşı DVT məktəbi şagirdləri məsələn, məktəb şuraları vasitəsilə məktəb həyatında və daha geniş icmada iştirak etməyə təşviq etməlidir.

### Bu bölmədə şagirdlər:

– cəmiyyətdə vətəndaşların üzləşdikləri məsuliyyətlərinin əhatə dairəsini araşdıracaq;

– insanların hüquqi məsuliyyətlərinin xarakterini araşdıracaq;

– sosial məsuliyyətlərin ümumi xarakterini nəzərdən keçirəcək;

– insanların sosial dəyişikliyə nail olmaq üçün şəxsi məsuliyyət götürmələrinin səbəbini müzakiə edəcək.

# BÖLMƏ 6 Məsuliyyət
# İnsanların hansı öhdəlikləri var?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1: Evdəki məsuliyyətlər | İnsanların daşıdığı məsuliyyətlərin əhatə dairəsini araşdırmaq.<br>Məsuliyyətlərin bir-birləri ilə ziddiyyətli ola bilməsini anlamaq. | Şagirdlər mənəvi dilemmanı təhlil edir.<br>Şagirdlər alternative təhlilləri müzakirə edir.<br>Şagirdlər fərdi bəyanatlar verir. | "Milan seçim edir" adlı hekayənin nüsxələri.<br>Yazı tapşırıqları üçün kağız. | Fərdi və kiçik qrup müzakirəsi.<br>Plenar müzakirə Fərdi yazı işi. |
| Dərs 2: İnsanlar nə üçün qanuna riayət etməlidir? | Məsuliyyət münaqişələri haqqındakı qərarların əsasını təşkil edən əxlaqi mühakiməni araşdırmaq. | Şagirdlər əxlaqi dilemanı təhlil edirlər.<br>Şagirdlər hüquqi itaətkarlığın səbəblərini tənqidi qiymətləndirirlər.<br>Şagirdlər mənəvi borcun qanunlara əməl etmə öhdəliyini üstələyə biləcəyi halları təklif edirlər. | Hekayənin nüsxələri "Şmtin Dileması".<br>Yazı tapşırıqları üçün kağız.<br>Lövhə | Mənəvi dilemanın paylaşdırılmış təhlili.<br>Müəllim tərəfindən dəstəklənən təhlili.<br>Hekayə yazmaq. Plenar müzakirə. |
| Dərs 3: Bu, kimin problemidir? | İnsanların hüquqi məsuliyyətlərinin xarakterini araşdırmaq.<br>Mənəvi və hüquqi öhdəliklər arasındakı fərqi araşdırmaq. | Şagirdlər müəyyən sosial problemlərin məsuliyyətini müzakirə edirlər.<br>Şagirdlər düşüncə çərçivəsini tamamlayırlar.<br>Şagirdlər müzakirəyə çıxarılmış məsələlərə yazılı cavab verirlər. | "Məktub"un nüsxələri.<br>Lövhə<br>Yazı işi üçün kağız. | Strukturlaşdırılmış tənqidi təhlil. Kiçik qrup təhlil və müzakirəsi.<br>Razılıq əldə etmək və danışıqlar. Fərdi yazı işi. |
| Dərs 4: məsuliyyətin ümumi xarakterini məsuliyyət qəbul etməsinin Şagirdlər sosial cəhətdən Şagirdlər QHT-lərin işini araşdırırlar. | İnsanlar nəyə görə nəzərdən keçirmək. səbəblərini göstərmək. əsaslandırılmış davranış<br>Qruplarda<br>Resurslar artıq kəsilmiş olan vərəqlərin dəstəkləmək<br>Qrup məsələn,<br>Qrup | fəal vətəndaş<br>İnsanların<br>Şagirdlər birlikdə rolunu nəzərdən keçirirlər. şagirdlər öz nəticələrini<br>Yelena Santik üçün təqdimatları üçün böyük vərəqlər, işi.<br>Mənəvi<br>Tənqidi<br>Qrup təqdimatı. | olmalıdırlar?<br>başqa insanların əziyyəti hekayə yaratmaq üçün səbəbləri ilə bağlı<br>Qruplarda şagirdlər haqqında (şagird nüsxələri. resurslar.<br>resurslar, rəngli qələmlər.<br>Danışıq.<br>mühakimə.<br>qiymətləndirmə.<br>Təhqiqat | Sosial problemlər üçün üçün nəyə görə qruplarda işləyirlər.<br>fərziyyələr bildirirlər.<br>QHT-nin və ya sosial kampaniyanın təqdim edirlər.<br>yaxşı qəzeti və ya jurnalı<br>Şagird təhqiqatını |

# Dərs 1
# Evdəki məsuliyyətlər
## İnsanlar sadiqliklə bağlı münaqişələrlə rastlaşırlar – onlar necə qərara gəlməlidirlər?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | İnsanların daşıdığı məsuliyyətlərin əhatə dairəsini araşdırmaq.<br>Məsuliyyətlərin bir-birləri ilə ziddiyyətli ola bilməsini anlamaq. Məsuliyyət münaqişələri haqqındakı qərarların əsasını təşkil edən əxlaqi mühakiməni araşdırmaq. |
| **Şagird tapşırıqları** | Şagirdlər mənəvi dilemmanı təhlil edir. Şagirdlər alternativ təhlilləri müzakirə edir. Şagirdlər fərdi bəyanatlar verir. |
| **Resurslar** | “Milan seçim edir” adlı hekayənin nüsxələri. Yazı tapşırıqları üçün kağız. |
| **Metodlar** | Fərdi və kiçik qrup müzakirəsi. Plenar müzakirə<br>Fərdi yazı işi. |

## Konseptual öyrənmə

**Məsuliyyət:** İnsanların etməli olduğu müəyyən şeylər – məsuliyyətlər insanların onları necə ortaya çıxarmasından asılı olaraq hüquqi, mənəvi və sosial ola bilər.

**Mənəvi münaqişə:** Fəaliyyətin iki və daha artıq gedişatı arasında qərar verməli olduqda insanların qarşılaşdığı münaqişə.

**Mülki məsuliyyət:** İnsanların geniş ictimaiyyət qarşısındakı öhdəlikləri. Bu öhdəliklər cəmiyyət üvzlərinin öhdəlikləri hüquqa çevirməsi səbəbindən ortaya çıxır.

# Dərs

Müəllim belə bir ideya irəli sürür ki, hər kəsin bir sıra öhdəlikləri var və insanlar bəzi öhdəlikləri digərlərindən üstün tutduqda problemlər yaranır. Seçim etmək çətindir. Müəllim “Milan seçim edir” adlı hekayəni sinfə oxuyur və şagirdlərdən aşağıdakı məsələlərlə bağlı nə fikirləşdiklərini soruşur. Cavablar yekunlaşdırılmamışdan əvvəl bəzi suallar cütlər tərkibində müzakirə oluna bilər. Şagirdlər öz ideyalarını siniflə paylaşmazdan əvvəl digər şagirdlərlə birlikdə vacib qeydlər götürə bilərlər.

1. Hekayədə Milanın daşıdığı öhdəliklər barədə nə deyilir? Nə qədər müxtəlif məsuliyyət növü görə bilərsiniz (özü, ailəsi, məktəb, yerli cəmiyyət və bütün dünya qarşısındakı məsuliyyət)
2. Milanın etməli olduqları haqqında nə düşünürsünüz və nə üçün? Sinifdə hər kəs razıdır?
3. Sizcə, Milanın gəldiyi qərar nə dərəcədə çətindir? Onu çətinləşdirən nədir?
4. Hekayədə Milanın atasının hansı öhdəlikləri vardır? Nə qədərini görə bilərsiniz?
5. Milanın atasının ondan evdə qalmasını tələb etmək hüququnun olduğunu düşünürsünüzmü?
6. Əgər Milan atasının istəyinə əməl etməsəydi, məsələ nə dərəcədə ciddi olardı? Milan üçün bu qərara gəlmək çətin olacaqdımı? Cavablarınızı izah edin.

## Yazı tapşırığı

Öz sözlərinizlə Milanın atasına yazdıqları haqqında nə fikirləşdiyinizi qeyd edin. Öz variantınızı sinifdəki digər uşaqların variantı ilə müqayisə edin. Şagirdlər öz fikirlərini siniflə paylaşırlar.

## Ümumiləşdirmə

Ola bilər ki, şagirdlər artıq mənəvi münaqişənin bir sıra ümumi aspektlərinə müraciət ediblər.

Müəllim insanların daşıdığı məsuliyyətin növləri haqqında daha geniş düşünmək üçün sinfə bu fikirləri və sualları ünvanlayır.

– özləri;

– ailələri;

– yerli icmları;

– milli icma;

– bütün dünya.

Şagirdlər yenidən qrup şəklində işləyir. Onlar müxtəlif öhdəlikləri müəyyən etmək üçün cədvəldən istifadə edə bilərlər. İnsanların başqaları və cəmiyyət qarşısındakı öhdəlikləri ilə razılaşmama səbəbləri sinif tərəfindən müzakirə olunur.

## Fərdi müddəalar

Müəllim daha sonra şagirdlərə aşağıdakı məlumatları verir: “Hekayədə Milanın məsuliyyətləri bir-birləri ilə münaqişəyə girir. İnsanların öhdəliklərinin münaqişəyə çevrilə biləcəyi ilə bağlı öz nümunələrinizi göstərin. Bir neçə xüsusi nümunə göstərin və insanların bu cür öhdəlik münaqişələrini həll etməsi ilə bağlı düşüncələriniz haqda danışın.”

Əgər şagirdlər bu haqda fikirləşməkdə çətinlik çəksələr, müəllim lövhədə yazmaqla bir neçə xüsusi nümunələr göstərməlidir.

# Dərs 2
# İnsanlar nə üçün qanuna riayət etməlidir?
## Qanuna əməl etməyin ən əsas səbəbləri nələrdir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | İnsanların hüquqi məsuliyyətlərinin xarakterini araşdırmaq.<br>Mənəvi və hüquqi öhdəliklər arasındakı fərqi araşdırmaq. |
| **Şagird tapşırıqları** | Şagirdlər plenar müzakirədə mənəvi dilemmanı təhlil edirlər. Şagirdlər hüquqi itaətkarlığın səbəblərini tənqidi qiymətləndirirlər.<br>Şagirdlər mənəvi borcun qanunlara əməl etmə öhdəliyini üstələyə biləcəyi halları təklif edirlər. |
| **Resurslar** | Hekayənin nüsxələri “Şmitin Dilemması”. Yazı tapşırıqları üçün kağız.<br>Lövhə. |
| **Metodlar** | Mənəvi dilemmanın paylaşdırılmış təhlili.<br>Müəllim tərəfindən dəstəklənən təhlil.<br>Hekayə yazmaq.<br>Plenar müzakirə. |

## Konseptual öyrənmə

**Qanun:** Yerli və ya milli hökumətlər tərəfindən qəbul edilən qayda.

**Qanunun aliliyi:** Demokratik cəmiyyətlərdə hökumətlər və hakimiyyətdə olanlar torpaq qanununa tabedir. Hakimiyyət dəyişiklikləri zor və ya müharibə nəticəsində deyil, ölkə konstitusiyasının qaydalarına görə demokratik şəkildə həyata keçirilir. İnsanların qanuna riayət etmək kimi ümumi öhdəliyi var, çünki bu, demokratik şəkildə qəbul edilmişdir.

**Hüquqi öhdəlik:** İnsanların üzərinə qanunla qoyulmuş öhdəliklər.

**Mənəvi məsuliyyət:** İnsanların nəyin düzgün, nəyin yanlış olması ilə bağlı inanclarına əsaslanan şəxsi öhdəliklər.

# Dərs

Müəllim "Şmitin dilemması" hekayəsini təqdim edir və şagirdlərdən Şmitin qanunu pozması, pulu oğurlayıb-oğurlamamasını araşdırmaq üçün cütlər şəklində işləməyi xahiş edir. Müəllim Şmitin pul oğurlayıb oğurlamamasına gəlincə lövhədə müxtəlif fikirlər qeyd edir.

Müəllim şagirdlərdən razılaşdıqları fikri seçməyi və səbəbi yazılı şəkildə qeyd etməyi istəyir.

– Şmit pulu oğurlamalı idi, çünki ...

– Şmit pulu oğurlamamalı idi, çünki ...

Müəllim şagirdlərin göstərdiyi səbəbləri lövhədə qeyd edir. Məsələn,

«O, pulu oğurlamalı idi, çünki bacısının həyatı oğurluğa qarşı qanundan daha vacibdir»;

«O, pulu oğurlamamalı idi, çünki tutula bilərdi» yaxud

«O, pulu oğurlamamalı idi, çünki bu, qanun pozuntusudur».

Sonra sinifdə müxtəlif arqumentlər müzakirə olunur. Nə üçün onlar müxtəlifdir? Bəzi səbəblər digərlərindən daha yaxşıdır? Sonra müəllim şagirdlərdən bu cümləni tamamlamağı istəyir:

"Qanunu pozmaq səhv bir şeydir, çünki …"

Əlavə olaraq müəllim şagirdlərdən qanunu pozmağın yanlış əməl olması ilə bağlı bacardıqları qədər səbəb göstərmələrini istəyə bilər. Bu suala cavabında insanlar aşağıdakılar da daxil olmaqla bir sıra cavablar təqdim edirlər:

«Qanunu pozmaq yanlış hərəkətdir, çünki:

– siz həbs oluna və cəzalandırıla bilərsiniz;

– qanun insanları zərərdən qoruyur və digər insanlara zərər vermək yanlış bir şeydir;

– əgər qanun insanları dayandırmasaydı, hamı vəhşiləşərdi;

– qanun pozuntusu insanlar arasında inamı sarsıdır;

– cəmiyyətin yaşaması üçün qanun və qaydalara ehtiyacı var, qanun olmasa xaos yaranacaq;

– qanun pozuntusu insanların yaşamaq və mülkiyyət hüquqlarını pozur».

Müəllim sinfin diqqətinə çatdırır ki, insanların qanunlara əməl etmək üçün bir sıra səbəbləri var. Bunların bəziləri insanların şəxsi maraqları ilə yerinə yetirilməlidir, digər səbəblər başqa insanlar üçün narahatlıq gətirir və bəziləri isə bütöv cəmiyyətin rifahı üçün narahatlıq yaradır (aşağıdakı qeydə baxın).

Bu anlayışları nümayiş etdirmək üçün müəllim lövhədə üç konsentrik həlqə çəkir, daxili həlqədən başlayaraq hər həlqəyə "özü", "digərləri" və "cəmiyyət" yazır. Müxtəlif səbəblər müvafiq yerdə yazılmalıdır.

Müəllim yalnız hüquqi itaətkarlığın "yaxşı vətəndaş" imici yaratmaq üçün yetərli olmadığını vurğulayır. "Sadəcə öz vəzifələrini yerinə yetirirlər" deyərək qanunlara əməl edən insanlar da bir çox yanlış hərəkətlər edirlər. Digər tərəfdən hekayə göstərir ki, zaman-zaman hətta yaxşı insanların belə mənəvi olaraq yaxşı səbəblərdən müəyyən qanun pozuntusu həyata keçirdiyini hesab etmək olar.

Hüquqi vəzifələr və mənəvi öhdəliklər arasındakı çətin tarazlığın şagirdlər tərəfindən anlaşılmasına kömək etmək, daha sonra müəllim şagirdlərdən içərisində yaxşı səbəblərdən qanunu pozduğunu düşünən insanların olduğu hekayə yazmağı istəyir. Nümunələr: fövqəladə hallarda sürət limitini aşmaq olar və ya pis və ədalətsiz qanunlar pozula bilər.

Şagirdlərin bəziləri öz nümunələrini plenar müzakirədə ucadan oxuyurlar. Daha sonra müəllim mənəvi öhdəliklər (insanların öz mənəvi dəyərləri və inamları kimi sahib olduqları) və hökümətlər tərəfindən tətbiq olunan hüquqi vəzifələr arasındakı fərqi qeyd edir. Öhdəliyin bu iki növü arasındakı gərginliklər vətəndaşların razılaşmadıqları və dəyişdirməyə çalışdıqları bəzi qanunlara tənqidi yanaşmasına səbəb ola bilər. Hətta onlar bəzən mənəvi olaraq müsbət qarşıladıqları səbəblərdən qanun pozmaq qərarına gələ bilərlər. Tarix göstərir ki, bir çox vəziyyətlərdə insanlar zalım hökümətlərə qarşı üsyan qaldırmaq

və onlara qarşı mübarizə aparmaq üçün qanunu pozurlar. Müəllim bunu bir sıra yerli nümunələrlə nümayiş etdirməlidi. Müəllim qeyd etməlidir ki, bu cür fəaliyyətlərə sabit demokratiyalardan asılı olan hüquqların pozulmasının təhlükəli olmalı səbəbindən səthi yanaşılmamalıdır.

## Qeyd

Bu dərsdə təklif olunan mənəvi dilemma 1950-ci illərdə Amerikan psixoloqu Lorens Kolberq tərəfindən hazırlanmış məşhur "Heinz Dilemma" əsərindən fərqlidir. Bu bir çox Kolberq dilemmalarından biridir ki, bunu alim öz həmkamrları ilə hər üç ildən bir 10-25 yaş arası gənclərin qarşısına qoyurdu. Müəyyən olunmuşdur ki, orta hesabla gənc insanlar yetkinlik çağlarında insanın əsas olması məntiqindən istifadə etmək üçün daha gənc olduqlarından özünü əsas götürmə məntiqindən istifadə edirlər. Orta yaşlarında onların əksəriyyəti cəmiyyəti əsas götürmə məntiqindən istifadə etməyi üstün tutmuşlar, baxmayaraq ki, dilemmanın məzmunu və tipi insanların istənilən vaxtda istifadə etdiyi məntiqin tipinə təsir edə bilər. Azyaşlı uşaqlar qanun və qaydalara qeyri-çevik yanaşma nümayiş etdirirlər və bu zaman ictimai məqsədlərə istiqamətlənmirlər. Yeniyetmələr qanunların sosial məqsədi olduğunu daha yaxşı anlayırlar. Anlayırlar ki, qanunları yenidən işləmək, sorğulamaq və tənqid etmək olar.

# Dərs 3
# Bu, kimin problemidir?
## Sosial məsuliyyətlər necə bölüşdürülür?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Sosial problemlər üçün məsuliyyətin ümumi xarakterini nəzərdən keçirmək. |
| **Şagird tapşırıqları** | Şagirdlər müəyyən sosial problemlərin məsuliyyətini müzakirə edirlər. Şagirdlər təhlil çərçivəsini tamamlayırlar.<br>Şagirdlər müzakirəyə çıxarılmış məsələlərə yazılı cavab verirlər. |
| **Resurslar** | "Məktub"un nüsxələri.<br>Lövhə.<br>Yazı işi üçün kağız. |
| **Metodlar** | Strukturlaşdırılmış tənqidi təhlil.<br>Kiçik qrup təhlil və müzakirəsi.<br>Razılıq əldə etmək və danışıqlar.<br>Fərdi yazı işi. |

## Konseptual öyrənmə

**Sosial problem:** İctimaiyyətin bütün və ya əksər üzvlərinin üzləşdikləri, cəmiyyətin qismən və ya bütövlükdə məsuliyyət daşıdığı problem. Sosial problem üçün məsuliyyətin iştirak edən tərəflər arasında bərabər bölüşdürülməsi zəruri deyil.

**Məsuliyyətin dərəcəsi:** Bir kəsin sosial problem üçün nə dərəcədə məsuliyyət daşıması.

# Dərs

Müəllim yerli qəzetə xəyali məktub təqdim edir. Bu, şəhər sakinlərini narahat edən iki sosial problemlə bağlı şikayətləri ehtiva edir.

Müəllim şagirdlərdən sinif kimi a) problemləri müəyyən etmələrini və b) məsuliyyət daşıya biləcək insanların (hər iki problem üçün) siyahısını hazırlamalarını istəyir. Müəllim aşağıda göstərildiyi kimi löhvədə təhlil çərçivəsini çəkməklə bu prosesə yardım edə bilər.

Hər bir halda bu problemdə kim iştirak edir?




# Qrup işi

## Mərhələ 1

Sinfi üç və ya dörd nəfərdən ibarət qrupa bölün. Qrupdakı hər kəsə tərəflərin sayı qədər eyni xallar verin.

## Mərhələ 2

Qrupun hər bir üzvü ilk olaraq problemin məsuliyyətinin necə bölüşdürülməsinə görə xalları tərəflər arasında bölür. Məsələn, uşaqlar və itlər xal ala bilməz, lakin it sahibləri və siyasətçilər xalları onlar arasında bölə bilər yaxud onlardan biri digərindən daha çox xal ala bilər.

## Mərhələ 3

Qrupun hər bir üzvü qərar verdikdə, onlar səbəblərini də göstərməklə bir-birləri ilə ideyalarını paylaşmaq üçün həmin qərarı həyata keçirirlər. Şagirdlər bu mərhələdə fikirlərini dəyişə bilərlər. Nəhayət, hər qrup hər bir tərəfə verilən xalları toplayır. Bu, qrupun problemin məsuliyyətinin bölüşdürülməsi haqqında bütövlükdə nə düşündüyünü göstərir.

Müəllim müxtəlif qruplar tərəfindən əldə olunmuş nəticələri bütün sinif ilə müzakirə edir. Müəllim şagirdlərin öz mühakimələrindən əldə edərək ortaya çıxardığı səbəbləri müəyyənləşdirərək müxtəlif fikirləri tədqiq edir.

Əgər vaxt imkan verirsə, tapşırığı zibil problemi ilə də təkrarlayın. Və ya problemi məktəbin yerinə müvafiq və ya qrupun bacarığı üçün daha çətin olan problemlə əvəz edin.

## Qeyd

Bu nümunələrdə verilmiş problemlər hələ siyasi məsələlərin müzakirəsində çox təcrübəli olmayan şagirdlər üçün uyğundur. Çünki onlar konkret, gözlə görünən və anlaşılması nisbətən asan olan

məsələlərdir (lakin onları həll etmək hələ də çətindir). Yuxarı və ya daha bacarıqlı siniflərdən eyni təhlil çərçivəsindən istifadə etməklə daha mürəkkəb problemləri, məsələn, işsizlik və ya irqçilik, müzakirə etmək istənilməlidir.

## Mərhələ 4: Tapşırıqdan qaynaqlanan müzakirə

Yekun plenar sessiyada müəllim şagirdlərdən insanların öz əməlləri üçün kifayət qədər məsuliyyət daşıyıb-daşımadıqlarını soruşur. Cavab mənfidirsə, onları buna inandırmağın yolunu düşünün. Təhsil hər hansı yolla kömək edəcəkmi? Və ya yeni qanunlar yaratmaq və ya daha sərt cəzalar təqdim etmək lazımdırmı? Yerli və ya milli hökumət müəyyən problemlər üçün məsuliyyəti öhdəsinə götürməlidirsə, şagirdlərdən ehtimal olunan xərcləri və bunun necə ödənilməli olduğunu soruşun. Müəllim həmçinin bu növ sosial problemlərin həll edilməsində gənc insanların rolunu müəyyən etməyi xahiş edir. Yaş səbəbindən onlar məsuliyyətdən azad edilməlidirlərmi? Gənclərin cəmiyyətdəki problemləri yaşlıların öhdəsinə buraxması düzgündürmü? Bu cür məsələlər fərdi yazı tapşırığının əsasını formalaşdıra bilər.

Müəllim yerli və milli siyasətçilərin problemlərdən xəbərdar olmalarının zəruriliyini izah edir. Siyasət adətən icma kimi ümumi problemlərin həll edilməsidir. Bu, o demək deyil ki, hökumətlər hər bir problemi həll edə bilər. İnsanlar ilk növbədə öz davranışlarının nəticələrinə görə daha çox məsuliyyət daşısalar, əksər porblemlər yaranmaz.

# Dərs 4
# İnsanlar nəyə görə fəal vətəndaşlar olmalıdırlar?
## İnsanlar nəyə görə cəmiyyəti dəyişmək istəyir və bunu necə edə bilərlər?

| | |
|---|---|
| **Öyrənmənin məqsədləri** | İnsanların başqa insanların əziyyəti üçün nəyə görə məsuliyyət qəbul etməsinin səbəblərini göstərmək. QHT-lərin mülki cəmiyyətdə rolunu kəşf etmək. |
| **Şagird tapşırıqları** | Şagirdlər birlikdə hekayə yaratmaq üçün qruplarda işləyirlər.<br>Şagirdlər sosial cəhətdən əsaslandırılmış davranış səbəbləri ilə bağlı fərziyyələr bildirirlər. Şagirdlər QHT-lərin rolunu nəzərdən keçirirlər.<br>Qruplarda şagirdlər QHT-nin və ya sosial kampaniyanın işini araşdırırlar. Qruplarda şagirdlər öz nəticələrini təqdim edirlər. |
| **Resurslar** | Yelena Santik haqqında (şagird materialı 6.4) artıq kəsilmiş olan vərəqlər. Şagir tədqiqatını dəstəkləmək üçün resurslar.<br>Qrup təqdimatları üçün resurslar, məsələn, böyük vərəqlər, rəngli qələmlər. |
| **Metodlar** | Qrup işi.<br>Danışıq.<br>Mənəvi mühakimə.<br>Tənqidi qiymətləndirmə.<br>Tədqiqat.<br>Qrup təqdimatı. |

## Konseptual öyrənmə

**Sosial tədbir:** Sosial problemi həll etmək üçün icmanının vətəndaşları və ya üzvləri tərəfindən görülmüş tədbir.

**Vətəndaş:** Milli icmanın hüquqi üzvlüyünə (vətəndaşlıq) sahib olan şəxs. Vətəndaşlıq hüquqlar və vəzifələr deməkdir, lakin insanların cəmiyyətdə baş verənlərə görə məsuliyyət hissi müxtəlif olur.

**Fəal vətəndaş:** Sosial və ya ictmai problemin həllində ictimai fəaliyyət göstərən şəxs.

**Qeyri-hökumət təşkilatı (QHT):** Sosial problemi həll etmək üçün vətəndaşlar tərəfindən (hökumət yox) qurulan və dəstəklənən təşkilat. QHT-lər ictimai, məxfi olmayan qurumlardır və dəyişikliklər etmək üçün cəmiyyətin strukturları çərçivəsində işləyirlər. Onlar adətən hökumət tərəfindən insanların hüquqlarının adekvat şəkildə qorunmadığı və ya tanınmadığı problemləri həll edirlər. QHT-lər hökumətlər ilə və ya onların əleyhinə işləyə bilərlər. Demokratik cəmiyyətlərdə qanun imkan verir ki, QHT-lər fəaliyyət göstərsinlər və onların hüquqi müdafiələri olsun.

**Vətəndaş cəmiyyəti:** Hökumət tərəfindən icra edilən işlərdən kənar sosial fəaliyyətlərdə iştirak edən insan və təşkilatlar vətəndaş cəmiyyətinin bir hissəsidir. Vətəndaş cəmiyyəti fərdi vətəndaşlar və hökumətlər arasında əlaqənin bir hissəsini formalaşdırır.

# Dərs

Müəllim sinfi təxminən dörd şagirddən ibarət qruplara bölür. Daha sonra o, Yelena Santik (şagird materialı 6.4) haqqında məlumatlar verir. İdeal halda bu, kağızı ayrı-ayrı vərəqlərə bölməklə edilməlidir. Müəllim qrupdan vərəqləri qrup üzvləri arasında nizamsız şəkildə paylamağı istəyir. Hər bir qrup üzvü öz növbəsində vərəqi qrupun digər üzvlərinə oxuyur. Daha sonra qrup vərəqləri ən ağlabatan şəkildə düzür.

Daha sonra müəllim şagirdlərdən aşağıdakı sualları qrup halında müzakirə etmələrini və mümkün qədər qrup cavabına çatmalarını istəyir. Müəllim vurğulayır ki, qrup üzvləri narazı ola bilər, lakin ideyaların paylaşılması daha yaxşı cavablar yaradır. Ayrı-ayrı şagirdlər öz cavablarını yazmalıdırlar. Daha sonra müəllim aşağıdakı suallarla təklif olunan əsas məsələləri müzakirə edir.

## Suallar

– Sizcə, Yelena Santikin Qrup 484-də iştirak etməsinin əsas səbəbi nədir?

– Yelena Santiki tanıdığınız qədər onu təsvir etmək üçün hansı sözləri istifadə edərdiniz?

– Sizcə, nəyə görə Yelena Santik və Qrup 484 etmək istədikləri işi hökumətə buraxmadılar?

– Qrup 484 hansı növ ehtiyacı qarşılamağa çalışır?

– Yelena Santik və Qrup 484 necə cəmiyyət qurmağa umid edirdi?

– Sizcə, qeyri-hökumət təşklilatları (Qrup 484 kimi) cəmiyyətdə nə dərəcədə vacibdir? Sizcə, onlar nəyə nail ola bilərdi? Hökumətlərin işi, həmçinin insanların ehtiyaclarının (hüquqlarının) qarşılanması ilə münasibətdə onların işi haqqında düşünün.

– Öz cəmiyyətiniz haqqında düşünün. Fəal vətəndaşların və ya QHT-lərin məsuliyyət götürməsi ilə təmin edilə biləcək hansı ehtiyacları tanıyırsınız?

Misal vermək üçün müəllim daha sonra Bosniya və Herseqovinada QHT-lərlə bağlı 2003-cü il beynəxalq hesabatından aşağıdakı sitatı oxuyur.

«Bosniya və Herseqovinada QHT sektoru demokratiyanın və mülki cəmiyyətin qurulması prosesinə müsbət töhfələr verməyə davam edir. [...] Hal-hazırda Bosniya və Herseqovinada köhnə və yeni qeydiyyat qanunları çərçivəsində 7 847 qeyri-hökumət təşkilatı mövcuddur. [...]

QHT sektoru göstərmişdir ki, o, Bosniya cəmiyyəti üçün vacib olan məsələlərlə bağlı dəyişiklikləri müdafiə edən, o cümlədən gənclik, gender bərabərliyi, ətraf mühit, azlıqların hüquqlarının müdafisəi və s. ilə bağlı geniş ictimai kampaniyaların keçirilməsinə qadirdir. QHT-lərin böyük sayı səhiyyə və sosial rifah, bərpa etmə, insan hüquqlarının qorunması, ətraf mühitin qorunması və azlıqların qorunması sahələrində xidmətlər təklif etməyə davam edir».[22]

Müəllim bu istinadı şagirdlər ilə müqayisə edir. İlk növbədə onlar hesabatda qeyd edilən fəaliyyət sahələrinin onların da ölkəsinə tətbiq edilib-edilməməsini nəzərdən keçirməlidirlər. Daha sonra müəllim onlardan bu müxtəlif fəaliyyət sahələri çərçivəsində rast gəlinə biləcək layihələrin növləri ilə bağlı nümunələr düşünmələrini istəyir.

## Suallar

Bu bölmədəki işin son hissəsi kimi hər bir qrup bu sahələrdən birini seçə və dərsin əsasında onun haqqında təqdimat hazırlaya bilər. Alternativ olaraq tədqiqat vəsaitləri əlçatandırsa, ölkədə digər fəal vətəndaşların həyatları araşdırıla və qrup təqdimatının mövzusunu formalaşdırıla bilər. Şagirdlər həmçinin Tereza Ana və Nelson Madela kimi beynəlxalq şəxsləri daxil edə bilərlər.

22. Mənbə: «2003 QHT Davamlılıq İndeksi, Avropa və Avrasiya» səh. 42 və 43; www.usaid.gov/locations/europe_eurasia/dem_gov/ngoindex/2003/bosnia.pdf

# Şagird materialı 6.1
## Milan seçim edir

Atası mətbəxə gələndə Milan məktəbə getmək üzrəydi.

«Milan, bu gün sahələrdə həqiqətən də sənin köməyinə ehtiyacım var. Evdə qala və məktəbə getməyə bilərsən? Taxıl bir az da qalsa, zərər görəcək».

Milan narazı idi.

«Ata, mən bu gün məktəbə getməliyəm», o dedi «bu, məktəb şurasının ilk görüşüdür və mən 8-ci sinfin nümayəndələrin biri kimi seçilmişəm».

«Lakin sən tək olmayacaqsan, elə deyilmi? atası dedi, «getməməyinin bir fərqi olmayacaq. Başqa 8-ci sinif nümayəndələri də var, elə deyilmi?»

«Hə, lakin getməsəm, məni seçmiş insanları məyus edəcəyəm. Bundan başqa, bu gün təbiətşünaslıq dərsimiz var. Onu ötürmək istəmirəm. Universitetə daxil olmağa hazırlaşıramsa, imtahanlarımı keçməliyəm».

Milanın atası narazı halda deyindi.

«Sən ailənin əhəmiyyəti yoxmuş kimi universitetə getmək haqqında danışırsan. Evdə sənə ehtiyacımız olduğunu nə üçün görmürsən? Universitetə getsən, bizə nə köməyin olacaq? İxtisas aldıqdan sonra haraya gedəcəksən? Dəqiqdir ki, buraya qayıtmayacaqsan».

«Buradakı oğlanların çoxundan fərqli olaraq həyata atılmaq istədiyim üçün məmnun olmalısan», Milan acıqla qışqırdı. Onların heç bir hədəfi yoxdur. Onların sonu atalarınkı kimidir».

«Yaşlı nəslə bir az hörmət etməkdə pis heç nə yoxdur», Milanın atası dedi, onun səbri daşırdı. «Bu günlərdə təhsillə bağlı bu söhbətlər məni narahat edir. Mənə elə gəlir ki, sən bəzi köhnə dəyərlərimizi unutmusan. Sən yalnız özünçün yaşayırsan».

Milan ah çəkdi. O, bütün bunları əvvəl eşitmişdi.

«Ata, əgər mənim yaxşı işim olsa, mən səni və ailəmi unutmayacağam. Bunu edə biləcəyimi necə düşünə bildin? Həqiqətən məktəbi tərk etməyimi və bacaracağımı bildiyim şeyə nail olmamağımı istəyirsən? Bütün müəllimlərim deyir ki, mən yaxşı alim olacağam. Bəlkə bir gün dünyada hər kəsə kömək edəcək kəşflər edəcəyəm»,

Milanın atası yumruğunu masaya vurdu.

«Sənin ilk vəzifən ailəyə və bu cəmiyyətə xidmət etməkdir, xüsusilə indi vəziyyət ağırdır. Ağlını xülyalarla doldurursan. Səni real dünya narahat etmir?»

Bu, Milanın xətrinə dəydi, lakin bunu büruzə vermədi. O, bir saniyə səssizcə atasına baxdı. Daha sonra yaşlı kişi arxasını çevirdi və qapını çırparaq evi tərk etdi.

Milan oturdu və ah çəkdi. O, bir dəqiqə düşündü və qərar qəbul etdi. O, məktəb çantasını götürdü və qapıya tərəf çevrildi. Sonra o dayandı, bir vərəq götürdü və atasına qeyd yazdı. Bu, onun həyatında etdiyi ən ağır şey idi.

# Şagird materialı 6.2
## Şmitin dilemması

Şmitin yeganə qızı çox xəstədir. Onu təcili əməliyyat etmək lazımdır, lakin bunu edə bilən həkimlər müalicədən əvvəl pul tələb edirlər. Şmit nə edəcəyini bilmir. Onun və arvadının onlara balaca mağaza almağa kömək edə biləcək bir qədər pulu var idi. Onlar bütün pullarını qızlarını xilas etmək üçün məmnuniyyətlə verərlər, lakin bu kifayət deyil.

Şmit həkimlərə əməliyyat etmələri üçün yalvardı, lakin onlar bunu edə bilməyəcəklərini dedilər, çünki bu, tam qiyməti ödəyənlərə qarşı ədalətsizlik ola bilərdi. Şmit ona bir qədər borc vermələri üçün ailəsinə və dostlarına müraciət edir, lakin bu məbləği çox az artırdı. Və Şmitin qızı getdikcə daha çox zəifləyirdi.

Ümidi kəsilmiş Şmit qızının həyatını xilas etmək üçün qalan pulu oğurlamağı düşünür.

# Şagird materialı 6.3
## İşlər nəzarət altından çıxır!

Yerli qəzetdə dərc edilmiş aşağıdakı məktubu nəzərdən keçirin.

*Yerli sakinlər kimi biz insanların öz davranışlarına görə məsuliyyət daşımağa hazır olmamasından qaynaqlanan bir sıra problemlərlə bağlı narahatlıq keçiririk.*

*Çoxlu sayda it nəzarətsiz buraxılıb. Onların sahiblərinin ya xəbəri yoxdur, ya da bu, onları maraqlandırmır. İtlər öz çirklərini küçələrdə qoyur, bu da yalnız xoşagəlməz hal deyil, bu, həmçinin sağlamlıq üçün təhlükəli ola bilər. Bəzi itlər dəstə şəklində dolaşır və qəzəblidirlər. Onlar ciddi nəzarət altında saxlanılmalıdırr, xüsusilə yaxınlıqda uşaqlar oynayanda.*

*Həmçinin düşünürük ki, şəhərdə və şəhər ətrafında həddindən çox zibil var. Bunun səbəbi insanların onu düzgün istifadə etmək üçün həddindən çox tənbəl olmasıdır. Bu, pis mənzərədir və siçanları cəlb edir və xəstəliklərin yayılmasına imkan yaradır. İnsanlar ətrafa köhnə boya qutuları və ya kimyəvi maddələr atanda bu, göllərə və çaylara düşə və içməli su təchizatına zərər vura bilər.*

*Nəyə görə insanlar öz davranışlarının təsirləri haqqında daha çox düşünmürlər? Və nəyə görə siyasətçilər bu problemlərlə bağlı hər hansı işlər görmürlər?*

*Hörmətlə,*

# Şagird materialı 6.4
## Kartlar toplusu: Yelena Santikin həyatı

| | |
|---|---|
| 1.<br><br>Yelena Santik 1944-cü ildə dünyaya gəlmişdir. O, serbiyalı idi. | 2.<br><br>Yelena Santik 2000-ci ildə xərçəng xəstəliyindən dünyasını dəyişib. |
| 3.<br><br>Yelenanın ölümündən sonra dostlarının bəziləri onun məzar daşını Belqraddakı bombalanmış binadan apardılar. Kosovodan gəlmiş qaçqın uşaqlar onu bəzəmişdi. Daha sonra məzar daşı rəmz kimi Berlində Yelena Santik Sülh parkına aparılmışdı. | 4.<br><br>Yelena Santik və Qrup 484 1991-ci il müharibəsindən sonra serblər və xorvatlar arasında inamın yaradılmasına kömək edən «Xorvatiyada Pakrats» Layihəsini həyata keçirmişdi. Bu layihədə ona hər iki tərəfdən və beynəlxalq icmadan könüllülər qoşulmuşdu. |
| 5.<br><br>Yelena Santik Qrup 484 adlı təşkilatın təsisatçısı və lideri idi. Qrup 484 qeyri-hökumət təşkilatıdır (QHT). Qrup 484 insani cəmiyyətlərin əsası kimi münaqişənin qeyri-zorakı yolla həll edilməsini, dözümlülüyü və əməkdaşlığı təşviq edir. | 6.<br><br>Yelena milliyyətçilik və irqçilik əleyhinə məqalələr yazırdı, bu məqalələr beynəlxalq səviyyədə dərc edilmişdir. O, «Pax Christi» adlı təşkilat tərəfindən öz işlərinə görə beynəlxalq sülh mükafatı almışdır. |
| 7.<br><br>Berlində işlərinə hörmət əlaməti olaraq Yelena Santikin adını daşıyan sülh parkı mövcuddur. Yelena bu parkda ictimai görüşdə çıxış etmişdir. | 8.<br><br>Yelena Santik beynəlxalq səviyyədə tanınan məşhur balerina və balet müəllimi olmuşdur. |
| 9.<br><br>Yelena Santik müharibə əleyhinə kampaniya aparır və bütün insanların hüquqları uğrunda mübarizə aparırdı. O və onun təşkilatı Serbiyaya axın etmiş qaçqınlara kömək etmək üçün çox çalışırdı. | 10.<br><br>Qrup 484 təşkilatın ilk layihələrindən biri müharibənin evsiz buraxdığı 484 xorvatiyalı ailə ilə bağlı olduğu üçün belə adlandırılmışdı. Qrup 484 qaçqınlara kömək edir, rahat şərait yaradır və onlara öz hüquqları ilə bağlı məsləhətlər verirdi. |

# 3-cü hissə

## İştirak

### Bölmə 7

### Sinif qəzeti
### Medianın yaradılması ilə onun dərk edilməsi

# BÖLMƏ 7
# Sinif qəzeti

## Medianın yaradılması
## ilə onun dərk edilməsi



### 1.1. Ətrafımızdakı qəzetlər
**Onlar kimə məlumat verir. Onlar necə məlumat verir. Onlar nədən danışır.**

### 1.2. Qəzetimiz ən yaxşısıdır ... razı deyilsiniz?
**Qəzeti yaxşı qəzet nə edir?**

### 1.3. Biz divar qəzetimizi yaradırıq
**Etməli olduğunuz hər şey və etməməli olduğunuz bəzi şeylər**

### 1.4. Birinci nəşrimiz!
**İndi nə edək?**

# BÖLMƏ 7: Sinif qəzeti
# Medianın yaradılması vasitəsilə KİV-i anlama

Bütün dünyada medianın mövcudluğu və təsiri ötən bir neçə il ərzində artmışdır. Həyatımız nə qədər mürrəkkəb və bir-birindən asılı olursa, bizə təsir edən hadisələri və faktorları anlamaq üçün məlumatlara daha çox istinad edirik. Şəxsi təcrübəmizdən və ani qavramamızdan kənar olan istənilən məlumat üçün biz məlumat vasitələrinə istinad etməliyik.

Lakin fərdin müxtəlif mediaya çıxışı xeyli fərqlənir. Bu, şəxsin məlumatlılıq səviyyəsinə və onun təsir və səlahiyyətdən istifadə etmək bacarığına təsir edir. Növbəti mühüm aspekt senzura məsələsi və partiyalar, hökumətlər və güclü lobbilər tərəfindən dezinformasiya problemidir. Sosial dəyişiklik və ya müharibə də daxil olmaqla münaqişə inhisara alınmış və təhrif edilmiş məlumatlara səbəb olur.

Adı çəkiləcək bu qarşılıqlı əlaqələrin az olmasına baxmayaraq, bu bölmədə mediaya aydın şəkildə müraciət edilməyəcək, şagirdlər onların elementlərini öz ölkələrinin və ya regionlarının çap mediasını müqayisə edən zaman kəşf edəcəklər və onları xüsusi meyar ilə müqayisə edəcəklər.

Bu bölmədə mediaya yanaşma fərqlidir. Şəxsi divar qəzetlərini yaratmaqla şagirdlər qəzet istehsalı ilə bağlı müəyyən anlayış əldə edəcəklər və buna görə də «daxildən» medianın reallığı haqqında nəsə öyrənəcəklər. Müəllimlik təcrübəsi göstərir ki, bu cür yanaşma şagirdlərə onlara öz gündəlik həyatlarından uzaq olan çap mediasına birbaşa giriş forması verir. Şagirdlər bu növ mediaya tənqidi şəkildə baxacaq və həmçinin elektron medianı və bu növ mediadan şəxsi istifadələrini yeni perspektivdən qiymətləndirəcək. Onlar media savadlılığını inkişaf etdirəcəklər.

Son olaraq, bir praktik işarə: bu bölmə xüsusilə, fənlərarası tədrisi və əməkdaşlığı tələb və təklif edir. Mətnlərin yazılması və yoxlanılması dil tədrisinin bir hissəsi kimi baş tuta bilər, tərtibatın hazırlanması isə rəsm dərsininin tapşırığı ola bilər. Bəzi hallarda sinif maraqlanan şagirdlərin redaktə komandasının əlavə iştirakı ilə bunu özbaşına başlaya bilər.

Divar qəzeti başqa müəllimlər buna qoşulmağa əmin olana qədər məktəb həyatında iştirak edə bilər.

## Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə təlim

Media savadlılığı insan hüquqları və vətəndaş təhsilinin - fəal, iştirakçı vətəndaş - ümumi məqsədinin əsaslarından biridir. Media savadlılığının bəzi ən mühüm aspektləri:

1. Kommunikasiya bacarığı insanların bir-birlərinə necə qarşılıqlı təsir göstərməsinin ümumi qaydasına deyilir. Sosial reallıq bu cür mövcud deyil. Daha doğrusu, o, insanlar tərəfindən sosial qarşılıqlı təsir kimi müəyyən edilir, bu da onun kommunikasiya fəaliyyəti ilə yaradılması deməkdir. Bu ümumi kommunikativ bacarıq ana dilimizi öyrənməklə başlayır və daha sonra bu bacarığın ictimaiyyətdə istifadəsi ilə inkişaf etdirilir.
2. Hər bir insan doğuşdan bu kommunikativ bacarığa sahibdir. Təbiət bizi bu bacarıq ilə təmin edib, lakin o, tərbiyə edilməli, reallaşdırılmalı və yaxşılaşdırılmalıdır.
3. Media savadlılığı kommunikativ bacarığın ümumi anlayışına daxil edilib. O, medianın mürəkkəb çoxluğuna və məsələn, şagirdlər üçün tapşırıq müəyyən etmək vasitəsilə öyrənilməli və reallaşdırılmalı olan ehtiyacların istifadəsinə aiddir. Divar qəzeti də daxil olmaqla çap mediası şagirdlərin tanış olmalı olduğu gündəlik ünsiyyətin mühüm vasitəsidir. Lakin, onlar media savadlılığının ümumi hədəfi daxilində bir elementdən artıq deyillər.

# BÖLMƏ 7: Sinif qəzeti
# Medianın yaradılması vasitəsilə KİV-i anlama

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1:<br>tanış olur.<br>Şagirdlər ö<br>toplayır və | Ətrafımızdakı<br>qəzetlər<br>Onlar<br>icmalarında<br>təhlil edirlər. Onlar<br>üçün<br>Qəzetlər,<br>böyük vərəqlər. | Şagirdlər<br>məzmun<br>strukturundakı<br>adətən oxunan<br>nəticələrini<br>plakat hazırlayırlar.<br>qayçı, yapışqan,<br>Qrup işi. | müxtəlif çap<br>fərqləri anlayırlar.<br>qəzetləri və<br>jurnalları<br>yazmaq | mediası ilə |
| Dərs 2:<br>müəyyənləşdirmək<br>üçün<br>dəyərlərini və<br>qiymətləndirir<br>Son dərs<br>flip çart kağızı. | Qəzetimiz ən<br>yaxşısıdır...<br>meyar<br>mənafelərini<br>tanıyırlar.<br>və güzəştlərə<br>zamanı hazırlanmış<br>Qrup təqdimatları,<br>qiymətləndirmə. | razı deyilsiniz?<br>təyin edəcəklər.<br>Şagirdlər<br>dair | Şagirdlər üçün<br>Bununla da<br>digər qrupların<br>razılığa<br>təqdimatlar.<br>plenar müzakirə<br>və | yaxşı qəzeti və<br>ya jurnalı<br>onlar öz<br>perspektivlərini,<br>təqdimatlarını<br>gəlirlər.<br>Lövhə və ya |
| Dərs 3:<br>mövzuların və<br>məqsədlərin<br>şəxsi<br>qrupda əməkdaşlıq | Biz divar<br>əhatə dairəsi ilə<br>ideyalarını və<br>edirlər. Şagirdlər<br>strukturuna<br>müvafiq olan<br>mövzuları müəyyən<br>edir və<br>Əlçatan maddi<br>mətnlərdən rəqəmsal<br>şəkillər<br>Birgə qərarlar | qəzetimizi yaradırıq<br>bağlı<br>bacarıqlarını<br>birlikdə hazırladıqları<br>qərar verirlər.<br>divar qəzetində öz<br>bölmələri üçün<br>resurslardan asılı<br>olaraq<br>olan kompüter<br>çaplarına qədər | Qruplarda<br>razılığa gəlirlər.<br>komanda ilə<br>qəzetin<br>Onlar məktəbləri<br>üçün<br>məqalə yazırlar.<br>nəticələr əl ilə<br>yazılmış<br>əhatə edəcək.<br>qəbul etmək.<br>Qrup işi. | şagirdlər<br>Onlar<br>paylaşmaqla |
| Dərs 4:<br>və<br>agah olurlar. | Birinci<br>davamlı<br>Onlar<br>və bunun üçün<br>məsuliyyət<br>Şagirdlər fikirlərini<br>gələcək iştirakları<br>haqqında<br>qərar qəbul<br>etməlidirlər.<br>Lövhə və ya<br>flip çart kağızı.<br>Plenar müzakirə. | məsələmiz!<br>qəzet layihəsinin<br>qərar qəbul etməyə<br>daşımağa qadirdirlər.<br>formalaşdırmalı və<br>növbəti layihədə | Şagirdlər açıq<br>təsirləri və | müzakirə<br>aparmağa<br>qadirdirlər<br>nəticələrindən |

# Dərs 1
# Ətrafımızdakı qəzetlər
## Onlar kimə məlumat verir. Onlar necə məlumat verir. Onlar nədən danışır.

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər müxtəlif çap mediası ilə tanış olur. Onlar məzmun və strukturdakı fərqləri anlayırlar. |
| **Şagird tapşırıqları** | Şagirdlər öz icmalarında adətən oxunan qəzetləri və jurnalları toplayır və təhlil edirlər. Onlar nəticələrini yazmaq üçün plakat hazırlayırlar. |
| **Resurslar** | Qəzetlər, qayçı, yapışqan, böyük vərəqlər. |
| **Metod** | Qrup işi. |

## Konseptual öyrənmə

«Çap mediası» məlumatların çap olunmuş mənbələrinə - klassik media - o cümlədən, qəzetlər, jurnallar, kitablar, kataloqlar, prospektlər, vərəqələr, xəritələr, sxemlər, açıqcalar, təqvimlər və plakatlara istinad edir.

Çap mediası adətən kağızda çap edilir. Çap etmə texnologiyaları sürətlə dəyişikliklərə məruz qalır və rəqəmsal çap getdikcə daha ümumi olur.

# Dərs

Bu dərsin başlamasından bir neçə həftə əvvəl müəllim şagirdlərdən yığa biləcəkləri bütün qəzetləri toplayıb məktəbə gətirmələrini istəyir. Şagirdlərə işlərində dəstək olmaq üçün sinifdə təqdimatlar üçün istifadə ediləcək bir masanı kənara ayırmaq tövsiyə edilir. Bəxti gətirərsə, şagird qəzet köşkünün satıcısından köhnə qəzet piştaxtası əldə edə bilər, bu da qəzet və jurnalları təqdim etmək üçün ideal vasitədir. Müəllim bütün mühüm gündəlik qəzetlərin daxil edilməsini təmin etməlidir.

Müəllim ilk dərsi şagirdlərə bu bölmənin məqsədləri və tapşırıqları haqqında məlumat verməklə başlayır. Müəllim qeyd etməlidir ki, bu bölmə ən azı təhsil ilinin yarısına qədər davam edə biləcək və etməli olan layihənin başlanğıcıdır. Şagirdlər həmçinin anlamalıdır ki, bu layihə onlara praktik jurnalistika təcrübəsi əldə etmək imkanı təklif edir. Təcrübə göstərmişdir ki, gələcək jurnalistlər adətən bu növ layihələrdə ilk addımlarını atırlar.

Şagirdlər tədricən üç və ya maksimum dörd nəfərdən ibarət kiçik qruplar formalaşdırırlar. Hər bir qrup müxtəlif qəzet və ya jurnalı təhlil edir. Şagirdlər aşağıdakı suallar ilə istiqamətləndirilirlər:

– Qəzetə və ya jurnala hansı bölmələr daxil edilib?

– Bölmələr hansı ardıcıllıqda göstərilir?

– Şagirdlər hansı hədəf qruplara müraciət edir? Hansı ailə üzvləri xüsusilə müəyyən bölməni oxumağa maraqlıdır?

– Qrupun araşdırdığı məsələnin bölmələrində hansı mövzular əhatə olunur?

– Hər bir bölmədən bir səciyyəvi məqalə seçin. Bu məqalələri kəsin və onları plakat hazırlamaq üçün bir vərəqə yapışdırın.

Plakat ideal halda orijinal başlıq ilə qəzetin və ya jurnalın adını daşımalıdır və yuxarıda göstərilmiş suallar cavablandırılmalıdır. Şagirdlərə aydın və nizamlı tərtibatın əhəmiyyəti xatırladılmalıdır.

Bu mərhələdə, şagirdlərin qəzetin əsas strukturunu anlamaları vacibdir, beləliklə onlar sinifdə onu təqdim edə və aydın şəkildə izah edə biləcəklər.

Qruplar növbəti dərs üçün öz qəzet və ya jurnalını reklam edirmiş kimi onun bütün müsbət və güclü tərəflərini qeyd etməklə təqdimatlarını hazırlayırlar. Bütün təqdimatları dinlədikdən sonra sinif hansı qəzeti ən maraqlı və informativ hesab etdiklərinə qərar verməlidir. Bu mərhələnin məqsədi bu qəzetin bir neçə həftə ödənişsiz çatdırılmasını - bir çox qəzet naşirlərinin məktəblərə təqdim etmək istədikləri xidmət - əldə etməkdir.

Bu mərhələdə müəllim məsləhətçi rolunu oynayır. O, qruplara qəzetin daxili sturkturunu araşdırmaqda kömək edəcək, çünki bütün qəzetləri eyni dərəcədə təhlil etmək asan deyil. Müəllim həmçinin şagirdlərə qrup işi zamanı nəzarət etməlidir ki, hər bir qrupun yaxşı təqdimat hazırlamasını və dərsin sonuna işlərini bitirməsini təmin edə bilsin. Həddindən çox mükəmməl olmağa çalışmaq bu fəaliyyət üçün vaxt məhdudiyyətini pozacaq.

# Dərs 2
# Qəzetimiz ən yaxşısıdır... razı deyilsiniz?
## Qəzeti yaxşı qəzet nə edir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər yaxşı qəzeti və ya jurnalı müəyyənləşdirmək üçün meyar təyin edəcəklər. Bununla da onlar öz perspektivlərini, dəyərlərini və mənafelərini tanıyırlar. |
| **Şagird tapşırıqları** | Şagirdlər digər qrupların təqdimatlarını qiymətləndirir və güzəştlərə dair razılığa gəlirlər. |
| **Resurslar** | Son dərs zamanı hazırlanmış təqdimatlar.<br>Lövhə və ya flip çart kağızı. |
| **Metod** | Qrup təqdimatları, plenar müzakirə və qiymətləndirmə. |

## Konseptual öyrənmə

«Mətbuat azadlığı» məlumatların və fikirlərin senzurasız nəşr edilməsi hüququ ilə yanaşı mətbuatın öz işini azad şəkildə görməsinə deyilir. "Mətbuat azadlığı" xüsusi hüquqlar təmin edir: jurnalistlər ifadə veməkdən imtina edə bilər, jurnalistlərə audio təchizat vasitəsilə nəzarət etmək (dinləmə) üzərində məhdudiyyətlər vardır. Jurnalistika peşəsinə çıxış dövlət tənzimlənməsinə məruz qalmır və jurnalistlərin təlimi xüsusi olaraq dövlət təsirindən azad şəkildə təşkil edilir.

# Dərs

İkinci dərs təqdimatlarla başlayır. Şagirdlər plakatlarını hazırlayır və qəzet və ya jurnaldan olan kəsiklərini seçirlər. Dərsin başlanğıcında təqdimatlarını gözdən keçirmələri üçün qruplara beş dəqiqə vaxt vermək tövsiyə edilir.

Şagirdlər müəyyən edilmiş meyardan istifadə etməklə təqdimatları qiymətləndirirlər. Müəllim bu meyarları təqdim edə və aşağıdakı kimi matriks hazırlaya bilər.

| | **Qrup 1** | **Qrup 2** | **Qrup 3** | **Qrup 4** | **Qrup 5** | **Xallar** |
|---|---|---|---|---|---|---|
| **Qəzetin və ya jurnalın adı** | | | | | | |
| **Plakat** | | | | | | |
| **Təqdimatın formal aspektləri** | | | | | | |
| **Təqdimatın məzmunu** | | | | | | |
| **Qəzetin və ya jurnalın formal aspektləri** | | | | | | |
| **Qəzetin və ya jurnalın məzmunu** | | | | | | |

Qiymətləndirməyə həddindən çox əhəmiyyət verilməməlidir, əksinə rəqabət elementi vasitəsilə o, şagirdləri yaxşı təqdimat təqdim etməyə həvəsləndirməlidir.

Təqdimatlardan sonra şagirdlər aşağıdakı suallara diqqət verməklə gördükləri (tənqidi təfəkkür) çap mediasını qiymətləndirməlidirlər.

– Qəzeti/jurnalı «yaxşı» qəzet/jurnal nə edir?

– O, hansı məqsədə xidmət edir?

– Bizə təqdim edilən qəzetlər/jurnallar haqqında nə düşünürük?

– Nəyi inkişaf etdirmək mümkündür?

Təcrübə göstərmişdir ki, müəllim dərsdən əvvəl hazırlanmış flip çart kağızında şagirdlərin ideyalarını qeyd etməklə müzakirəni dəstəkləyə və strukturlaşdıra bilər. Alternativ olaraq löhvə istifadə edilə bilər, lakin bunun çatışmayan cəhəti məlumatların növbəti dərsdə əlçatan olmamasıdır.

Dərsin sonunda müəllim şagirdlərə «divar qəzeti» hazırlamağı və hər kəsə təqdim etməyi təklif edir. Şagirdlərdən tapşırıq, məktəb həyatının hərtərəfli təsvirini vermək üçün hansı bölmələrin əlavə edilməli olması və hansı bölməni hazırlamağa həvəsli olmaları haqqında düşünmək istənilməlidir. Onlar həmçinin öz qəzetləri üçün ad təklif etməlidirlər.

# Dərs 3
# Biz divar qəzetimizi yaradırıq
## Etməli olduğunuz hər şey və etməməli olduğunuz bəzi şeylər

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Qruplarda şagirdlər mövzuların və məqsədlərin əhatə dairəsi ilə bağlı razılığa gəlirlər. Onlar şəxsi ideyalarını və bacarıqlarını komanda ilə paylaşmaqla qrupda əməkdaşlıq edirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər birlikdə hazırladıqları qəzetin strukturuna qərar verirlər. Onlar məktəbləri üçün müvafiq olan mövzuları müəyyən edir və divar qəzetində öz bölmələri üçün məqalə yazırlar. |
| **Resurslar** | Əlçatan maddi resurslardan asılı olaraq, nəticələr əl ilə yazılmış mətnlərdən rəqəmsal şəkillər olan kompüter çaplarına qədər əhatə edəcək. |
| **Metodlar** | Birgə qərarlar qəbul etmək.<br>Qrup işi. |

# Dərs

Üç və ya dörd nəfərdən ibarət qruplarda şagirdlər qəzetin hansı bölmələrinin məktəbdəki həyat ilə bağlı müvafiq məlumatları təqdim etməsi haqqında öz ideyalarını bölüşürlər.

Müəllim üç A4 vərəqini birlikdə yapışdırmaqla, hər bir qrup üçün kiçik divar qəzeti hazırlayır. Şagirdlərə qəzetin strukturunu, o cümlədən qəzetin adını, mümkün tərtibatı və şagirdlərin seçdikləri bölmələri hazırlamaq tapşırılır. Onları nəticələri bu şəkildə ola bilər:

| | | |
|---|---|---|
| **Şagirdlərin xronkası**<br>Ən son xəbərlər İdman xəbərləri | Əsas xəbərlər Hadisələr | Valideynlər Bizim işlər |

Qrupların etdikləri təkliflər sinif otağında divarda göstərilir və şagirdlərə plakatları oxumağa və fikirlərini formalaşdırmağa vaxt verilir. Daha sonra «redaktorların konfransı» aşağıdakı mühüm qərarları qəbul edir:

– Qəzetin adı (fikir mübadiləsi, müzakirə və yekun səsvermə);

– Məktəb və şagirdlər üçün daha önəmli və mənalı olan bölmələrin seçilməsi.

Şagirdlər indi kiçik qruplara bölünürlər ki, bu qrupların sayı rubriklərin sayı qədərdir. Əlavə olaraq qəzetin tərtibatı ilə məşğul olacaq bir qrup formalaşdırılır.

Başlanğıcda, hazırlama komandası divar qəzetinin tərtibatı və təqdimatı kimi praktiki məsələlər ilə məşğul olur. Müəllim əvvəlcədən direktoru qəzet layihəsi barədə məlumatlandırır və məktəb qəzetini məktəb binasında nümayiş etdirmək icazəsi əldə edir.

Redaktorlar komandası müxtəlif məqalələr planlaşdıran zaman, müəllim istehsalat komandası ilə texniki aspektləri müzakirə edir.

Şagirdlərə gələn həftəyə qədər tamamlanmalı olan tapşırıqlar verilir. Hər bir redaktə komandası məqaləni təqdim edir və istehsalat komandası başlıq dizaynı, loqo, qəzetin adı və seçilmiş bölmələr ilə divar qəzetini hazırlayır.

Bu tapşırıq şagirdlərə ilk uğurlarını təcrübədən keçirməyə imkan verir, lakin həmçinin onları xarakterik çətinliklər ilə qarşılaşdırır. Bu yanaşmanın məqsədi müntəzəm olaraq məktəb xəbərlərini nəşr edəcək daimi redaktorlar komandasını müəyyən etməkdir. Komandalar uzun müddət ərzində divar qəzeti layihəsini davam etdirə biləcək fəal və maraqlı şagirdlərdən təşkil ediləcək.

# Dərs 4
# Birinci nəşrimiz!
### İndi nə edək?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər açıq müzakirə aparırlar və davamlı qəzet layihəsinin təsirləri və nəticələrindən agah olurlar. Onlar qərar qəbul edir və bunun üçün məsuliyyət daşıyırlar. |
| **Şagird tapşırıqları** | Şagirdlər fikirlərini formalaşdırmalı və gələcəkdə növbəti layihədə iştirakları haqqında qərar qəbul etməlidirlər. |
| **Resurslar** | Lövhə və ya flip çart kağızı. |
| **Metod** | Plenar müzakirə. |

## Konseptual öyrənmə

Diskussiya (arqumentlərin mübadiləsi, Latın sözü *discussio*-dan yaranmışdır) iki və ya daha çox şəxs arasında, hər bir tərəfin öz dəlillərini təqdim etməsilə bir və ya daha çox məsələnin ünvanlandığı verbal kommunikasiyanın xüsusi növüdür. Diskussiya qarşılıqlı hörmət əsasında keçirilməlidir. Yaxşı müzakirə stili danışanın şəxsi rəylərindən və düşüncələri ilə yanaşı başqalarının da öz rəylərini və düşüncələrini ifadə etməsinə (onları rədd etmək əvəzinə diqqətlə nəzərdən keçirməklə) imkan verməsini və hətta təşviq etməsini tələb edir. Sakitlik, təmkinlilik və nəzakətlilik kimi şəxsi keyfiyyətlər hər iki tərəf üçün faydalı olacaq. Ən yaxşı müzakirə növü problemin həllinə və ya iştirak edən hər kəsin qəbul edə biləcəyi kompromisə səbəb olacaq.

Müasir cəmiyyətlərdə müzakirələr sivil qaydada aparılır, yəni ziddiyyətlərin, maraqların və məqsədlərin toqquşmasının həll edilməsinin qeyri-zorakı yollarından istifadə edilir. Münaqişələr yatırdılmır, həll edilir. Müzakirə bacarıqlarından istifadə etməklə, şagirdlər cəmiyyətdə sülhün yaradılması və təmin edilməsi üçün əsas vasitəni öyrənirlər.

# Dərs

Redaktorlar öz məqalələrini divara yapışdırdıqdan və fəaliyyət təcrübələri barədə qısa məlumat verdikdən sonra növbəti hədəf divar qəzeti layihəsinin davam etdirilib-etdirilməməsi məsələsi olacaq. İndi şagirdlər buna nə qədər vaxt sərf etməli olduqları və həll edilməli təşkilati problemlər haqqında müəyyən fikrə sahibdirlər, onlar davamiyyət məsələsi ilə bağlı real müzakirələr apara bilərlər.

Müəllim aşağıdakıları flip çart kağızında və ya löhvədə təqdim etməklə şagird müzakirəsini izah etməyə və strukturlaşdırmağa kömək edə bilər.

| Təşkilat | Şəxsi aspektlər | Əməkdaşlıq | Vaxtın planlaşdırılması |
|---|---|---|---|
| Davam etsək:<br>– Nəyi nəzərə almalıyıq?<br>– Vaxt problem olacaqmı?<br>– Hansı texniki vasitələrimiz var?<br>– Qəzetimizin korlanmasının qarşısını necə ala bilərik?<br>– Hansı maliyyə vasitələrinə ehtiyacımız olacaq? Vəsaitlər necə artırıla bilər? | Kim maraqlanır?<br>– Baş redaktor?<br>– Redaktorlar komitəsi?<br>– Müəllimin rolu və mövqeyi nədən ibarətdir?<br>– Adlar: | – Digər şagirdlərin marağını necə cəlb edə bilərik?<br>– Başqa hansı müəllimlər layihəmizə qoşulmaq istəyər?<br>– Yerli redaksiyalara (çap mediası, yayım və ya elektronik media) səfərlər təşkil edə bilərikmi?<br>– Mütəxəssis kimi jurnalistdən müsahibə ala bilərikmi? | |

Bu cür layihəyə başlayan zaman müəllimlər anlayacaq ki, hər şeyi planlaşdırmaq mümkün deyil. Bu, bütün iştirakçıların davamlı təhlil prosesində iştirakını tələb edir. Bu, canlı, maraqlı, həm də çətin və bəzən hətta üzücü prosesdir.

Siniflə işləmək təcrübəsinə artıq sahib olan müəllimlər lazım olan mərhələlərinin ardıcıllığını biləcəklər, həmçinin onlar bilirlər ki, güclü liderlik zəruridir. Tədbirlər görülməzsə, həddindən artıq güclü liderlik həmçinin şagirdlərin motivasiyasını və təşəbbüsünü poza bilər. Bu kimi layihələrdə iştirak şagirdlərə vətəndaş və insan hüquqları təhsilində mühüm təcrübə qazandırmaqla fayda verir.

Müəllimlər bu dərsin sonunda aydın qərarların qəbul edilməsini və növbəti mərhələlər üçün müvafiq vaxt çərçivəsinin müəyyən edilməsini təmin etmək üçün öz liderlik bacarıqlarından istifadə etməlidirlər.

# Müəllimlər üçün ümumi material

## Media savadlılığının inkişaf etdirilməsinin üç meyarı

### 1. İlk meyar: medianın qiymətləndirilməsi

Medianın qiymətləndirilməsi prosesini əslində qədim yunan feili “krinein” (tərcümədə «fərqləndirmə”) ilə ümumiləşdirmək olar.

Medianın qiymətləndirilməsi medianın təhlilidir. Bu analitik alt meyar cəmiyyətdəki inkişafı, məsələn, media biznesi çərçivəsində demokratik cəmiyyətdə medianın fəaliyyətini təhlükə altında qoya biləcək konsentrasiya prosesini qavramaq və anlamaq bacarığına aid edilir. Bu nümunədə kimin hansı qəzetə sahib olduğunu və medianın neçə növünə eyni şirkətin sahib olduğunu bilmək vacibdir. Lakin unutmaq olmaz ki, media mənfəət əldə etməli olan kommersiya müəssisəsi kimi fəaliyyət göstərir. Və onu bəyənib-bəyənməməyimizdən asılı olmayaraq, həyatımız nə qədər bir-birindən asılı olursa və qloballaşırsa, biz də bir o qədər mediaya etibar etməliyik. Medianın təhlil edilməsi bizə media inkişafını qiymətləndirməyə - fərq qoymağa - imkan verir, beləliklə, biz media savadlılığımızdan adekvat şəkildə istifadə edə bilərik.

(Müstəqil) reflektiv alt meyar analitik potensial və biliyimizi özümüz və fəaliyyət sferamız ilə əlaqələndirə və onu tətbiq edə bilməyimiz deməkdir. Xüsusilə, media ilə məşğul olan zaman, «digərləri» haqqında danışmaq və şəxsi iştirakımızı rədd etmək ilə bağlı güclü tendensiya mövcuddur.

Təhlil etmək və düşünmək bacarığına digərləri ilə bağlı etik narahatlıq, sosial məsuliyyət çərçivəsində analitik təfəkkür və müstəqil əks etmə arasında balans yaradan və onları müəyyən edən üçüncü alt meyar daxildir.

### 2. İkinci meyar: media haqqında bilik

Burada media və media sistemləri haqqında «saf» biliyə istinad edilir. Bu, iki alt meyara bölünə bilər.

Məlumatların alt meyarına ilkin biliklər, məsələn, jurnalistlərin işi, TV-də və radioda yayımlanan proqramların növləri, TV-ni izləyən zaman izləyici seçimlərinin səbəbləri və həmçinin kompüterdən səmərəli istifadə üsulları daxildir.

Bacarıqların alt meyarı media biliyinə təlimatları oxumadan yeni təchizatı istifadə etmək bacarığını əlavə edir. Buna «icra etməklə öyrənmə» prosesi daxildir - kompüteri necə idarə etmək, İnternetə necə daxil olmaq, video kameranı necə istifadə etmək və s.

### 3. Üçüncü meyar: medianın istifadəsi

Mediadan istifadə həmçinin iki alt meyara bölünə bilər:

1. Media məhsullarının istifadəsində, yəni medianın yaratdıqlarının qəbul edilməsi və istehlak edilməsində səriştə. TV-yə baxmaq bunun bir nümunəsidir. Bu, gördüklərimizi emal etməli və onu koqnitiv strukturlarımız və təxəyyülümüzlə birləşdirməli olduğumuz fəaliyyətdir. Bu gün biz qavrama bacarığımızı yalnız mətnlər oxumaq vasitəsilə deyil, həmçinin filmlərə baxmaqla gücləndirə bilərik.
2. Media təchizatının fəal istifadəsi. Bu alt meyar sosial qarşılıqlı fəaliyyətdə media istifadəsinə aiddir. Nümunələrə telebankçılıq, teleticarət, video və telefon konfransları, ənənəvi və rəqəmsal foto və video məhsulların istehsalı daxildir. Mövcud medianın geniş müxtəlifliyi dünyanı yalnız məlumat qəbul etməklə deyil, həmçinin onu yaratmaqla qavramağa imkan verir.

   Media ilə bağlı bölmə məhz medianın bu fəal istifadəsinə diqqət yetirir, lakin media təhsilinin yuxarıda qeyd edilmiş digər iki meyarı ilə əlaqələri daxil edir.

# Şagird materialı 7.1
**Məqaləni necə yazmalı**

## Məqalənin əsas strukturu

### 1. Başlıq

Hər bir məqalənin başlığı olmalıdır. Onun mühüm bir funksiyası vardır: o, oxucunu sıxmamalı, əksinə onun diqqətini cəlb etməli və oxumaq marağını artırmalıdır.

**Qəzet oxuyanlar onları maraqlandıran məqalələri seçmək üçün səhifələri sürətlə çevirirlər və buna görə də başlıqlar oxucunun nəzərini cəlb etməlidir. Başlıqları qısa yazın, böyük və qalın çapdan istifadə edin və başlıqları aşağıdakı mətndən ayırın.**

### 2. Giriş sətirləri

Giriş sətirləri adətən məqalənizin ilk abzası olacaq (qəzet istehsalçıları bunu «birinci sətir» adlandırırlar). Bir qayda olaraq, o, qalın çapla işarələnir.

Giriş oxucuya ən mühüm məlumatı verir. İnformativ girişdə oxucu əsas suallara cavab tapır.

Oçerklərdə və faktoloji deyil, emosional olan digər mətnlərdə ilk sətirlər adətən səhnəni canlı şəkildə təsvir edir. Burada oxucuların oxumağa davam etmək marağı faktiki məlumatlar vasitəsilə deyil, üslubi vasitələrlə gücləndirilir.

### 3. Dil və üslub

Diqqətli və mürəkkəb dil istifadəsi bəlkə də düzgün jurnalistik forma və ya üslub ilə müqayisədə yaxşı məqalə üçün daha mühümdür. Əgər qəzetə ev kimi baxsaq, onda publisistik yazı və təqdimatın müxtəlif formaları mebel ola bilər, sözlər isə evin tikildiyi kərpic olacaq.

Mebelsiz birtəhər yaşaya bilərik, lakin kərpicsiz evdə yaşaya bilmərik. Emosional, «insan toxunuşu» ilə yazılmış məqalələr qəzetlərdə çox məşhurdur. Lakin diqqətli olun, həddindən artıq duz şorbanı korlaya bilər (həddindən çox yaxşı pis ola bilər)!

Bu, bizi cümlə ilə işə gətirib çıxarır. Cümlələrinizi qısa və sadə yazın. Oxucular 14 sözdən artıq cümlələri anlamaqda çətinlik çəkir. Və 25 və ya daha çox sözdən ibarət cümlələr sadəcə olaraq anlaşılmazdır. Bütün hallarda, çoxlu vergül və ayrı-ayrı bəndlərdən ibarət mürəkkəb cümlə strukturundan yayının. Yazdıqdan sonra hər bir cümləni dərhal oxumağa vərdiş edin. Aydın və asan anlaşılandırmı? Hər hansı lazımsız söz varmı?

Hərf səhvləri yalnız pis təəssürat yaratmır, həm də oxucunu əsəbiləşdirir, çünki onlar onun fikrini mesajdan yayındırır. Məqalənizi təqdim etməzdən əvvəl onu yenidən yoxlayın - yəni, məlumatın düzgünlülüyünü və tamlığını (bu, məlumatın etibarlılıq və dəqiqliyinin yoxlanılması hesab edilir), dil səhvlərini, üslub və anlaşıqlılığı yoxlayın.

# 4-cü hissə

## Güc və səlahiyyət

**Bölmə 8**

**Qaydalar və qanun**
**Cəmiyyətin hansı qaydalara ehtiyacı var?**

**Bölmə 9**

**Hökumət və siyasət**
**Cəmiyyət necə idarə edilməlidir?**

# BÖLMƏ 8
# Qaydalar və qanun

## Cəmiyyətin hansı qaydalara ehtiyacı var?



### 1.1. Yaxşı qanun - pis qanun
**Yaxşı qanun nədir?**

### 1.2. Hansı yaşda?
**Qanun gənc insanlara necə tətbiq edilməlidir?**

### 1.3. Qanunu siz yaradırsınız
**Gənc cinayətkarlarla necə məşğul olursunuz?**

### 1.4. Dəlil qaydaları
**Hansı sübutlar məhkəmədə nəzərə alınır?**

# BÖLMƏ 8: Qaydalar və qanun
# Cəmiyyətin hansı qaydalara ehtiyacı var?

Bəzi növ qanunlar istənilən cəmiyyətin ədalətli və səmərəli idarə edilməsi üçün mühümdür. Qanunlar bütün hallarda ölkə icması daxilində hər kəsə tətbiq edilir, müəyyən qruplar, məsələn, uşaqlar müəyyən yaşa çatmayana qədər bəzi qanunlar tərəfindən təsirə məruz qalmır.

Qanunun bölünə biləcəyi yollardan biri mülki və cinayət hüququ kimi tanınır. Mülki qanun fərdlər və qruplar arasında münaqişələrin həll edilməsi yolunu təmin edir. Cinayət qanunu dövlətin əngəl törədilməsinə və ya qarşısının alınmasına qərar verdiyi davranışı əhatə edir.

Lakin qanunlar heç vaxt mükəmməl ola bilməz. Onları insanlar yaratmışdır və bəzən dəyişilməsi zəruridir. Onlar müddəti bitmiş, səmərəsiz və ya cəmiyyətdə müəyyən qruplarla bağlı sadəcə ədalətsiz ola bilər.

Qanun heç vaxt siyasətdən ayrıla bilməz. Bu, qanunların hazırlandığı və dəyişdirildiyi siyasi sistemlər daxilindədir. Demokratik siyasi sistemdə bütün vətəndaşların bununla bağlı bərabər sözə sahib olması mühümdür. Həmçinin qanunun bütün vətəndaşlara bərabər şəkildə tətbiq edilməsi və heç kəsin qanundan yuxarıda olmaması vacibdir. Bu anlayış bəzən qanunun aliliyi kimi tanınır.

Son olaraq qanunlar insan hüquqları ilə uyğun olmalıdır. Bu, qanunların ədalətli olmasını və onların zülm və diktatura vasitəsi kimi sui-istifadə edilməməsini təmin etmək üçün mühümdür. Buna görə də əksər demokratik sistemlər ölkənin qanunlarından öndə gələn insan hüquqları çərçivəsini təmin etmək üçün yazılı konstitusiyalara əsaslanır. Bəzi ölkələr həmçinin qanunların konstitusiyaya uyğun olub-olmamasına qərar vermək üçün konstitusiya məhkəmələri yaradıb.

## Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə təlim

Bu dərs silsiləsi vasitəsilə şagirdlər:

– qanun anlayışını və onun demokratik cəmiyyətdəki əhəmiyyətini daha yaxşı anlayacaqlar;

– qanunun əsas məqsədinin insanlara kömək etmək və cəmiyyəti qorumaq olduğunu anlayacaqlar;

– qanunun aliliyi ideyasına hörmət edəcəklər;

– öz ölkələrindəki hüquqi sistemi haqqında daha çox şey öyrənəcəklər.

# BÖLMƏ 8: Qaydalar və qanun<br>Cəmiyyətin hansı qaydalara ehtiyacı var?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1:<br>Məktəb qaydalarını müəyyən etmək. | Yaxşı qanunu nəyin müzakirə etmək<br>Qanunları müzakirə etmək<br>qanun sahəsini,<br>Öz yeni məktəb | yaratdığını müəyyən edən və yaxşı məktəb və nəyin yaxşı qanun məsələn içki ilə bağlı qanunları qaydalarını və ya qanunlarını təklif etmək<br>Hər bir şagird digəri isə iki kart.<br>spirtli içki ilə 4-6 şagirddən ibarət markerlər və<br>Sinifdə nümayiş flip çart kağızı böyük vərəq. | amilləri tanımaq qaydasının nəyin yaratdığını müəyyən etmək.<br>tənqidi şəkildə araşdırmaq.<br>və onları əsaslandırmaq.<br>üçün biri «A» (yaşılla), «B» (qırmızı ilə) adlandırılmış<br>Material - Ölkəmizdə bağlı qanunlar.<br>hər bir qrup üçün böyük vərəqlər.<br>4-6 şagirddən ibarət və ya<br>Bütün sinif müzakirəsi və kiçik qrup işi. | və anlamaq.<br>yaratdığını<br>Öz ölkələrində |
| Dərs 2:<br>Qanunun | Hansı yaşda?<br>gənc insanlara müxtəlif fəaliyyətlərində iştirak | Qanun gənc<br>necə tətbiq edilməsini etmək hüququna gənc insanlar üçün nəzərdən keçirmək.<br>divarlarına vurulmuş adlı üç böyük işarə.<br>şagirddən biri üçün 8.1-in nüsxələri.<br>hər bir qrup üçün | insanlara necə araşdırmaq.<br>sahib olmasını müəyyən etmək.<br>nə dərəcədə müvafiq olduğunu<br>Sinfin müxtəlif «A», «B» və «C»<br>Hər iki<br>şagird materialı<br>4-6 nəfərdən ibarət markerlər və böyük vərəq.<br>Cüt və<br>kiçik qrup işi və bütün sinif müzakirəsi. | tətbiq edilməlidir?<br>Gənc insanların hansı yaşda ölkələrində yetişkinlərin<br>Ölkələrinin cari qanunun |
| Dərs 3:<br>olduqları sualını araşdırmaq.<br>zaman köməyə çatan | Qanunu pozmuş gənc insanların<br>Gənc insanın<br>üç müxtəlif prinsipi - nəzərdən<br>müəllim üçün<br>Kiçik qrup işi və | cəzalandırılmalı olub-olmamasını<br>törətdiyi cinayət üçün cəza,<br>keçirmək.<br>əlavə məlumat<br>bütün sinif müzakirəsi. | və əgər cavab müsbətdirsə,<br>hansı cəzanın ədalətli qarşısını alma,<br>Hekayənin nüsxəsi və | necə cəzalandırılmalı olmasına qərar verən<br>reabilitasiya - |
| Dərs 4:<br>anlamaq.<br>növünü və | Dəlil qaydaları<br>Hüquq istifadəsi | Hüquq<br>məhkəməsində<br>yanlış olan dəlil növünü<br>hər bir qrup üçün (şagird materialı 8.2).<br>Kiçik qrup işi və sinif müzakirəsi. | məhkəməsində nəzərə alınmalı nəzərdən keçirmək.<br>müzakirə materialları | dəlil qaydalarını olan dəlil<br>4-6 şagirddən ibarət |

# Dərs 1
# Yaxşı qanun - pis qanun
## Yaxşı qanun nədir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Yaxşı qanunu nəyin yaratdığını müəyyən edən amilləri tanımaq və anlamaq. |
| **Şagird tapşırıqları** | Məktəb qaydalarını müzakirə etmək və yaxşı məktəb qaydasını nəyin yaratdığını müəyyən etmək. Qanunları müzakirə etmək və nəyin yaxşı qanun yaratdığını müəyyən etmək.<br>Öz ölkələrində qanun sahəsini, məsələn içki ilə bağlı qanunları tənqidi şəkildə araşdırmaq. Öz yeni məktəb qaydalarını və ya qanunlarını təklif etmək və onları əsaslandırmaq. |
| **Resurslar** | Hər bir şagird üçün biri «A» (yaşılla), digəri isə «B» (qırmızı ilə) adlandırılmış iki kart.<br>Material - Ölkəmizdə içki ilə bağlı qanunlar.<br>4-6 şagirddən ibarət hər bir qrup üçün markerlər və böyük vərəqlər. Sinifdə nümayiş etdirmək üçün flip çart kağızı və ya böyük vərəq. |
| **Metod** | Bütün sinif müzakirəsi və kiçik qrup işi. |

## Məlumat qutusu

Bu dərsdə istifadə edilən metod «induktiv öyrənmə» kimi tanınır. Məhz burada müəllim konkret nümunələr əsasında şagirdlərə mücərrəd prinsipləri başa düşməyə kömək edir. Dərs bu cür nümunələr ilə başlayır - bu halda qaydaların və ya qanunların nümunələri - və şagirdlər ümumi prinsipləri bunlardan çıxarmağa həvəsləndirilir. Prinsiplər qaydaların və ya qanunların yaxşı olub-olmamasını əsaslandırmaq üçün tətbiq edilə biləcək meyardır. Onlar ədalətlidir? Onlar faydalıdır? Onlar hər kəsin xeyrinədir? Polis onları həyata keçirə bilər? Onları anlamaq və onlara riayət etmək asandır?

Xüsusi material, məsələn, ölkədə tətbiq edilən içki ilə bağlı qanunlar, lazım olduqda müəllim və ya şagirdlər bu materialı dərsə gətirməlidir.

# Dərs

Müəllim dərsə hər bir şagirdə biri böyük «A» hərfi (yaşılla) ilə, digəri isə böyük «B» hərfi (qırmızıyla) ilə işarələnmiş iki kart verməklə başlayır.

Müəllim şagirdlərə izah edir ki, onlar bəzi xəyali məktəb qaydaları eşidəcəklər və onlar bu qaydaların yaxşı və ya pis olması ilə bağlı qərar verməlidirlər. Yaxşı qaydalar üçün «A» kartını, pis qaydalar üçün isə «B» kartını qaldırmalıdırlar.

Müəllim bir-bir xəyali məktəb qaydalarını oxuyur. Hər dəfə şagirdlər qanunla bağlı düşüncələrindən asılı olaraq öz kartlarından birini qaldırmalıdırlar. Qaydalara həmçinin daxil ola bilər:

– ev tapşırığı qadağandır;

– hədə-qorxu yoxdur;

– şagirdlər məktəbə gəlmək üçün ödəniş etməlidir;

– məktəbə saqqız gətirilməməlidir;

– şagirdlər bütün müəllimlərini sevməlidirlər;

– müəllimlər hansı sinfə gedəcəklərini seçə bilməlidirlər;

– yaşlı müəllimlər daha az dərs keçməlidir;

– məktəbdə mobil telefonlar olmamalıdır.

Hər biri üçün müəllim iki və ya üç fərqli şagirddən öz qərarlarını əsaslandırmasını istəməlidir.

– Nəyə görə bunun yaxşı/pis qayda olduğunu düşünürsünüz?

Bu mərhələdə şagirdlərin ideyaları müzakirə və ya şərh edilməməlidir.

Daha sonra müəllim sinfi 4-6 nəfərdən ibarət qruplara bölməli və şagirdlərdən nəyin məktəb qaydasını yaxşı etdiyini təyin etməyə cəhd etmələrini istəməlidir.

– Yaxşı məktəb qaydasını nə yaradır?

Qruplar öz ideyalarını bütün sinfə təqdim etməlidirlər.

Sonra müəllim sinif ilə bütün tapşırığı təkrarlayır - müddəaların oxunması, şagirdlərin öz kartlarını qaldırması və qərarlarını əsaslandırmaları və s. - lakin bu dəfə məktəb qaydalarından daha çox xəyali qanunlara diqqət yetirir. İstifadə edilən qanunlara daxil ola bilər:

– bütün vətəndaşlar eyni dinə ibadət etməlidir;

– qətl yanlışdır;

– yalan danışmaq olmaz;

– zərərli qidalar qadağan edilməlidir;

– vətəndaşlara avtomobili yolun hansı tərəfində idarə etməyə qərar verməyə icazə verilməlidir;

– qadınlara kişilərlə eyni əmək haqqı ödənilməlidir.

Daha sonra müəllim şagirdlərdən öz qruplarına qayıtmalarını və nəyin qanunu yaxşı etdiyini təyin etməyə çalışmalarını istəməlidir.

– Yaxşı qanunu nə yaradır?

Qruplar öz ideyalarını bütün sinfə təqdim etməlidirlər. Bununla, müəllim şagirdlərin düşüncəsini qanunlara tətbiq edilə bilən və onların yaxşı qanun olmasına kömək edən bir sıra əsas meyara doğru yönləndirməlidir. Onlara daxildir:

– ədalətlilik - ədalət və bərabərlik, məsələn, qadınlara və kişilərə eyni məbləğdə əmək haqqının ödənilməsi;

– faydalılıq - cəmiyyəti maneəsiz idarə etmək, məsələn, yolları daha təhlükəsiz etmək üçün sürücülüklə bağlı qanunlar.

– ümumi rifah – qanun yalnız müəyyən qrupların (məsələn, varlıların) maraqlarını dəstəkləmir.

– məcburilik - əksəriyyət onlara riayət etməyə meyillidir, onları pozanları polis yaxalaya bilər.

– sadə - anlamaq və riayət etmək asandır, həddindən artıq mürəkkəb deyil.

Sinif bu meyarlar ilə bağlı razılığa gələn zaman, onlar sinif otağında hər kəsin görməsi üçün flip çart kağızında nümayiş etdirilməlidir. Nümayişin başlığı «Qanunu yaxşı qanun nə edir?» olmalıdır.

Daha sonra müəllim şagirdlərdən öz qruplarında ölkələrinin bir qanunu və ya qanunun bir sahəsini araşdırmalarını (məsələn, spirtli içki ilə bağlı qanunlar) istəməlidir. Bu material şagird materialında təmin edilməlidir. Daha çox vaxt varsa, şagirdlər maraqlandıqları digər materialları, məsələn, uşaqların və yeniyetmələrin hüquq və öhdəliklərini, əldə edə bilərlər. Qrupların hər birinə markerlər və böyük vərəq verilir və onlardan daha əvvəl müəyyən etdikləri və sinif otağının divarında nümayiş etdirilmiş prinsipləri istifadə etməklə, seçdikləri qanunun yaxşı və ya pis olması ilə bağlı sinif üçün təqdimat hazırlamaq istənilir.

Qruplar sinfə təqdimatlarını nümayiş etdirir.

Yekun və ya ev tapşırığı kimi şagirdlərdən seçdikləri mövzuda, məsələn, ətraf mühit, yeni qanun və ya yeni məktəb qaydası təklif etmək və müəyyən etdikləri əsas prinsiplər çərçivəsində onun təqdimatı üçün arqumentlər hazırlamaları istənilə bilər.

# Dərs 2
# Hansı yaşda?
## Qanun gənc insanlara necə tətbiq edilməlidir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Qanunun gənc insanlara necə tətbiq edilməsini araşdırmaq. |
| **Şagird tapşırıqları** | Gənc insanların hansı yaşda ölkələrində yetkinlərin müxtəlif fəaliyyətlərində iştirak etmək hüququna sahib olmasını müəyyən etmək.<br>Ölkələrinin cari qanunun gənc insanlar üçün nə dərəcədə müvafiq olduğunu nəzərdən keçirmək. |
| **Resurslar** | Sinfin müxtəlif divarlarına vurulmuş «A», «B» və «C» adlı üç böyük işarə.<br>Hər iki şagirddən biri üçün şagird materialı 8.1-in nüsxələri. 4-6 nəfərdən ibarət hər bir qrup üçün markerlər və böyük vərəq. |
| **Metod** | Cüt və kiçik qrup işi və bütün sinif müzakirəsi. |

## Məlumat qutusu

Bu dərsə çoxlu fiziki fəaliyyət daxildir. Bunun şagirdləriniz üçün müvafiq olmadığını hesab edirsinizsə, əsas tapşırıq sagirdlərin parta arxasında qala biləcəyi şəkildə uyğunlaşdırıla bilər - məsələn, sinfin müxtəlif hissələrinə getmək əvəzinə əllərini və ya «A», «B» və ya «C» kartlarını qaldırmaqla səs vermək.

# Dərs

Müəllim dərsə belə bir sualla başlayır: “Gəncləri məktəbə getməyə məcbur edən qanun olduğu halda, böyüklərlə bağlı bu cür qanunun olmaması ədalətlidirmi?”

– Sizcə, gəncləri məktəbə getməyə məcbur edən qanunun olması ədalətlidirmi? Nəyə görə və ya nəyə görə yox?

Sonra müəllim şagirdləri cütlərə bölür və onlara doldurmaları üçün anket (şagird materialı 8.1) verir. Anket gənc insanların ölkələrində hansı hüquqi yaşda böyüklərin müxtəlif fəaliyyətlərində iştirak etmək hüququna sahib olması ilə bağlıdır.

Müəllim bəzi könüllü cütlərdən öz cavablarından birini oxumalarını istəyir. Hər bir cavabdan sonra müəllim fasilə verir və ehtiyac olarsa, şagirdin cavabını düzəldir. Daha sonra şagirdlər düzgün cavabları anketlərinə yazırlar.

Hər bir cavab üçün müəllim cütlərdən soruşmalıdır:

– Nə düşünürsünüz? Bu yaş:

a) həddindən artıq azdır?

b) həddindən artıq çoxdur?

c) təxminən düzgündür?

Müəllim şagirdlərə düşünmək və qərar vermək üçün bir dəqiqə vaxt verir və daha sonra onlardan cavablarından asılı olaraq otağın fərqli hissələrinə keçmələrini istəyir. (Müəllim artıq şagirdlərə harada dayanmalarını göstərmək üçün «A», «B», və «C» adlı işarələri yerləşdirib.)

Daha sonra müəllim ordan-burdan seçilmiş cütlərdən öz düşüncələrini sinfə izah etmələrini və əsaslandırmalarını istəyir. Müəllim həmçinin digər şagirdlərə onlara qərarları ilə bağlı sual vermək imkanı verir.

Dərsin bu bölməsini yekunlaşdırmaq üçün müəllim soruşur:

– Sizcə, qanunun gənclərə yaşlılardan fərqli münasibət bəsləməsi ədalətlidirmi? Nəyə görə və ya nəyə görə yox?

Daha sonra müəllim sinfi 4-6 şagirddən ibarət qruplara bölür və hər bir qrupa markerlər və böyük vərəq verir. Müəllim şagirdlərdən ölkələrində gənclərə fayda verəcək qanun dəyişikliyi barədə düşünmələrini istəyir. Onlar tamamilə yeni qanun təklif edə bilərlər - məsələn, hər bir məktəbdə şagird parlamentinin olması və ya işdə gənclər üçün minumum əmək haqqı ilə bağlı. Və ya onlar mövcud qanuna dəyişiklik təklif edə bilərlər - məsələn, səsvermə yaşı və ya sürücülük vəsiqəsi almaq üçün yaş tələbi. Hər bir qrup öz arqumentlərini və qanunlarının gənc insanlara necə fayda verəcəyi ilə bağlı düşüncəsini qeyd etməklə seçdiyi mövzuda təqdimat hazırlamalıdır. Təqdimatlardan sonra sinif hansı qrupun təklifinin ən yaxşı olması ilə bağlı səsvermə keçirə bilər.

Yekun və ya ev tapşırığı kimi şagirdlər gənclər və ya məktəb qrupu kimi təklif etdikləri qanun dəyişikliklərini qəbul etməsi üçün hökuməti inandırmaq üçün ata biləcəkləri addımları nəzərdən keçirməlidirlər.

# Dərs 3
# Qanunu siz yaradırsınız
## Gənc cinayətkarlarla necə məşğul olursunuz?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Qanunu pozmuş gənc insanların cəzalandırılmalı olub-olmamasını və əgər cavab müsbətdirsə, necə cəzalandırılmalı olduqları sualını araşdırmaq. |
| **Şagird tapşırıqları** | Gənc insanın törətdiyi cinayət üçün hansı cəzanın ədalətli olmasına qərar verən zaman köməyə çatan üç müxtəlif prinsipi - cəza, qarşısını alma, reabilitasiya - nəzərdən keçirmək. |
| **Resurslar** | Hekayənin nüsxəsi və müəllim üçün əlavə məlumat. |
| **Metod** | Kiçik qrup işi və bütün sinif müzakirəsi. |

## Konseptual öyrənmə: cəzanın məqsədi ilə bağlı üç əsas prinsip

Dərs 2 mülki qanuna diqqət yetirdiyi halda, bu dərs gənc cinayətkarların cəzalandırılıb-cəzalandırılmaması və hansı şəkildə cəzalandırılmalı olması məsələsinə diqqət verməklə cinayət qanununu nəzərdən keçirəcək. Cəzalandırma nəzəriyyəsinin əsas sualı «nəyə görə cəzalandırmaq»dır. Bu sual tarix boyunca müxtəlif şəkildə cavablandırılmış və elmi və fəlsəfi düşüncədə dəyişmişdir. Cəza ilə bağlı üç prinsip yaranmışdır.

1. **Cəza**. Cəza günah və məsuliyyət ilə bağlıdır. Cinayətkar cəzalandırılmağa layiqdir və cəmiyyət cinayətlə bağlı narazılığını etiraf edir. Bu anlayış həmçinin cinayətkarı həddindən artıq sərt cəzadan qorumaqla mütənasiblik standartı təmin edir. Məqsəd ədaləti bərpa etməkdir.
2. **Qarşısını alma**. Cəza cəmiyyətdə potensial cinayətkarlara onları cinayətə üz tutmaqdan çəkindirməklə mesaj göndərir, çünki cəzanın «ağrısı» onun faydasını üstələyir. Məqsəd başqalarının cinayət törətməsinin qarşısını almaqdır.
3. **Reabilitasiya**. Cinayət kömək üçün çağırış kimi qəbul edilir. Cinayətkarın cəzadan daha çox müalicəyə ehtiyacı var və məqsəd, onu cəmiyyətlə birləşdirməklə gələcəkdə heç bir cinayət törətməməkdə ona kömək etməkdir.

Bütün dünyada cəza sistemləri həm yaşlılar, həm də gənc insanlar üçün bu üç prinsipi nə dərəcədə balanslaşdırmalarından asılı olaraq dəyişir. Ümumiyyətlə, əksər ölkələr reabilitasiyaya cəza və qarşısını alma üzərində üstünlük verir. Lakin bütün ölkələr bu istiqamətdə hərəkət etmir. Reabilitasiya ilə sıx bağlı olan sual gənc və yaşlı cinayətkarların arasında sərhədin harada çəkilməsi məsələsidir. Avropa Şurası yaş məhdudiyyətinin 18 olmasını təklif etmiş və bunu əsaslandırmaq üçün 1989-cu il Uşaq Hüquqları Konvensiyasına istinad etmişdir.

Bu dərs yuxarıda qeyd edilmiş cəzanın üç əsas anlayışı ilə tanışlığı təmin edir. Yenidən induktiv yanaşma tətbiq edilir. Şagirdlər gənc cinayətkar ilə bağlı tədqiqat işi aparır və cəzanın müxtəlif prinsiplərini, onların nəticələrini və balans zəruriyyətini kəşf edirlər. Müəllim sinifdə müzakirə zamanı və ya sonrakı qısa mühazirədə anlayışları qeyd edə bilər.

Bu dərs təxminən əlavə iki dərs tələb edəcək növbəti layihəyə imkan yarada bilər. Şagirdlər ölkələrində gənc cinayətkarlar üçün cəza sisteminin nail olduğu balansı təsvir etmək üçün bu dərsdə öyrəndikləri anlayışları istifadə edə bilərlər.

# Dərs

Müəllim dərsə şagirdləri 4-6 nəfərdən ibarət qruplara bölməklə başlayır. Müəllim izah edir ki, qanunun aliliyinə hakimlərin cinayətkara cəza tətbiq etməsi zamanı qanuna əməl etməli olması prinsipi daxildir. Bu dərsdə şagirdlər gənc cinayətkarlarla məşğul olan zaman bu cür qaydaların hazırlanması qaydasını nəzərdən keçirəcəklər. Onlar cinayətlə bağlı bir hekayə eşidəcəklər və hər bir qrup cinayətkarın almalı olduğu cəzanı ehtiva edən qanunu qəbul edən parlament üzvləri olduğunu təsəvvür etməlidir.

Müəllim şagirdlərə əsas hekayəni danışır və onlara Tom üçün hansı cəzanın ədalətli olacağına qruplar kimi qərar verməyə imkan verir. Qruplar bütün sinfə öz ideyalarını təqdim edirlər.

Daha sonra müəllim qruplara bəzi əlavə məlumatlar verir. Hər yeni məlumatdan sonra qruplara planlaşdırdıqları cəza ilə bağlı fikirlərini dəyişmək imkan verilir.

Faəliyyətin sonunda müəllim hər bir qrupdan öz ideyalarını sinfə təqdim etmələrini istəyir:

– Sizcə, Y-ə hansı cəza verilməlidir? Nə üçün?

– Hər hansı əlavə məlumat ilkin qərarınızı dəyişməyə səbəb oldumu? Elədirsə, necə?

Daha sonra müəllim plenar sessiyada bütün şagirdləri bir araya gətirir və soruşur:

– Cinayətdə ittiham edilən şəxsə hansı cəzanın verilməsi ilə bağlı qərar verərkən, qanun hansı amilləri nəzərə almalıdır?

– Sizcə, qanun gənclərə yaşlılardan fərqli münasibət bəsləməlidirmi? Nəyə görə və ya nəyə görə yox?

Yekun və ya ev tapşırığı kimi müəllim şagirdlərdən qanunu pozmuş gənc şəxsə TV-də, qəzetlərdə ya yerli miqyasda eşitdikləri verilmiş cəza ilə bağlı düşünmələrini istəyir:

a) həddindən artıq sərtdir və ya

b) həddindən artıq mərhəmətlidir.

Şagirdlər seçdikləri nümunə ilə bağlı qısa məqalə yazmalı və növbəti dərsdə bu qərarı qəbul etmələrinə səbəb olan amilləri qeyd etməklə onu sinif yoldaşlarına təqdim etməlidirlər. Bir nümunə spirtli içkinin təsiri ilə baş vermiş avtomobil qəzası ilə bağlı hal ola bilər.

## Qanunu siz yaradırsınız

*«Leonard və Tomun 15 yaşı var idi və eyni məktəbə gedirdilər. Onlar bir-birlərini uzun illərdir ki, tanıyırdılar, lakin heç vaxt yola getməmişdilər.*

*Bir gün Tomun mobil telefonu itmişdi və o, Leonardı onu oğurlamaqda günahlandırdı. Leonard onu oğurlamadığını və çoxlu dostu olduğu üçün Tomun onu qısqandığını dedi.*

*Həmin gün məktəbdən sonra dava baş verdi. Tom Leonardın silahsız olmasına baxmayaraq bıçaq çıxardı. Dava zamanı Tom Leonardın üzünü çox pis kəsdi və onun üzündə ömürlük çapıq qaldı.»*

## Tapşırıq

Sizcə, Tom üçün ədalətli cəza nə olardı? Bu sualı qrupunuzda müzakirə edin və sonra qanunun bu cür cinayət üçün hansı cəzanı təmin etməli olduğunu yazın.

## Əlavə məlumatlar

1. Tom sərt şəkildə böyüdülmüş və dəfələrlə atası tərəfindən döyülmüşdür.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

2. Tom sinifdə təcrid edilmişdi və onun problemlərinə qulaq asacaq heç kimi yox idi.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

3. Leonard həqiqətən də Tomun telefonunu oğurlamışdı və o, davanı əslində Tom telefonun oğurlanması barədə polisə xəbər verdiyi üçün başlatmışdı.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

4. Leonard aylarla Tomu hədələyən dəstənin rəhbəri idi. Dəstə Tomu çubuqla, zəncirlə və metal löhvə ilə vuraraq bir neçə dəfə döymüşdür. Bu, Tomun kabuslar görməsinə səbəb olmuşdu və o, hətta məktəbə getməkdən qorxurdu.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

5. Tomun atası onun yumşaq xasiyyətli olduğunu və Leonard kimi xuliqanlara qarşı getməli olduğu deyərək dəfələrlə təngə gətirmişdi.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

6. Tom yalnız xuliqanları qorxutmaq üçün bıçağı çıxartmışdı. O, heç vaxt onu istifadə etmək niyyətində olmamışdı. Həmin vaxt başqa iyirmi nəfər ətrafda dayanmışdı və hamısı oğlanları davaya təşviq edirdi.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

7. Müəllim davadan iki gün əvvəl Tomun məktəbə bıçaq gətirdiyini görmüş, lakin bu barədə ondan heç nə soruşmamışdı.

Bu, Tomun cəzası ilə bağlı düşüncənizə təsir edirmi? Elədirsə, necə? Ehtiyac varsa, qanun layihənizi dəyişin.

Şagirdlərdən daha sonra onların qanun layihələrini sinfə təqdim edəcək sözçü təyin etmək istənilir. Onların ədalətin ziddiyyətli məqsədləri və prinspiləri aşağıdakı kimi ehtiva edən dilemmalardan agah olmasını gözləmək olar.

– Məktəbin zorakılığın qadağan edildiyi yer olduğuna necə əmin oluruq?
– Leonardın dəstəsi kimi başqalarının da bıçaqdan istifadə etməkdən çəkindirmək üçün Tom kimiləri necə cəzalandırmalıyıq?
– Tomun davranışı kömək üçün çağırışdır və o, böyüdüyü ailəni seçmək imkanı olmayan birisidir.. Tomun özünü daha xoşbəxt hiss etməsinə və gələcəkdə bıçaq ilə dava etmək ehtiyacının olmamasına necə kömək edə bilərik?

Müəllim müzakirəni bu sualları cəza, qarşısını alma və reabilitasiya prinsipləri ilə əlaqələndirməklə yekunlaşdıra bilər. Uşaq Hüquqları Konvensiyasına istinad etməklə, müəllim üstünlüyün reabilitasiyaya verilməsini təklif edə bilər.

Vaxt qalarsa və şagirdlərə maraqlıdırsa, bu məsələ davam etdirilə bilər. Əgər onlar cəzanın müxtəlif prinsiplərinin necə balanslaşdırılması sualı ilə bağlı razılığa gələ bilmirlərsə, debat davam etdirilməlidir. Əgər onlar reabilitasiya prinsipi ilə razılaşırlarsa, onlar ölkələrinin qanununun cəza, qarşısını alma və reabilitasiya prinsiplərini necə nəzərə aldıqlarını araşdıra bilərlər.

# Dərs 4
# Dəlil qaydaları
## Hansı sübutlar məhkəmədə nəzərə alınmalıdır?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Hüquq məhkəməsində dəlil qaydalarını anlamaq. |
| **Şagird tapşırıqları** | Hüquq məhkəməsində nəzərə alınmalı olan dəlil növünü və istifadəsi yanlış olan dəlil növünü nəzərdən keçirmək. |
| **Resurslar** | 4-6 şagirddən ibarət hər bir qrup üçün müzakirə materialları (şagird materialı 8.2). |
| **Metod** | Kiçik qrup işi və sinif müzakirəsi. |

## Məlumat qutusu

İstənilən cinayət sisteminin əsas elementlərindən biri mühakimənin ədalətli olması üçün hüquq məhkəməsində istifadə edilməli olan və olmayan dəlil növlərini müəyyən edən qaydalar toplusudur. Məsələn, «şayiə»dən (yəni, şahid özü dəlil ilə üzləşməyib, ona başqası məlumat verib), işgəncə və ya zorakılıq təhdidi ilə əldə olunmuş sübutu və ya «məcburi suallar», yəni şahidin başqasının sözlərini deməyə vadar edən suallar vasitəsilə əldə olunmuş sübutu istifadə etmək ədalətlidirmi?

# Dərs

Müəllim dərsə AİHK-in (1950) aşağıdakı müddəasını həm şifahi, həm də löhvə və ya flip çart kağızı üzərində yazılı şəkildə təqdim etməklə başlayır.

> «Cinayətdə ittiham edilmiş hər kəs, qanuna əsasən günahkar olduğu sübut edilənə qədər təqsirsiz hesab edilməlidir».
>
> *Avropa İnsan Hüquqları Konvensiyası (1950), Maddə 6, No.2*

Müəllim şagidləri bu şərti izah etməyə dəvət edir. Müəllim ilkin təqsirsizlik prezumpsiyası kateqoriyasını əlavə edə bilər. Şagirdlər ədalətli mühakimə üçün bu prinsipin əhəmiyyətini anlamalı və ittiham edilən şəxsin onun günahkar olduğunu sübut edən kifayət qədər dəlilin olması halında mühakimə oluna biləcəyini öyrənməlidirlər. Bu dərsdə şagirdlər hüquq məhkəməsində dəlil qaydalarını nəzərdən keçirəcəklər.

Şagirdlər 4-6 nəfərdən ibarət qruplar formalaşdırmalıdırlar.

Daha sonra müəllim qruplara baş verən cinayət haqqında danışır. O, Cənab Keyə məxsus maşını oğurlamaqda ittiham edilən Manuel adlı gənc şəxs haqqındadır. Maşın axşam vaxtı Cənab Keyin mənzilinin qabağından yoxa çıxmış və növbəti səhər kəndin qabağında tərk edilmiş vəziyyətdə tapılmışdı. Onun üstünə benzin tökülmüş və yandırılmışdı. Manuel bir həftə sonra polis tərəfindən həbs edilmiş və oğurluqda və cinayət zərərində ittiham edilmişdi.

Daha sonra müəllim hər bir qrupa müzakirə kartları toplusunu verir. Hər bir kart məhkəmə təqibinin Manuelin günahkar olmasını sübut etməyə çalışan dəlilləri ehtiva edir.

Daha sonra müəllim şagirdlərdən istəyir:

– dəlilləri ən güclüdən ən zəifə doğru sıralayın.

– hər hansı dəlilin müvafiq olmadığı və ya ədalətsiz olduğu üçün istisna edilməli olub-olmadığına qərar verin.

Qruplar öz ideyalarını qalan sinfə təqdim edir və qəbul edilməli və istisna edilməli olan dəlillərlə bağlı razılığa gəlməyə çalışırlar.

Müəllim şagirdlərdən qruplarına qayıtmalarını və aşağıdakıları nəzərdən keçirmələrini istəyir:

– Məhkəmənin indi bu şahidlərə və ya Manuelə hansı suallar verməsini istəyərdiniz? Nə üçün?

– Məhkəmənin verməsi ədalətsiz ola biləcək suallar varmı? Əgər cavab müsbətdirsə, hansılar və nəyə görə?

Şagirdlər öz ideyalarını təqdim edir və birlikdə işləyən sinif hüquq məhkəməsində istifadəsi yanlış ola biləcək dəlil və sual növlərinin siyahılarını hazırlamağa çalışır.

Vaxt qalarsa, bu dərs tədqiqat işinə apara bilər. Ev tapşırığı üçün şagirdlərdən ölkələrində tətbiq edilən dəlil qaydalarını araşdırmaq və tapıntılarını növbəti dərsdə sinfə təqdim etmək istənilir.

# Şagird materialı 8.1
## Anket: hansı yaşda?

Ölkənizdə qanun gənc insanlara hansı yaşda aşağıdakıları etməyə icazə verir:

1. Sürücülük vəsiqəsi almaq?
2. Ailə qurmaq?
3. Seçkilərdə səs vermək?
4. Orduya qoşulmaq?
5. Vergi ödəmək?
6. Siyasi namizədliyini irəli sürmək?
7. Həbs edilmək?
8. Məktəbi tərk etmək?
9. Övladlığa uşaq götürmək?

# Şagird materialı 8.2
## Müzakirə kartları

| | |
|---|---|
| Polis məmuru məhkəmədə deyir ki, Manuel polis məntəqəsində istintaq zamanı maşını oğurladığını etiraf edib. | Gənc adam məhkəmədə deyir ki, Manuel həmişə maşın oğurlamaq haqqında lovğalanır. |
| Gənc qız məhkəmədə deyir ki, dostlarının Manuellə telefonla danışdığını eşidib. Onun dostu Manuellə Cənab Keyin maşınını oğurlamaq haqqında danışırdı. | Cənab Key məhkəməyə deyir ki, Manuel əsas şübhəli olmalıdır, çünki o, Cənab Key Stefana qızını görməsini qadağan edəndən bəri o, Key ailəsinə kin bəsləyir. |
| Manuelin müəllimlərindən biri məhkəməyə deyir ki, Stefanı məktəbdə olanda bir neçə dəfə oğurluq edəndə yaxalayıb. | Manuelin oğurluq axşamı evdə tək olması ilə bağlı alibisini təsdiqləyə biləcək heç kəs yox idi. |
| Məhkəmə Keyin qonşusundan «Həmin axşam Manuelə bənzəyən gənc adamın maşını sürməsini görmüsünüzmü?» deyə soruşanda o, «Bəli, görmüşəm» deyə cavab verdi. | |

# 8.1 Müəllimlər üçün ümumi məlumatlar
## Kriminallaşdırma əvəzinə inteqrasiya

***Thomas Hammarberg, İnsan Hüquqları Komissarı, Avropa Şurası***

Əksər Avropa ölkələrində yeniyetmələr ümumi cinayət statistikasında üstünlük təşkil etmir. Həmçinin, qitəmizdə yetkinlik yaşına çatmayanların törətdikləri cinayət göstəricisi ildən ildə az və ya çox sabit qalır.

Bu, o demək deyil ki, problem əhəmiyyətsizdir. Bəzi ölkələrdən məruzə edilmiş narahatlıq doğuran trend gənc cinayətkarların törətdikləri bəzi cinayətlərin daha qəddar və ya daha ciddi olmasıdır. Bu, özlüyündə xəbərdarlıq siqnalıdır. (...).

Hal-hazırda Avropada iki fərqli trend mövcuddur. Birincisi, cinayət məsulliyyəti yaş həddini azaltmaq və uşaqları daha erkən yaşlarda həbs etməkdir. Digər trend isə - BMT-nin Uşaq Hüquqları Konvensiyası ruhunda - kriminallaşdırmadan yayınmaq və həbs üçün ailəyə əsaslanan və ya digər sosial alternativlər axtarmaqdır.

Mən ikinci yanaşmanı müzakirə edəcəyəm. Bu işdə məni yalnız BMT Konvensiyası deyil, həmçinin Uşaq Ombudsmanlarının Avropa Şəbəkəsi dəstəkləyir. 2003-cü il bəyanatında 21 milli ombudsman vurğulamışdır ki, qanun pozuntusuna yol vermiş uşaqlar hələ də insan hüquqları olan uşaqlardır.

Onlar təklif ediblər ki, cinayət məsuliyyəti yaşı azaldılmamalı, əksinə artırılmalıdır - getdikcə 18-ə çatmaq məqsədi ilə - və həmin yaş limitindən aşağıda olan yetkinlik yaşına çatmayan hüquq pozucuları ilə məşğul olan innovativ sistemlər onların təhsilinə, reinteqrasiya və reabilitasiyasına xüsusi diqqət yetirməlidir.

Bütün Avropa dövlətlərinin təsdiqlədiyi Uşaq Hüquqları Konvensiyası hökumətlərdən uşaqların cinayət hüququnu poza bilməyəcəyini hesab etdikləri minimal yaş həddinin təyin edilməsini istəyir. Müqavilə konkret hansı yaşda həddin qoyulmasını müəyyən etmir. Lakin Konvensiyanın həyata keçirilməsinə nəzarət edən Komitə bir sıra ölkələrdə aşağı yaş həddi ilə bağlı narahatlığını ifadə etmişdir. Əksər Avropa dövlətlərində uşaqlar 12-15 və ya 16 yaş arasında cinayətə məsul hesab edilir, lakin yeddi, səkkiz və on olan yaş hədləri də mövcuddur.

Uşaq Hüquqları Konvensiyasının mesajının uşaqların kriminallaşdırılmasından yayınmaq olmasına baxmayaraq, bu, o demək deyil ki, gənc cinayətkarlarla heç bir məsuliyyət daşımırmış kimi davranmaq lazımdır. Əksinə, gənc qanun pozucularının əməllərinə görə məsuliyyət daşıması və məsələn, səbəb olduqları zərərin aradan qaldırılmasında iştirak etmələri mühümdür.

Məsələ bu cür hallarda adi cinayət mühakiməsini hansı növ mexanizmin əvəz etməsidir. Prosedurlar qurbanlara dəymiş zərəri tanımalı və o, gənc cinayətkarları əməllərinin qəbul edilməz olmasını anlamağa məcbur etməlidir. Bu cür ayrı yuvenal mexanizm günahın tanınmasına və reabilitasiya sanksiyalarına yönəlməlidir.

Adi cinayət prosedurunun fərqini sanksiya prosesində müəyyən edirik. Yuvenal ədliyyədə cəza olmamalıdır. Məqsəd məsuliyyətin müəyyən edilməsi və eyni zamanda reinteqrasiyanın təşviq edilməsidir. Gənc qanun pozucusu dərs çıxarmalı və heç vaxt qanun pozuntusunu təkrarlamamalıdır.

Reallıqda bu asan deyil. O, innovativ və səmərəli icma sanksiyaları tələb edir. Prinsipcə, cinayətkarın valideyni və ya digər hüquqi qəyyum uşağın reabilitasiyası üçün cəlb olunmalıdır. Prosesin nə olmasından asılı olmayaraq uşağın ittihamlar və hətta apellyasiya şikayətinə etiraz etmək imkanı olmalıdır.

«Tənzimləmələr» üçün maraqlı proses Sloveniyada təqdim edilmişdir. Orada yetkinlik yaşına çatmayan təqsirləndirilən şəxsin işi ittihamçı, zərərçəkmiş şəxs və təqsirləndirilən şəxs tərəfindən razılaşdırılarsa vasitəçiyə verilə bilər. Daha sonra vasitəçi həm zərərçəkmiş şəxsin, həm də təqsirləndirilən şəxsin məmnun qalacağı və bununla da məhkəmə prosesindən yayınmağın mümkün olacağı tənzimləməyə nail olmağa çalışır.

Bir aspekti də qeyd etmək lazımdır: qanun pozuntularına operativ reaksiyasının əhəmiyyətini. Bu gün bir sıra Avropa ölkələrində problem olan gecikmiş prosedurlar yanlış əməlləri operativ kömək üçün çağırış kimi qiymətləndirilməli olan gənc qanun pozucularına gəldikdə xüsusilə, uğursuz olur. (...)

> *Avropa Şurasının İnsan Haqları üzrə Komissarı Tomas Hammarberq, Baş Prokurorların Konfransında nümayiş etdirilmiş «Yuvenal ədliyyənin insan hüquqları meyarı» təqdimatından bir parça, Moskva, 5-6 iyul 2006. Mənbə: http://www.coe.int/t/commissioner/*

# 8.2 Müəllimlər üçün ümumi məlumatlar

**Uşaq Hüquqları Konvensiyası**

*BMT-nin Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu il tarixində qəbul edilmişdir.*

## «Maddə 37

Dövlət Tərəfləri təmin etməlidir:

(a) Heç bir uşaq işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır. On səkkiz yaşından aşağı olan şəxslər tərəfindən törədilmiş cinayətlər üçün azad edilmə ehtimalı olmadan nə ölüm cəzası, nə də ömürlük həbs tətbiq edilməməlidir.

(b) Heç bir uşaq qanunsuz və ya özbaşına şəkildə öz azadlığından məhrum edilməməlidir. Uşağın həbsi, saxlanılması və ya azadlıqdan məhrum edilməsi qanunla uyğun olmalıdır və yalnız son çarə kimi və ən qısa vaxt müddəti üçün istifadə edilməlidir.

(c) Azadlıqdan məhrum edilmiş hər bir uşağa insani, insan ləyaqətinə hörmətlə və həmyaşıdlarının ehtiyaclarını nəzərə alan qaydada münasibət bəslənilməlidir. Məsələn, azadlıqdan məhrum edilmiş hər bir uşaq bunun uşağın marağında olması hesab edilirsə, valideynlərindən ayrılmalıdır və müstəsna hallar istisna olmaqla, yazışma və səfərlər vasitəsilə ailəsi ilə əlaqə saxlamaq hüququna malik olmalıdır.

(d) Azadlıqdan məhrum edilmiş hər bir uşaq hüquqi və digər müvafiq yardıma ani çıxış hüququna, həmçinin məhkəmə və ya digər səlahiyyətli, müstəqil və qərəzsiz orqan qarşısında məhrumetmə qanuniliyinə etiraz etmək və bu cür halla bağlı ani qərar hüququna sahib olmalıdır».

## «Maddə 40

(...) 3. İştirakçı dövlətlər xüsusilə, qanunu pozan, pozmaqda təqsirləndirilən, pozması qəbul edilən uşaqlara tətbiq edilən qanunlar, prosedurlar, orqanlar və institutların yaradılmasına yardım etməyə çalışmalıdır, xüsusən:

(a) Uşaqların cinayət qanunvericiliyini poza bilməyəcəyi hesab edilən minimum yaş həddinin müəyyən edilməsi;

(b) İnsan hüquqlarına və hüquqi təminatlara tam hörməti təmin etməklə, məhkəmə proseslərinə müraciət etmədən bu cür uşaqlar ilə məşğul olmaq üçün müvafiq və arzu olunan tədbirlər.

4. Qayğı, rəhbərlik və nəzarət əmrləri kimi müxtəlif tənzimləmələr; məsləhət; probasiya; himayədar qayğısı; təhsil və peşə hazırlığı proqramları və institusional qayğıya digər alternativlər kimi müxtəlif sərəncamlar uşaqlara onların rifahına uyğun və onların vəziyyətlərinə və cinayətinə mütənasib qaydada münasibət bəslənilməsini təmin etmək üçün əlçatan olmalıdır.

Mənbə: Rolf Gollob/Peter Krapf: *Uşaq hüquqlarının araşdırılması İbtidai məktəblər üçün dərs ardıcıllıqları*. DVT/İHT, V Cild Strasburq 2007, pp. 77ff.

Əlavə oxumaq üçün: Cyndi Banks, *Cinayət ədliyyəsi etikası*, Thousand Oaks, 2004. Fəsil 5-in, Cinayət Cəzasının Təklif Edilməsi, PDF versiyası http://www.sagepub.com ünvanında əlçatandır.

# BÖLMƏ 9
# Hökumət və siyasət

## Cəmiyyət necə idarə edilməlidir?



### 1.1. Kim məsuliyyət daşıyır?
**Ölkəni idarə etməyin ən yaxşı yolu nədir?**

### 1.2. Prezident olsaydınız
**Hökumət nə üçündür?**

### 1.3. Mən və mənim rolum
**Ölkə öz vətəndaşlarından nə gözləməlidir?**

### 1.4. Şagird parlamenti
**Məktəblər necə idarə edilməlidir?**

# BÖLMƏ 9: Hökumət və siyasət
# Cəmiyyət necə idarə edilməlidir?

Siyasət müxtəlif düşüncələr və maraqlara sahib olan insanlar cəmiyyətinin birgə həyatlarının necə təşkil olunması ilə bağlı ümumi qərarın əldə edildiyi prosesdir. Bu, əqidə və danışıqlar və yekun qərarın əldə olunması üçün bəzi növ mexanizmləri, məsələn, səsverməni nəzərdə tutur. Bu, güc və səlahiyyəti və məcburetmə elementini - kollektiv qərarlar bütövlükdə qrup üçün məcburi olarsa - nəzərdə tutur.

Buna görə də siyasət dövlət institutları və dövlət və onun vətəndaşları arasındakı əlaqə baxımından müəyyən edilir. Bu münasibət siyasi sistemin müxtəlif növləri çərçivəsində müxtəlif formalar alır, məsələn padşahlıqlar, demokratiya və totalitar rejimlər.

Demokratiyada vətəndaşlar siyasi bərabərlikdən yararlanır. Kollektiv qərarlar səsvermənin bəzi forması baxımından, yaxud vətəndaşların özləri tərəfindən və ya onların seçilmiş nümayəndələri tərəfindən həyata keçirilir. Lakin demokratik siyasət sadəcə, səsvermə ilə bağlı deyil. Bu, həmçinin ictimai əhəmiyyətli məsələlər barədə müzakirələr və debat, vətəndaşların səs vermək imkanları haqqındadır.

Demokratiyada mühüm məsələ dövlət institutlarının və vətəndaşların müvafiq öhdəliklərinin düzgün fəaliyyətidir. Digər məsələ isə demokratiya çərçivəsində fərdi müəssisələrin nə dərəcədə demokratik şəkildə idarə olunmasıdır (məsələn, məktəblər).

## Demokratik Vətəndaşlıq və İnsan Hüquqları üzrə təlim

Bu dərs silsiləsi vasitəsilə şagirdlər:

– hökumətin müxtəlif formaları və onların vətəndaşlar üçün təsirlərini anlayırlar;

– hökumətin məsuliyyətlərini və funksiyalarını və vətəndaşların müvafiq öhdəliklərini daha yaxşı anlayırlar;

– demokratik proseslərlə daha yaxından tanış olurlar;

– ölkələrində siyasi sistem ilə bağlı daha çox şey müəyyən edirlər.

Oxucu görəcək ki, növbəti dərs planlarında şagirdlərin öyrənməsini və anlamasını dəstəkləyəcək ev tapşırığı təklif edilir. İdeal olaraq, növbəti dərslər daha sonra şagirdlərin iştirakı ilə başlayır. Bu, vaxt aparır və sinifdə tez-tez təkrarlanma və ya izahata ehtiyacı göstərməklə, suallar yaradır və ya spontan müzakirələrə səbəb ola bilər. Vaxt çərçivəsinin şagirdlərin öyrənmə ehtiyacları və maraqları üçün bölməyə əlavə dərsin əlavə edilməsinə imkan verib-vermədiyinə qərar vermək müəllimdən asılıdır. Aydındır ki, bölmənin genişləndirilməsinə məhdudiyyətlər var, buna görə də alternativlər zəruridir. Vaxt çərçivəsi məhduddursa, müəllim yazı işininin bəzilərini və ya hamısını toplaya və rəy bildirə, bəzi hallarda şagirdlərin işini qiymətləndirə bilər. Şagirdlər həmçinin öz işlərini könüllü şəkildə təhvil verə bilərlər. Son olaraq, ev tapşırığı təkrar və ya test üçün hazırlıq kimi xidmət göstərə bilər. Prinsip məsələsi kimi müəllim hər zaman şagirdlərin ev tapşırığının funksiyasını nəzərdən keçirməli və onu növbəti dərs planlanmasına birləşdirib-birləşdirməməyə və necə birləşdirməyə qərar verməlidir.

Planlamanın bu növünün nümunəsi dördüncü dərsin təsvirində müzakirə edilir.

# BÖLMƏ 9: Hökumət və siyasət
# Cəmiyyət necə idarə edilməlidir?

| Dərsin başlığı | Məqsədlər | Şagird tapşırıqları | Resurslar | Metod |
|---|---|---|---|---|
| Dərs 1:<br>haqqında<br>öyrənirlər.<br>sisteminin | İnsan hüquqları<br>Şagirdlər ədalətliliyi<br>şagird üçün cüt işi, | Şagirdlər xəyali<br>barədə şagird<br>materialı 9.1-in<br>nüsxələri, bütün sinif<br>müzakirəsi, formal<br>debat. | hökumətin müxtəlif<br>formaları, cəmiyyətdə<br>düşünür.<br>kağız və qələmlər. | məsələn,<br>demokratiya<br>və diktatura,<br>hökumət<br>Hər bir<br>Hekayə, |
| Dərs 2:<br>izah edə bilirlər.<br>necə<br>xərclənməsinə | Prezident olsaydınız<br>Şagirdlər qərar<br>verirlər.<br>növünü | Şagirdlər hökumət<br>formalaşdırdıqlarını<br>Onlar nəzərdən<br>keçirirlər.<br>böyük kağız parçası,<br>təqdimatlar, kiçik iş<br>qrupu və bütün sinif<br>müzakirəsi. | hökumətin təsəvvür<br>edir nail olmaq<br>istədikləri 4-6<br>şagirddən ibarət<br>markerlər və vərəq. | funksiyalarını və<br>məsuliyyətlərini<br>və hökumət<br>pulunun sosial<br>idealların hər bir<br>qrup üçün<br>Plakatlar |
| Dərs 3:<br>öhdəlikləri<br>məsuliyyətlərinin | İnsan hüquqları<br>haqqında növlərini<br>ciddi yerinə | Şagirdlər öyrənirlər.<br>və onları yetirməyə<br>təşviq edəcəklərini<br>hər bir qrup üçün<br>(şagird materialı 9.2),<br>Təqdimatlar, bütün<br>sinif müzakirəsi. | demokratik<br>cəmiyyətdə<br>Şagirdlər öz<br>məsuliyyətlərini<br>nəzərdən keçirirlər.<br>müzakirə kartları<br>toplusu böyük vərəq<br>və markerlər.<br>bütün sinif müzakirəsi. | vətəndaşların<br>vətəndaşların<br>necə daha 4-6<br>nəfərdən ibarət |
| Dərs 4:<br>bu prosesdə<br>Şagirdlər ideal | Prezident olsaydınız<br>şagird orqanının<br>şagird parlamentinin<br>necə (şagird materialı<br>9.3) böyük vərəq<br>Təqdimatlar, kiçik<br>qrup işi və | məktəbin necə<br>rolu ilə fəaliyyət<br>göstərəcəyini və | idarə edilməli olması<br>bağlı meyar nəzərdən<br>keçirir.<br>4-6 şagirddən ibarət<br>və makerlər.<br>4-6 şagirddən<br>ibarət bütün sinif<br>müzakirəsi. | və müəyyən edə<br>bilərlər.<br>Hər bir şagird<br>üçün anket hər<br>bir qrup üçün |

# Dərs 1
# Kim məsuliyyət daşıyır?
### Ölkəni idarə etməyin ən yaxşı yolu nədir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər hökumətin müxtəlif formaları, məsələn, demokratiya və diktatura haqqında öyrənirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər xəyali cəmiyyətdə hökumət sisteminin ədalətliliyi barədə düşünür. |
| **Resurslar** | Hər bir şagird üçün şagird materialı 9.1-in nüsxələri, kağız və qələmlər. |
| **Metod** | Hekayə, cüt işi, bütün sinif müzakirəsi, formal debat. |

## Konseptual öyrənmə

Hökumətin formaları müxtəlif yollarla təsnifləndirilə bilər, məsələn, səlahiyyətin kimin əlində olması, səlahiyyətin insanlara necə verilməsi, suverenliyin harada olması və qaydanın necə tətbiq edilməsi baxımından. Təcrübədə əsas növlərə daxildir: monarxiya, teokratiya, tiranlıq və ya diktatura. Bunlar «ideal növlər» kimi düşünülməlidir, çünki reallıqda onlar eyni ölkədə birgə mövcud ola bilər - məsələn, parlament demokratiyası diktatura elementlərini ehtiva edə və ya hakimiyyətdə olan kral ilə birgə mövcud ola bilər.

# Dərs

Müəllim dərsə «Sikkal Krallığı» hekayəsini (şagird materialı 9.1) oxumaqla başlayır. Şagirdlərin hər birində hekayənin nüsxəsi var, buna görə də onlar müəllim onu oxuyan zaman izləyə bilirlər.

Müəllim hekayənin bir hissəsini oxumağı dayandırır və soruşur:

– Eşitdiklərinizdən sonra Sikkal həyatı ilə bağlı nə düşünürsünüz?

Hekayənin sonunda müəllim soruşmalıdır:

– İndi Sikkal həyatı ilə bağlı nə düşünürsünüz?

Müəllim şagirdləri cütlərə bölür və onlardan Sikkalda həyatın keyfiyyəti ilə bağlı düşünmələrini istəyir. Şagirdlərə Sikkalda yaşamağın müsbət və mənfi tərəflərini yazacaqları vərəq verilir.

Müəllim cütlərdən öz ideyalarını bütün sinfə təqdim etmələrini istəyir və hər kəsin görməsi üçün əsas məqamları yazır.

Daha sonra müəllim bütün sinifdən Sikkalın idarə olunması qaydasını düşünməyi istəyir.

– Sizcə, Sikkal ədalətli qaydada idarə edilir? Nəyə görə və ya nəyə görə yox?

– Əgər onun daha ədalətli şəkildə idarə edilə biləcəyini düşünürsünüzsə, hansı dəyişiklikləri edərdiniz?

Sonra müəllim sinifdən Sikkalın sakinləri olduqlarını təsəvvür etmələrini istəyir. Sinif debat üçün iki böyük qrupa bölünür: bir qrupdan ölkənin kral tərəfindən idarə edilməyə davam etməsinin lehinə; digərindən isə yalnız kralın deyil, bütün sakinlərin ölkənin idarə edilməsində söz haqqının olması ilə bağlı çıxış etmək istənilir. Müəllim qruplara düşünmək üçün bir neçə dəqiqə verir və onların debatda istifadə edə biləcəkləri arqumentləri yazır. İki müxtəlif qrup sinfin əks tərəflərində üz-üzə otuzdurulur və debat başlayır. Hər bir tərəfdən şagirdlər növbəli şəkildə öz fikirlərini bildirirlər - «danışan çubuqdan» yardım alırlar, yəni çubuq mikrofon kimi istifadə edilir.

Müəllim şagirdlərdən iki tərəfdən hansının ən yaxşı arqumentləri verməsi ilə bağlı düşüncələrini soruşur.

Şagirdlər indi qısa izahata hazırdırlar (induktiv yanaşma). Müəllim hökumətin beş növünün adını yazır və mümkün olan yerlərdə şagirdlərə istinad etməklə, onların fərqlərini izah edir:

– monarxiya;

– demokratiya;

– diktatura;

– teokratiya;

– anarxiya.

Dərs şagirdlərdən öz ölkələrindəki hökumət sistemini soruşmaqla bitir. Ev tapşırığı üçün şagirdlərdən bununla bağlı daha çox araşdırma etmələri və növbəti dərsdə sinfin qalanının biliyini yoxlamaq üçün 5-10 sualdan ibarət viktorina hazırlamaları istənilir.

# Dərs 2
# Prezident olsaydınız
## Hökumət nə üçündür?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər hökumətin funksiyalarını və məsuliyyətlərini izah edə bilirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər hökumət formalaşdırdıqlarını təsəvvür edir və hökumət pulunun necə xərclənməsinə qərar verirlər.<br>Onlar nail olmaq istədikləri sosial idealların növünü nəzərdən keçirirlər. |
| **Resurslar** | 4-6 şagirddən ibarət hər bir qrup üçün böyük kağız parçası, markerlər və vərəq. |
| **Metod** | Plakatlar, təqdimatlar, kiçik iş qrupu və bütün sinif müzakirəsi. |

## Konseptual öyrənmə

Demokratik cəmiyyətdə hökumətin vəzifəsi ümumi rifahı təşviq etməkdir. Bu, çoxluğun rifahından daha mühümdür. Bu, cəmiyyətin bütün üzvlərinə son fayda verməkdir. Bunun təcrübədə nə demək olması adətən müzakirə mövzusudur. Bir sıra müxtəlif - bəzən ziddiyyətli - sosial ideallar, məsələn, rifah, təhlükəsizlik, ədalət, sosial ahəng, insan hüquqları və ya tərəqqi təklif edilmişdir. Bunların aktual xərcləmə planlarında prioritetləşdirilməsi çətin ola bilər, xüsusilə, hökumət üçün əlçatan olan resurslar həmişə məhdud olduğu üçün.

# Dərs

Müəllim dərsə şagirdləri 4-6 nəfərdən ibarət qruplara bölməklə və hər bir qrupa böyük vərəq və markerlər verməklə başlayır.

Müəllim şagirdlərdən gələcəkdə bir məqamda yaşadıqlarını və ölkənin idarə edilməsinə məsul olduqlarını - başqa sözlə, hökumət olduqlarını təsəvvür etmələrini istəyir. Hökumət kimi onların xərcləmək üçün 6 milyard ABŞ dolları var. Müəllim bu rəqəmi ölkənin hökumətinin illik büdcəsinə uyğunlaşdıra bilər.

Qrupların tapşırığı növbəti ildə bu pulu necə xərcləyəcəklərinə qərar verməkdir. Qələm və markerlərdən istifadə etməklə hər bir qrup hökumət olaraq bu pulu necə xərcləyəcəyini izah edən plakat hazırlayır və öz ideyalarını müəyyənləşdirməklə sinfin qalanına təqdimat edir. Hər bir təqdimatın sonunda digər şagirdlərə qrupdan xərcləmə planları ilə bağlı sual vermək imkanı verilir.

Müəllim həmçinin yeni məlumatın təqdim edilməsi yolu kimi iqtisadiyyat və hökumətlərin fəaliyyət göstərmə qaydası ilə bağlı suallar verir, məsələn:

– Pulun bir hissəsini xarici borcu ödəmək üçün istifadə etmək haqqında düşünmüsünüzmü?

– Həmin pulun bir hissəsini iş yerləri yaratmaq üçün istifadə etməlisinizmi?

– Hökumətin təhsilə pul xərcləməsi nə qədər mühümdür?

Daha sonra müəllim siniflə birlikdə hər kəsin görə biləcəyi şəkildə onların fikrincə, hökumətin nəyə pul xərcləməli olması ilə bağlı bütün şeylərin siyahısını hazırlamaq üçün işləyir.

Sonra müəllim şagirdlərdən öz qruplarına qayıtmalarını istəyir və hər bir qrupa demokratik cəmiyyətdəki hökumətin nail olmağa çalışmalı olduğu sosial idealların siyahısını ehtiva edən vərəq verir.

– rifah;

– təhlükəsizlik;

– ədalət;

– sosial ahəng;

– insan hüquqları;

– tərəqqi.

Şagirdlər siyahıdakı idealları hər bir xərcləmə başlığı ilə hansı idealların əldə olunduğunu nəzərdən keçirməklə artıq qeyd etdikləri xərcləmə sahələri ilə uyğunlaşdırmağa çalışırlar.

Müəllim qruplardan öz ideyalarını bütün sinfə təqdim etmələrini istəyir və dərsi şagirdlərə sual verməklə tamamlayır:

– Sizcə, hökumətin daşımalı olduğu ən mühüm məsuliyyət nədir?

Ev tapşırığı üçün müəllim şagirdlərdən ölkələrində hökumət pulunun xərclənmə qaydalarını müəyyən etməyi istəyir. Onlar bunu TV izləməklə və ya qəzetə baxmaqla edə bilərlər. Şagirdlər dərsin əvvəlində müəyyən etdiklərini təqdim edir və şəxsi prioritetlərinin eyni olub-olmamasını nəzərdən keçirirlər.

# Dərs 3
# Mən və mənim rolum
## Ölkə öz vətəndaşlarından nə gözləməlidir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər demokratik cəmiyyətdə vətəndaşların öhdəlikləri haqqında öyrənirlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər vətəndaşların məsuliyyətlərinin növlərini və onları öz məsuliyyətlərini necə daha ciddi yerinə yetirməyə təşviq edəcəklərini nəzərdən keçirirlər. |
| **resurslar,** | 4-6 nəfərdən ibarət hər bir qrup üçün müzakirə kartları toplusu (şagird materialı 9.2), böyük vərəq və markerlər. |
| **Metod** | Təqdimatlar, kiçik qrup işi və bütün sinif müzakirəsi. |

## Məlumat qutusu

Demokratik cəmiyyətdə vətəndaşlara mülki hüquqlar, siyasi hüquqlar, mədəni hüquqlar və ətraf mühit hüquqlarının verilməsi gözlənilməlidir. Bu hüquqlar debat məsələsi olmalıdır. Buna görə də məsuliyyətlər bu insan hüquqları ilə yanaşı gedir. Bəzi insanlar düşünür ki, vətəndaşların yalnız bir məsuliyyəti var - qanuna riayət etmək. Digərləri düşünür ki, cəmiyyət vətəndaşların daha geniş məsuliyyət dairəsinin olmasını tələb edir.

# Dərs

Müəllim dərsə şagirdləri 4-6 nəfərdən ibarət qruplara bölməklə və hər bir qrupa müzakirə kartları toplusu (şagird materialı 9.2) verməklə başlayır. Hər bir kart təklif edilən vətəndaş öhdəliyini ehtiva edir.

Müəllim qruplardan kartları üç kateqoriyada sıralamalarını istəyir - kartda təklif edilən öhdəliyin tətbiq edilə bilməsindən asılı olaraq:

1. BÜTÜN vətəndaşlara;
2. BƏZİ vətəndaşlara və ya
3. HEÇ BİR vətəndaşa.

Müəllim şagirdlərdən bütün sinfə öz qərarlarını təqdim etmələrini və onlar arxasındakı düşüncələrini izah etmələrini istəyir.

Şagirdlər öz qruplarına geri qayıdır və onlara böyük vərəqlər və markerlər verilir. Müəllim qruplara deyir ki, onların tapşırığı «vətəndaşların bəyannaməsini» hazırlamaqdır. Onlar böyük vərəqlərini iki sütuna bölməlidir. Birinci sütunda onlar fikirlərincə, ölkələrindəki hər bir vətəndaşın hökumətdən nə gözləyə biləcəyini («HÜQUQLAR» başlığı altında) və ikinci sütunda vətəndaşların bunun əvəzində nə etməli olduqlarını («MƏSULİYYƏTLƏR» başlığı altında) yazmalıdırlar.

Tamamladıqdan sonra qruplar öz ideyalarını sinfin qalanına təqdim etməli və digər şagirdlərə onlara işləri ilə bağlı sual vermək imkanı verməlidirlər.

Son olaraq, müəllim bütün sinifdən soruşmalıdır:

– Sizcə, ölkənizdə vətəndaşlar bütün məsuliyyətlərini yerinə yetirirlərmi? Nəyə görə və ya nəyə görə yox?
– İnsanların vətəndaşlar kimi öz məsuliyyətlərini yerinə yetirməsini təşviq etmək üçün nələr edilməlidir?
– Sizcə, vətəndaşlar məsuliyyətlərini düzgün qaydada yerinə yetirmədikləri təqdirdə onların bəzi hüquqları əllərindən alınmalıdırmı? Nəyə görə və ya nəyə görə yox?

Ev tapşırığı üçün şagirdlər ailə və dostlarından vətəndaşın məsuliyyətlərinin nə olması ilə bağlı düşüncələrini soruşmaqla sorğu keçirməlidir. Onlar nəticələrini növbəti dərsin başlanğıcında sinfə təqdim etməlidirlər.

# Dərs 4
# Şagird parlamenti
## Məktəblər necə idarə edilməlidir?

| | |
|---|---|
| **Öyrənmənin məqsədi** | Şagirdlər məktəbin necə idarə edilməli olması və bu prosesdə şagird orqanının rolu ilə bağlı meyar müəyyən edə bilərlər. |
| **Şagird tapşırıqları** | Şagirdlər ideal şagird parlamentinin necə fəaliyyət göstərəcyini nəzərdən keçirir. |
| **Resurslar** | Hər bir şagird üçün anket (şagird materialı 9.3) və 4-6 şagirddən ibarət hər bir qrup üçün böyük vərəq və makerlər. |
| **Metod** | Təqdimatlar, fərdi və kiçik qrup işi və bütün sinif müzakirəsi. |

## Məlumat qutusu

Gənc insanlar da vətəndaşdırlar. Onların onlara və icmalarına təsir edən şeylərlə bağlı söz söyləmək hüququ var. Buna onların məktəbi daxildir. Şagirdlərə məktəblərinin idarə edilməsində söz haqqına sahib olmağa imkan verən mexanizmlər yalnız gənclərin bu hüquqdan istifadə etməsini təmin etməyə deyil, həmçinin onlara demokratik proseslər haqqında öyrənməyə kömək edir. Lakin bu mexanizmlərin nə olması müzakirə mövzusu ola bilər. Bəzi insanlar düşünür ki, hər bir məktəbin şəxsi şagird parlamentinin olması vacibdir, digərləri isə deyir ki, bu, zəruri deyil və şagirdlərin məktəblərinin idarə edilməsinə yardım etmələri üçün imkan yaratmağın digər yolları mövcuddur.

Dərs şagirdlərin ev tapşırığı kimi hazırladıqları tapıntılar ilə başlamalıdır. Materiallarının zənginliyindən və müzakirə zərurətindən asılı olaraq, vaxt çərçivəsi növbəti dərs ilə uzadıla bilər. Bu seçimlə bağlı məhdudiyyətlər mövcud olduğu üçün müəllim həmçinin şagirdlərinin işlərini toplaya və onlara yazılı rəy verə bilər. Müəllim əmin olmalıdır ki, şagirdlərin işinə diqqət göstərilir.

# Dərs

Şagirdlər dərsə ailələrinin və dostlarının vətəndaş məsuliyyətləri ilə bağlı düşüncələrini göstərən sorğuların nəticələrini təqdim etməklə başlayır. Şagirdlər öz nəticələrini müzakirə edirlər.

Müəllim şagirdlərin materiallarına istinad etməklə və məktəb şuralarının və ya məktəb parlamentlərinin nə dərəcədə yaxşı fəaliyyət göstərmələri ilə bağlı düşüncələri soruşmaqla yeni mövzunu təqdim edir. Əgər hal-hazırda məktəbdə şagird nümayəndəliyinin heç bir forması yoxdursa, müəllim onlardan bunun olduğu hər hansı məktəb tanıyıb-tanımadıqlarını və tanıyırlarsa, bunun hansı formada olduğunu soruşmalıdır.

Müəllim şagirdlərə deyir ki, onların tapşırığı ideal şagird parlamentini - yəni, məktəblərində şagird orqanının maraqlarını təmin edən demokratik qaydada seçilmiş şagirdlər qrupunu təsəvvür etməkdir.

Müəllim şagirdlərin özlərinin doldurduqları anket paylayır (şagird materialı 9.3).

Daha sonra müəllim şagirdləri 4-6 nəfərdən ibarət qruplara bölür. Şagirdlərin cavablarını anket ilə müqayisə etmələri və bir-birlərinə əlavə sual vermələri üçün bir az vaxtı olur. Sonra müəllim hər bir qrupa böyük vərəq və bir neçə marker verir. Qrupların tapşırığı ideal şagird parlamenti üçün konstitusiya hazırlamaqdır. Müəllim konstitusiyanın nə olduğunu izah etməli və şagird parlamentində əks etdirilməsi gözlənilən bəzi qaydaların nümunələrini verməlidir.

Qruplar tapşırığı tamamladıqdan sonra onlar işlərini sinfin qalanına təqdim edir və qaldırılmış problemləri nəzərdən keçirirlər, məsələn:

– Şagirdlərə, məktəb direktoruna və müəllimlərə nə qədər səlahiyyət verilməlidir?

– Məktəbin idarə edilməsinə təsir edən son sözü kim deməlidir?

– Məktəb demokratik cəmiyyət ola bilərmi?

Son olaraq, şagirdlər məktəb direktoruna təqdimat etməli və istərlərsə, şəxsi məktəb parlamentləri üçün bəzi konkret təkliflər edə bilərlər.

Ev tapşırığı üçün şagirdlər ailə və dostlarının sorğusunu həyata keçirməli və onlara bu sualları verməlidirlər:

– Sizcə, ölkədəki bütün məktəblərdə şagird parlamenti olmalıdır? Nəyə görə (nəyə görə yox)?

Şagirdlər sorğularının nəticələrini növbəti dərsin əvvəlində təqdim etməlidirlər.

# Şagird materialı 9.1
## Sikkal Krallığı

Sikkal dağın yüksəkliyində yerləşən ölkədir. Əsrlər boyu onun qalan dünya ilə çox az əlaqəsi olmuşdur.

Sikkalın yeganə kiçik krallıq olmasına baxmayaraq, sonralar o çox maraq cəlb etmişdir. Bunun səbəbi, cəmiyyətin orda qeyri-adi şəkildə təşkil olunması idi.

Əvvəla Sikkalda heç kim heç vaxt aclıq çəkməmişdir. Sikkal xalqı bütün ərzağını özü istehsal edir və onu ehtiyacı olan hər kəs ilə bölüşürdü. Hər bir ailə üçün mənzil icarə haqqı olmadan təmin edilirdi. Mənzilin ölçüsü ailədəki insanların sayından asılı idi. İstilik və yemək hazırlamaq üçün yanacaq ödənişsiz idi. Kimsə xəstələnən kimi həkim həmişə köməyə hazır olurdu. Hər kəsə hər altı aydan bir ödənişsiz tibbi yoxlama imkanı verilir və səhiyyə işçiləri müntəzəm olaraq yaşlı insanlara, uşaqlı ailələrə və əlavə diqqətə ehtiyacı olan hər kəsə baş çəkir.

Sikkalda həyatdakı yaxşı şeylər hər kəs üçün əlçatandır. Hər bir ailəyə hər il müxtəlif dəbdəbəli əşyalar, məsələn, ətir, mebel və ya ədviyyat üçün dəyişdikləri çek kitabı verilir. Çeklər dərhal istifadə edilə və ya xüsusi bir şey üçün bir müddət saxlanıla bilər.

Sikkal xalqı bütün bunları təşkil etməyə necə qadir olmuşdur? Hər kəsin xatırlaya bildiyi qədər, Sikkal kral ailəsi tərəfindən idarə edilmişdir. Cari kral III Kral Sikdir. O, hər bir iş növü üçün, məsələn, ərzaq yetişdirmək, evlər tikmək və ya səhiyyə yardımına ehtiyac olan işçilərin sayına qərar verir. Bu işləri görən insanlar beş yaşında seçilir və təlim üçün xüsusi məktəblərə göndərilir. Fermerlər kənd təsərrüfatı məktəbinə, ev tikənlər texiki məktəbə, səhiyyə işçiləri tibb məktəbinə və s. göndərilir. Əmək qabiliyyətli yaşında olan hər kəs Kral Sik tərəfindən onun kral saraylarından birində işə götürülür.

Sikkal ilə bağlı ən heyrətamiz şey orada pulun olmamasıdır. Heç kəsin ödəniş almağa ehtiyacı yoxdur, çünki hər kəs artıq ehtiyacı olan hər şeyə sahibdir!

Özünüzdən soruşa bilərsiniz, Sikkalda kimsə bu tənzimləmələrdən nə vaxtsa narazı olubmu. Əslində bu, çox nadir hallarda baş verir. Şikayət edən çox az insanın qeydinə təhlükəsiz psixi xəstəxanalarda qalırlar. Doğrudan da, bu cür cəmiyyətdəki həyatdan şikayət etmək üçün dəli olmaq lazımdır, elə deyilmi?

# Şagird materialı 9.2
## Müzakirə kartları

| | |
|---|---|
| **Vergi ödəyin** | **Siyasi partiyanın üzvü olun** |
| **Ölkənizi müdafiə etmək üçün mübarizə aparın** | **Seçkilərdə səs verin** |
| **Polisə cinayət barədə məlumat verin** | **Ailənizi dəstəkləyin** |
| **Qanuna riayət edin** | **Qonşularınıza kömək edin** |
| **Təndiq edilən zaman ölkənizi müdafiə edin** | **Başqa nəsə... ?** |

# Şagird materialı 9.3
## Anket

İdeal şagird parlamentinizdə:

1. Neçə nəfər şagird təmsilçi olacaq?
2. Təmsilçilər necə seçiləcək?
3. Şagird parlamenti hansı sıxlıqda görüşəcək?
4. Şagird parlamenti harada görüşəcək?
5. Müəllimlər və ya valideynlər necə cəlb olunmalıdır?
6. Şagird parlamentinə hansı məsələləri müzakirə etməyə icazə verilir və hansıları yox?
7. Şagird parlamentinə hansı qərarları qəbul etməyə icazə verilir və hansıları yox?

# Sales agents for publications of the Council of Europe
# Agents de vente des publications du Conseil de l'Europe

**BELGIUM/BELGIQUE**
La Librairie Européenne -
The European Bookshop
Rue de l'Orme, 1
BE-1040 BRUXELLES
Tel.: + 32 (0)2 231 04 35
Fax: + 32 (0)2 735 08 60
E-mail: info@libeurop.eu
http://www.libeurop.be

Jean De Lannoy/DL Services
c/o Michot Warehouses
Bergense steenweg 77
Chaussée de Mons
BE-1600 SINT PIETERS LEEUW
Fax: + 32 (0)2 706 52 27
E-mail: jean.de.lannoy@dl-servi.com
http://www.jean-de-lannoy.be

**BOSNIA AND HERZEGOVINA/ BOSNIE-HERZÉGOVINE**
Robert's Plus d.o.o.
Marka Maruliça 2/V
BA-71000 SARAJEVO
Tel.: + 387 33 640 818
Fax: + 387 33 640 818
E-mail: robertsplus@bih.net.ba

**CANADA**
Renouf Publishing Co. Ltd.
22-1010 Polytek Street
CDN-OTTAWA, ONT K1J 9J1
Tel.: + 1 613 745 2665
Fax: + 1 613 745 7660
Toll-Free Tel.: (866) 767-6766
E-mail: order.dept@renoufbooks.com
http://www.renoufbooks.com

**CROATIA/CROATIE**
Robert's Plus d.o.o.
Marasoviçeva 67
HR-21000 SPLIT
Tel.: + 385 21 315 800, 801, 802, 803
Fax: + 385 21 315 804
E-mail: robertsplus@robertsplus.hr

**CZECH REPUBLIC/ RÉPUBLIQUE TCHÈQUE**
Suweco CZ, s.r.o.
Klecakova 347
CZ-180 21 PRAHA 9
Tel.: + 420 2 424 59 204
Fax: + 420 2 848 21 646
E-mail: import@suweco.cz
http://www.suweco.cz

**DENMARK/DANEMARK**
GAD
Vimmelskaftet 32
DK-1161 KØBENHAVN K
Tel.: + 45 77 66 60 00
Fax: + 45 77 66 60 01
E-mail: reception@gad.dk
http://www.gad.dk

**FINLAND/FINLANDE**
Akateeminen Kirjakauppa
PO Box 128
Keskuskatu 1
FI-00100 HELSINKI
Tel.: + 358 (0)9 121 4430
Fax: + 358 (0)9 121 4242
E-mail: akatilaus@akateeminen.com
http://www.akateeminen.com

**FRANCE**
Please contact directly /
Merci de contacter directement
Council of Europe Publishing
Éditions du Conseil de l'Europe
F-67075 STRASBOURG Cedex
Tel.: + 33 (0)3 88 41 25 81
Fax: + 33 (0)3 88 41 39 10
E-mail: publishing@coe.int
http://book.coe.int

Librairie Kléber
1, rue des Francs-Bourgeois
F-67000 STRASBOURG
Tel.: + 33 (0)3 88 15 78 88
Fax: + 33 (0)3 88 15 78 80
E-mail: librairie-kleber@coe.int
http://www.librairie-kleber.com

**GREECE/GRÈCE**
Librairie Kauffmann s.a.
Stadiou 28
GR-105 64 ATHINAI
Tel.: + 30 210 32 55 321
Fax.: + 30 210 32 30 320
E-mail: ord@otenet.gr
http://www.kauffmann.gr

**HUNGARY/HONGRIE**
Euro Info Service
Pannónia u. 58.
PF. 1039
HU-1136 BUDAPEST
Tel.: + 36 1 329 2170
Fax: + 36 1 349 2053
E-mail: euroinfo@euroinfo.hu
http://www.euroinfo.hu

**ITALY/ITALIE**
Licosa SpA
Via Duca di Calabria, 1/1
IT-50125 FIRENZE
Tel.: + 39 0556 483215
Fax: + 39 0556 41257
E-mail: licosa@licosa.com
http://www.licosa.com

**NORWAY/NORVÈGE**
Akademika
Postboks 84 Blindern
NO-0314 OSLO
Tel.: + 47 2 218 8100
Fax: + 47 2 218 8103
E-mail: support@akademika.no
http://www.akademika.no

**POLAND/POLOGNE**
Ars Polona JSC
25 Obroncow Street
PL-03-933 WARSZAWA
Tel.: + 48 (0)22 509 86 00
Fax: + 48 (0)22 509 86 10
E-mail: arspolona@arspolona.com.pl
http://www.arspolona.com.pl

**PORTUGAL**
Marka Lda
Rua dos Correeiros 61-3
PT-1100-162 LISBOA
Tel: 351 21 3224040
Fax: 351 21 3224044
E mail: apoio.clientes@marka.pt
www.marka.pt

**RUSSIAN FEDERATION/ FÉDÉRATION DE RUSSIE**
Ves Mir
17b, Butlerova ul. - Office 338
RU-117342 MOSCOW
Tel.: + 7 495 739 0971
Fax: + 7 495 739 0971
E-mail: orders@vesmirbooks.ru
http://www.vesmirbooks.ru

**SWITZERLAND/SUISSE**
Planetis Sàrl
16, chemin des Pins
CH-1273 ARZIER
Tel.: + 41 22 366 51 77
Fax: + 41 22 366 51 78
E-mail: info@planetis.ch

**TAIWAN**
Tycoon Information Inc.
5th Floor, No. 500, Chang-Chun Road
Taipei, Taiwan
Tel.: 886-2-8712 8886
Fax: 886-2-8712 4747, 8712 4777
E-mail: info@tycoon-info.com.tw
orders@tycoon-info.com.tw

**UNITED KINGDOM/ROYAUME-UNI**
The Stationery Office Ltd
PO Box 29
GB-NORWICH NR3 1GN
Tel.: + 44 (0)870 600 5522
Fax: + 44 (0)870 600 5533
E-mail: book.enquiries@tso.co.uk
http://www.tsoshop.co.uk

**UNITED STATES and CANADA/ ÉTATS-UNIS et CANADA**
Manhattan Publishing Co
670 White Plains Road
USA-10583 SCARSDALE, NY
Tel: + 1 914 472 4650
Fax: + 1 914 472 4316
E-mail: coe@manhattanpublishing.com
http://www.manhattanpublishing.com

**Council of Europe Publishing/Éditions du Conseil de l'Europe**
F-67075 STRASBOURG Cedex
Tel.: + 33 (0)3 88 41 25 81 – Fax: + 33 (0)3 88 41 39 10 – E-mail: publishing@coe.int – Website: http://book.coe.int

Prems 023417

Bu Demokratik Vətəndaşlıq üzrə Təhsil (DVT) və İnsan Hüquqları üzrə Təhsil (İHT) müəllimləri üçün vəsaitdir, həmçinin DVT/İHT dərsliklərinin redaktorları və proqram hazırlayanları üçündür. Doqquz tədris bölməsinin təxminən dörd dərsindən hər biri DVT/İHT-nin əsas anlayışlarına diqqət yetirir. Dərs mərhələli təlimatlar verməyi planlaşdırır və şagird materiallarını və müəllimlər üçün ümumi məlumatları ehtiva edir. Beləliklə, vəsait müəllimlik peşəsində təlim alan və ya başlayanlar üçün və DVT/İHT sahəsində müəllimlik təlimi alan müəllimlər üçün uyğundur. Təcrübəli müəllimlər də bu ideyalar və materiallardan istifadə edə bilərlər. Bu vəsait ümumi orta təhsil səviyyəsi üçün illik proqramı əhatə edir. Lakin hər bir mövzu özlüyündə tam olduğu üçün vəsaitin seçilmiş hissələrindən də istifadə etmək mümkündür.

DVT/İHT-nin obyekti demokratik cəmiyyətdə iştirak etmək istəyən və iştirak edə bilən fəal vətəndaş tərbiyə etməkdir. Buna görə də DVT/İHT təcrübəyə və tapşırığa əsaslanan öyrənməni xüsusilə vurğulayır. Məktəb ictimaiyyəti gənclərin demokratik qərarların qəbul edilməsi prosesində necə iştirak edə biləcəklərini və erkən yaşda üzərlərinə necə məsuliyyət götürə biləcəklərini öyrənə bildikləri əsl təcrübə sahəsi kimi düşünülmüşdür. DVT/İHT-nin əsas anlayışları ömürboyu öyrənmə vasitələri kimi öyrədilir.

Bu, altı silsilədən III cilddir.

| | |
|---|---|
| DVT/İHT I Cild: | Demokratiya üzrə təhsil: Müəllimlər üçün demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsillə bağlı ümumi materiallar |
| DVT/İHT II Cild: | Demokratiyada böyümək: Demokratik vətəndaşlıq və insan hüquqları üzrə təhsillə bağlı ibtidai sinif üçün dərs planları |
| DVT/İHT III Cild: | Demokratiyada yaşamaq: DVT/İHT Orta təhsil səviyyəsi üçün dərs planları |
| DVT/İHT IV Cild: | Demokratiyada iştirak etmək: Demokratik vətəndaşlıq və insan hüquqları üzrə orta təhsil səviyyəsi üçün dərs planları |
| DVT/İHT V Cild: | Uşaqların hüquqlarının araşdırılması: insan hüquqları üzrə təhsil üçün modellər toplusu. |
| DVT/İHT VI: | Cildinin ibtidai təhsil səviyyəsi üçün doqquz qısa layihə. Demokratiyanın tədrisi: demokratik vətəndaşlıq və |

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

**www.coe.int**

*Avropa Şurası bütün Avropa qitəsini əhatə edən 47 üzv dövlətdən ibarətdir. O, Avropa İnsan Hüquqları Konvensiyası və fərdlərin qorunması haqqında digər müvafiq sənədlər əsasında ümumi demokratik və hüquqi prinsipləri inkişaf etdirmək üçün çalışır. İkinci Dünya müharibəsindən sonra, 1949-cu ildə təsis edildikdən bəri, Avropa Şurası barışıq rəmzinə çevrilmişdir.*

**http://book.coe.int**
Avropa Şurası Nəşriyyatı